*Azərbaycanı əbədi müstəqilliyə qovuşduran*
***HEYDƏR ƏLİYEV** şəxsiyyətinə ithaf edirəm*

***Dilarə Seyidzadə***

# Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar

**Bakı - 1998**

**Azərbaycan Respublikası «Kitab» cəmiyyəti**

**Redaktor Asəf Həsənov**

XIX əsrin sonu - XX əsrin əvvəlləri Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin mühüm dövrlərindən biridir. İslahatlardan sonrakı çar Rusiyasında baş verən əsaslı ictimai-siyasi və iqtisadi dəyişikliklər məcrasında Azərbaycanda əmələ gəlmiş sahibkarların görkəmli nümayəndələri, onların ideoloqları və ziyalılar bütün imkanlardan istifadə edərək xalqın milli mənlik şüurunun uyanması, maariflənməsi, siyasi mədəniyyət səviyyəsinin yüksəlməsi, vətəndaşlıq hüquqlarından tam həcmdə istifadə etməsi üçün mübarizəyə başçılıq etdilər. Hər cür çətinliklər, məhdudiyyətlər şəraitində deputat seçilmiş Azərbaycan nümayəndələri Rusiyanın ali qanunvericilik orqanı olan Dövlət Dumasının tribunasından xalqımızın haqq səsini bütün imperiyaya çatdırdılar.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına doğru aparan dövrün tədqiq olunduğu bu kitabda əsrin əvvəllərində Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərin geniş mənzərəsi öz əksini tapmış, mükəmməl təhlil olunmuşdur.

Kitab tarixçilər, tədqiqatçılar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

The end of XIX, beginning of XX c. is one of the important periods in the struggle of Azerbaijani people for their independence. Outstanding representatives of enterpreneurs and their ideologists appeared in Azerbaijan on the background of social-political and economic changes of post-reform tsarist Russia, as well as local intelligentsia using all the possibilities headed the struggle to strengthen national self-consciousness of people, to educate them, to raise their level of political culture and to enjoy fully civil rights. Having been elected in the atmosphere of difficulties and restrictions, Azerbaijani members of Russian Supreme Legislative institution, State Duma extended the true message of Azerbaijan to all Empire.

This book describing the period of creation of the first democratic Republic, Azerbaijan Khalg Chumhuriyyeti investigates thoroughly social-political processes of the beginning of century in Azerbaijan.

The book is designed for historians, researchers, students and wide readers' masses.

# GİRİŞ

XIX əsrin əvvəllərindən müstəmləkə əsarəti altında yaşamış Azərbaycan xalqı yalnız bizim əsrin sonunda öz mübarizəsinin məntiqi nəticəsi kimi dövlət müstəqilliyinə nail oldu. Məhz buna görə də xalqımızın suverenlik yolu ilə inamla addımladığı indiki zamanda əsrimizin əvvəllərindən canlanmağa başlamış milli azadlıq hərəkatının, müstəqilliyimizə aparan yolların tarixi təcrübəsinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Əsrimizin əvvəllərində Rusiyada baş vermiş sosial toqquşmalar cəmiyyətdə siyasi qüvvələrin bir-birindən aralanması prosesini sürətləndirdi, bütün ictimai qüvvələri hərəkətə gətirdi. Rus-yapon müharibəsində çarizmin məğlubiyyəti, 1905-ci ildə xalq kütlələrinin geniş miqyaslı çıxışları, cəmiyyətin sosial cəhətdən yuxarı təbəqələrində müxalifət əhval-ruhiyyəsinin artması sübut edirdi ki, mütləqiyyət rejiminin əvvəlki, "xalis" şəkildə mövcudluğu artıq mümkün deyil.

İmperiyanın milli ucqarlarında, o cümlədən də Azərbaycanda azadlıq hərəkatı genişlənirdi. Hüquqsuzluq şəraiti yaratmış, hər cür azadfikirlilik və milli dirçəliş təzahürlərinə görə amansız təqiblər həyata keçirən çarizmin müstəmləkə siyasəti Azərbaycandakı böhranı dərinləşdirirdi.

Azərbaycanın milli-azadlıq hərəkatının liderləri müstəmləkə əsarətinə qarşı çıxaraq milli bərabərsizliyin ləğvinə, Qafqazda federativ quruluşa çağırır, eyni zamanda hər bir regiona özünüidarəetmə hüququ verilməsi ideyasını müdafiə edirdilər. Onlar mədəni-maarif sahəsində müstəqillik tələb edir, ana dilinin sərbəst inkişafı, ana dilində təlim keçmək hüququ uğrunda mübarizə aparırdılar.

Çarizmin müstəmləkə siyasəti, Azərbaycan ziyalılarının məruz qaldıqları iqtisadi və siyasi məhdudiyyətlər onlarda müxalifət əhval-ruhiyyəsinin güclənməsi və ziyalıların öz millətindən olan zəhmətkeşlərlə birləşməsi üçün zəmin yaradırdı. Azərbaycan sahibkarları, onların ideoloqları çar mütləqiyyətinin vəd etdiyi islahatlar yolu ilə öz tələblərinin yerinə yetirilməsinə nail olmaq niyyətində idilər.

Öz mənafelərinin qorunmasında siyasi cəhətdən formalaşmamış Azərbaycan sahibkarları XIX əsrin axırlarında - XX əsrin əvvəllərinin ilk illərində petisiyalar və ərizələr tərtib edib verməklə silk hüquqlarına, rus sahibkarları və mülkədarları ilə bərabər hüquqlara nail olmağa çalışırdılar.

Coşğun 1905-ci ilin artıq lap əvvəlindən Azərbaycan sahibkarları siyasi və ideoloji cəhətdən fəallaşaraq öz liderlərinin və ideoloqlarının simasında siyasi meydana çıxıb mənafelərini və tələblərini ifadə edirdilər. Milli sahibkarların siyasi xəttinin özünəməxsus və kifayət qədər mühüm əlamətləri olsa da, bütövlükdə Rusiya sahibkarlarının siyasətinin ümumi meylləri onlara da xas idi.

XX əsrin əvvəllərində Azərbaycan sahibkarlarının keçdikləri yolun təhlili bu təbəqənin sosial və siyasi simasını səciyyələndirməyə, ölkədə baş verən ictimai-siyasi hadisələrə münasibətini və bu hadisələrdə iştirakını açıb göstərməyə, azadlıq hərəkatında rolunu müəyyən etməyə imkan verir.

Azərbaycan sahibkarlarının sosial proseslərin kəskinləşməsi dövründə formalaşmış siyasi əqidəsi siyasi partiyaların və təşkilatların proqram sənədlərində, oktyabrdan əvvəlki bütün dövr ərzində onların nümayəndələrinin və ideoloqlarının çıxışlarında öz əksini tapmış və Rusiyanın Dövlət Dumasında Azərbaycan deputatlarının fəaliyyətində xüsusilə açıq şəkildə nümayiş olunmuşdur. Azərbaycan deputatları çoxsaylı qanun layihələrinin, sorğuların hazırlanmasında və tərtibində, Dumada və onun komissiyalarında qaldırılan

məsələlərin müzakirəsində iştirak edərək Rusiyada parlamentarizmin yaranmasına və inkişafına öz töhfələrini vermişlər.

Kitabda Azərbaycan tarixi elmində ilk dəfə olaraq deputatların fəaliyyəti nəzərdən keçirilir, onların Duma tribunasından çıxışları təhlil olunur, Rusiya parlamentinin bütün müsəlman deputatları ilə səyləri birləşdirmək cəhdləri və kadetlərə bağladıqları ümidlər işıqlandırılır. Lakin onların bütün səyləri əbəs idi - çarizm, Duma onların tələblərini yerinə yetirmək, onlara bərabər hüquqlar, müvafiq imtiyazlar vermək, hüquq məhdudiyyətlərini ləğv etmək və s. üçün heç bir tədbir görmədi. Köhnə metodlarla diyarı idarə etməkdə getdikcə daha çox çətinlik çəkən yerli çar idarəsinin "acizanə məktubları" da çara təsir göstərə bilmədi. O, özgə xalqlara münasibətdə öz ana xəttindən zərrə qədər də olsa kənara çıxmırdı - heç bir hüquq, heç bir imtiyaz verilməməli idi. Beləliklə, Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələri müəyyən siyasi təcrid şəraitində idilər və qarşıya qoyduqları məqsədə - Rusiya imperiyası çərçivəsində hüquq məhdudiyyətlərinin ləğvinə nail ola bilmədilər. Təkcə öz imtiyazları uğrunda deyil, həm də milli inkişaf azadlığı uğrunda onların mübarizəsinin əsas forma və metodları çara, yerli çar hakimiyyət orqanlarına müraciətlərdən, xahişlərdən ibarət idi.

Azadlıq hərəkatının böyük yüksəlişi dövrü Azərbaycan xalqına istedadlı, yüksək peşəkar ictimai-siyasi xadimlərin parlaq bir dəstəsini bəxş etdi. Onların həyat amalı millətin mənafeyini, azadlığını və müstəqilliyini müdafiə etmək idi. Amansız siyasi və iqtisadi hüquqsuzluq şəraitində Rusiyanın ali nümayəndəli orqanının yüksək tribunasından ilk dəfə olaraq çıxış edib öz sözünü demək imkanı qazanmış Azərbaycan ideoloqları öz xalqının ehtiyac və ümidlərini ardıcıl surətdə və məqsədyönlü şəkildə imperiyanın hər bir sakininə çatdırmağa çalışırdılar. Bəzən hətta şəxsiyyəti alçaltma və təhqir forması alan heç bir əngəl, heç bir maneə onların qarşısını kəsə bilmədi, onları tutduqları yoldan çəkindirmədi.

Rusiyanın Dövlət Dumasındakı fəaliyyət prosesində Azərbaycan deputatlarının topladıqları təcrübə gələcəkdə onlara cəmiyyətin bütün mütərəqqi qüvvələrinin səylərini birləşdirərək Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa, onun rəhbər orqanlarına başçılıq etməyə və müstəqil dövlətçiliyin yaradılmasına başlamağa imkan verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanda ilk demokratik respublikanın qurulmasında Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin və onların silahdaşlarının böyük xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır"[1].

[1] H.Ə.Əliyev. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz və sarsılmazdır. "Azərbaycan" qəzeti, 28 may 1997-ci il.

# I FƏSİL

## Azərbaycan XIX - XX əsrlərin qovuşuğunda

### §1. Çarizm siyasəti və Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi vəziyyət

Rusiya imperiyasının işğal etdiyi əyalət olan Azərbaycan siyasi, dini və milli əsarətin bütün əzablarına məruz qalmışdı. İmperiyanın qalan bütün qeyri-rus əhalisi kimi Azərbaycanın da əhalisinə alçaldığı "özgə xalq" damğası vurulmuşdu. Azərbaycanlılar müsəlman, "qeyri-xristian" olduqlarına görə həyatın bütün sahələrində hüquq məhdudiyyətlərinə məruz qalırdılar. Çarizm ictimai-siyasi və iqtisadi sahələrdə hər hansı bir müstəqillik təzahürünə hər cür əngəllər törədirdi.

Azərbaycanda yaşayan yerli əhaliyə, azərbaycanlılara münasibətdə çarizmin siyasəti heç də birdən-birə formalaşmamışdı. Lakin bu regionu fəth edib onu imperiyaya birləşdirmək meyli çoxdan mövcud idi. Bu təkcə Rusiyanın coğrafi vəziyyətindən, Orta və Yaxın Şərqdə siyasi məqsədlərindən deyil, həm də iqtisadi mənafelərindən irəli gəlirdi. I Pyotr Xəzər dənizinin sahillərində bərqərar olmağa, İranın Zaqafqaziyada hökmranlığına son qoymağa, bu ərazinin Osmanlı imperiyası tərəfindən tutulmasının qarşısını almağa çalışaraq XVIII əsrin 20-ci illərində məşhur "Xəzər" yürüşünə başladı. Lakin o dövrdə Qafqaz uğrunda müharibə Rusiyaya sərfəli deyildi və bu cəhdlər heç bir şey vermədi.

Çar Rusiyasının siyasi xəttində dəyişikliklər XIX əsrin əvvəllərində baş verdi. 1803-cü ildə ərazisi böyük hərbi-strateji əhəmiyyətə malik olan Car-Balakən camaatı tabe etdirildi. 1804-cü ildə Gəncə müdafiəçilərinin müqavimətini qırmaq mümkün oldu, 1805-ci ildə isə əzəli Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzur işğal edildi. Bu hadisələr Qafqaz uğrunda Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin başlanmasına səbəb oldu. Bu müharibələr nəticəsində isə Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycanın şimal hissəsi Rusiya imperiyasının tərkibinə daxil edildi.

Rusiya tərəfindən Azərbaycanın işğalının nəticələri heç də birmənalı olmadı. Bu tarixi hadisənin Azərbaycan xalqı üçün müsbət əhəmiyyəti ondan ibarət idi ki, nəhayət xarici istilaların təhlükəsi aradan qaldırıldı. Diyarda həyatın müəyyən dərəcədə sabitləşməsi ticarətin və sənətkarlığın canlanmasına, şəhərlərin artmasına kömək etdi. Əyalətlər arasında daxili gömrük maneələrinin ləğv edilməsi, Azərbaycanda vahid pul sisteminin, həmçinin bütün ölkə üçün ümumi olan ölçü və çəki sisteminin tətbiqi, Rusiyanın quberniyaları ilə möhkəm iqtisadi əlaqələrin yaradılması, kapitalist münasibətlərinin təşəkkülü Azərbaycanın Ümumrusiya bazarına, onun vasitəsi ilə dünya ticarət dövriyyəsinə qoşulmasını şərtləndirirdi.

Lakin bu hadisənin mənfi nəticələri Azərbaycan xalqı üçün daha ağır və əzablı idi. Rusiya tərəfindən işğal nəticəsində Azərbaycanda müstəmləkə rejimi quruldu, Azərbaycan xalqı zorakılıqla iki hissəyə bölündü: onun böyük hissəsi İran Azərbaycanında, kiçik hissəsi isə Qafqaz Azərbaycanında (onu coğrafi dildə Şimali Azərbaycan da adlandırmağa başladılar) qaldı. Azərbaycan dövlətçiliyinin inkişafı demək olar yüz il ləngidildi, onun ərazi bütövlüyü pozuldu, torpaqlarının ayrı-ayrı hissələri müxtəlif quberniyaların və vilayətlərin tərkibinə qatıldı ki, bunların da sərhədlərini çarizm vaxtaşırı dəyişdirirdi. Tabe etdirilmiş Azərbaycan xalqına, həmçinin də başqa müsəlman xalqlarına münasibətdə Rusiya mütləqiyyətinin siyasətində ayrı-seçkiliyə yol verilirdi. Azərbaycanlıların hüquqları hətta başqa ucqarların (məsələn, Gürcüstanın, Ermənistanın) xalqlarının hüquqlarından da xeyli məhdud idi, çarizmin köçürmə kampaniyası isə regionun etnik mənzərəsini əsaslı şəkildə dəyişdirmişdi.

Çarizm Azərbaycana Rusiyanın xammal mənbəyi kimi baxaraq yalnız özünün inkişaf etməkdə olan sənayesi üçün zəruri olan sahələrə münasibətdə proteksionist xətt yeridirdi. Lakin XIX əsrin 60-70-ci illərində çar hökumətinin ölkənin sosial-iqtisadi inkişaf tələbatını nəzərə alaraq Azərbaycanda keçirdiyi dəyişikliklər məhsuldar qüvvələri xeyli dərəcədə azadlığa çıxardı, yeni istehsal münasibətlərinin intensiv inkişafına kömək etdi. Vahid Ümumrusiya bazarının təşəkkülü əhalinin sosial strukturunda ciddi dəyişikliklər doğurdu. Əlverişli iqtisadi və ictimai şərait işgüzar adamların təşəbbüs və zirəklik göstərməsi üçün zəmin yaratdı.

İctimai-iqtisadi həyat səhnəsinə müxtəlif zümrələr arasında sahibkarlar və muzdlu işçilər kimi yeni zümrələr çıxırdı. Onların formalaşmasının xüsusiyyəti bundan ibarət idi ki, müstəmləkə rejimi şəraitində onların nə lazımi səviyyədə təhsili, nə sənaye vərdişləri, nə də hər hansı iri kapitalı var idi. Onların hətta mənafeləri də qanunvericilik tərəfindən qorunmurdu. Bu zümrələrin Azərbaycanda sərbəst inkişafı yolunda süni maneələr yaradılırdı. Bu, müxtəlif millətlərdən olan işçilərin əməyinin qeyri-bərabər ödənilməsi kimi müstəmləkə prinsipində də, milli sahibkarların haqiqətən çox böyük səylər hesabına aradan qaldırmalı olduqları güclü sədlərin mövcudluğunda da özünü təzahür edirdi.

Öz inkişafı nəticəsində ölkənin mərkəzi quberniyalarında Rusiya sahibkarlarının müəssisələri ilə rəqabətə girə biləcək sahələrdə milli qüvvələrin sahibkarlıq fəaliyyəti son dərəcə məhdudlaşdırılırdı. Hökumət qabaqcıl və mənfəətli təsərrüfat sahəsinə - neft sənayesinə rus kapitalının və xarici kapitalın axınını xüsusən təşviq edirdi. Onun nümayəndələri neft hasilatı və emalı texnikasının yaxşılaşdırılmasının, neft məhsullarının daşınması vasitələrinin təkmilləşdirilməsinin və beynəlxalq bazarda Bakı neftinin mövqeyinin möhkəmləndirilməsinin obyektiv nəticələri ilə yanaşı Azərbaycanın tükənməz yataqlarını yırtıcı şəkildə istismar edirdilər. Onlar külli miqdarda mənfəət götürərək Azərbaycanın çox zəngin yeraltı sərvətlərinin işlənməsi perspektivləri

barədə az düşünürdülər. Emal sənayesi müəssisələri yaradılması sahəsində göstərilən hər cür cəhdlərin qarşısında ciddi sədlər çəkilirdi. Pambıqtəmizləmə sənayesinin yaradılması, H.Z.Tağıyevin Qafqazda ilk və ən iri toxuculuq fabrikinin tikintisi tarixi buna sübutdur. 1897-ci ildə H.Z.Tağıyev çar idarələrinə müraciət edərək Bakıda lifli maddələrin emalı üzrə səhmdar cəmiyyəti yaratmağa icazə istəmişdi. Əvvəlcə ona icazə vermişdilər, çünki Qafqazda mülki işlər üzrə baş rəisin maliyyə nazirinə vəsatətində yazdığı kimi, "Bakı qubernatorunun bildirdiyinə görə, qeyd olunan cəmiyyətin müəssisəsi çox faydalıdır və ticarət baxımından böyük əhəmiyyətə malikdir, sahibkar Tağıyevin mötəbər sima olması isə tamamilə uğurlu nəticələr vəd edir".[2] Lakin tezliklə iş əks istiqamət aldı. Yerli hakimiyyət orqanları H.Z.Tağıyevin icazə gözləmədən fabrikin tikintisinə başladığını bəhanə gətirərək işi dayandırmaq barədə sərəncam verdilər, Tağıyev isə bir neçə dəfə cərimə olundu. Fabrik tikmək üçün icazə məsələsi üç il uzandı.[3] Hətta fabrik tikilib qurtarandan sonra da torpağın icarəyə götürülməsi məsələsi ilə əlaqədar bir neçə il hakimiyyət orqanları ilə çəkişmə davam etdi. 1906-cı ilin iyununda II Nikolay H.Z.Tağıyevin nümayəndələrinin xahişini "nəticəsiz" qoymağı əmr etdi[4]. Çar məmurları bütün region üçün lazımlı olan müəssisənin tikintisi işini uzun müddət ləngidərək bununla imperiya dövlət aparatının müəyyən instansiyalarına təzyiq göstərən və imperiyanın ucqarlarında toxuculuq sənayesinin inkişafını hər vasitə ilə dayandıran Rusiya sahibkarlarının iradəsini yerinə yetirdilər.

Toxuculuq fabriki Tağıyevin qeyri-adi kommersiya müəssisəsi idi. Artıq 1904-cü ildə onun istehsal həcmi 2,2 milyon rubl, 1911-ci ildə isə Port-Petrovskdakı (indiki Mahaçqala) filial ilə birlikdə demək olar 3,5 milyon rubl təşkil etdi. Birinci dünya müharibəsi dövründə Hərbi İdarənin ehtiyacları üçün təkcə 1915-ci ildə 4 milyon arşınadək bez və 300 milyon arşın parusin parça hazırlanmışdı. Bakıda toxuculuq fabriki tikdirməklə H.Z.Tağıyev təkcə Azərbaycanda qiymətli ixrac məhsulları və külli miqdarda gəlir verən yeni sənaye sahəsinin yaradılmasına kömək etmədi. Belə iri müəssisənin açılmasının daha böyük nəticəsi minlərlə kasıb-füqəranın iş və pulsuz ev ilə təmin edilməsi idi. Fabrikin ambulatoriyası və məktəbi də var idi. Fabrikin işçilərinə ibtidai təhsil almaq, Azərbaycan əhalisini ictimai mənafelərə xidmət yoluna cəlb etmək imkanı verilmişdi[5].

Milli sahibkarlığın nümayəndələri hər dəfə bu cür maneələrlə qarşılaşmalı olurdular. Belə ki, 1908-ci ilin yanvarında Azərbaycanın gəmi sahibləri Dəmir Yolu İdarəsinə müraciət edərək onların gəmiçilik idarələrinin birbaşa Qafqaz-

---

[2] Sitat bu kitabdan gətirilir: Алиева Л.М. Рабочие-текстильщики Баку в начале XX в. Bakı, 1969, səh.19.
[3] Алиева Л.М. Göstərilən əsər., səh. 21.
[4] ADTA, fond 44, siyahı 4, iş 20, vərəq 267.
[5] Bax: M.C.İbrahimov. H.Z.Tağıyevin toxuculuq fabrikinin yaradılması. İqtisadçı, 1992, may, №13.

Zakaspiysk və Qara dəniz-Qafqaz-Voljsk-Zakaspiysk xətlərinə qoşulmasını xahiş etmişdilər[6]. İri rəqabətçilərin vəsatəti[7] Rusiyanın məşhur "Qafqaz və Merkuri", "Şərq əmtəə anbarları cəmiyyəti" və "Ümid" şirkətlərini ciddi narahat etmişdi. Onlar yüklərin birbaşa dəniz-dəmir yolu ilə daşınması haqqında dəniz, çay və dəmir yolu müəssisələri arasında saziş bağlanmasını nəzərdə tutan konvensiya yükdaşımaları üzərində inhisarı öz əllərində saxlamağa çalışırdılar. Milli gəmi sahiblərini konvensiya daşımalarına buraxmamağı qəti qərara almış sindikat nümayəndələri hökumətə hər cür təzyiq tədbirlərinə əl atırdılar. Belə bir cəhət diqqəti cəlb edir ki, Tağıyev və Rəsulov öz gəmiçilik idarələrinin bütün istiqamətlərdə yük daşınması müddətlərini azaltmağa və yük daşınmasının yol xərcini hər pud üçün 2 qəpik aşağı salmağa hazır olduğunu bildirmişdilər. Lakin Peterburq şirkətləri onların inhisarçı vəziyyətinə hər hansı qəsdi qətiyyətlə rədd edirdilər. Özlərinin qərəzli mübarizəsində onlar heç bir şeydən çəkinmirdilər. Məsələn, 1910-cu ilin iyununda maliyyə və yollar nazirinin adına yazdıqları ərizədə onlar xüsusi olaraq vurğulayırdılar ki, yükdaşımaların bir hissəsinin xaricdəki *qeyri-rus sahibkarının* (qeyd müəllifindir - D.S.) əlinə keçməsi İran ilə ticarətə mənfi təsir göstərə bilər[8]. Çox böyük səylər nəticəsində H.Z.Tağıyev və M.Rəsulov, nəhayət ki, icazə ala bildilər. Lakin onların qarşısında sərt şərtlər qoyuldu - yeni qəbul edilmiş gəmiçilik idarələri üçün müəyyən cədvəl üzrə müddətli reyslərin təsis edilməsi, yüklər göndərilərkən gəmiçilik idarələrinin adlarının hökmən göstərilməsi və nəhayət, 300 min rubl məbləğində girov qoyulması[9]. Buna baxmayaraq nə H.Z.Tağıyev, nə də Rəsulov girov məbləğini keçirmədilər - M.Rəsulovun bunun üçün əlində nağd sərmayəsi yox idi, H.Z.Tağıyev isə belə bir qərarı ədalətsizlik hesab etmişdi[10].

Beləliklə, 8 il ərzində müxtəlif instansiyalar qarşısında qaldırılan vəsatətlər rədd edildi. Bu işə maneçilik törədən cəmiyyətlərin idarə heyətləri özlərinin şovinist, böyükdövlətçilik mövqelərini gizlətmirdilər. Məsələn, "Qafqaz və Merkuri" cəmiyyətinin idarə heyəti Nazirlər Şurasının bütün üzvlərinə göndərdiyi "Yaddaş məktubu"nda cəmiyyətin hökumət qarşısındakı bütün xidmətlərini sadalayaraq belə bir cəhətə diqqəti cəlb edirdi ki, cəmiyyət "sırf milli müəssisədir, çünki səhmdarlardan başlayaraq ən aşağı pillədən olan işçilərədək cəmiyyətin

---

6 Эфендизаде Д.М. Формирование монополистического капитала в торговом судоходстве на Каспийском море. В кн. Материалы по истории России в период капитализма. Л., 1976, səh.198.

7 Qeyd etmək kifayətdir ki, 1908-ci ildə Bakı limanında Tağıyevin "Kür-Xəzər Cəmiyyəti"nin yük dövriyyəsi 5,2 milyon pud, "Qafqaz və Merkuri" cəmiyyətininki - 7,1 milyon pud, "Şərq əmtəə anbarları cəmiyyəti"ninki isə - 6,2 milyon pud olmuşdur. (Bax: Эфендизаде Д.М. Göstərilən əsər, səh. 203).

8 Эфендизаде Д.М. Göstərilən əsər, səh. 206. Bax habelə: Ибрагимов М.Дж. Предпринимательская деятельность Г.З.Тагиева. Bakı, 1990, səh. 74.

9 Эфендизаде Д.М. Göstərilən əsər, səh.200.

10 Эфендизаде Д.М. Göstərilən əsər, səh. 206.

bütün tərkibi yalnız rus təbəələrindən ibarətdir və onların da böyük əksəriyyəti əsl ruslardır. H.Z.Tağıyevin yaratdığı Kür-Xəzər gəmiçilik idarəsi barəsində isə bunu demək olmaz"[11]. Polis Departamentinin direktoru xəbər verirdi ki, mötəbər dairələr Tağıyevi müdafiə edirlər, "Tağıyevin gəmiçilik idarəsinin birbaşa yollara daxil edilməsi barədə göstəriş alınmışdır, gözlənilən kommersiya faydasından asılı olmayaraq ondan bəzi siyasi məqsədlərlə, Qafqazda İran və Türkiyə ilə birlikdə həyata keçirilməli olan əməliyyatlar üçün istifadə olunması nəzərdə tutulur"[12]. Buna baxmayaraq məsələ Nazirlər Şurasında müzakirə olunmadı.

H.Z.Tağıyev bu cür güclü müqavimətə tab gətirməyərək və gəmiçilik sahəsində hər bir addımının belə qarşılanacağını başa düşərək bu fəaliyyət sahəsindəki əməliyyatlarını dayandırmağı qərara aldı və axırda özünün bütün donanmasını "Qafqaz və Merkuri" və "Şərq əmtəə anbarları cəmiyyəti" sindikatına satmağa məcbur oldu.

Qafqazda, o cümlədən də Azərbaycanda çarizmin müstəmləkə siyasətinin təzahürlərindən biri də köçürmə kampaniyası idi. Bu siyasət diyarın ən yaxşı torpaqlarında əvvəlcə ermənilərin, sonra isə mərkəzi quberniyalardan olan rus kəndlilərinin zorakılıqla yerləşdirilməsindən ibarət idi. XIX əsrin 30-cu illərindən başlanan köçürmə kampaniyası tədricən ardıcıl xarakter almış, məqsədyönlü siyasətə çevrilmişdi. Əsrin axırlarında isə çar hökuməti köçürmə üzrə qanunvericilik aktlarının hazırlanmasına başladı. 1899-cu il aprelin 15-də əlahəzrət tərəfindən "Zaqafqaziyada köçürməyə icazə haqqında qanun"[13] verildi. 1900-cü il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülki işlər üzrə baş rəisə icazə verilmişdi ki, "rus mənşəli və pravoslav dininə mənsub kəndlilərin" vəsatətlərini yalnız ilkin qaydada müzakirə etməklə onları xəzinə torpaqlarında yerləşdirsin[14]. Yerli hakimiyyət orqanları bu çar sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başladılar. 1904-cü ilin iyulunda yeni bir qanun verildi - "Kənd obıvatellərinin və əkinçi meşşanların könüllü surətdə köçürülməsi haqqında müvəqqəti qaydalar"[15]. Qanuna görə yalnız rus mənşəli, pravoslav dininə mənsub yerli adamların və ya üç idarənin - Daxili İşlər Nazirliyinin, Hərbi İdarənin və Qafqazda mülki işlər üzrə baş rəisin mülahizəsi ilə raskolçuluq sektalarının imperiyanın müsəlman ucqarlarına, o cümlədən də Qafqaz diyarına köçürülməsinə icazə verilmişdi. 1903-cü ilin iyununda təsis edilmiş köçürmə işi üzrə xüsusi müşavirə yuxarıda adı çəkilmiş layihəyə əlavə edilmiş və Dövlət Şurasına təqdim olunmuş izahatnamədə göstərirdi ki, "köçürməni təkcə ölkənin mərkəzində aqrar məsələnin həlli vəzifəsinə deyil,

[11] Эфендизаде Д.М. Göstərilən əsər, səh. 201.
[12] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi 1910, iş 335, vərəq 3.
[13] Сборник узаконений и распоряжений о переселении. СПб,. 1901, səh. 234-235.
[14] Сборник узаконений и распоряжений о переселении, вып. 8. səh. 234.
[15] Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье. М., 1982. səh. 143.

həm də rus əhalisinin faizinin cüzi olduğu ucqarların məskunlaşdırılmasının siyasi mənafelərinə tabe etdirmək zəruridir"[16].

Köçürmə üçün münbit torpaqlar seçilirdi. Azərbaycanda belə ərazi Mil və Muğan düzləri idi. Bu torpaqlarda çar hökuməti yalnız rus köçkünləri üçün suvarma sisteminin aparılmasına dair bütöv bir proqram həyata keçirdi. Əvvəlcədən adamların xəzinə torpaqlarına köçürüləcəyini elan edən hökumət tədricən bu məqsədlə müxtəlif bəhanələr altında yerli əhalinin də torpaqlarını əllərindən alırdı. Bu məsələdə məhkəmə, yerli və ali hakimiyyət instansiyaları yekdil idilər, buna görə də azərbaycanlı əhalinin şikayət etməyə yeri qalmamışdı. Düzdür, çoxsaylı şikayətlərin izi ilə göndərilən xüsusi məmurlar yerli əhalinin mənafelərinin sıxışdırılması faktlarını etiraf edir və ərznamələr tərtib edərək onları ali dövlət idarələrinə təqdim edirdilər, lakin bunların heç birinin nəticəsi olmurdu.

Bütün Alar kənd camaatının Lənkəran qəzasından Cavad qəzasına köçürülməsi və bu torpaqların Pokrovka rus kəndindən olan köçkünlərə verilməsi barədə çar hakimiyyət orqanlarının sərəncamı yerli əhalinin torpaq ilə təmin edilmədən dədə-baba yurdlarından məcburi surətdə köçürülməsinə və orada gəlmə ünsürlərin yerləşdirilməsinə dair dəhşətli faktlardan biridir. 1905-ci ildə "Bakı şəhərini və Bakı quberniyasını təftiş etməyə" gəlmiş senator A.M.Kuzminski bu faktı qeyd etmişdi[17]. Bu məsələyə narazılığını bildirən Ə.M.Topçubaşov "Kaspi" qəzetində dərc etdirdiyi məqalədə sərəncamın verilməsində "köçkünlərin işi ilə məşğul olan bürokratların əli olduğunu" göstərərək yazırdı ki, "özlərinə hər hansı bir məşğuliyyət axtaran bu bürokratlar Qafqazda köçürmə məntəqələrinin yerləşdirilməsi üçün yararlı olan gen-bol münbit torpaqlar olduğunu təsvir edərək Peterburqdakı rəisləri şirnikləndirirlər"[18]. Əlbəttə, bu məsələdə təkcə hakimiyyət orqanlarının bürokratlığı günahkar deyildi. Lakin hər şeydən əvvəl məhz bu cəhət Azərbaycanda qurulmuş rejimin müstəmləkə xarakterini, çar idarələrinin özbaşınalığını əks etdirirdi. Ə.M.Topçubaşov dəfələrlə çar hakimiyyət orqanları nümayəndələrinin kəndlilərə qarşı qərəzli münasibətinə diqqəti cəlb edərək göstərirdi ki, onların torpaqları əllərindən alınıb köçkünlərə verilir[19]. O, 1905-ci ilin iyulunda "Ədalətli tədbir" məqaləsində çarizmin köçürmə siyasətini tənqid atəşinə tutaraq qeyd edirdi ki, bu siyasət azərbaycanlı əhalinin mənafelərinin tapdalanması hesabına həyata keçirilmişdir. Ə.M.Topçubaşov aqrar işlərində qəsdən qeyri-müəyyənlik və qarışıqlıq yaradıldığı, sahələrin arasında hədd qoyulmadığı, kəndlilərin torpaq paylarının satın alınmadığı barədə yazırdı. Buna görə də Ə.M.Topçubaşov 1899-cu ildə Qazax qəzasının kəndlilərindən alınmış 3,3 min desyatin torpağın onlara qaytarılması barədə Qafqaz canişini İ.İ.Vorontsov -

---

[16] Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье. М., 1982 səh. 143.
[17] Всеподданнейший отчет о произведенной в 1905 г. по высочайшему повелению сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии. Bakı, 1906.
[18] "Каспий" qəzeti, 1 dekabr 1905-ci il.
[19]"Каспий" qəzeti, 9 iyul 1905-ci il.

Daşkovun göstərişini ədalətli tədbir kimi qiymətləndirmişdi. O, buna "yerli əhalinin istəyinin nəzərə alınmasına doğru qəti dönüş"[20] kimi baxırdı. Əslində isə çar idarəsinin bu göstərişi Azərbaycan kəndlilərini bir qədər sakitləşdirmək, onları öz hüquqları uğrunda mübarizədən yayındırmaq istəyindən irəli gəlirdi.

Hakimiyyət orqanları tərəfindən öz doğma torpaqlarını tərk etməyə məcbur edilən əhali çox vaxt yaşamaq üçün yararlı olmayan iqlim şəraitinə düşürdü. Bu isə çox vaxt onların xəstələnməsinə və məhvinə səbəb olurdu. Diyarın kənd əhalisi arasındakı narazılıq və iğtişaşlar Qafqazda köçürmə işinin müdirini məcbur etdi ki, köçkünlərin hərəkətini müvəqqəti olaraq dayandırmaq barədə 1905-ci ilin aprelində köçkünlərin işlərinə baxan məmur aparatına müraciət etsin. Lakin o eyni zamanda belə bir cəhəti də göstərirdi ki, bu sərəncam əvvəlki yaşayış yerindən birdəfəlik üzülüşmüş və köçürmə yerlərinə doğru hərəkətdə olan adamlara aid deyildir. Bu bir daha sübut edirdi ki, köçürmə planauyğun və ardıcıl surətdə həyata keçirilirdi, belə sərəncamlar isə yalnız yerli kəndlilərin avamlığı və sadəlövhlüyü üçün nəzərdə tutulmuşdu. Çarizm özünün köçürmə siyasətindən heç vaxt dönməmişdi. Əksinə, "artıq XX əsrdən başlayaraq, xüsusən isə 1905-1914-cü illər ərzində çarizmin Qafqazdakı köçürmə siyasətində belə bir meyl aşkar nəzərə çarpır ki, köçürmə problemi ilə yanaşı böyük iqtisadi əhəmiyyəti olan ərazilərdə təsərrüfatlar yaradılması vəzifəsi həyata keçirilir. Bununla əlaqədar diyarın rus kəndlilərinin yerləşdirilməsi üçün sahə dəqiq müəyyən edilmiş və demək olar ki, ərazi cəhətdən məhdudlaşdırılmışdı. Bundan sonra rus kəndliləri Qafqazda başlıca olaraq Şərqi Zaqafqaziyanın düzən rayonlarında və Qara dəniz quberniyasının torpaqlarında yerləşdirilirdi"[21].

Milli mədəniyyətin bütün sahələri və ilk növbədə mətbuat kəskin məhdudiyyətlərə məruz qalırdı. İsmayıl xan Ziyadxanov 1906-cı ildə Dövlət Dumasında demişdi: "Deyirlər ki, müsəlmanlar geridə qalmış xalqdırlar, lakin bu düzgün deyil, onları yatmağa və geridə qalmağa *məcbur etmişlər* (qeyd müəllifindir - D.S.). Bir nümunə göstərim. Senzura nizamnaməsi xüsusən ciddi olanda bizi qəzet çıxarmağa qoymurdular. Senzura zəifləyəndən sonra isə təkcə keçən il bizdə 30 müsəlman nəşri olmuşdur"[22].

1875-ci ildə Həsən bəy Məlikov (Zərdabi) "Əkinçi" qəzetini təsis etdi. "Əkinçi" Azərbaycan dilində nəşr olunan ilk qəzet idi. 1905-ci ildə Ə.M.Topçubaşov yazırdı: "Bizim savadlı müsəlmanlarımızın əksəriyyəti İndiyədək "Əkinçi" qəzetini ruh yüksəkliyi ilə xatırlayırlar... Çoxlarının yaxşı yadındadır ki, qısa bir vaxtda Qafqaz müsəlmanlarının durğunluq bataqlığı necə hərəkətə gəldi və ana dilində mətbu orqanın canlı sözü onları necə ayıltdı"[23]. Bu qəzet və onun səhifələrində mütərəqqi, demokratik və maarifçilik ideyalarının təbliği,

---

[20] "Каспий" qəzeti, 9 iyul 1905-ci il.
[21] Исмаил-заде Д.И. Göstərilən əsər, səh. 219.
[22] RFDTA, fond 1278, siyahı 1, iş 190, vərəq 9.
[23] "Каспий" qəzeti, 18 yanvar 1905-ci il.

Azərbaycan xalqının milli mənlik şüurunun formalaşmasına onun təsiri çar üsuli-idarəsini narahat etməyə bilməzdi. Çar senzurası onu bağlamaq üçün bəhanə axtarırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması ilə əlaqədar qəzetə siyasi xarakterli məsələlərə toxunmaq qadağan edilmişdi. Sonra isə 1977-ci ilin sentyabrında onun bağlanmasına hökumət fərman verdi.

Senzura məhdudiyyətləri rus dilində çıxan "Kaspi" qəzetinə də tətbiq edilmişdi. Qəzeti 1895-ci ildə H.Z.Tağıyev 57 min rubla almış və onun sahibi olmuşdu[24]. Görkəmli ictimai xadim, hüquqşünas, publisist Əlimərdan bəy Topçubaşov uzun illər qəzetin redaktoru olmuşdu. Təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından çox-çox uzaqlarda populyar olan bu qəzetin nəşrinin və redaktəsinin azərbaycanlıların əlində cəmlənməsi yerli hakimiyyət orqanlarını həyəcana salırdı. Zənnimizcə, Bakı quberniya jandarm idarəsinin mövqeyi diqqətəlayiqdir. Jandarm idarəsi "yeganə yerli qəzetin nəşrinin və redaktəsinin *tatarların* (azərbaycanlıların - D.S.) ixtiyarına verilməsini, xüsusən də Azərbaycanda böyük nüfuza və hörmətə malik H.Z.Tağıyevin "Kaspi"yə sahib olmasına icazə verilməsini heç də mümkün" hesab etmirdi[25]. Yəqin ki, 1897-ci ildən qəzetin qeyri-rəsmi nəşr olunduğunu bununla izah etmək olar[26].

1879-cu ildən "Ziya" qəzeti nəşr olunmağa başladı. 1880-ci ildən o, "Ziyayi Qafqaziyyə" adı altında çıxdı. Eyni zamanda Tiflisdə "Kəşkül" qəzeti, 1903-cü ildən isə "Şərqi-rus" qəzeti nəşr olunurdu.

Dövri mətbuat Qafqaz Mətbuat İşləri Komitəsinin senzurasının çox ciddi nəzarəti altına götürülmüşdü. Komitənin senzorları Azərbaycan dilində mətbuat orqanlarının yayılmasına hər cür mane olmağa çalışaraq onların üzərinə "panislamizm" damğası vurmağa səy göstərirdilər. Tiflis senzura komitəsinin divarları arasında uydurulmuş "panislamizm" Polis Departamentindən və Baş Jandarm İdarəsindən tutmuş müsəlman əhalisinin yaşadığı ən ucqar yerlərin polis sahələrinədək Rusiya imperiyasının bütün inzibati idarələrinin mühüm mövzusu idi. Komitədə "şərq mətbuatını" müşahidə etmiş Mirzəşərif Mirzəyev xatırlayırdı: tamamilə təbii idi ki, müsəlman işləri haqqında raport yazan işçi öz yüksək rəisləri qarşısında fərqlənmək üçün hökmən "panislamizmə" toxunmalı idi[27].

Azərbaycan cəmiyyətinin bir çox varlı nümayəndələri hakimiyyət orqanlarının bu cür mənfi münasibəti, bəzən isə təqibləri ilə üzləşərək dövri mətbuat orqanlarına maddi yardım göstərməkdən qorxur, heç də həmişə maarifçilik və xeyriyyəçilik ilə bağlı tədbirləri müdafiə etmirdilər. 1871-ci ildə canişinin və yerli hakimiyyət orqanının hüsn-rəğbətindən istifadə edib xeyriyyə cəmiyyəti

---

[24] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 56

[25] Мовлаева С.А. Пропаганда русской и азербайджанской культуры на страницах газеты "Каспий" (1881-1917 гг.). Bakı 1983, səh. 121.

[26] Yenə orada.

[27] "Вышка" qəzeti, 18 iyun 1992-ci il.

yaratmağı qərara almış Həsən bəy Məlikov da bununla qarşılaşdı[28]. O, cəmiyyətin nizamnaməsini tərtib edərək Bakıda, Gəncədə, Tiflisdə nüfuzlu adamlara müraciət etdi və onları təşəbbüsü müdafiə etməyə və bu cəmiyyətə müntəzəm surətdə pul yardımı göstərməyə çağırdı. Lakin cəmiyyət çox adi, eyni zamanda onun təsisçisi üçün acı bir səbəbə görə bağlandı - o öz fəaliyyətinin əsas şərtini yerinə yetirə bilmədi, iki il ərzində özünün mədaxili və məxarici barədə məlumat təqdim edə bilmədi.

1905-ci ildə yenidən xeyriyyə cəmiyyəti yaratmağa cəhd göstərildikdə bu dəfə artıq hakimiyyət orqanları buna mane oldular. Ə.Ağayev yazırdı: "75 min müsəlmanın yaşadığı Bakının müsəlmanları xeyriyyə cəmiyyəti yaratmağa icazə verilməsi barədə vəsatət qaldırdılar. Onlardan bir ay sonra müsəlmanlarla müqayisədə sayca çox cüzi olan gürcü cəmiyyəti belə bir vəsatət qaldırdı. Gürcülərə icazə verdilər, müsəlmanlara isə rədd cavabı verdilər"[29].

Çarizm ana dilində məktəblər açılmasına mane olur, məktəblərdə ana dilinin tədrisini qadağan edir, məktəblərdə tədrisi ən yeni metod ilə aparmaq sahəsində hər cür cəhdləri təqib edərək buna mövcud rejimə qarşı çıxmaq kimi baxardı[30]. Müsəlmanlara təkcə Zaqafqaziyada deyil, həm də bütün Rusiya imperiyasında orta məktəblərdə dərs deməyə icazə verilmirdi. Ə.Ağayevin orta məktəb müəllimi vəzifəsinə təsdiq edilməsinə on bir il imtina olunması buna nümunədir[31]. İstər orta, istərsə də ali savadlı adamların sərbəst peşə seçməsi imkanı məhdud idi. Bəzi ali tədris müəssisələrinin qapıları azərbaycanlıların üzünə bağlı idi. Onların texniki təhsil almasına hər cür maneçilik törədilirdi. Müəyyən mənada bununla izah olunur ki, Azərbaycan sahibkarlarının nümayəndələri neft sənayeçiləri qurultayının Şurasında ümumiyyətlə təmsil olunmamış, Bakı birja komitəsində isə çox zəif təmsil olunmuşdular. Təhsil alan gənclərin dövlət təqaüdü almaq hüququ yox idi. Ali məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra onlar həmin tədris müəssisəsində yuxarı vəzifələrə keçmək imkanından məhrum idilər. Belələrindən biri də Əlimərdan bəy Topçubaşov idi. Topçubaşov Peterburq universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirdikdən sonra ona təklif olunmuş kafedranın professoru vəzifəsini bu səbəbdən tuta bilməmişdi. O, Bakıya qayıtmış və özünü ictimai-siyasi fəaliyyətə həsr etmişdi. Qeyri-adi bacarığı, dərin peşə biliyi çox tezliklə Azərbaycan cəmiyyətinin bütün təbəqələrində ona layiqli hörmət və nüfuz qazandırdı. Moskva universiteti hüquq fakültəsinin məzunları, Yelisavetpol şəhərindən olan Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov yalnız ona görə

---

[28] "Həyat" qəzeti", 13 və 27 dekabr 1905-ci il.
[29] "Каспий" qəzeti, 1 aprel 1905-ci il.
[30] Bax: məsələn: Таирзаде Н. Состав учащихся Бакинского реального училища в последней четверти XIX в. Известия АН Азербайджана, Серия истории, философии и права, 1981, № 3; yenə onun. К истории народного образования в промыслово-заводском районе Баку в конце XIX - начале XX века. Известия АН Азербайджана, Серия истории, философии и права, 1988, № 1.
[31] "Баку" qəzeti, 1 mart 1906-ci il, "Каспий" qəzeti, 1 mart 1906-cı il.

uzun illər Yekaterinodar mahal məhkəməsi prokurorunun köməkçisi vəzifəsində işləmişdilər ki, onların öz yaşayış yerlərində işləmək hüququ yox idi. Müsəlmanın andlı müvəkkil olmasını ədliyyə naziri təsdiq etməli idi[32]. Vəkillər korporasiyasında müsəlmanların sayı 5 faizdən çox ola bilməzdi. Məhkəmə icraatının əhalinin başa düşdüyü ana dilində aparılması qadağan idi. Məhkəmə icraatının mühüm təsisatlarından biri olan andlı iclasçılar yox idi. İ.Ziyadxanov Dövlət Dumasının iclasında demişdi: "Bizdə məhkəmələrin binası var, məmurlar var, lakin ədalət mühakiməsi yoxdur. Hərbi məhkəmələrdə ölüm hökmlərini, mülki məhkəmələrdə katorqaya göndərilmə haqqında hökmləri məhkəmələr deyil, tərcüməçilər elan edirlər. Müsəlman əhalisi rus dilini bilmir. Məmurlar isə yerli əhalinin dilini bilmirlər, buna görə də qəpik-quruşa baxan tərcüməçilər, - məndə faktlar var ki, tərcüməçilər 8 rubl məvacib alırlar, - bütün bu cəzalara məhkum edirlər"[33]. İ.Ziyadxanov Azərbaycanda mütləqiyyət siyasətini həyata keçirən məmurlar haqqında danışarkən göstərirdi: "Cənab xalq nümayəndələri, bizdəki administrasiya heç bir əndazəyə sığmır. Əgər təsəvvür etsəniz ki, Rusiya dənizdir, Zaqafqaziya isə onun sahilidir, sizin hər cür tullantılarınız gəlib Zaqafqaziya sahillərinə çıxır və diyarın onsuz da mənəviyyatsız olan administrasiyasının heyətini tamamlayır. Bizim administrasiyanın idealı - rüşvətxorluq və adamlara əzab-əziyyət verməkdir"[34]. Eyni zamanda azərbaycanlılar dövlətin məmur aparatında işə demək olar cəlb edilmirdilər. "Şərqi-rus" qəzeti yazırdı: "Bakı müsəlmanları indiyədək şəhər rəisi cənab Novikovdan narazıdırlar. Boş yer açılan kimi rəis dərhal ora bir rus təyin edir, müsəlmanları isə qətiyyən unudur. Boş yerləri tutmaq üçün rəis Rusiyanın ucqar kəndlərindən məmurlar gətizdirir, onlara böyük və artıq məvacib təyin edir"[35].

Azərbaycanlıların hüquqları şəhər və yerli idarəetmə sahəsində də kəskin surətdə məhdud idi. 1892-ci il 11 iyun tarixli Şəhər əsasnaməsinin 44-cü maddəsinə uyğun olaraq qeyri-xristian olan qlasnıların sayı əhalinin hətta böyük əksəriyyətini müsəlmanlar təşkil edən yerlərdə də qlasnıların ümumi sayının beşdə bir hissəsindən çox ola bilməzdi. Çoxsaylı vəsatətlərin nəticəsində "əlahəzrətin əmrinə uyğun olaraq" 1900-cü il dekabrın 14-də həmin əsasnaməyə edilən əlavəyə görə Qafqazın şəhərlərində qeyri-xristianlardan olan qlasnıların sayı qlasnıların ümumi sayının yarısından çox ola bilməzdi[36].

Din sahəsində də müsəlmanların qarşısında çoxlu sədlər çəkilmişdi. Onlar din xadimlərini seçmək hüququndan məhrum edilmişdilər. Yerli çar idarəsi din xadimlərini öz iradələrinin sözsüz icraçılarına çevirmək istəyirdi. Çarizm sünnilər

---

[32] "Каспий" qəzeti, 1 mart 1906-ci il.
[33] RFDTA, fond 1278, siyahı 1, iş 190, vərəq 10.
[34] RFDTA, fond 1278, siyahı 1, iş 190, vərəq 10-11.
[35] Bu kitabdan gətirilir: Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1960, səh. 277.
[36] Мильман А.Ш. Политический строй Азербайджана в XIX - начале АХ вв. Bakı, 1966, səh. 218.

ilə şiələr arasındakı ziddiyyətlərdən də məharətlə istifadə edərək bəzən bunu son həddədək kəskinləşdirirdi. Nəhayət, vəqf torpaqları da müsəlmanların əlindən alınaraq hökumət tərəfindən inzibati orqanların ixtiyarına verilmişdi.

Tam hüquqsuzluq səviyyəsində sərt sıxışdırma və təqiblər şəraiti XIX-XX əsrlərin qovuşuğunda Azərbaycan cəmiyyətinin vəziyyətini səciyyələndirirdi. Bu barədə 1905-ci ildə Ə.Ağayev "Müsəlmanların petisiyalarına dair zəruri izahatlar" məqaləsində yazırdı: "Demək olar heç bir xalq müsəlmanlar kimi bu cür unudulub sıxışdırılmamışdı. Onlar elə bil heç yox idilər. Onların heç bir ehtiyacı ödənilmirdi; onların bütün xahişləri rədd edilirdi. Düzdür, o vaxtlar onlara qarşı xüsusən müstəsna tədbirlər də görülmürdü, lakin bu ona görə deyildi ki, onların xidmətləri nəzərə alınırdı, onları belə müstəsna tədbirlərə layiq bilmirdilər. Bu sadəcə olaraq ona görə idi ki, onların yaşayıb-yaşamamasını heç ağıllarına da gətirmirdilər, onlarla hesablaşmırdılar, onlara qətiyyən fikir vermirdilər. Buna görə də müsəlmanlar təkcə bir müsəlman kimi deyil, həm də passiv surətdə əzab çəkirdilər. Başqalarının hüquqlarının məhdudlaşdırılmasına yönəldilmiş qanunlardakı anlaşılmazlıqlar, qeyri-müəyyən ifadələr ucbatından heç bir kəs onlara hər hansı şəkildə ziyan vurmaq istəmirdi"[37]. Ə.Ağayev bununla yanaşı yaranmış vəziyyətin səbəblərini açıb göstərməyə və ondan çıxış yolları tapmağa çalışırdı. O hesab edirdi ki, Rusiya kimi belə bir böyük ölkədə hər bir xalq "özünü istər hökumətə, istərsə də hakim xalqa tanıtdırmağı" bacarmalıdır. Ə.Ağayev bu "başlıca və nəcib missiyanı ziyalılara və varlılara" həvalə edirdi. "Birincilər öz zəkası, öz şüuru, öz istedadı və bacarığı ilə xalqın köməyinə gedir, hakim xalqı onun ehtiyacları, həyatı, quruluşu ilə tanış edir, ikincilər isə bu vəzifəni yerinə yetirmək üçün ziyalılara öz sərvətlərindən maddi yardım göstərirlər". Ə.Ağayev təəssüflə yazırdı ki, varlılardan hələlik yalnız H.Z.Tağıyev "onların sərvətinin xalq üçün böyük rol oynadığını başa düşmüşdür, ziyalılar arasından isə çox nadir adamlar Rusiya cəmiyyətini müsəlmanlarla tanış etməyə cəhd göstərmişlər". O həmçinin qeyd edirdi ki, tək-tük olan belə hallarda da əl verib salamlaşaraq, iltifat göstərərək onlardan "mərhəmət", "nəcabət", "xeyirxahlıq" gözləməklə "biz irəli getmirik, məsələlərin nüfuzlu surətdə və vicdanla həll oluna bildiyi yerlərdə məsələləri işıqlandırmağa nail ola bilmirik"[38].

Bununla yanaşı Azərbaycan sahibkarları hüquq və imtiyazlarını rus sahibkarları ilə bərabərləşdirməyə doğru tələbkarcasına və inadla can atırdılar. Onlar şəhər özünüidarəsi sahəsində fəallıq göstərirdilər. Burada Azərbaycan sahibkarları öz mövqelərini möhkəmləndirməyə çalışırdılar. Bu isə şəhərlərdə sənaye və ticarət fəaliyyətinin konkret məsələlərinin həllində real səmərə ilə əlaqədar idi. Belə ki, 1902-1905-ci illərdə Bakı şəhər dumasında 48 qlasnıdan 23-ü azərbaycanlı idi. Onların arasında Azərbaycan milli kapitalının H.Z.Tağıyev, M.Nağıyev. Ş.Əsədullayev, N.Q.Sadıqov, N.Mehdiyev, Ə.Dadaşov kimi iri

[37] "Каспий" qəzeti, 30 mart 1905-ci il
[38] «Каспий», qəzeti 30 mart 1905-ci il.

nümayəndələri, ziyalılardan Ə.M.Topçubaşov, F.Vəzirov, Ə.Ağayev (qlasnıya namizəd) və başqaları var idi[39]. Onların bəzi nümayəndələri Bakı şəhər dumasının bir sıra komissiyalarının tərkibində iştirak edirdilər[40]. Şamaxıda 12 şəhər müvəkkilinin tərkibində 6 azərbaycanlı var idi və onlar əsasən yerli sahibkarların nümayəndələri idilər[41]. Lənkəranın və Qubanın şəhər müvəkkillərinin tərkibində də azərbaycanlıların say nisbəti belə idi[42].

## § 2. Azərbaycan iqtisadiyyatında milli kapitalın mövqeyi

Rusiyada sosial-iqtisadi və ictimai dəyişikliklər zərurətindən irəli gələn kapitalist cəmiyyəti quruculuğu prosesi sənayenin və ticarətin inkişafı üçün əlverişli şərait yaratdı. Bu, Azərbaycan sahibkarlarının nümayəndələrinə imkan verdi ki, çarizmin siyasəti ilə bağlı yuxarıda göstərilən məhdudiyyətlərə, rus və əcnəbi kapitalistlərinin kəskin rəqabətinə baxmayaraq sənaye, ticarət və nəqliyyat sahələrində Azərbaycan iqtisadiyyatının inkişafı, mədəniyyət ocaqlarının yaradılması, Azərbaycan cəmiyyətinin intellektual potensialının yüksəlişi, cəmiyyətin milli mənlik şüurunun inkişafı üçün obyektiv surətdə ümummilli əhəmiyyəti olan bir sıra iri müəssisələr yaratsınlar.

Milli kapitalın tədavül sahəsindən istehsal sahəsinə transformasiyası XIX əsrin ikinci yarısı ərzində Azərbaycanın sosial-iqtisadi inkişafının səciyyəvi xüsusiyyəti idi. Nisbətən qısa müddət ərzində milli kapital iqtisadiyyatın bir sıra mühüm sahələrində və xüsusən də neft sənayesində kifayət qədər möhkəm mövqe tutdu.

Neft sənayesinə kapital qoyuluşunun dörd əsas mənbəyi var idi: ticarət kapitalı, sənaye kapitalı, xarici kapital, habelə hərbçilərin və çar administrasiyası nümayəndələrinin qoyduğu pul[43]. Milli sahibkarlardan H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev və başqaları birinci qrupun nümayəndələrindən idilər. Əgər onlar əvvəllər ticarət evi formasında ənənəvi və adi müəssisələrin təşkilini üstün tuturdularsa, ikinci və xüsusən də üçüncü qrupun nümayəndələri dərhal səhmdar cəmiyyətləri yaratmaq yolunu tutdular.

Qeyd etmək lazımdır ki, "neft sənayesinin inkişafının lap əvvəlindən nəzərə çarpan xüsusiyyətlərdən biri də bu idi ki, yataqların zənginliyi, torpağın və işçi qüvvəsinin ucuzluğu neft işini az miqdarda kapital ilə də aparmağa imkan verirdi, buna görə də çoxlu kiçik firmalar yaranırdı. Bu firmaları əsasən yerli sahibkarlar yaradırdılar. 70-ci illərin əvvəllərində onlar neft quyularının 88 faizinədək olan hissəsini öz əllərində toplamışdılar və neft çıxan torpaq sahələrinin satış qiymətinin

[39] ADTA, fond 50, siyahı 1, iş 194, vərəqlər 68-69 arxada.
[40] Yenə orada, vərəq 100.
[41] Yenə orada, iş 201, vərəq 16.
[42] Yenə orada, iş 251, vərəq 33; iş 263, vərəq 35.
[43] Bax: M.C.İbrahimov. Azarbaycanda milli sahibkarlığın yaranması. İqtisadçı, 1992, aprel, № 2.

ümumi məbləğinin 94,5 faizini onlar ödəmişdilər". Milli kapitalın nümayəndələri neft emalı sənayesində çox möhkəm mövqe tutmuşdular. Bakı rayonunda fəaliyyət göstərmiş 46 zavoddan 25-i və ya 54 faizi azərbaycanlılara məxsus idi[44]. Bu onu sübut edirdi ki, islahatlardan sonrakı dövrdə Azərbaycanın neft sənayesinin inkişafı bütün ölkə miqyasında kapitalist sisteminin yaranması prosesinin tərkib hissəsi kimi Ümumrusiya zəminində baş versə də, onun "köhnə yerli kökləri var idi"[45]. Lakin istehsalatın yüksəlişi onun bütün sahələrini texniki cəhətdən təkmilləşdirmədən mümkün deyildi. Xarici sahibkarlardan müəssisələrin təşkilinin müasir formalarını götürən, neft hasilatı, emalı və daşınmasına vətən elminin texniki yeniliklərini daxil edən milli sahibkarlar bununla öz şirkətlərinin inkişafına nail olurdular. Bunun nəticəsində həmin şirkətlər çox tezliklə o dövrün ən sabit və kifayət qədər əhəmiyyətli istehsal şirkətləri sırasına çıxmışdı. Düzdür, belə müəssisələrin sayı nisbətən çox deyildi. Məsələn, 1883-cü ildə neft sənayesi müəssisələrinin 135 sahibi sırasında 17 azərbaycanlı, o cümlədən H.Z.Tağıyev, N.Səlimxanov, Ə.M.Qafarov, A.Qarayev, M.Q.Səlimxanov, H.B.Haşımov, İ.Nuriyev və başqaları var idi[46]. Əsrin axırlarında 167 neft sənayesi firmasından və müəssisəsindən 49-u və ya 29,3 faizi azərbaycanlılara məxsus idi. Lakin bu müəssisələr kiçik idilər. Məsələn, istehsal gücü ildə 100 min pud neft olan müəssisələr qrupunda Azərbaycan sahibkarlarına onların 33,3 faizi, 100 min puddan 500 min pudadək olan qrupda 48,7 faizi, 500 min puddan 1 milyon pudadək olan qrupda 25 faizi, 1 milyon puddan 10 milyon pudadək olan qrupda 12, 5 faizi məxsus idi. İstehsal gücü 10 milyon puddan çox olan müəssisələr qrupunda milli kapitalı yalnız H.Z.Tağıyev, M.Nağıyev və Ş.Əsədullayev təmsil edirdilər. XX əsrin əvvəllərində milli sahibkarların mövqeyi bir qədər möhkəmləndi. 1914-cü ilin məlumatlarına görə, 58 nəfər azərbaycanlı sahibkara 83 firma məxsus idi.[47]

Hacı Zeynalabdin Tağıyev Azərbaycanın ən iri sahibkarı və sənaye-maliyyə və ticarət sahəsində milli sahibkarların yuxarı təbəqələrinin ən nüfuzlu simalarından biri idi. O, hökumət dairələrində, məmurlar arasında böyük nüfuza malik idi və Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatına aid bütün məsələlərdə çox fəal iştirak edirdi.

1878-ci ildə Tağıyevin mədənində neft quyusu fantan vurdu. Mədən iri bir müəssisəyə, Tağıyevin özü isə Azərbaycanın ən varlı adamlarından birinə çevrilərək bir sıra sənaye sahələrində, nəqliyyatda və ticarətdə mühüm mövqe tutdu.

---

[44] Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Bakı, 1884, səh. 35-36, 77 yenə onun. Предпринимательская деятельность Г.З.Тагиева, səh. 19-20.
[45] Монополистический капитал в нефтяной промышленности России. 1883-1914. Документы и материалы, Л.-М., 1961, səh. 8.
[46] ADTA, fond 389, siyahı 4, iş 725, vərəq 79.
[47] Нуриева З.Н. Позиция национальной буржуазии в промышленности Азербайджана в конце XIX-XX в. Автореф. канд. дисс. Bakı, 1987, səh. 14.

1897-ci ilin axırlarında Tağıyev özünün neft mədənlərini, kerosin-yağ zavodunu, habelə Xəzərdə neft məhsulları daşıyan gəmilərini İngiltərə bankının direktorlarından biri E.Qubbardonun başçılıq etdiyi Britaniyanın ən iri sahibkar şirkətinə 5 milyon rubla satdı. H.Z.Tağıyev puldan savayı təsis edilmiş ingilis şirkətinin 100 min funt sterlinq (o vaxt təxminən 1 milyon rubl) məbləğində səhmlər paketini də aldı və onun direktorlarından birinə çevrildi[48].

İngilis kapitalı ilə sıx bağlı olan H.Z.Tağıyev Britaniya sahibkarlarının və maliyyəçilərinin Bakıda təsis etdikləri başqa firmalarda da iştirak edirdi. Sonralar o, 1896-cı ildə Londonda yaradılmış ingilis firmasının - Bakı Rus Nefti Cəmiyyətinin direktorlarından biri oldu. Bu cəmiyyət Bakıda Arafelovun və Budaqov qardaşlarının mədənlərini 6,8 milyon rubla aldı[49]. Müəyyən dövr ərzində ingilis kapitalistləri çar qanunvericiliyinin hətta son dərəcə yumşaq məhdudiyyətlərindən yan keçərək Bakı neft mədənlərini almaq üçün H.Z.Tağıyevin adından pərdə kimi istifadə edirdilər[50]. H.Z.Tağıyev Azərbaycan neft sənayesinin inkişafının bir çox mühüm məsələlərinin həllində iştirak edirdi. O, Bakı neft sənayeçilərinin bir sıra birliklərinin yaradılmasının, "Bakı standartı", "Bakı kerosin zavodları sahiblərinin ittifaqı", "Xəzər gəmi sahiblərinin ittifaqı" kimi iri sazişlərin təşəbbüsçüsü idi. Bu qrupların məqsədi ölkənin daxili bazarında iri şirkətlərə müqavimət göstərmək və Vətənin neft məhsullarını dünya bazarına çıxarmaq idi[51].

1913-cü ilədək neft sənayesində milli kapitalın mövqeyi xeyli gücləndi. Qeyd etmək lazımdır ki, artıq səkkiz milli firma bir milyon puddan çox neft hasil edirdi: "Musa Nağıyev" - 6,8, "Şəmsi Əsədullayev" - 6,7, Ə.S.Məlikov - 5,6, M.T.Mirbabayev - 1,3, Əmiraslanov qardaşları - 1,2, Məlikov və Mahmudov - 1,5, "Bəxt" - 1,6, "Naftalan Neft Sənayesi Cəmiyyəti" - 4,9 milyon pud. Bakının milyonçu firmaları arasında ümumi neft hasilatının 30 faizə qədəri həmin müəssisələrə məxsus idi. Mədənlərində 500 min puddan bir milyon pudadək neft hasil olunan neft sənayeçiləri arasında İ.Hacınski, Aşurbəyov qardaşları, M.Səlimov, H.B.Ələkbərov var idilər. Bütövlükdə milli müəssisələrin xüsusi çəkisi 15 faizə çataraq Bakı rayonunda neft hasilatının 1/6 hissəsini təşkil edirdi.

Musa Hacıəli oğlu Nağıyev öz sahibkarlıq fəaliyyətinə manufaktura ticarətindən başlayaraq 1862-ci ildə kiçik bir dükan açmışdı. XIX əsrin son illərində o, Balaxanıda, Sabunçuda, Əmircanda, Ramanada neft çıxan torpaq sahələrini icarəyə götürdü. Əvvəllər onun mədən fəaliyyəti çox da uğurlu deyildi,

---

[48] Стригунов И.В. Из истории формирования бакинского пролетариата (70-80-е гг. XIX в.) Bakı, 1980, səh. 36-37

[49] Стригунов И.В. Из истории формирования бакинского пролетариата (70-80-е гг. XIX в.) Bakı, 1980, səh. 245

[50]Садыхзаде Р.М. Проникновение английского капитала в нефтяную промышленность Азербайджана. Автореф. канд. дисс. Bakı, 1967, səh.16

[51] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 104

lakin artıq XX əsrin ilk illərində onun mədənlərindəki quyular fantan vurdu. Məhz bu hadisə 1887-ci ildə yaradılmış "M.Nağıyev" firmasının istehsalat fəaliyyətinin xarakterinə təsir göstərdi. Artıq 1913-cü ildə bu firma Bakının ən sabit işləyən firmaları sırasına daxil idi.

Şəmsi Hacı Əsədulla oğlu Əsədullayev XIX əsrin 60-cı illərinin axırlarında - 70-ci illərinin əvvəllərində bir qədər pul yığıb dövlət duz mədənini icarəyə götürdü. Eyni zamanda Musa Nağıyev ilə birlikdə Ramanada üzüm-meyvə bağı aldı. Bu cür fəaliyyətdən əldə etdiyi gəlir ona daha mənfəətli işa başlamağa imkan verdi. 1872-ci ildə neft sənayesində icarə sisteminin ləğv olunması[52] təşəbbüskar adamlar üçün neft işi sahəsində böyük perspektivlər açdı. Belələrindən biri də Ş.Əsədullayev idi. O, 1874-cü ildə kiçik bir torpaq sahasi alıb orada neft hasilatı müəssisəsi yaratdı. 1893-cü ildə onun yeganə neft quyusunda 23 milyon pud neft çıxarıldı, 1895-ci ildə isə neft fantanı 40 milyon pud neft verdi. Nəticədə onun müəssisəsi "Ş.Əsədullayev" neft hasilatı və emalı kontoruna çevrildi. Bu kontor əsas kapitalı 10 milyon rubldan çox olan iri neft sənayesi müəssisələri sırasına çıxdı. XX əsrin əvvəllərində kontor səhmdar cəmiyyətinə çevrildi. Həmin cəmiyyət Bakı rayonunda bütün neft hasilatının təxminən 60 faizini verən 12 firmadan biri oldu[53].

"Podrat qazma" kontoru başqa bir milli sahibkar Murtuza Muxtarovun adı ilə bağlıdır. O, əsrin axırlarında Bibi-Heybətdə qazma avadanlığı zavodu inşa etdi. Bu zavod Rusiyada neft avadanlığı istehsalı üzrə ilk xüsusi müəssisə idi. 1906-cı ildə o, "Qazma avadanlığı sahibləri sindikatı"nın və "Neft quyularının qazılması üzrə Bakı podratçılar cəmiyyəti"nin əsas iştirakçılarından biri oldu. Onun 1903-cü ildə yaratdığı neft emalı firması 1913-cü ildə əsas kapitalı 4 milyon rubl olan səhmdar cəmiyyətinə çevrildi. Cəmiyyət əsasən neft quyularının qazılması və neft avadanlığının təmiri işləri ilə məşğul olurdu. Bütövlükdə sənayenin bu sahəsində milli sahibkarlar kifayət qədər möhkəm mövqe tutmuşdu. 34 podrat qazma müəssisəsindən 3-ü, 1913-cü ildə isə 45 belə müəssisədən 7-si azərbaycanlılara məxsus idi[54].

Neft emalı sənayesində Azərbaycan kapitalının xüsusi çəkisi getdikcə artırdı. 1883-cü ildə Bakının 100 kerosin zavodu sahibindən 41-i azərbaycanlı idi, onların arasında H.Z.Tağıyev, N.Mehdiyev, A.M.Nuriyev, H.S.Sadıqov, M.Xanlarov var idi[55]. Lakin istehsalın miqyası onlara neft emalı sənayesində qabaqcıl yer tutmağa imkan vermirdi. Belə müəssisələrin, habelə doldurma stansiyalarının və körpülərinin sahibləri arasında onlar yalnız 21 faiz təşkil

---

[52] Исмаилов М.А. К вопросу о ликвидации откупной системы в азербайджанской нефтяной промышленности. В кн.: Труды Института истории и философии АН Азерб., т. II. Bakı, 1952, səh.73-104.
[53] M.C.İbrahimov. XIX əsrin axırlarında - XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesində milli kapital problemi. Azərbaycan, № 276, Ankara, 1990. səh. 34.
[54] Баку и его районы. 1914, səh. 330-340.
[55] ADTA, fond-389, siyahı 1, iş 8, vərəqlər 2-3 arxada.

edirdilər[56]. Onların müəssisələrində bütün neft məhsullarının yalnız 8,1 faizi hazırlanmışdı[57].

Neft emalı sənayesində Azərbaycan sahibkarlarının iştirakının azalması meyli əsrin əvvəllərində də davam etmişdir. Məsələn, 1904-cü ildə Azərbaycan sahibkarlarına məxsus 19 neft emalı müəssisəsindən 11-i başqa millətlərdən olan sahibkarlara icarəyə verilmişdi, 4-ü il ərzində işləməmişdi. Fəaliyyət göstərən başqa müəssisələrdən 4-ü Azərbaycan kapitalının iri nümayəndələrinə - Ş.Əsədullayevə, M.Nağıyevə, H.M.Vəzirova və İ.Hacınskiyə məxsus idi[58]. Həm də bu müəssisələrdə istehsal olunan neft məhsullarının ümumi həcmi 1904-cü ildə Bakı rayonunda onların istehsalının yalnız 4,7 faizini təşkil edirdi[59]. 1906-cı ilə dair məlumatlara görə isə, fəaliyyət göstərən 77 müəssisədən artıq 20-si azərbaycanlılara məxsus idi[60] ki, bu da onların mövqeyinin möhkəmlənməsini sübut edirdi. 1913-cü ildə isə M.Əsədullayevin və M.Nağıyevin zavodları bütün neft emalı zavodlarının 45 faizə qədərinə sahib olan və Rusiyanın neft məhsullarının 60 faizə qədərini istehsal edən 6 ən güclü müəssisə qrupuna daxil idi.

Kimya sənayesinin inkişafı neft emalı ilə sıx bağlı idi. XX əsrin əvvəllərində Azərbaycan sahibkarları kimya müəssisələri (sulfat turşusu, kaustik soda və s. istehsal edən) sahiblərinin ümumi sayının 10 faizini təşkil edirdilər.

Maşınqayırma sənayesində milli kapital istər müəssisələrin və işçilərin sayına, istərsə də istehsalın həcminə görə zəif mövqe tuturdu[61]. Metal emalı sənayesində Azərbaycan kapitalı daha sanballı təmsil olunmuşdu. Bakının mexaniki zavodlarından birinin şərikli sahibi H.Z.Tağıyev idi[62]. XIX əsrin axırlarında bu sahədə M.Muxtarova, Cavanşirov qardaşlarına və başqalarına[63] məxsus xeyli müəssisə qazma avadanlıqlarının təmiri üzrə ixtisaslaşmışdı. M.Muxtarovun podrat qazma ilə məşğul olan iki mexaniki zavodu var idi. Onlardan ən böyüyü Sabunçu zavodu idi. Bu iki nəhəng müəssisədə fəhlələrin bir qismi qazma işləri ilə, digər qismi isə qazma ləvazimatının istehsalı və təmiri ilə məşğul idi[64]. M.Muxtarovun müəssisələri tədricən genişlənirdi. 1913-cü ildə daha bir mexaniki zavod inşa edildi. Bu zavod mədənləri iri qazma texnikası ilə təmin edirdi[65].

---

56 Azərbaycan tarixi, 2-ci cild, səh. 256.
57 ТИЕА, fond 1, siyahı 1, iş 5886, səh. 177-178.
58 Справочный ежегодник на 1906 г. Вся промышленность Баку и Бакинской губернии на 1906 г. Отдел V. Hesablamalar müəllifindir - D.S.
59 Обзор бакинской нефтяной промышленности за 1904 г., т. II, ч. II, səh. 45-47, 50-52, 53-54. Hesablamalar müəllifindir - D.S.
60 Баку и его районы, 1908, səh. 121-124.
61 Исмаилов М.А. Промышленность Баку в начале XX века. Bakı, 1976, səh. 29.
62 Ст.Гулишамбаров. Обзор фабрик и заводов Бакинской губернии. Tiflis, 1890, səh. 231.
63 Бакинский справочный календарь на 1898 г. Bakı, 1897, səh.17, 24
64 Исмаилов М.А. Промышленность Баку в начале XX в. səh. 31.
65 Исмаилов М.А. Промышленность Баку в начале XX в. səh. 31.

XX əsrin əvvəllərində Azərbaycanda 12-14 maşınqayırma müəssisəsi milli kapitala məxsus idi, onlar öz istehsal işini əsasən neft emalının tələbatına uyğun qururdular[66]. Bu sənaye sahəsi müəssisələrinin xeyli hissəsini təmir emalatxanaları təşkil edirdi. Onların arasında milli kapitalın payı təxminən dörddə bir qədər idi.

Buxar qazanları istehsal edən iri müəssisələr siyahısına M.Nağıyevin də müəssisəsi daxil idi. Müəssisədə 1500-2000 fəhlə işləyirdi[67]. Bütövlükdə isə bu sahədə milli kapital XX əsrin əvvəllərində 3-4 kiçik müəssisə ilə təmsil olunmuşdu ki, bunların da hər birində 15-20 fəhlə işləyirdi[68]. Metal emalı üzrə kiçik müəssisələrin sahibləri sırasında Azərbaycan sahibkarlarından S.Abdullayev, M.Səlimov və başqaları var idi[69].

Gəmi təmiri sahəsində də milli sahibkarların müəssisələri var idi. 12 gəmi təmiri müəssisəsinin yarısı onlara məxsus idi. Məsələn, H.Z. Tağıyevə məxsus olan gəmi təmiri emalatxanası, Ə.Ə.Dadaşovun vərəsələrinin gəmi tərsanəsi və mexaniki emalatxanaları, İ.V.Vəliyevin mexaniki emalatxanaları və s. var idi.[70] 1900-1903-cü illərdə Azərbaycan sahibkarlarına məxsus olan gəmi təmiri müəssisələrinin xüsusi çəkisi istehsalın həcminə görə 18,2 faiz təşkil edirdi[71].

Energetikada Azərbaycan kapitalı H.Z.Tağıyevin "Elektriçeskaya sila" səhmdar cəmiyyətində iştirakı ilə təmsil olunmuşdu. Tağıyev cəmiyyətin direktorlarından biri idi[72]. O, 1907-ci ildə Əhmədlidəki iplik fabrikinin ehtiyacları üçün lazımi miqdarda elektrik enerjisi buraxılması barədə bu cəmiyyət ilə müqavilə bağlamışdı[73]. Bundan əlavə XX əsrin əvvəllərində Bakı rayonunda 12 xüsusi kiçik elektrik stansiyası inşa edilmişdi. Bunlar Ş.Əsədullayevə, H.B.Aşurova, T.Qulubəyova və başqalarına məxsus idilər. İki elektrik stansiyasını Tağıyev tikdirmişdi: bunlardan biri onun Zığdakı fabrikini təchiz etmək üçün idi, ikincisi isə şəhərdə Olqinskaya küçəsindəki pasajda (indiki univermaq) idi[74].

Milli sahibkarların az-çox mühüm mövqe tutduqları başqa təsərrüfat sahələrindən fərqli olaraq ipəkçilik sənayesinin yaranması və inkişafı bilavasitə Azərbaycan kapitalı ilə bağlı idi. 1903-cü ildə Azərbaycanda mövcud olan 105 baramaaçma və ipək emalı müəssisəsindən 57-si milli sahibkarların nümayəndələrinə məxsus idi. Nuxada və Nuxa qəzasında bu sahənin müəssisələrinin üçdə iki hissəsi Ə.H.Məmmədova (142 fəhləsi olan ən iri fabrikin

---

[66] ADTA, fond 509, siyahı 1, iş 18, vərəqlər 26, 46, 48-49; iş 28, vərəq 27-42.
[67] Исмаилов М.А. Промышленность Баку в начале XX в. səh. 41.
[68] Нуриева З.Н. Göstərilən əsər, səh. 13.
[69] Сумбатзаде А.С. Социально-экономические предпосылки победы советской власти в Азербайджане. М., 1972, səh. 156.
[70] Справочный ежегодник на 1906 г. Вся промышленность Баку и Бакинской губернии. Отдел V. Промышленность. Bakı, 1906, səh. 8-9.
[71] Исмаилов М.А. Промышленность Баку в начале XX века, cəh.50.
[72] Справочный ежегодник на 1906 г. səh. 8.
[73] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 82.
[74] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 82.

sahibi), Mehdi Hacıəbdül oğluna, Hacısüleyman Hüseyn oğluna, Əbdülkərim Hacı oğluna, Salam Lətif oğluna və başqalarına məxsus idi[75]. Bu sənaye sahəsində "Şamil və Aslan Sərkərov qardaşları", "Nadir və Hacı Məmmədrəsulov qardaşları", "Səlimov qardaşları", "Bünyadov qardaşları" və başqa ticarət evləri görkəmli yer tuturdu[76]. Digər ipəkçilik rayonlarında - Qarabağda və Naxçıvanda Azərbaycan kapitalının mövqeyi nisbətən zəif idi. Ordubad sahibkarlarından R.Rzayevin, H.İ.Hacıyevin, H.M.Babayevin, H.Fərəcovun və başqalarının fabriklərini qeyd etmək lazımdır[77]. 1908-ci ildə Azərbaycanda 131 fabrik var idi ki, bunlarda da təxminən 6000 fəhlə işləyirdi. 1915-ci ildə 169 ipək emalı müəssisəsində 10 mindən çox fəhlə çalışır, 14 milyon rubldan çox məbləğdə məhsul istehsal edilirdi[78]. Azərbaycanda çox yüksək keyfiyyətli ipək istehsal olunurdu və buna görə də o, dünyada geniş şöhrət qazanmışdı. Azərbaycanlı ipək sənayeçiləri L.Lətifovun, Ə.Əbdürrəhmanovun, Rəhimov qardaşlarının, Ə.Məmmədovun, İ.Nağıyevin, R.Rzayevin, M.Babayevin və başqalarının fabriklərində əldə olunmuş xam ipək bir çox beynəlxalq və Ümumrusiya sərgilərinin qızıl və gümüş medallarına layiq görülmüş, K.Babayevin müəssisəsi isə yüksək keyfiyyətli məhsul buraxdığına görə 13 dəfə qızıl medal almışdı[79].

XX əsrin axırlarında inkişaf etməkdə olan pambıqçılığın bazasında sənayenin yeni bir sahəsi - pambıqtəmizləmə sahəsi yaranmışdı. Sahənin müəssisələrinin xeyli hissəsi Azərbaycan sahibkarlarına məxsus idi. Bakıda tikilmiş və H.Z.Tağıyevə məxsus olan Azərbaycanda ilk pambıq parça fabriki iri kapitalist müəssisəsi idi. Fabrik 1900-cü ildə işə başlamışdı. 1905-ci ildə fabrikin illik məhsuldarlığı 2,2 milyon rubl təşkil etmişdi[80]. Tağıyevin Bakıda toxuculuq fabriki də var idi. 1912-ci ildə Yelisavetpol və Bakı quberniyalarının 50 pambıqtəmizləmə zavodundan 26-sı azərbaycanlılara məxsus idi ki, bu da 52 faiz təşkil edirdi. İrəvan quberniyasında mövcud olan 200 müəssisədən 80-i, yəni 40 faizi Azərbaycan kapitalına məxsus idi, Naxçıvan qəzasında isə bütün zavodların yarısı azərbaycanlıların əlində idi[81].

Milli sahibkarlar qonşu regionların pambıqtəmizləmə sənayesinə də kapital qoyurdular. Qeyd etmək lazımdır ki, Zaqafqaziyada demək olar bütün toxuculuq sənayesi Azərbaycan kapitalistlərinin nəzarəti altında idi. Mahmudbəyov və Məstanzadə qardaşlarının Tiflisdəki fabriki öz istehsal gücünə görə yalnız Tağıyevin Bakıdakı fabrikindən geri qalırdı. Burada şəhərin sənaye həyatında çox böyük nüfuzu olan "İbrahim bəy Şirinbəyov və K$^{0}$" şirkəti də var idi. Şirkət

---

75 Сумбатзаде А.С. Göstərilən əsər, səh. 155.
76 T.T.Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı, Bakı, 1987, səh. 94.
77 Yenə orada, səh. 96.
78 Нуриева З.Н. Göstərilən əsər, səh. 20.
79 T.T.Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı, səh. 96.
80 Алиева Л.Л. Göstərilən əsər, səh 17-31.
81 T.T.Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı, səh. 102.

Yelisavetpolda xüsusi şöbə açmışdı. 1913-cü ildə H.Z.Tağıyev Dərbənddə "Xəzər manufakturası" səhmdar cəmiyyətini aldı. Bu cəmiyyət əvvəllər rus kapitalistlərinə məxsus idi. Orta Asiyada, xüsusən də Türkmənistanda Azərbaycan kapitalının xüsusi çəkisi böyük idi. Bakının birinci gildiyaya mənsub tacirləri X.M.Mövlamov və M.Nağıyev tərəfindən Kızılarvadda yaradılmış "Pambıq" səhmdar cəmiyyətinin əsas kapitalı 1,2 milyon rubl təşkil edirdi. Moskvada "M.S.Əliyev və X.B.Hacıhəsənski" və "M.K.Mehdiyev və oğlanları" ticarət evləri var idi. "Əliyev qardaşları" şirkətinin Ucarda pambıqtəmizləmə zavodu, Rusiyanın bir çox şəhərlərində, o cümlədən Moskvada, Nijni Novqorodda, habelə Türkiyədə, İranda, Yunanıstanda ticarət müəssisələri və şöbələri var idi[82].

XIX əsrin axırıncı rübündə Azərbaycanda unüyütmə-düyüarıtma müəssisələri yarandı. XIX əsrin 90-cı illərində Bakıda 12 unüyütmə-düyüarıtma müəssisəsi var idi ki, onların da sahibləri arasında milli kapitalı Hacıməcid Həmid oğlu təmsil edirdi[83]. 1896-cı ildə Ağabala Quliyevin iri dəyirmanı inşa edildi. Ağabala Quliyevin sahibkarlıq fəaliyyəti təkcə Bakı ilə məhdudlaşmırdı. Onun dəyirmanının məhsullarını Azərbaycanın, Zaqafqaziyanın başqa rayonlarında, Rusiyanın iri mərkəzlərində - Moskvada, Peterburqda, Varşavada, Rostovda, Həştərxanda və başqa yerlərdə tanıyırdılar. Onun Bakıda dəyirmandan və düyü zavodundan başqa Stavropolda, Georgiyevskdə 3 dəyirmanı da var idi. O, 1915-ci ildə öz müəssisələrini "Ağabala Quliyevin unüyütmə və düyüarıtma dəyirmanlarının Qafqaz səhmdar cəmiyyətinə" çevirdi. Onun müəssisələri ən yeni texnologiya və ən müasir maşınlarla təchiz edilmişdi.

1914-cü ildə Bakıdakı 24 unüyütmə və düyüarıtma müəssisəsindən 8-i azərbaycanlılara məxsus idi. 1905-ci ildə H.Z.Tağıyevə, A.B.Quliyevə, H.A.Rzayevə, Ə.B.Əliyevə, M.S.Kərimova, R.K.Babayevə, M. və Ə.Rəsulov qardaşlarına sənayenin bu sahəsinin ümumi məhsulunun 25 faizindən çoxu məxsus idi[84]. 1907-ci ildə Bakıda çörək-bulka məmulatlarının bişirilməsi ilə məşğul olan 192 müəssisə var idi. Bu müəssisələrin çoxu azərbaycanlıların idi[85]. Onların bir sıra kiçik yeyinti məhsulları sənayesi müəssisəsi - makaron fabrikləri, mineral su, buz, qənnadı məmulatları və sair istehsalı üzrə zavodları var idi. Əksər hallarda bu müəssisələr sadə kapitalist kooperasiyası şəklində təşkil edilmişdi.

XIX əsrin axırlarında milli kapitalın nümayəndələri olan M.Q.Dadaşova, Novruzova və Zülfüqarova Nuxada fəaliyyət göstərən 3 tütün fabriki məxsus idi[86]. Şamaxıda 2 maxorka fabrikinin sahibləri H.Abdullayev və Həsənov idilər[87]. Azərbaycan kapitalistlərinin Yelisavetpolda, Şuşada və Qubada da kiçik tütün

[82] T.T.Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı, səh. 102.
[83] Сумбатзаде А.С. Göstərilən əsər səh.153.
[84] Справочный ежегодник на 1906 г., отдел V. Промышленность.
[85] Баку и его районы. 1908, səh. 142.
[86] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Bakı, 1964, səh. 380-381.
[87] Yenə orada səh. 383.

müəssisələri var idi[88]. H.Zeynalovun və Ə.Sultanovun Bakıda papiros gilizləri istehsal edən fabriki var idi[89]. 1905-ci ildən Bakıda Əzimbəyovun buxar mühərriki ilə işləyən tütün tabriki işə başladı[90]. Bütün bu fabriklər yerli xammal əsasında işləyirdilər, hərçənd bəzən Hacının fabriklərinə Kutaisidən də tütün gətirilirdi.

İnşaat materiallarının istehsalı sahəsində Azərbaycan kapitalı kərpic zavodlarının sahibləri Həsənov və Əmiraslanov qardaşları, H.F.Əliyev və gipsolit müəssisəsinin sahibi Babayev və başqaları tərəfindən təmsil olunmuşdu[91]. Bakının 25 kərpic zavodundan 10-u azərbaycanlılara məxsus idi[92]. Odadavamlı gil yatağının işlənməsi hesabına Gədəbəy və Qalakənd misəritmə zavodları odadavamlı kərpiclərdən istifadə edirdilər. Bu yataq Qazax qəzasının iri torpaq sahibi Nəsib bəy Sultanova məxsus idi[93]. XX əsrin əvvəllərində Bakıda Mehdiyevin mərmər zavodları, Dadaşovun beton zavodu, Qədirovun mərmər və sement zavodu, Orucovun dülgər emalatxanası, Ağa Qədirovun "Şəms" mozayka məmulatları fabriki və s. fəaliyyət göstərirdi[94].

H.Z.Tağıyevə və Orucov qardaşlarına məxsus mətbəələr poliqrafiya işində iri müəssisələr idilər[95].

Balıqçılıq sənayesi Azərbaycan iqtisadiyyatında böyük əhəmiyyət daşıyaraq öz müəssisələrində 46 minə yaxın fəhləni birləşdirirdi. Bu müəssisələrin illik məhsul istehsalının həcmi 77 milyon rubl təşkil edirdi[96]. XIX əsrin axırlarında 12 ən iri sahibkardan dördü azərbaycanlı idi - H.Z.Tağıyev, Sultanov, Əhməd Mustafa oğlu, Ağa Mustafa oğlu. 1906-cı ildə M.Nağıyev, M.Muxtarov, T.Səfərəliyev, H.Z.Tağıyev və başqaları külli miqdarda kapital qoyaraq Kür çayında iri vətəgələr aldılar[97]. Elə həmin il M.Nağıyev, T.Səfərəliyev və B.Rüstəmbəyov "Kür balıqçılıq sənayesi" şirkətini yaratdılar. 1909-cu ildə H.Z.Tağıyev balıqçılıq sənayesinə təxminən 1 milyon rubl vəsait qoydu, 1910-cu ildə o, Kürün ən iri vətəgələrindən biri olan "Bankə vətəgəsini" aldı[98].

Azərbaycan sahibkarları gərgin rəqabət mübarizəsi şəraitində öz istehsalat işlərini aparmalı olurdular. Buna baxmayaraq onlar özlərinin Kür balıqçılıq vətəgələrinin hamısının müstəqilliyini qoruyub saxlaya bildilər. Yaxşı avadanlıqla təchiz olunmuş 30 vətəgənin sahibi Tağıyev isə 1916-cı ildə onların bazasında

---

88 Yenə orada səh.385.
89 Справочный ежегодник на 1906 г., səh. 2-3.
90 Исмаилов М.А. Промышленность Баку в начале XX века, səh. 92.
91 Фабрично-заводские предприятия Российской империи, ч. II, 1914.
92 Нуриева З.Н. Göstərilən əsər, səh. 19.
93 Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX веке, səh. 260.
94 Нуриева З.Н. Göstərilən əsər, səh. 19.
95 Справочный ежегодник на 1906 г., səh. 2-3.
96 Исмаилов М.А. Сопиально-экономическая структура Азербайджана в эпоху империализма. Bakı, 1982, səh. 66.
97 T.T.Vəliyev. İmperializm dövründə Azərbaycan sənayesi və proleriatı, səh. 128.
98 Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 85.

"Xəzər-Tağıyev" balıqçılıq sənayesi və ticarət səhmdar cəmiyyətini yaratdı. Bu cəmiyyətin əsas kapitalının üçdə iki hissəsi ona məxsus idi. Müəssisənin idarə heyəti Bakıda yerləşirdi[99].

XIX əsrin axırlarında - XX əsrin əvvəllərində Xəzər dəniz nəqliyyatı gəmilərinin xeyli hissəsi Azərbaycan sahibkarlarına məxsus idi. Xəzərdə iri paroxod sahibləri sırasında H.Ş., H.Ə. və Ə.Ə.Dadaşovlar, M.Rəsulov, Ə.Useynov, M.S.Manafov, M.Nağıyev, H.Z.Tağıyev var idilər. Ümumi tutumu 18,5 min ton olan 36 buxar gəmisi onlara məxsus idi[100]. Xəzər donanmasının uçota alınmış gəmilərinin ilkin dəyərinin hesablamaları göstərir ki, 1900-cü ilin axırlarında Xəzərdə üzən paroxodların və yelkənli gəmilərin istər hazırlanmasına, istərsə də alınmasına Azərbaycan kapitalının xərcləri 17,4 milyon rubl təşkil etmişdir[101].

1900-cü ilin axırlarında Xəzər donanması gəmiləri sahiblərinin milli mənsubiyyətə görə bölgüsünün tədqiqi göstərdi ki, Azərbaycan kapitalı gəmilərin ümumi sayında, yanacaqdoldurma və quruyüklü-sərnişin gəmiləri donanmasının və yelkənli gəmi donanmasının gəmilərinin sayında birinci yer tutmuşdur. Məsələn, gəmilərin ümumi sayında azərbaycanlı gəmi sahiblərinin xüsusi çəkisi 54,5 faiz, yanacaqdoldurma donanması gəmilərinin sayında 53,6 faiz, quruyüklü-sərnişin donanması gəmilərinin sayında 55,4 faiz, yelkənli gəmi donanmasının sayında 64,3 faiz təşkil edirdi[102]. 1904-cü ildə Bakıda 60 gəmi kontoru var idi ki, bunların da 32-si azərbaycanlıların idi[103].

Senator Kuzminskinin verdiyi məlumata görə Azərbaycan kapitalistləri "gəmiçilik sahəsində çox iri sahibkarlar idilər, onların bəzilərinin payına isə sənayenin bu sahəsi üzrə rüsumların və gəlirin 3/4 hissəsindən çoxu düşürdü"[104].

1902-1905-ci illərdə Bakı şəhər dumasına seçkilərdə iştirak etmək hüququ olan azərbaycanlı gəmi sahibləri arasında göstərilən şəxslərdən başqa H.B.Aşurov, N.Mehdiyev, Ə.B.Nəcəfquliyev, Ə.İsgəndərov, H.Ə.Cəbrayılov, Ə.H.Tağıyev və başqaları var idilər[105].

XX əsrin əvvəllərində Xəzərdə bütün ticarət donanmasının say tərkibinin 44,4 faizi və yükqaldırma qabiliyyətinin 42,1 faizi Azərbaycan kapitalının nümayəndələrinə məxsus idi[106]. 1907-ci ildə Xəzərin buxarla işləyən

---

[99] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 86-87.

[100] Стригунов И.В. Формирование бакинского пролетариата (70-90-е годы XIX в.) Докт. дисс, Bakı, 1965, TİEA, fond 1, siyahı 1, iş 5886, səh.155.

[101] Стригунов И.В. Формирование бакинского пролетариата (70-90-е годы XIX в.) Докт. дисс, Bakı, 1965, TİEA, fond 1, siyahı 1, iş 5886, səh. 314.

[102] Стригунов И.В. Формирование бакинского пролетариата (70-90-е годы XIX в.) Докт. дисс, Bakı, 1965, TİEA, fond 1, siyahı 1, iş 5886, səh. 314-315.

[103] ADTA, fond 387, siyahı 1, iş 24.

[104] Отчет сенатора А.М.Кузьминского, səh. 94.

[105] ADTA, fond 50, siyahı 1, iş 194, vərəqlər 4-25.

[106] Гусейнова Д.С. Развитие морского транспорта, формирование кадров рабочих-моряков Азербайджана и их революционные выступления (90-е годы XIX в. - 1907 г.). Автореф. канд. дисс. Bakı 1975,səh.21.

yanacaqdoldurma donanmasının 129 şxunundan 20-si öz neftayırma zavodları olan gəmi sahiblərinə - "Nobel qardaşları", "Ş.Əsədullayev", "M.Nağıyev", "M.S.Manafov" şirkətlərinə məxsus idi[107]. Xəzər dənizinin cənub limanları və İran ilə əlaqə saxlayan Xəzərdəki ən iri müəssisələrdən biri H.Z.Tağıyevin "Kür-Xəzər cəmiyyəti" idi. Cəmiyyətin quruyüklü-sərnişin, yanacaqdoldurma və maldoldurma donanmaları var idi[108].

1903-cü ildə H.Z.Tağıyevin təşəbbüsü ilə gəmi sahibləri Bünyadovun, Aşurovun, Manafovun, Useynovun və başqalarının iştirakı ilə saziş imzalanaraq "Yanacaqdoldurma şxunları ittifaqı" adlı sindikat yaradıldı. "Nobel qardaşları" şirkəti və "Mazut" birliyi də onlara qoşuldu. Sindikatın üzvləri olan sahibkarlar Rusiyanın daxili bazarlarına neft yüklərinin daşınması barədə iri firmalardan zəmanət alırdılar[109]. İri paroxod firmalarının inhisarına qarşı mübarizədə azərbaycanlı gəmi sahiblərinin birləşməsi öz bəhrəsini verdi - 1914-cü ildə buxar gəmiləri donanmasının say tərkibinin 55 faizə qədəri və yükqaldırma qabiliyyətinin 40,1 faizi onlara məxsus idi. Milli kapital Xəzər yanacaqdoldurma donanmasında yüksək xüsusi çəkiyə və sabit mövqeyə malik idi[110].

Bakıda, Şamaxıda, Yelisavetpolda, Nuxada, Şuşada və başqa şəhərlərdə cəmləşmiş Azərbaycan ticarət sahibkarlığının mühüm tərkib hissələrindən birini milli kapital tuturdu. Azərbaycan tacirlərinin xeyli hissəsi Bakıda toplaşmışdı. 1897-ci ildə Azərbaycanda ticarət əməliyyatları aparan 20 min tacirdən 7,3 mini və ya 36,5 faizi Bakının və Bakı qəzasının payına düşürdü. Bakıda gildiya qaydalarının tətbiqinin lap əvvəlindən, yəni 1876-cı ildən Azərbaycanın iri tacirləri ticarət üçün "şəhadətnamələr" aldılar, onların bəziləri - H.Dadaşov, H.Ş.Dadaşov, H.K.Aşurov, H.M.Qədirov isə birinci gildiya tacirləri oldular[111]. 1899-cu ildə Bakıda artıq 72 nəfər birinci gildiya taciri var idi ki, bunların da 14-ü azərbaycanlı idi. 122 nəfər ikinci gildiya tacirləri arasında 13 azərbaycanlı var idi[112]. 1897-ci ildə Azərbaycan tacirlərinin Bakıda əmtəə dövriyyəsi 21,5 milyon rubl və ya şəhərin bütün əmtəə dövriyyəsinin 19,6 faizini təşkil edirdi[113]. Bu zaman Bakı şəhərinin ümumi əmtəə dövriyyəsində 250 min rubldan 1 milyon rubladək əmtəə dövriyyəsi olan tacirlər ən böyük xüsusi çəkiyə (84,3 faiz) malik idilər; onların 28 faizini azərbaycanlılar - H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, H.M.Qədirov,

---

[107] Гусейнова Д.С. Рабочие-моряки Каспия (90-е годы XIX в. - 1907 г.). Автореф. канд. дисс. Bakı, 1981, səh. 39.
[108] Гусейнова Д.С. Рабочие-моряки Каспия (90-е годы XIX в. - 1907 г.). Автореф. канд. дисс. Bakı, 1981, səh. 35-36.
[109] Yenə orada səh. 41.
[110] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 75.
[111] Мусаев М.А. Развитие торговли гор. Баку в период капитализма. (1860-1917). Автореф. докт. дисс, Bakı, 1970, səh. 17.
[112] Мусаев М.А. Некоторые особенности развития внутренной торговли гор. Баку в конце XIX в. Известия АН Азербайджана, серия экономики, 1968, № 1.
[113] ADTA, fond 43, siyahı 43-2, iş 784, vərəqlər 1-125; iş 785, vərəqlər 1- 62; iş 807, vərəqlər 1-158; iş 809, vərəqlər 1-84; iş 810, vərəqlər 1-112. Hesablamalar müəllifindir - D.S.

Zeynalov, Cəfərov və başqaları təşkil edirdilər[114]. 1903-cü ildə Bakıda 14945 tacirdən 7084-ü azərbaycanlı idi[115]. 1913-cü ildə Bakı şəhərinin azərbaycanlılarına bütün ticarət müəssisələrinin 53 faizi məxsus idi. Bu ticarət müəssisələrinin böyük bir hissəsi III və IV dərəcə müəssisələr idi, başlıca etibarilə pərakəndə kiçik ticarət ilə məşğul olurdular[116].

Bakı tacirlərinin ticarət əməliyyatlarında neft məhsullarının ixracı kifayət qədər mühüm yer tuturdu. Nəqliyyat vasitələrinə malik olan Bakı sahibkarları nəinki böyük miqdarda neft məhsulları apara bilirdilər, həm də Rusiya və xarici bazarlarda onları yaxşı sata bilirdilər. Ş.Əsədullayevin, M.Nağıyevin, H.Z.Tağıyevin apardığı neft məhsularının həcmi ildə 10 milyon puddan çox idi. XX əsrin əvvəllərində H.Z.Tağıyevin ticarət firmasının Rusiyanın bir çox şəhərlərində çoxsaylı nümayəndəlikləri var idi. O, Moskvada ticarət əməliyyatları keçirmək üçün çoxmərtəbəli mülk, İranda karvansaray almışdı. Bakıda Tağıyevin pasajı alıcılar arasında böyük populyarlıq qazanmışdı[117]. Neft məhsulları ticarətində onun illik dövriyyəsi 5 milyon rubl məbləğində idi. XX əsrin əvvəllərində "Ş.Əsədullayev" firmasının ticarət-istehsal əməliyyatları genişləndi. Onun müəssisələrinin ticarət dövriyyəsi 2 milyon rubldan çox idi. Rusiyanın bir çox sənaye mərkəzlərində - Povoljyedə, Peterburqda, Moskvada, eləcə də Orta Asiyada, İranda, Polşa çarlığında neft məhsullarını saxlamaq üçün anbarlar tikilmişdi.

1898-ci ildə gildiya ticarət və sənaye müəssisələrindən toplanmış əlavə vergilərə dair məlumatlar Bakı quberniyasının başqa şəhərlərində ticarət və sənaye fəaliyyətində Azərbaycan kapitalının iştirakını sübut edir. Məsələn, Şamaxıda bu vergiləri ödəyən 114 şəxsdən 90-ı, Lənkəranda 54 nəfərdən 38-i, Qubada 102 nəfərdən 55-i azərbaycanlı idi[118]. Azərbaycan tacirlərinin nümayəndələri Yelisavetpol quberniyasında da ticarətə sərmayə qoyurdular. Məsələn, 1895-ci ildə Yelisavetpolda birinci və ikinci gildiyalara məxsus 160 tacirdən 45-i azərbaycanlı idi. Həmin il Şuşada bu kateqoriyadan olan 319 tacirdən 61 -i, Nuxada isə ikinci gildiyadan olan 83 tacirdən 48-i azərbaycanlı idi[119]. Yelisavetpolun ticarət kapitalının iri nümayəndələri arasında azərbaycanlılardan Ə.H.Əsgərovun, H.B.Quliyevin, İ.H.Rəhimovun, K.A.Eldarovun və başqalarının, Şuşada H.İ.Allahverdiyevin, H.M.Səfərovun, Ş.M.Kazımovun, Ə.K.Məmmədovun, M.Vəzirovun və başqalarının, Nuxada H.M.Həmidovun, H.M.Xəlilovun, S.M.Əliyevin və başqalarının adlarını çəkmək olar[120].

[114] ADTA, fond 43, siyahı 43-2, iş 784, vərəqlər 1-125.
[115] Мусаев М.А. Развитие торговли гор. Баку в период капитализма, səh. 91.
[116] Мусаев М.А. Развитие торговли гор. Баку в период капитализма, səh. 92.
[117] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 89.
[118] ADTA, fond 43, siyahı 29, iş 383. Hesablamalar müəllifindir - D.S.
[119] ADTA, fond 43, siyahı 43-2, iş 797. Hesablamalar müəllifindir. - D.S.
[120] ADTA, fond 43, siyahı 43-2, iş 797.

1903-cü ilə aid olan məlumatlara görə, Yelisavetpolda ticarət müəssisəsi üçün tacirlik şəhadətnaməsi almış 593 adamdan 406-sı və ya 68,4 faizi azərbaycanlı tacirlər idilər[121].

Milli kapitalın nümayəndələri taxıl, bakaleya malları, yun, gön-dəri məmulatları, meyvə sahəsində demək olar bütün topdansatış ticarətini öz əllərində cəmləşdirmişdilər. İran ilə ənənəvi ticarət onların tam nəzarəti altında idi. Neft və neft məhsulları, metal və metal məmulatları, taxta-şalban ticarətində Azərbaycan tacirlərinin mövqeyi bir az zəif idi[122].

Azərbaycan kapitalının ticarətdə geniş təmsil olunduğuna baxmayaraq Azərbaycanın iri ticarət firmalarının sayı az idi. Senator Kuzminskinin məlumatlarına görə, Bakı quberniyasında azərbaycanlıların ticarət müəssisələrinin 3/5 hissəsi xırda, pərakəndə ticarətin payına düşürdü[123]. Bununla yanaşı XX əsrin əvvəllərində Bakıda, Yelisavetpolda, Şuşada, Nuxada və bəzi başqa şəhərlərdə Azərbaycan tacirlərinin böyük kapitalı olan ticarət evləri var idi: "Əli Əliyev və Ко" - manufaktura ticarəti - illik dövriyyəsi 150 min rubl, "Abdulla Dadaşov və K$^0$ " parfümeriya, əczaçılıq, qalantereya və başqa mallar ticarəti – 56 min rubl və s.[124]

Milli sahibkarların nümayəndələrindən H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, H.Dadaşov, H.B.Aşumov və bəzi başqaları eyni zamanda sənaye müəssisələrinin, dəniz gəmilərinin, ticarət müəssisələrinin də sahibləri[125] idilər ki, bu da onların iqtisadi mövqelərini möhkəmləndirir və sərəncamlarında iri kapital olduğunu göstərirdi.

XIX əsrin axırlarında - XX əsrin əvvəllərində Azərbaycanda bank sahibləri arasında milli sahibkarların nümayəndələri yox idi, hərçənd ki onlar mövcud kredit-bank müəssisələrindən gen-bol kredit alırdılar, onlardan bəzilərinin isə (məsələn, Ş.Əsədullayev, M.Nağıyev və başqaları) öz bankir kontorları var idi. Bakı birja cəmiyyətində azərbaycanlılar yalnız 14 nəfər və ya 5 faiz təşkil edirdilər[126]. 1904-1913-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə "H.Z.Tağıyev" bankir kontoru da daxil oldu. Tağıyev Dövlət bankı uçot komitəsinin üzvü seçildi. Ona və milli kapitalın bəzi nümayəndələrinə Rusiyanın iri bankları kreditlər verirdilər. Dövlət bankının Bakı şöbəsi Tağıyevə böyük kreditlər verərək onun böyük sərvətə malik olduğunu nəzərə alırdı. 1907-ci ildə Tağıyevin sərvəti 16 milyon rubl məbləğində qiymətləndirilirdi[127].

1914-cü ildə H.Z.Tağıyevin M.Nağıyev ilə fəal iştirakı sayəsində 3 milyon rubl məbləğində əsas kapitalı olan Bakı Tacir Bankı açıldı.[128] Bankın Şurasına

[121] ADTA, fond 419, siyahı 1, iş 6, vərəqlər 1-112. Hesablamalar müəllifindir - D.S.
[122] Отчет сенатора А.М.Кузьминского, səh. 94.
[123] Отчет сенатора А.М.Кузьминского, səh. 94.
[124] Мусаев М.А. Развитие торговли гор. Баку в период капитализма, səh. 74, 75.
[125] ADTA, fond 50, siyahı 1, iş 194, vərəqlər 5-24.
[126] "Баку" qəzeti, 10 iyun 1905-ci il.
[127] Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 89-90.
[128] Мусаев М.А. Göstərilən əsər, səh. 97.

milli kapitalın nümayəndələrindən H.Z.Tağıyev (şuranın sədri), Ş.Əsədullayev, A.Əhmədov, S.Z.Tağıyev, A.Q.Tağıyev, idarə heyətinin üzvlüyünə M.Nağıyev (idarə heyətinin sədri), F.b.Rüstəmbəyov, təftiş komissiyasının tərkibinə Ə.Ə.Kərimov, M.Ə.Miriyev daxil oldular[129]. Bank təsisçilərinin başlıca məqsədi sənaye və ticarət müəssisələrinin geniş məbləğdə maliyyələşdirilməsi, ilk növbədə Azərbaycan sahibkarlarına kömək göstərilməsi idi. Onlar müxtəlif təsərrüfat sahələrinin inkişafına, mədəni-maarif müəssisələri şəbəkəsinin genişlənməsinə kömək göstərməyi qarşılarına vəzifə qoymuşdular və perspektivdə diyarın bir sıra digər şəhərlərində Bankın şöbələrini açmaq niyyətində idilər. 1915-ci ildə Bankın Şurasına Azərbaycan sahibkarlarının daha bir neçə nümayəndəsi - Əli bəy Aşurbəyov, Ağa Muxtarov, Səfər Əliyev, Zeynal bəy Səlimxanov seçildilər[130]. Çox tezliklə Bankın səhmlərinə şəhərin kredit müəssisələri arasında böyük tələbat yarandı. Öz növbəsində Bank da Rusiya banklarının səhmlərinə maraq göstərir. Petroqrad kommersiya bankı ilə onu daha sıx əlaqələr birləşdirirdi. Bank müstəqilliyini saxlamaqla daim Petroqrad bankı ilə əlaqələri genişləndirirdi, 1915-ci ildə isə meşə sənayesinin maliyyələşdirilməsini genişləndirmək məqsədi ilə Rusiyanın bütün əyalət banklarını birləşdirmək ideyasını irəli sürdü. Tacir Bankının açılması və fəaliyyəti Azərbaycanda kredit sisteminin inkişafında milli kapitalın iştirakının genişlənməsinə, burada Rusiyanın maliyyə oliqarxiyası qruplarından birinin formalaşmasına inandırıcı sübut idi[131].

Azərbaycan sahibkarlarının nümayəndələri mülk sahibliyinə də xeyli kapital qoymuşdular. Onlara məxsus olan onlarca ev sabit mənfəət verirdi. Bu sahə kapital qoyuluşunun bir qədər passiv forması idi, lakin eyni zamanda idarəetmənin və gəlir götürülməsinin sadəliyi nöqteyi-nəzərindən cəlbedici idi. Bu gün də Bakı şəhərini bəzəyən və ona xüsusi fərdi görkəm verən əzəmətli ictimai binalar, habelə sadə şəhər adamlarına yaşamaq üçün icarəyə verilmiş evlər bu qəbildən idi. Neftçilərin yaşadıqları mədən-zavod rayonundakı kazarmalar da gəlir gətirirdi.

Senator Kuzminskinin məlumatına görə, 1905-ci ildə Bakıda mülklərin 82,3 faizi azərbaycanlıların əlində idi. Lakin bu mülklərin qiyməti ümumi qiymətin yalnız 33,3 faizini təşkil edirdi[132]. Yüksək qiyməti olan (50 min rubl və ondan yuxarı) mülklərə gəldikdə isə onların sahibləri arasında Azərbaycan kapitalının nümayəndələri 0,9 faiz təşkil edirdilər[133]. Ortabab qiyməti olan mülklərin (5 min rubldan 50 min rubladək) sahibləri arasında azərbaycanlıların xüsusi çəkisi 8 faiz, daha aşağı qiyməti olan mülklərin (5 min rubladək) sahibləri arasında isə 91,1 faiz təşkil edirdi[134]. Yüksək qiyməti olan evlərin əksəriyyətindən onların sahibləri öz

129 Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 98.
130 Yenə orada, səh. 100.
131 Ибрагимов М.Дж. Göstərilən əsər, səh. 100-102.
132 Отчет сенатора А.М.Кузьминского, səh. 83.
133 Отчет сенатора А.М.Кузьминского, səh. 84.
134 Отчет сенатора А.М.Кузьминского, səh. 84.

ehtiyacları üçün istifadə edirdilər. Bunlar cah-calallı saraylar və yaraşıqlı imarətlər idilər. Bununla yanaşı mülk sahiblərinin xeyli mənfəət verən çoxlu başqa evləri də var idi. Azərbaycanın başqa rayonlarında isə gəlir gətirən evlərin tikintisi işi geniş yayılmadı.

H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, K.Aşurbəyov qardaşları, M.Muxtarov, İ.Hacınski və başqaları ən iri mülk sahiblərindən idilər. Onların öz doğma şəhərlərində gen-bol pul buraxıb tikdirdikləri əzəmətli binalardan başqa Rusiyanın və Avropanın bir sıra şəhərlərində də bir sıra gözəl imarətləri var idi. Bu binalar əsasən xeyriyyə idarələri, məscidlər, mədəniyyət mərkəzləri üçün tikdirilmişdi. M.Muxtarovun vəsaiti hesabına tikilmiş Vladiqafqazdakı məscid, Kislovodskdakı və Florensiyadakı gözəl mülklər, Ş.Əsədullayevin Moskvada tikdirdiyi Tatar Mədəniyyət Mərkəzinin binası, tikintisinin maliyyələşdirilməsində H.Z.Tağıyevin də yaxından iştirak etdiyi Peterburqdakı məscid (bu gün də Avropada ən iri məsciddir) onların arasında qeyd olunmağa layiqdir.

Azərbaycan sahibkarlarının formalaşmasının və inkişafının başlıca mərkəzi Bakı şəhəri idi. XIX əsrin axırlarında - XX əsrin əvvəllərində sahibkarların ən iri nümayəndələri, Azərbaycan ziyalıları Bakıda cəmləşmişdi. Mətbuat orqanlarının əksəriyyəti burada nəşr olunurdu. Azərbaycanın başqa qəza mərkəzlərində də sahibkarlar sənaye və ticarət sahəsində fəaliyyət göstərirdilər. Onların arasında Yelisavetpol və Nuxa sahibkarları fərqlənirdilər.

Beləliklə, Azərbaycan sahibkarlarının ən varlı hissəsini neft, pambıq parça, unüyütmə və düyüarıtma, ipək emalı sənayesi, dəniz nəqliyyatı və ticarət sahəsində iri müəssisələrin sahibləri təşkil edirdilər. Bunlar ilk növbədə H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov, Ə.Dadaşov, M.Manafov, M.Rəsulov, Ə.B.Quliyev, Ə.H.Məmmədov, Ə.Əliyev və başqaları idilər.

Azərbaycanın daha çoxsaylı ortabab sahibkarları neft hasilatı, neft emalı, mexanika, ipək emalı, tütün, inşaat materialları kimi istehsal sahələrində az məhsul verən müəssisələrin, habelə dəniz gəmilərinin (əsasən tutumu böyük olan yelkənli gəmilərin) sahibləri, ikinci və üçüncü gildiya tacirləri, gəlirli evlərin sahibləri idilər.

Milli sahibkarların ən çoxsaylı təbəqəsini xırda sahibkarlar təşkil edirdi. İri milli sahibkarlar zümrəsinin əhatə dairəsi məhz bu təbəqədən çıxan kapitalistlər hesabına genişlənirdi.

İslahatlardan sonrakı dövrdə Rusiyada sənayenin inkişafı, neftə artan tələbat, 1872-ci ildə neft sənayesində icarə sisteminin ləğv olunması ona gətirib çıxardı ki, əsrin axırlarında Bakı dünyanın ən iri neft mərkəzinə çevrildi. 1898-ci ildə isə Bakı neft hasilatının səviyyəsinə görə ABŞ-ı arxada qoydu. Azərbaycanın yeraltı sərvətləri istər Rusiyanın, istərsə də bütün dünyanın sahibkarlarının diqqətini özünə cəlb etdi. Məhz bunun nəticəsi idi ki, burada formalaşmış sahibkarlar öz tərkibinə görə çoxmillətli idi. Azərbaycanlılardan başqa onun tərkibinə rus, erməni və əcnəbi kapitalının nümayəndələri daxil idilər.

Sahibkarların ayrı-ayrı dəstələri arasında rəqabət şəraitində ziddiyyətlər yaranırdı. Bir tərəfdən Azərbaycan sahibkarları, digər tərəfdən isə rus və əcnəbi sahibkarlar arasında iqtisadi bəhsləşmə yalnız iqtisadiyyatın bəzi sahələrində təzahür edirdi. XX əsrin əvvəllərində rus sahibkarlarına münasibətdə milli sahibkarların hüquqlarının məhdudluğu onlarda narazılıq doğururdu. Bu narazılıq hələ kəskin xarakter daşımırdı, lakin onun artması da istisna olunmurdu.

Azərbaycanlı və erməni sahibkarları arasında əkscəbhələşmə getdikcə güclənirdi. Azərbaycanda məskən salmış rus sahibkarları kimi erməni sahibkarları da çarizmin himayədarlığı sayəsində diyarın bir sıra təsərrüfat sahələrində mühüm mövqe tuta bilmişdilər. Sahibkarların bu dəstələri arasında iqtisadiyyat sahəsindəki rəqabət getdikcə daha çox ictimai-siyasi həyatda öz əksini tapırdı. Bundan da tez-tez çar mütləqiyyəti istifadə edərək Rusiyada yaşayan xalqları bir-birinə qarşı salışdırmaq kimi sevimli və sınaqdan çıxmış siyasətini işə salır, bəzilərinə müstəsna hüquqlar verir, digərlərini isə ən adi hüquq normalarından məhrum edirdi.

Azərbaycan sahibkarlarının çar mütləqiyyətinə münasibəti mürəkkəb və ziddiyyətli idi. Ən mütərəqqi siyasi dairələr çarizmin müstəmləkə siyasətinin Azərbaycan sahibkarlığının mənafelərini məhdudlaşdıran aspektlərindən narazılığını bildirirdilər. Bu narazılıq, məsələn, aşağıdakılardan irəli gəlirdi: emal sənayesi sahəsində azərbaycanlıların sahibkarlıq fəaliyyətinə əngəllər törədilirdi; şəhər özünüidarəetmə orqanlarında onların təmsil olunması məhdudlaşdırılmışdı ki, bu da öz növbəsində şəhərin təsərrüfat həyatı məsələlərinin həllinə milli sahibkarların təsir dairəsini azaltmışdı; din, dil, mədəniyyət və s. sahəsində sıxışdırmalar var idi.

Milli zülm və Rusiya qanunvericiliyi tərəfindən milli kapital sahiblərinin yaradıcı fəaliyyətinin kəskin surətdə məhdudlaşdırılması şəraitinə baxmayaraq onlar iqtisadi həyatın tam bir sıra sahələrində öz mövqelərini möhkəmləndirir, kapitallarını artırır, vəsaitlərini Azərbaycan cəmiyyətinin mədəni-maarif həyatının inkişafına, onun intellektual potensialının yaradılmasına yönəldirdilər. İqtisadi sahədə mövqelərin genişləndirilməsi onlara cəmiyyətdə öz siyasi təsirlərini tədricən gücləndirməyə imkan verirdi. Onların vəsaiti hesabına nəşr olunan dövri mətbuat səhifələrində ümummilli ideyalar irəli sürən, "millətin oyanmasına", maariflənmənin genişləndirilməsinə, xeyriyyə təşkilatlarının yaradılmasına çağıran məqalə və yazılar dərc olunurdu. Cəmiyyətin siyasi, maarifçilik həyatının bir qədər canlanmasına belə bir cəhət də təsir göstərmişdi ki, o zaman Rusiya və Avropanın ali məktəblərində təhsil almış Azərbaycan ziyalılarının yüksək savada malik parlaq nümayəndələrinin bütöv bir nəsli millətin mənafeyi uğrunda fəal mübarizəyə qoşulur. Mesenatlığa, yuxarıda adı çəkilən ali məktəblərdə gənc həmvətənlərinin təhsil almasına öz kapitalından xeyli pul buraxan iri milli sahibkarlar onların bu mübarizəsini dəstəkləyirdilər. Onlar Vətənə qayıtdıqdan sonra öz xalqının mədəni səviyyəsini yüksəltmək, onun milli mənlik şüurunu

inkişaf etdirmək üçün əllərindən gələni edirdilər. İki əsrin qovuşuğunda mövcud mütləqiyyət rejiminə qarşı öz müxalifətçilik mövqeyini siyasi hüquqsuzluqdan və onun səbəblərindən, müsəlmanların hüquq məhdudiyyətlərindən, ictimai-siyasi fəaliyyət sahəsində azərbaycanlıların qarşısında çəkilən sədlərdən bəhs edən məqalələr ilə ifadə edən onlar xalqın milli şüurunu inkişaf etdirməyə, xalqı azadlıq uğrunda mübarizəyə cəlb etməyə çalışırdılar.

1905-ci il xalqın azadlıq mübarizəsinin böyük sıçrayışına kömək etdi, cəmiyyətin bütün təbəqələrinin siyasi fəallığı, ümummilli tələblərin irəli sürülməsi, xalqın əsas baxışlarının və mənafelərinin ifadəsi üçün obyektiv şərait yaratdı. Artıq bu dövrdə Azərbaycan sahibkarları zəruri iqtisadi və intellektual potensiala malik idilər. Buna görə də mövcud quruluşun "yeniləşməsini" elan etmiş fərmanlar, sərəncamlar və reskriptlər verildikdən sonra burjua-liberal hərəkatının yalnız dinc, leqal metodlarından istifadə etməklə - petisiyalar, ərizələr verməklə, ali hakimiyyət instansiyalarına müraciət etməklə Azərbaycanın görkəmli şəxsiyyətləri öz ətrafında cəmiyyətin mütərəqqi qüvvələrini cəmləşdirməyə, ümummilli proqram hazırlayıb çar imperiyasının ali hakimiyyət eşelonlarına təqdim etməyə nail oldular. Sonrakı illər isə təkcə onların ideyalarının deyil, həm də mövcud quruluşa qarşı mübarizə metodlarının təkamülünü göstərdi.

## II FƏSİL

## XX əsrin əvvəllərində Azərbaycanda milli-azadlıq hərəkatı

### § 1. Milli hərəkatda oyanış

XX əsrin əvvəllərində sosial münaqişələrin kəskinləşməsi, fəhlələrin kütləvi çıxışları, Azərbaycan kəndlilərinin artan narazılığı Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin siyasi və ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı.

Çar hökumətinin böyükdövlətçilik siyasəti, milli zülmün güclənməsi, imperiyanın milli ucqarlarında yaşayan xalqların hüquqlarının hər cür sıxışdırılması cəmiyyətin milli məsələnin tezliklə həllində marağı olan bütün təbəqələrini bu məsələ ətrafında birləşdirirdi. Bu ondan irəli gəlirdi ki, milli məsələ ən mürəkkəb sosial məsələlərdən biri idi. Millətin taleyindən narahat olan cəmiyyətin mütərəqqi hissəsi getdikcə daha kəskin şəkildə mövcud quruluşun təzələnməsi məsələsini qoyur, islahatlar keçirilməsini tələb edirdi. Çara və hökumətə qarşı hərəkatlar - fəhlələrin, kəndlilərin və ziyalıların çıxışları milli-azadlıq hərəkatında sıx birləşirdi.

XX əsrin əvvəli neft Bakısının əməkçilərinin iri çıxışları ilə əlamətdar idi. Həmin çıxışlarda Azərbaycan fəhlələri fəal iştirak edirdilər. 1903-cü ilin iyul tətilində, 1904-cü ilin dekabr tətilində və başqa tədbirlərdə onların iştirakı buna sübutdur. 1904-cü ilin dekabr tətili xüsusi əhəmiyyətə malik idi, çünki onun nəticəsində mədən fəhlələrinin, o cümlədən də çoxlu azərbaycanlının əmək haqqının artırılmasına və bəzi başqa iqtisadi tələblərinin yerinə yetirilməsinə nail olundu. Neft sənayeçiləri ilə fəhlələr arasında bağlanmış kollektiv müqaviləyə uyğun olaraq birincilər aşağıdakılar barədə öhdəlik götürmüşdülər: iş gününü 9 saatadək azaltmaq, gündəlik xarakter almış işdənkənar vaxtlarda işi ləğv etmək, müntəzəm gecə işlərini xüsusi fəhlə ştatı vasitəsilə gördürmək, onların iş gününü 8 saatdan çox etməmək, dartayçılar, ocaqçılar və yağlayıcılar üçün üçnövbəli sistem tətbiq etmək, fəhlələrlə nəzakətli davranmaq, yağlayıcılar, dartayçılar, ocaqçılar, qazmaçı fəhlələr və qara fəhlələr üçün əmək haqqının minimum məbləğini müəyyən etmək və s. Hesablaşma kitabçalarının rus dili ilə yanaşı qeyri-rus millətindən olan fəhlələrin ana dilində, başa düşdükləri dildə çap edilməsi barədə bəndin müqavilənin şərtlərinə daxil edilməsi əlamətdar hadisə idi. Kollektiv müqavilənin bu şərti (başqa şərtlərlə yanaşı) fəhlələrin siyasi və milli mənlik şüurunun yüksəlişinə çox böyük təsir göstərdi. Müqavilənin bağlanması Azərbaycan fəhlələrinin öz hüquqları uğrunda mübarizəsi tarixində dönüş nöqtəsinə çevrilərək onlar üçün öz mühüm mənafe və tələblərini müdafiə etmək perspektivləri açdı.

1904-cü ilin dekabr hadisələrində bütün müsəlman dünyasında ilk sosial-demokrat təşkilatı olan "Hümmət" sosial-demokrat təşkilatı da RSDFP BK ilə

birlikdə iştirak edirdi. "Hümmət" təşkilatını yaratmaq təşəbbüsü Azərbaycan ziyalılarının nümayəndələri S.Əfəndiyevə, A.Axundova, M.Mövsümova, M.Əzizbəyova, M.Ə.Rəsulzadəyə, M.Mirqasımova, M.Hacıyevə, A.Kazımzadəyə, M.Hacınskiyə və başqalarına məxsus idi. Sosial-demokratlar tərəfindən millətlərin öz müqəddəratını təyin etmək, muxtar vilayətlər yaratmaq hüququ barədə şüarın irəli sürülməsi və bunun II qurultayda proqrama ayrıca müddəa kimi daxil edilməsi (9-cu bənd) Azərbaycan ziyalılarının ən mütərəqqi düşüncəli hissəsinin siyasi maraqlarına uyğun idi və onların sosial-demokrat təşkilatına geniş cəlb olunmasına gətirib çıxarmışdı[135]. Lakin onların bir çoxu bu müddəanın şüarçılıqdan başqa bir şey olmadığını tezliklə başa düşüb bu təşkilatdan çıxdılar və özlərini hər cür milli zülmün və qeyri-bərabərliyin ləğvi uğrunda mübarizəyə həsr etdilər. Buna baxmayaraq milli hərəkatın yaranması mərhələsində bu görkəmli siyasi xadimlərin "Hümmət" təşkilatında iştirakı Azərbaycan xalqının azadlıq mübarizəsinin, onun siyasi fəallığının artmasına kömək etdi.

1904-cü il kollektiv müqaviləsinin şərtləri çox tez-tez pozulurdu ki, bu da Bakı fəhlələrinin yeni-yeni çıxışlarına səbəb olurdu. Həmin çıxışlarda azərbaycanlılar getdikcə daha fəal iştirak edirdilər. 1905-ci il yanvarın 4-dən 20-dək olan dövrdə Bakının iri sənaye müəssisələrinin fəhlələri tətil etmişdilər. Tarix ədəbiyyatında belə hesab edilir ki, Bakı çıxışları bütün Rusiyada inqilabi çıxışların artmasına bəhanə oldu. Ola bilsin ki, burada müəyyən dərəcədə həqiqət var, çünki xalqların dözülməz sosial və hüquqi vəziyyəti bütün ölkədə imperiyaya qarşı çıxışlara səbəb olurdu.

Aqrar məsələnin həlli, Azərbaycan kəndində torpaq uğrunda mübarizə çarizmin milli zülmünə, məmurların özbaşınalığına qarşı çıxışlarla müşayiət olunurdu. Kəndlilər hakimiyyət orqanlarının sərəncamlarını yerinə yetirməkdən, xəzinəyə vergi ödəməkdən, mükəlləfiyyət daşımaqdan boyun qaçırır, yerli hakimiyyət orqanlarına silahlı müqavimət göstərirdilər[136]. 1905-ci ilin iyulunda quberniya rəisləri yuxarı instansiyalara məlumat vermişdilər ki, Rusiyada və Qafqazda baş verən hadisələr yerli əhalinin əhval-ruhiyyəsinə öz təsirini göstərmişdir, Yelisavetpol və Bakı quberniyalarında qeyri-sabitlikdir[137]. Daha sonra məlumatlarda yerli hakimiyyət orqanlarının nümayəndələrinə, meşə mühafizə dəstələrinin qulluqçularına qarşı düşmənçilik münasibətləri faktları göstərilirdi. Dövlət meşələrinin qırılması və məhv edilməsi, silah ələ keçirilməsi, məhkəmə orqanlarının qərarlarına tabe olmamaq halları var idi. Məhkəmə idarələrinin nümayəndələri əhali tərəfindən düşməncəsinə qarşılandıqlarına görə öz vəzifələrini icra etməkdən, istintaq aparmaqdan tez-tez imtina edirdilər.

[135] Багирова И.С. Панорама Азербайджана, 1991, 29 may-4 iyun.
[136] "Бакинские известия" qəzeti, 4 may 1905-ci il.
[137] Исмаилов М., Казиев М. Крестянское движение в Азербайджане в годы революции 1905-1907 гг. В кн. 50-летие первой русской революции. Bakı, 1955, səh. 224.

Bəzən kəndlərin bütövlüklə məhv edilməsi həddinə çatan çarizmin sərt repressiya tədbirlərinə baxmayaraq kəndlilərin azadlıq mübarizəsi sakitləşmir, əksinə artır, daha geniş vüsət alırdı.

İnqilabi əhval-ruhiyyə Azərbaycan cəmiyyətinin bütün təbəqələrini bürümüşdü. Şəhərlərin orta təbəqələri, qulluqçular, tələbələr və başqaları milli mənafelər uğrunda mübarizəyə qoşulmuşdular. Azərbaycan müəllimləri xalq təhsili sahəsindəki mövcud məhdudiyyətlərin ləğvi uğrunda çıxış etdilər. 1905-ci ilin dekabrında Bakının ibtidai məktəblərinin bir qrup müəllimi "Məktub"[138] ilə canişinə müraciət edəcək bir sıra peşə tələbləri sırasında ana dilində təhsil hüquqi tələbini də qoymuşdular.

Peterburqda əhalinin çarın hüzuruna dinc yürüşünün gülləbaran edildiyi 9 yanvar hadisəsi bütün imperiyada hiddət və etiraz doğurdu. Bakının bir sıra sənaye müəssisəsi tətil etdi. Lakin Bakı şəhər duması bu hadisəni diqqətdən kənarda qoydu. Mətbuat Rusiya və Peterburq teleqraf agentliklərinin rəsmi məlumatlarını dərc etməklə kifayətləndi.

Yanvar günlərində Azərbaycan sahibkarlarının və ziyalılarının müxalifətçilik meylləri təzahür etməyə başladı.

Milli sahibkarların və ziyalıların ən fəal nümayəndələri başa düşürdülər ki, Rusiyada başlanmış hadisələr imperiyanın milli ucqarlarında yaşayan xalqların həyatında mühüm dövrün başlanğıcı ola bilər. Dövri mətbuatın səhifələrində Azərbaycan cəmiyyətinin gələcək taleyi üçün hazırkı məqamın əhəmiyyətini izah edən məqalə və yazılar dərc olunmağa başlamışdı. Xalqın milli şüurunun inkişafında həlledici rol oynamış milli mətbuatın təşəkkülü tam bir sıra məqalələr silsiləsinin müəllifi olan görkəmli ictimai xadimlərin, publisistlərin yaradıcılığı ilə bağlı idi. İctimai-siyasi həyatın bütün sahələrində Rusiya cəmiyyətini böhrana gətirib çıxarmış səbəblərin dərin təhlilini verən Əhməd bəy Ağayev Rusiyanı nəhəng, qollu-budaqlı, lakin çürümüş ağaca bənzədirdi. O yazırdı: Rus-yapon müharibəsi göstərdi ki, çürümənin səbəbləri dövlət idarəetmə forması və daxili siyasət ilə əlaqədardır. Ə.Ağayev belə hesab edirdi ki, bu ağacı sağaltmağa qadir olan həkim yalnız Əlahəzrət və onun fərmanlarıdır[139].

Qarşıdan gözlənilən islahatlara böyük ümidlər bəsləyən Azərbaycan ideoloqları bu islahatlarda öz əksini tapmalı olan problemlərdən yazırdılar. Onlar yerli əhalinin dövlət idarəetmə orqanlarında təmsilçiliyinin genişləndirilməsi məsələsini qətiyyətlə qoyurdular. 1905-ci il yanvarın 18-də Bakı şəhər dumasının iclasında Ə.Ağayev yazılı ərizə verərək ictimai vəzifələrə seçkilər məsələsində Zaqafqaziya müsəlmanlarının hüquqlarını xristianların hüquqları ilə bərabərləşdirmək barədə Daxili İşlər Nazirliyi qarşısında vəsatət qaldırılmasını

[138]Bu mənbədən gətirilir: Гусейнова Д.С. Из истории профессионального движения интеллигенции Баку в 1905 г. В кн.: Вопросы истории Азербайджана кануна и периода первой русской революции (к 80-летию первой русской революции). Сборник статей. Bakı, 1985, səh. 125.

[139] "Həyat" qəzeti, 8 iyul 1905-ci il.

təklif etdi[140]. Bu ərizədə qeyd olunurdu ki, "müsəlmanların hüquqlarının məhdudlaşdırılması şəhər özünüidarəetməsinin fəaliyyətinə zərər gətirir"[141]. Duma yanvarın 25-də Ə.Ağayevin ərizəsinə baxdı. Duma səs çoxluğu ilə bu vəsatəti qaldırmaq və Zaqafqaziyanın bütün başqa şəhər idarəetmə orqanlarını ona qoşulmağa çağırmaq barədə qərar qəbul etdi[142].

1904-cü ilin dekabrında - 1905-ci ilin yanvarında dövri mətbuat səhifələrində milli mədəniyyətin vəziyyəti haqqında tənqidi materiallar dərc olundu. Ə.Ağayev müsəlmanları şəriət qaydalarına əməl etməyə, lakin eyni zamanda Avropa xalqları mədəniyyətinin ən yaxşı ənənələrini götürməyə çağırırdı. O, xalqın maariflənməsi haqqında danışarkən xalqın elm və texnika nəaliyyətləri ilə tanış edilməsini zəruri sayırdı[143]. Biliklərə yiyələnməyə çağıran Ə.Ağayev gizlətmirdi ki, onun xalqının başına gəlmiş bir çox bəlalar uzun müddət müstəmləkə zülmü altında olmasından, nadanlığından irəli gəlirdi. Ə.Ağayev mədəni cəhətdən geri qaldıqlarına görə ilk növbədə müsəlmanların özlərini günahlandırırdı[144]. O yazırdı: "Biz müsəlmanların danışmaqda tayı-bərabərimiz yoxdur. Biz gurultulu ifadələr işlətməyi, bəlağətlə nitq söyləməyi, maarif, mədəniyyət tərəfdarı olduğumuzu döşümüzə döyməyi bacarırıq, ancaq sözdən işə keçəndə, fikirlərimizi həyata keçirməyə gələndə isə qarşıya qoyulmuş vəzifənin çətin və anlaşılmaz olduğunu bəhanə gətirən balaca uşaq yerində qalırıq. Biz fağır-fağır başımızı aşağı dikir və qolumuzu yanımıza salladırıq. Heç yerdə, heç kimdə zərrə qədər də olsa təşəbbüs, cəsarətli fikir yoxdur. Hamı əzbərlənmiş, çeynənmiş fikirlərin ətrafında kor-koranə fırlanır. "Mədəniyyət", "maarif", "nadanlığı qovmaq" və bu kimi şeylər elə bir tilsimdir ki, bizi özünə çəkib azadlığa buraxmaq istəmir. Əzbərlənmiş bu sözləri və fikirləri təkrar etməklə biz özümüzdən razı qalırıq, elə bil doğrudan da mühüm bir iş görürük, cəhaləti qovub onun yerinə sivilizasiya işığı salırıq və bununla da zənn edirik ki, öz borcumuzu yerinə yetirmişik. Bunlar bizim psixologiyamızın xüsusiyyətləridir və əlbəttə, bu psixologiya ilə mübahisə etməyə dəyməz"[145]. Əlimərdan bəy Topçubaşov müsəlmanların mənəviyyatı haqqında məqalələrində yazırdı ki, onlar "özlərindən asılı olan və olmayan səbəblər üzündən zülmət tilsiminə"[146] düşmüşlər.

Türkdilli mətbuatın sıxışdırılması və senzura məhdudiyyətləri haqqında Əli bəy Hüseynzadə də yazırdı[147]. Onun yazılarında müsəlmanlar üçün qoyulmuş hüquq məhdudiyyətləri sadalanır, hüquqsuzluq vəziyyətindən çıxmağın yolları və vasitələri izah edilirdi. "Köhnə dəyərləri nəzərdən keçirib dəyişdirməyə başlamağın

---

[140] "Каспий" qəzeti, 20 yanvar 1905-ci il.
[141] ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 29; "Каспий" qəzeti, 20 yanvar 1905-ci il.
[142] ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 29, 30.
[143] Şərqi-rus" qəzeti, 21 və 22 dekabr 1904-cü il.
[144] Yenə orada, 4 yanvar 1905-ci il.
[145] "Каспий" qəzeti, 18 yanvar 1905-ci il.
[146] "Каспий" qəzeti, 23 yanvar 1905-ci il.
[147] Yenə orada, 18 fevral 1905-ci il.

tarixi anı Rusiya müsəlmanları üçün də gəlib çatmışdır... Biz gərək işləyək, öz qayğımıza özümüz qalaq, öz ehtiyaclarımız barədə danışaq... ləngimədən yeni həyatda sayımıza və biliyimizə uyğun yer tutaq. Bunun üçün isə gərək a) dərhal və ləngimədən ictimai həyatda bizi zəiflədən bütün səbəbləri - laqeydliyi, süstlüyü, çəkişmələri, şəxsi ədavəti bir kənara tullayaq; b) hər yerdə və hər şeydə ağıla, işgüzarlığa, biliyə, şərəfə üstünlük verək və bunları qohumbazlığa və şəxsi ədavətə qurban verməyək və nəhayət, v) hər yerdə və hər şeydə müsəlmanlar öz ziyalılarına etibar eləsinlər, onları özlərinə rəhbər seçsinlər, ziyalıların məsləhətlərinə və göstərişlərinə qulaq assınlar, çünki qarşıdakı həyatın ehtiyacları, bu ehtiyacların yerinə yetirilməsi üsulları hamıdan yaxşı ziyalılara məlumdur"[148].

İdeoloqların söylədikləri fikirlərin bir qədər mülayim səslənməsi onunla bağlı idi ki, milli hərəkat təzə-təzə artmağa başlamışdı, mütləqiyyətin dayaqları hələ də sarsılmaz görünürdü. Bununla yanaşı inqilabi hərəkat genişlənərək çar hakimiyyətinin ciddi narahatlığına səbəb olurdu. Fevralın 19-da Bakıda fəhlələrin siyasi manifestasiyasına hazırlıq getməsi barədə yayılmış şayiələr xüsusilə ciddi təşviş doğurmuşdu[149]. Bu dəfə də çarizm özünün sevimli və sınaqdan çıxmış siyasətinə əl ataraq bir milləti başqa millətə qarşı qoydu. Fevralın 6-dan 9-dək Bakıda millətlərarası toqquşmalar təşkil edildi. Bu siyasət əhalinin azərbaycanlı və erməni hissəsi arasındakı ziddiyyətlər şəraitində mümkün oldu. Bu toqquşmaların günahkarı isə təxribatçılardan və fitnəkarlardan ibarət kiçik qruplar təşkil edə bilmiş çar hakimiyyət orqanı idi. Şəhərdə keçirilmiş etiraz mitinqlərində təşkilatçılar lənətlənir və qardaş qırğınına son qoyulması tələb olunurdu.

Rus-yapon müharibəsindəki uğursuzluqlardan sonra müxalifət əhval-ruhiyyəsinin təzyiqi altında hakim dairələrdə mütləqiyyət quruluşunu bir qədər təzələmək meyli güclənirdi. Çar məcbur olub daxili işlər naziri A.Q.Bulıginə tapşırmışdı ki, nümayəndələri qanunvericiliyə cəlb etmək barədə reskript layihəsi tərtib etsin. 1905-ci il fevralın 18-də nazirlərlə keçirdiyi müşavirədə çar II Nikolay reskript layihəsini bəyan etdi və layihə nazirlər tərəfindən bəyənildi. Reskriptdə padşah belə bir niyyətdə olduğunu elan etmişdi ki, "bundan sonra... əhalinin vəkalət verdiyi, seçdiyi ən layiqli, etibarlı xalq nümayəndələri qanunvericilik layihələrinin ilkin hazırlanmasında və müzakirəsində iştiraka cəlb edilsinlər... bir şərtlə ki, İmperiyanın əsas qanunlarının toxunulmazlığı mütləq qorunub saxlansın"[150]. Reskriptdə həmçinin çarın bu qərarının bəyata keçirilməsi yollarını müzakirə etmək üçün A.Q.Bulıginin sədrliyi ilə xüsusi müşavirənin təsis edilməsi barədə də deyilirdi.

Liberal burjuaziyanın bir qismi 18 fevral reskriptini Rusiya tarixində "dönüş nöqtəsi" kimi qiymətləndirərək reskripti "arxasında parlaq gələcək

---

[148] "Каспий" qəzeti, 28 may 1905-ci il.
[149] RFDTA, fond 857, siyahı 1, iş 1476, vərəq 47; "С.-Петербургские тедомости", may 1905-ci il.
[150] Спутник избирателя на 1906. СПб., 1906, səh. 241,242.

perspektivlərinin təsvir olunduğu qapı" ilə müqayisə edirdi[151]. Şəhər dumaları, birja komitələri, sənayeçilərin qurultayları bu mövqedən çıxış etdilər. "Kaspi" qəzetinin səhifələrində "Ali manifest", II Nikolayın Bulıginə reskripti və senata 1905-ci il 18 fevral tarixli fərmanı dərc olunmuşdu[152]. Qəzet çar reskriptinə həsr etdiyi baş məqalədə qanunvericilik layihələrinin ilkin hazırlanmasında və müzakirəsində ictimaiyyət nümayəndələrinin iştirakı məsələlərinin həllini "son dövrün bütün tədbırlərinin və islahatlarının ən mühüm aktı, başlıca əsası"[153] adlandırmışdı. Qəzetin rəhbərləri (o dövrdə qəzetin redaktoru Ə.M.Topçubaşov idi) bu reskripti cəmiyyətin iqtisadi, siyasi və mədəni həyatının inkişafında bürokratik qəyyumluğun, məhdudiyyətlərin ləğvi vasitəsi kimi qiymətləndirirdilər.

Çar senzurası şəraitində qəzetin baş məqaləsində mütləqiyyət tərəfindən Azərbaycanın müstəmləkə əsarəti altında olması məsələsinə toxunulmayaraq ictimai həyatdakı durğunluq onunla izah edilirdi ki, paytaxtın mərkəzi idarələrinin hətta təcrübəli məmurları da mərkəzdən uzaq olan bu rayonun bütün milli-ictimai ehtiyaclarını başa düşmək və düzgün yozmaq iqtidarında deyildilər[154]. Qəzetin flkrincə, bu ehtiyacları "yalnız yerli savadlı xadimlər başa düşə bilərdilər. İndi onlara təmsilçilik, hökumətə, məsul qanunvericilik işinə yardım kimi böyük missiya həvalə olunur"[155]. Qəzet hesab edirdi ki, reskript ideyaları zemstvo və şəhər özünüidarəsinə möhkəm dayaq nöqtəsi verdi. Qəzet arzu edirdi ki, təmsilçilik hüququ ucqarlara da şamil edilsin.[156]

Qafqaz canişinliyinin yaradılması haqqında Ə.M.Topçubaşovun məqaləsində də çar reskripti ilə əlaqədar belə hisslər ifadə olunurdu. Məqalədə artıq inamla deyilirdi: canişinliyin yaradılması ona sübutdur ki, "bizim diyar kənarda qalmayacaq və Rusiya imperiyasının başqa vilayətləri kimi indi rus torpağı üzərindən boylanan azadlıq islahatları günəşinin parlaq şəfəqləri ilə nurlanacaqdır"[157]. Müəllif əmin olduğunu bildirirdi ki, "xalqın etimadını qazanmış və əhali arasından seçilmiş ən layiqli adamların qanunvericilik layihələrinin ilkin hazırlanmasında və müzakirəsində iştiraka cəlb edilməsi kimi bu cür olduqca mühüm və əlamətdar aktın bütün xeyri bizim Qafqaza da eyni dərəcədə şamil ediləcəkdir"[158].

Zemstvo özünüidarəsinin, andlı iclasçılar məhkəməsinin tətbiqini, Qafqaz diyarı sakinlərinin hüquqlarının Rusiyanın daxili hissələrinin əhalisinin hüquqları ilə bərabərləşdirilməsini, "indi ilk növbədə irəli sürülən bütün prinsiplərin:... şəxsiyyətin və əmlakın toxunulmazlığının, vicdan, mətbuat, söz və xalq

---

[151] Черменский Е.Д. Буржуазия и царизм в первой русской революции. М„ 1970, səh. 59.
[152] "Каспий" qəzeti, 19 və 20 fevral 1905-ci il.
[153] "Каспий" qəzeti, 22 fevral 1905-ci il.
[154] "Каспий" qəzeti, 20 fevral 1905-ci il.
[155] Yenə orada.
[156] Yenə orada.
[157] "Каспий" qəzeti, 3 mart 1905-ci il.
[158] "Каспий" qəzeti, 3 mart 1905-ci il.

yığıncaqları azadlığının qanunvericilik təminatlarının" Qafqaza şamil olunmasını Ə.M.Topçubaşov "Qafqazda həyatın təzələnməsinin" mühüm şərti hesab edirdi[159].

Beləliklə, ideoloqlar özlərinin ən görkəmli nümayəndəsi olan Ə.M.Topçubaşovun simasında çar manifestinin və Bulıginə reskriptin məzmununa, Qafqaz canişinliyinin yaradılmasına müsbət münasibətlərini bildirərək buna xalqın ümid və arzularının yerinə yetirilməsinin mühüm şərti kimi baxırdılar. Onları narahat edən başlıca məsələ çar reskripti müddəalarının ucqarlara, məsələn, Azərbaycana şamil edilib edilməyəcəyi idi.

Azərbaycan sahibkarlarının nümayəndələri də 18 fevral reskriptində vəd olunmuş Xüsusi müşavirədə iştirak etmək ümidində idilər. Lakin hökumət elan etdi ki, reskriptdə vəd olunan Xüsusi müşavirə keçirilməyəcək. Daxili İşlər Nazirliyində hazırlanmış layihə birbaşa Nazirlər Şurasına təqdim olunacaq, sonra isə çarın sədrliyi ilə keçiriləcək müşavirədə ona qəti baxılacaqdır[160].

Qafqazda çar hökuməti canişinlik təsis etməklə kifayətləndi. Bu zaman çarizm inzibati idarəetmənin möhkəmləndirilməsinə, bu ucqarda yaşayan xalqların azadlıq çıxışlarının qarşısını almaq üçün operativ tədbirlər görülməsinə imkan yaratmaq məqsədini güdürdü. Çar hökuməti qraf İ.İ.Vorontsov - Daşkovu bu diyarda özünün valisi təyin etməklə onun vədlərdən və sosial demaqogiyadan öz məqsədləri üçün bacarıqla istifadə edən hiyləgər siyasətçi keyfiyyətlərinə əmin idi. Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələrinin onunla sonrakı ünsiyyəti İ.İ.Vorontsov - Daşkovu buraya göndərmiş şəxslərin uzaqgörənliyini dəfələrlə təsdiq etdi, yəni onun həmin vəzifədə olduğu bütün dövrdə məhz bu keyfiyyətlər özünü büruzə verdi. Çar reskriptinə ümidləri boşa çıxan Azərbaycan sahibkarları bununla yanaşı Vorontsov-Daşkovun təyinatına müsbət yanaşaraq ümidlə onu "Qafqazı xoş günə çıxaracaq böyük islahatçı" adlandırmışdılar.

1905-ci il martın 5-də Bakı şəhərinin rəisi K.A.İretskoy şəhər dumasının qlasnılarına müraciət edərək bildirdi ki, 18 fevral reskripti "diyarda yeganə seçkili təsisatlar kimi" şəhərin ictimai orqanları qarşısında belə bir vəzifə qoymuşdur ki, "diyarın möhkəm əsaslandırılmış gələcək sakit inkişafı üçün lazım olan" islahatlar haqqında mülahizələrini bildirsinlər[161]. 18 fevral reskriptində vəd olunmuş Bulıginin sədrliyi ilə Xüsusi müşavirəyə Bakı şəhərinin özünüidarə nümayəndələrinin buraxılması məsələsi martın 8-də Bakı dumasının iclasında müzakirə edildi. Qlasnılar nümayəndələrin tərkibi və səlahiyyətləri məsələsinin müzakirəsində fəal iştirak etdilər. Bu məsələyə baxılarkən dumadakı Azərbaycan sahibkarlarının nümayəndələri Bakının başqa millətlərdən olan sahibkarlarının mənafelərini təmsil etmiş qlasnılarla həmrəylik göstərdilər. Ə.Ağayev nümayəndələrin sayını məhdudlaşdırmamağı təklif edərək bunu onunla

159 "Каспий" qəzeti, 3 mart 1905-ci il.
160 Черменский Е.Д. Göstərilən əsər, səh. 59-60.
161 "Каспий" qəzeti, 5 mart 1905-ci il.

əsaslandırırdı ki, hər bir millət öz xüsusiyyətləri ilə seçilir və daha çox xəbərdar adamları göndərməlidir. Ə.M.Topçubaşov belə bir arzuda olduğunu bildirmişdi ki, nəinki təmsilçiliyə nail olmaq, həm də "yeni qaydalar qəbul edildikdən sonra diyarın ehtiyaclarının yerinə yetirilməsi üçün tədbirlərin"[162] həyata keçirilməsinə hər cür cəhd göstərmək lazımdır.

Duma nadir təsadüf olunan yekdillik göstərərək "Rusiyanın başqa hissələrinə nisbətən islahatlara bəlkə də daha çox kəskin ehtiyac duyan"[163] Zaqafqaziyanın həyat şəraiti haqqında danışmaq imkanı əldə etmək üçün yuxarıda adı çəkilən müşavirəyə özünün üç nümayəndəsini buraxmaq xahişi ilə daxili işlər nazirinə teleqram göndərməyi qərara aldı. Həm də qeyd olunurdu ki, dumanın fikrincə, bu müşavirə "gələcəkdə zəruri daxili dəyişikliklərə dair məsələlərin qoyulmasına çox böyük təsir göstərəcəkdir"[164]. Bu vəsatəti müdafiə etmək və dumanın mülahizələrini Bulıginə daha ətraflı şərh etmək üçün şəhər rəisi K.A.İretskoydan və iki qlasnıdan - Ə.M.Topçubaşovdan və P.O.Qukasovdan ibarət deputat heyəti göndərilirdi[165].

Ə.Ağayevin təklifi ilə Duma qərara aldı ki, Yelisavetpolun, Dərbəndin, İrəvanın, Şuşanın, Nuxanın, Qubanın, Lənkəranın və Temirxan Şuranın şəhər rəislərinə teleqramla müraciət edilsin və onlara bu qərarı müdafiə etmək təklif olunsun[166].

Lənkəran şəhər idarəsi martın 15-də və 16-da müvəkkillərin iclasında bu təklifi müzakirə etdi və Bakı şəhər dumasının deputatlarını qəbul etmək və bununla da "yerli şəraitinə görə son dərəcə səciyyəvi olan bizim geniş ucqar qəzamızın nümayəndəsi üçün gələcək məşvərət məclisinə yol açmaq"[167] xahişi ilə daxili işlər nazirinə teleqram göndərməyi qərara aldı.

Bakı şəhər dumasının təklifinə Qubanın şəhər idarəsi də qoşularaq Qubaya dəmir yolu çəkilməsinə çalışmağı deputat heyətindən xahiş etdi[168].

Martın axırlarında Bakı şəhər dumasının deputat heyəti Peterburqa gəldi və aprelin 2-də Bulıgin tərəfindən qəbul edildi[169]. Söhbət 10-15 dəqiqə çəkdi. Son dərəcə mühüm missiyanın belə qısa müddətdə qəbul olunmasına baxmayaraq deputat heyəti məsələnin mahiyyətini şərh edə bildi və Mərkəzi Rusiya üçün nəzərdə tutulan islahatların Qafqazda da keçirilməsi zəruriliyinə və Xüsusi müşavirəyə Qafqaz xalqlarından nümayəndələr seçilməsinə tərəfdar olduğunu

---

162 ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 50; "Каспий" qəzeti, 10 mart 1905-ci il.
163 Yenə orada, "Сын Отечества", 10 mart 1905-ci il.
164 ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 50; "Каспий" qəzeti, 10 mart 1905-ci il; "Сын Отечества", 10 mart 1905-ci il.
165 "Каспий" qəzeti, 10 mart 1905-ci il.
166 ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 50; "Каспий" qəzeti, 12 və 13 mart, 1905-ci il.
167 ADTA, fond 50, siyahı 1, iş 259, vərəqlər 44-45.
168 "Каспий" qəzeti, 17 mart 1905-ci il.
169 "Каспий" qəzeti,, 9 aprel 1905-ci il; "Бакинские известив" qəzeti, 9 aprel 1905-ci il.

bildirdi. Nazir deputat heyətinə bildirdi ki, üzvlərini çarın özü təyin edəcəyi Xüsusi müşavirənin tərkibi ona hələ məlum deyildir, lakin şübhəsiz ki, Qafqazın yerli xüsusiyyətləri nəzərə alınaraq onun şəhərlərinin nümayəndələri müşavirədə iştiraka buraxılacaqlar. O həmçinin belə bir fikir də söylədi ki, imperiya üçün Bakının xüsusi yer tutduğunu nəzərə alaraq şəhər duması nümayəndələrinin müşavirəyə buraxılması yaxşı olardı[170].

Deputat heyəti hələ Peterburqda olan İ.İ.Vorontsov-Daşkov tərəfindən də qəbul edildi. Təbrik mərasimindən sonra canişin Qafqazda işləyəcəyi dövr üçün planları barədə danışdı. Məsələn, o, deputatları əmin etdi ki, Qafqaza gələn kimi ilk növbədə diyarda hökmən zemstvonun və andlılar məhkəməsinin tətbiqi qayğısına qalacaq, canişinin yanında diyarın abadlaşdırılması üçün müşavirə çağıracaq. O həmçinin bu işdə yerli ictimai xadimlərin köməyinə ümid etdiyini bildirdi[171]. O lap əvvəldən vəd verməyə hazır idi və bəzən ağzından qaçırdırdı ki, bu, onun səlahiyyətində deyildir. O haradasa səmimi idi, çünki mütləqiyyət rejimi şəraitində yerlərdə müstəqil surətdə hansı məsələni isə həll etmək, çətin ki, mümkün idi. Həyat göstərdi ki, bu vədləri o yerinə yetirmək niyyətində deyildi. Bakıya gələn kimi K.A.İretskoy şəhər dumasının və şəhər idarəsinin üzvlərini səfərin nəticələri, keçirilmiş görüşlər ilə tanış etdi[172].

Yelisavetpolun sosial cəhətdən yuxarı təbəqələrinin mövqeyi daha qətiyyətli idi. İqtisadi və siyasi məhdudiyyətlər bu şəhərdə və ona yaxın qəzalarda Azərbaycan sahibkarlarını imtiyazlı qruplarla - yerli xan və bəy nəslindən olan iri torpaq sahibləri ilə birləşdirirdi. Bu sosial zəmində 1905-ci ilin fevralında Yelisavetpolda "Türk inqilabi sosial-federalistlər komitəsi" yarandı. Siyasi partiya rüşeymi olan bu komitə elə həmin ay buraxdığı və fevralın 16-na keçən gecə şəhərin küçələrində aşkar edilmiş iki vərəqə ilə öz fəaliyyətinə başlamışdı.

Vərəqələr "türk müsəlman qardaşlarına" müraciətlə başlanırdı. Bu proklamasiyalar çarizmə qarşı çıxaraq, Bakıda millətlərarası toqquşmaların "təşkilinə" görə müsəlmanları, xüsusən də müsəlman ruhanilərini təqib etməkdə, yerli əhalidən torpaqları, məscidlərdən vəqfləri almaq hesabına Qafqazda köçürmə siyasətinin həyata keçirilməsində hökuməti ittiham edərək müsəlmanları öz hüquqları uğrunda, hər cür ədalətsizliklərə qarşı mübarizəyə çağırırdı.

Xalqın milli mənlik şüurunun, onun siyasi yetkinliyinin artması ümummilli proqramın hazırlanması üçün perspektivlər açırdı. Rusiyanın tərkibində, siyasi hüquqsuzluq şəraitində olduğu dövrdə ilk dəfə Azərbaycana öz ümid və arzularını çar hökumətinə çatdırmaq imkanı verilmişdi. Azərbaycan ziyalılarının ən görkəmli nümayəndələri bu nəcib missiyanı öz üzərlərinə götürdülər.

---

170 "Каспий" qəzeti, 9 və 13 aprel 1905-ci il.
171 "Каспий" qəzeti, 13 aprel 1905-ci il.
172 Gürcüstan DTA, fond 7, siyahı 1, iş 620, vərəq 152; fond 12, siyahı 13, iş 250, vərəqlər 44, 45.

Politologiya və yurisprudensiya sahəsində yüksək peşəkarlıq hazırlığı və dərin biliklər tələb edən bu məsul işdə Əlimərdan bəy Topçubaşov xüsusi yer tuturdu. Ali instansiyalara ünvanlanan petisiyaların, ərizələrin, müraciətlərin demək olar hamısı bu görkəmli ictimai xadimin bilavasitə iştirakı ilə tərtib və təqdim olunurdu. Bu, təsadüfi deyildi. Mükəmməl hüquq təhsili almış Ə.M.Topçubaşov yüksək peşəkarlıqla və dərin səriştə ilə proqram sənədləri tərtib etmək qabiliyyətinə malik idi. Dərin təhlil qabiliyyəti, geniş dünyagörüşü, ensiklopedik biliyi, siyasi uzaqgörənliyi, yüksək ideallara, ümumbəşəri dəyərlərə bağlılığı ona Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da layiqli şöhrət qazandırmışdı. O, Rusiyada müsəlman hərəkatının liderlərindən biri idi. Rusiyanın ən nüfuzlu müxalifət partiyası olan kadetlər partiyası onunla hesablaşırdı, neft Bakısının əməkçiləri 1905-ci ilin sentyabrında maliyyə naziri V.N.Kokovtsovun yanında keçirilmiş müşavirədə iştirak "mandatını" ona həvalə etmişdilər və s.

Müsəlman hərəkatının liderləri Ümumrusiya təşkilatı olan "İttifaqi-müslimin" təşkilatının proqramını və nizamnaməsini tərtib etməyi ona tapşırmışdılar. I Dövlət Duması qovulduqdan sonra Vıborq çağırışını imzaladığına və Dumanı qovmuş imperatorun iradəsinə tabe olmadığına görə artıq parlament fəaliyyətindən kənarlaşdırılmış və bir daha Rusiya Dumasına seçilmək hüququndan məhrum edilmiş Ə.M.Topçubaşovu dəfələrlə bütün çağırışlardan olan Dövlət Dumasının müsəlman fraksiyasına rəhbərlik etmək üçün, onun işində iştirak etmək üçün, xüsusən də Dumada müzakirə olunan mühüm qanun layihələri üzrə təklif tərtib edilib verilməsi və onların əsasında qərar qəbul edilməsi lazım gələndə Peterburqa dəvət etmişdilər. İran hökuməti Ə.M.Topçubaşova "Ədliyyə Nazirliyində mühüm vəzifə" təklif edərkən Rusiya müsəlmanları arasında populyar olan "Tərcüman" qəzeti yazmışdı: "Topçubaşov yeni vəzifədə böyük fayda verəcək, lakin biz müsəlmanlar özümüz belələrini barmaqla sayırıq və belələrinin təcrübəsinə, əzminə və biliyinə ehtiyac duyuruq"[173].

Xalqlara ən adi hüquq və azadlıqlar əldə etmək ümidi vermiş 1905-ci il hadisələrinə böyük əhəmiyyət verən Ə.M.Topçubaşov redaktoru olduğu "Kaspi" qəzetinin səhifələrində bu hadisələri əks etdirir və onları hərtərəfli təhlil edərək geniş oxucu kütləsinin dərk etməsi üçün imkan yaradırdı.

Ə.M.Topçubaşovun xalqımız qarşısındakı xidmətlərinə yüksək qiymət verən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: "Əlimərdan Topçubaşov vaxtilə bizim Azərbaycanın ilk Demokratik Respublikasının parlamentinin sədri olubdur və bir diplomat kimi də bizim tariximizdə öz yerini tutubdur. Onun haqqında indi yazılar da, xatirələr də var. Deyirlər ki, nə qədər mədəni, ziyalı, görkəmli bir adam olubdur. Xalqımızın tarixində belə bir adamla fəxr edirik"[174].

---

[173] Bu mənbədən verilir: "Мусульманская печать России". Oksford, 1987, səh. 40.

[174] H.Ə. Əliyev. Xarici siyasətimizin uğurları böyükdür, ölkəmizin beynəlxalq aləmdə mövqelərini gücləndirməli və möhkəmləndirməliyik. «Azərbaycan» qəzeti, 8 mart 1998-ci il.

1905-ci il martın 15-də H.Z.Tağıyev sarayında Azərbaycan sabibkarları və ziyalıları nümayəndələrinin müşavirəsi keçirildi. Müşavirədə Qafqaz diyarında islahatların keçirilməsi zəruriliyi, hökumətə petisiya verilməsi haqqında məsələ müzakirə olundu[175]. Müşavirə petisiya verilməsini zəruri sayaraq Bakı şəhər dumasının 8 mart tarixli qərarını müdafiə etdi və Bulıginin sədrliyi ilə Xüsusi müşavirədə diyar nümayəndəsinin iştirakının əhəmiyyətini xüsusi qeyd etdi. Petisiyanı təqdim etmək üçün "bütün Qafqaz müsəlmanları" adından deputat heyəti göndərmək məqsədəuyğun hesab olundu. Bu məqsədlə müşavirə qərara aldı ki, diyarın bütün iri yaşayış məntəqələrinə teleqramlar göndərərək onlara deputat heyətinin tərkibinə öz nümayəndələrini irəli sürməyi təklif etsin. Bununla da müşavirə milli qüvvələri, habelə bütün Qafqaz müsəlmanlarını öz ətrafında sıx birləşdirməyə cəhd göstərdi.

1905-ci ilin aprelində Zaqafqaziyanın "müsəlman əhalisinin müvəkkilləri" Ə.M.Topçubaşovun tərtib etdiyi petisiyanı[176] Nazirlər Komitəsinə təqdim etdilər. Petisiyanı Bakı və Yelisavetpol quberniyalarının nümayəndələri - Ş.Əsədullayev, R.Şirvanski, Ə.Ağayev, M.R.Vəkilov, Ə.M.Topçubaşov, A.Ziyadxanov, H.B.Zülqədərov və başqaları imzalamışdılar. Bu petisiya eyni zamanda Qafqaz canişini İ.İ.Vorontsov-Daşkova da təqdim olunmuşdu. Lakin sənədlər bunu təsdiq etmir. Qoşma məktubundan göründüyü kimi, Nazirlər Komitəsi petisiyanın verilməsindən yalnız canişini xəbərdar etmişdir[177]. 1905-ci ilin iyununda canişinə təqdim olunmuş və əsasən aprel petisiyasının müddəalarını qısa şəkildə əks etdirmiş petisiyada isə "Zaqafqaziya müsəlmanlarının" deputat heyəti ondan xahiş etmişdi ki, "ali hökumətə" apreldə verilmiş petisiyanı müdafiə etsin[178].

Nazirlər Komitəsinə verilmiş petisiya onunla əlamətdardır ki, bu, Azərbaycandan çar hakimiyyət orqanlarına təqdim olunmuş ilk proqram sənədidir. Sonralar həmin sənəd bu və ya digər inzibati instansiyalara müraciətlər və hər cür məktublar üçün bir növ platforma və əsas oldu. Bu zaman onun ayrı-ayrı bəndlərinin məzmunu daha konkret şəkildə genişləndirilirdi.

Petisiyada ilk novbədə ictimai və təsərrüfat həyatında müsəlmanlar qarşısında qoyulmuş məhdudiyyətlər ifadə olunurdu. Çarizmin müəyyən etdiyi reqlamentə görə müsəlman qlasnıların sayı şəhər özünüidarə orqanlarının bütün tərkibinin yarısından çox ola bilməzdi. Mülki və hərbi idarələrin bütün müəssisələrində yüksək vəzifələr onlar üçün əlçatmaz idi. İstər orta, istərsə də ali savadlı müsəlmanlar qarşısında sərbəst peşə seçməkdə məhdudiyyətlər qoyulmuşdu, onlar pedaqoji fəaliyyətdən kənarlaşdırılmışdılar, tələbə müsəlmanlar dövlət təqaüdündən istifadə edə bilmirdilər, onları bir sıra ali məktəblərə qəbul etmirdilər. Bəzi yerlərdə müsəlmanlar hətta sərbəst yaşaya, daşınmaz əmlak ala,

175 "Каспий" qəzeti, 17 mart 1905-ci il.
176 RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 63.
177 RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 63.
178 "Каспий" qəzeti, 19 iyun 1905-ci il.

ticarətlə məşğul ola bilmirdilər. Onlar rus zadəganlarının və tacirlərinin silk hüquqlarından məhrum idilər[179].

Azərbaycan cəmiyyətinin nümayəndələri petisiyada bu məhdudiyyətlərin ləğvi məsələsini qoyaraq "İmperiyada yaradılacaq nümayəndəli xarakterli bütün qanunyaradıcı, qanunverici və digər təsisatlarda" müsəlmanların təmsil olunmasında, dövlət qulluğunda və ictimai işdə məhdudiyyət qoyulmadan vəzifə tutmaq hüququnda xüsusi maraqları olduğunu nümayiş etdirirdilər. Petisiya həmçinin 18 fevral reskriptinə uyğun olaraq çağırılan "xalq nümayəndələrinin müşavirəsinə Qafqazın müsəlman əhalisinin nümayəndələrinin" buraxılması tələbini də irəli sürürdü[180].

Qafqazda tam özünüidarə prinsipləri əsasında və inzibati hakimiyyət orqanlarının müdaxiləsi olmadan zemstvo təsisatının tətbiqi, heç bir məhdudiyyət qoyulmadan müsəlmanların zemstvoda və şəhər özünüidarəsində iştirakı zəruriliyinin əsaslandırılmasına petisiyada xeyli yer ayrılmışdı. Petisiya müəllifləri hesab edirdilər ki, Rusiyanın daxili quberniyalarında olduğu kimi, Qafqazda da "tam özünüidarə ideyasının" həyata keçirilməsi bütün məhdudlaşdırıcı qanunların ləğvi, normal mülki idarəetmə təşkilatının müəyyən edilməsi, idarəetmədə qanunçuluğa zəmanət verilməsi, şəxsiyyət və mənzil toxunulmazlığı, vicdan, söz və mətbuat azadlığı (ana və rus dillərində)[181], yığıncaqlar və ittifaqlar azadlığı, ana dilində ümumi, icbari və pulsuz ibtidai təhsilin tətbiqi və s. şəraitində mümkündür.

Sənəddə qeyd olunurdu ki, Qafqazda tətbiq olunmuş 1864-cü il məhkəmə nizamnamələri andlı iclasçılar məhkəməsi kimi mühüm təsisat olmadan fəaliyyət göstərir. Hakimlərin dil bilmədiyi və yerli əhalinin məişəti ilə tanış olmadığı Qafqazda xalq içindən seçilmiş nümayəndələrin məhkəmədə iştirakının bu forması xüsusilə zəruri idi. Sənədin tərtibçiləri həmçinin seçkili barışdırıcı hakimlər təsisatının tətbiqinə də tərəfdar çıxırdılar[182].

Petisiya fəhlə məsələsində "fabrik qanunvericiliyinin genişləndirilməsi yolu ilə" fabrik-zavod və mədən fəhlələrinin məişətinin yaxşılaşdırılması sahəsində bütün tədbirlərin müsəlman fəhlələrə də şamil edilməsi barədə bənd ilə kifayətlənmişdi[183]. Kəndlilərin vəziyyəti məsələləri də kənarda qalmamış, kəndli torpaq paylarının hökmən satın alınması, aztorpaqlı və torpaqsız kəndlilərə torpaq verilməsi, yerli şərait nəzərə alınmaqla vergilər qoyulması, Qafqazda köçürmə hərəkatının dayandırılması və yerli kəndlilərin qış və yay otlaqları, meşə, balıq ovu sahələri və s. ilə təmin edilməsi zəruriliyi bildirilmişdi[184]. Lakin petisiyada kəndlilərə hansı torpaqların verilməsi, torpaq paylarının nəzərdə tutulan normaları

[179] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 65 arxada; "Право" qəzeti, 8 may 1905-ci il.
[180] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 71 arxada.
[181] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 65 arxada; "Право" qəzeti, 8 may 1905-ci il.
[182] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 68 və arxada, 69; "Право" qəzeti, 8 may 1905-ci il.
[183] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 68 və arxada, 69; "Право" qəzeti, 8 may 1905-ci il.
[184] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəq 68 və arxada, 69; "Право" qəzeti, 8 may 1905-ci il.

və s. məsələlərə toxunulmamışdı. Bu qeyri-müəyyənlik bir qədər sonra, məsələ konkretləşəndə Dövlət Duması deputatlarının çıxışlarında aradan qaldırılmışdı. Xanlara və bəylərə zadəgan təşkilatları yaratmaq imkanı verilməklə onların zadəgan hüquqları haqqında məsələnin həllinin sürətləndirilməsi vəzifəsi də qoyulmuşdu.

Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin mənafelərini əks etdirən aprel petisiyası ümumdemokratik xarakter daşıyırdı, milli əsarətə qarşı yönəlmişdi. Buna görə də həmin sənədi milli azadlıq və cəmiyyətin demokratik cəhətdən yenidən qurulması uğrunda ümummilli mübarizə proqramı hesab etmək olar. Petisiya Azərbaycan xalqının milli mənlik şüurunun inkişafı üçün müstəsna əhəmiyyətə malik idi və bütün milli qüvvələrin sıx birləşməsi işində böyük rol oynadı.

## § 2. Siyasi həyatın mühüm məqamları

1905-ci ilin yazında və yayında Azərbaycanda petisiya kampaniyası davam etdi.

1905-ci il aprelin 17-də verilmiş "ali fərman"da petisiyadakı bütün xahiş və tələblərdən yan keçilmiş və yalnız bu təsdiq olunmuşdu ki, guya bütün müsəlmanların "öz rifahları və əziz Vətənin rifahı naminə öz mənəvi və maddi qüvvələrini inkişaf etdirməkdən başqa qayğısı yoxdur"[185]. Mütləqiyyətin yeganə güzəşti ondan ibarət idi ki, müsəlmanlara müfti, qazı və məhəllə ruhanilərini seçmək hüququ verilmiş və dinini öyrənmək, ona etiqad etmək azadlığı bəyan edilmişdi. Bununla çarizm "özgə xalqlara" özünün əsl münasibətini bir daha nümayiş etdirərək, onları cəhalətdə və əsarətdə saxlamağa hər cür səy göstərirdi. Bu fərmanın doğurduğu aşkar təəssüf hissinə baxmayaraq Bakının "ən nüfuzlu müsəlmanları" Bakı general-qubernatoru İ.Q.Amilaxoridən xahiş etmişdilər ki, canişin vasitəsilə çara teleqramlarını çatdırsın. Teleqramda onlar çardan xahiş edirdilər ki, "17 aprel fərmanında müsəlmanlara göstərilən mərhəmətə ... görə onların hədsiz sədaqətinə, ehtiramına və minnətdarlığına"[186] əmin olsun.

Azərbaycan sahibkarlarının və ziyalılarının nümayəndələri çara minnətdar olduqlarını bildirməklə yanaşı 17 aprel fərmanı veriləndən sonra da öz petisiya kampaniyalarını dayandırmadılar. Belə ki, 1905-ci il aprelin axırlarında Yelisavetpol quberniyası müsəlmanlarının petisiyası Nazirlər Şurasına təqdim olundu[187]. Petisiyada "bütün Qafqaz müsəlmanlarının" aprel petisiyasındakı tələblərin demək olar hamısı daha qısa şəkildə öz əksini tapmış, lakin dini məsələlər ön plana çəkilmişdi. Çar fərmanının təsiri özünü göstərmişdi. Zaqatala mahalının müsəlman əhalisi adından Qafqaz canişininə təqdim olunmuş

[185] "Tərcüman" qəzeti, 29 aprel 1905-ci il.
[186] "Каспий" qəzeti, 23 aprel 1905-ci il.
[187] TİEA, iş 940, vərəqlər 12-19.

petisiyada[188] dini tələblər, habelə mahalın həyatının təsərrüfat-inzibati məsələləri ilə əlaqədar bəndlər var idi. 1905-ci ilin payızında Ə.Hüseynzadə tərəfindən tərtib olunmuş və imzalanmış "Salyan və Cavad qəzaları sakinlərinin vəsatəti" Qafqaz canişininin dəftərxanasına təqdim olundu. Vəsatətdə aprel petisiyasına daxil edilmiş ehtiyaclardan başqa yerli xarakterli məsələlər də var idi[189]. 1905-ci ilin oktyabrında canişinə həmçinin Nuxa şəhərinin müsəlman əhalisi nümayəndələrinin ərizəsi təqdim olundu. Ərizədə "vəd olunmuş" islahatların keçirilməsi və "bütün qafqazlılar" arasında təhsilin təşkili məsələsi qoyulmuşdu[190].

Azərbaycan sahibkarlarının nümayəndələri tələbləri şərh etmək məqsədilə 1905-ci il aprel ayının ilk günlərində çar senatoru A.M.Kuzminskinin Bakı şəhərini və Bakı quberniyasını təftiş üçün gəlişindən istifadə etdilər. Senatorun qəbul etdiyi bir sıra nümayəndə heyətləri arasında "Bakı şəhərinin ali, ziyalı və varlı sinfinə məxsus olan məşhur vətəndaşları"ndan ibarət 12 nəfərlik nümayəndə heyəti də var idi[191]. İyun ayında çar senatorunun qəbulunda olmuş deputat heyəti belə bir arzuda olduğunu bildirmişdi ki, "imperiyada yaşayan başqa xalqlar kimi müsəlmanlara da eyni siyasi, mülki, dini hüquqlar verilsin"[192].

Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkova xüsusi ümidlər bəslənilirdi. 1905-ci il iyunun 10-da "Qafqaz müsəlmanları" adından Tiflisə gəlmiş deputatlar onun yanında oldular[193]. Sosial tərkibinə görə deputatlar yuxarı təbəqələrin nümayəndələri idilər. Ə.M.Topçubaşovun tərtib etdiyi petisiyada aprel petisiyasının bir çox bəndləri qısa şəkildə verilmiş, bəylərin mənafelərini əks etdirən tam bir sıra tələblər sənədə daxil edilmişdi[194].

İlkin tanışlıq üçün canişinə təqdim olunmuş ərznamədə deputat heyəti bir daha "tam əmin olduğunu bildirdi ki, Qafqaz müsəlmanlarının imperiyanın əsas əhalisinə qovuşmaq istəyi hökumət tərəfindən rəğbətlə qarşılanacaq və bununla da müsəlmanların siyasi, mülki və dini hüquqları əsas rus əhalisinin hüquqları ilə bərabərləşərək onlar Rusiya dövlətində keçirilən islahatlara qoşulacaqlar"[195].

İ.İ.Vorontsov-Daşkov ərznamə ilə tanış olaraq hər bir bəndi birgə müzakirə etmək üçün deputat heyətini qəbul etdi. İzahatı Ə.M.Topçubaşov verirdi. Canişin petisiyada ifadə olunmuş arzuları tamamilə ədalətli hesab etdi. O, ana dilində məktəblər açılmasına, qadınlar üçün tədris müəssisələrinin və müsəlmanların dini

---

[188] TİEA, iş 940, vərəqlər 12-19.
[189] Gürcüstan DTA, fond 13, siyahı 3, iş 177, vərəq 6.
[190] Gürcüstan DTA, fond 13, siyahı 15, iş 24, vərəq 3-5 arxada.
[191] RFDTA, fond 821, siyahı 133, iş 469, vərəq 332; Отчет Сенатора Кузьминского, səh. 21.
[192] RFDTA, fond 821, siyahı 133, iş 469, vərəq 332; Отчет Сенатора Кузьминского, səh. 21.
[193] "Каспий" qəzeti, 19 iyun 1905-ci il; "Баку" qəzeti, 21 iyun 1905-ci il; "Həyat" qəzeti, 14 iyun 1905-ci il.
[194] "Каспий" qəzeti, 19 iyun 1905-ci il, "Həyat" qəzeti, 19 iyun 1905-ci il; "Баку" qəzeti, 21 iyun 1905-ci il.
[195] "Каспий" qəzeti, 19 iyun 1905-ci il, "Həyat" qəzeti, 19 iyun 1905-ci il; "Баку" qəzeti, 21 iyun 1905-ci il.

məktəblərinin açılmasına xüsusi diqqət yetirəcəyini vəd etdi. Canişin ana dilində qəzet, jurnal və kitab nəşrinə kömək edəcəyini vəd edərək senzuranın bəzi sıxışdırıcı şərtlərinin ləğvini prinsipcə mümkün hesab etdi. Canişinin cavablarının təhlili göstərir ki, o, boş vədlər verib canını qurtarmağa çalışaraq əksər məsələlərin "qanunvericilik qaydasında" həlli zəruriliyini bəhanə gətirirdi, bu da əslində çar dövlət aparatının müxtəlif idarələrində sonu görünməyən bürokratik süründürməçilik demək idi. Canişin müsəlmanların sosial cəhətdən yuxarı təbəqələrinin arzularının hətta ən kiçik hissəsinin yerinə yetirilməsinin də diyarda "sabitliyin"[196] yaranmasından asılı olduğunu bildirir və bununla da zəhmətkeş kütlələrin inqilabi çıxışlarını nəzərdə tuturdu. Çar hakimiyyətinin ali nümayəndəsinin siyasəti onun qarşısında qoyulmuş belə bir vəzifədən irəli gəlirdi ki, yerli nüfuzlu adamların simasında diyarda özünə arxa tapmaq üçün vədlər vermək və kiçik güzəştlərə getməklə onlar ilə ittifaqı möhkəmləndirsin.

1905-ci ilin iyulunda "Bakı müsəlmanlarının" vəsatəti canişinə təqdim olundu[197]. Bakı dumasına deputat seçkilərində müsəlmanlar üçün məhdudiyyətləri tezliklə ləğv etmək və 1905-1909-cu illər üçün onun tərkibinin seçilməsini dayandırmaq məsələsini qoyan Azərbaycan sahibkarları şəhər işlərinin həllində öz hüquqlarını genişləndirməyə çalışırdılar. Bununla yanaşı "Bakı müsəlman cəmiyyətinin ən nüfuzlu və ziyalı şəxsləri" ümummilli mənafeləri müdafiə edərək eyni zamanda Müsəlman Xeyriyyə Cəmiyyəti və Qafqaz Canişinliyinin Müsəlman Əhalisinin Savadlandırılması Cəmiyyəti nizamnamələrinin təsdiq edilməsi barədə canişinə ərizə göndərdilər. Bu vəsatətlərin çatdırılması və izahı ilə əlaqədar bütün qayğılar Ə.M.Topçubaşova həvalə olundu[198].

Avqustun əvvəllərində üç vəsatətin hamısı Ə.M.Topçubaşov tərəfindən canişinə təqdim olundu. Bakı qəzetləri xəbər verirdilər ki, bu vəsatətlər "lazımınca işə salınmışdır və tezliklə onların müsbət həllinə tam ümid var"[199].

1905-ci ilin mayında Yelisavetpolda şəhər duması qlasnılarının seçkilərində Gəncə sahibkarlarının ardıcıl fəaliyyəti nəticəsində 55 müsəlman qlasnı seçilmişdi[200]. Seçkilərin nəticələri təsdiq olunmadı, çünki seçilən müsəlmanların sayı müəyyən olunmuş normadan yuxarı idi. Bu, hiddət doğururdu. Qəzetlərdə bu ayrı-seçkilik faktını pisləyən məqalələr dərc olunurdu.[201] Yelisavetpolda və Hacıkənddə təşkil edilmiş müşavirələrdə Ə.M.Topçubaşov "müsəlmanların ehtiyaclarının" izahı ilə çıxış etmiş, Yelisavetpol şəhər dumasına seçkilərin təsdiq edilməsi və ya şəhərlərin ictimai cəhətdən idarə olunmasında müsəlmanların

---

[196] "Каспий" qəzeti, 19 iyun 1905-ci il.
[197] "Каспий" qəzeti, 30 iyul 1905-ci il.
[198] "Каспий" qəzeti, 30 iyul 1905-ci il.
[199] Yenə orada, 10 avqust 1905-ci il; "Həyat" qəzeti, 11 avqust 1905-ci il; "Баку" qəzeti, 11 avqust 1905-ci il.
[200] "Каспий" qəzeti, 29 may 1905-ci il.
[201] "Каспий" qəzeti, 29 may 1905-ci il.

hüquqlarını məhdudlaşdıran qanunlar ləğv edilənədək yeni seçkilərin dayandırılması barədə vəsatətləri müdafiə etmək üçün Ə.M.Topçubaşovdan, A.Ziyadxanovdan, Ə.Xasməmmədovdan[202] və başqalarından ibarət deputat heyəti seçilmişdi[203]. Avqustun 4-də deputat heyəti Qafqaz canişininin mülki işlər üzrə köməkçisi N.A.Sultan-Krım-Gireyin qəbulunda oldular. O bildirdi ki, şəhər işlərində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasının ləğvi məsələsinə tezliklə baxılmalıdır. Bakı xeyriyyə cəmiyyətinin nümunəsi əsasında Yelisavetpolda Müsəlman Xeyriyyə Cəmiyyətinin açılmasına icazə məsələsi də qaldırılmışdı.

Canişin dəfələrlə müsəlmanların tələblərini yerinə yetirəcəyini vəd etməklə yanaşı eyni zamanda buna da diqqəti cəlb edirdi ki, o, şəhər özünüidarəsi sahəsində müsəlmanların hüquqlarının məhdudlaşdırılması üçün heç bir əsas görməsə də, bu məsələ imperiya üçün ümumi bir məsələdir. Lakin 44-cü maddəyə aid qeydə uyğun surətdə hüququndan istifadə edərək o həmin qaydanı müvəqqəti olaraq dəyişdirə bilərdi. Vədini həyata keçirməyə isə o tələsmirdi. 1907-ci ilin martında Bakı şəhərinin "ən nüfuzlu müsəlmanlarının" divanxanaya göndərdikləri kollektiv ərizədə diqqət buna cəlb edilmişdi. Ərizədə deyilirdi ki, iki il bundan əvvəl şəhər duması bu məsələni canişin qarşısında qaldırmışdı. Məsələ həll olunmadığına görə onlar bir daha vəsatətlə ona müraciət edirlər[204]. Bütövlükdə bu məhdudiyyətin ləğvi məsələsini qoymaq, yoxsa keçirilməsinə səkkiz gün qalmış qarşıdakı seçkilərdə məhdudiyyətlərin götürülməsi xahişi ilə kifayətlənmək məsələsi müzakirə edilərkən qlasnıların fikirləri bir qədər ayrıldı[205]. Qlasnıların bir hissəsi məsələnin bütövlükdə Dövlət Dumasında həll ediləcəyini hesab edərək bir az gözləməyi və sonralar hərəkət etməyi məsləhət görürdü. Qlasnıların digər qismi isə, o cümlədən də H.Z.Tağıyev və Ə.Ağayev ləngimədən hərəkət etməyi təklif edirdilər. Ə.Ağayev təkidlə deyirdi: "Təsəvvür edin ki, Dövlət Dumasında məsələ keçmədi, onda müsəlmanlar əvvəlki şəraitdə qalmalı olacaqlar. Biz indi buna öz etirazımızı bildirməli və haray salmalıyıq ki, biz daha ölməkdə olan rejimin siyasətinə dözə bilmirik və axıradək məhvə doğru gedə bilmərik. Nəhayət oyanmalı və öz insan hüquqlarımızı dərk etməliyik"[206]. Dumanın qəbul etdiyi qərara görə divanxana canişinə teleqram göndərdi. Teleqramda canişinin diqqəti ona yönəldilirdi ki, "hazırda, Əlahəzrət tərəfindən vicdan azadlığı elan edildikdən sonra imperiyanın hər bir vətəndaşı sitayiş etdiyi dini seçməkdə azaddır və bu məsələ barədə qanunvericilik sanksiyası yaxın gələcəyin işidir". Buna görə də duma qərara almışdı ki, qarşıdakı 15 mart seçkilərində məhdudiyyətləri götürmək

[202] "Каспий" qəzeti, 10 avqust 1905-ci il, "Баку" qəzeti, 11 avqust 1905-ci il.
[203] "Каспий" qəzeti, 10 avqust 1905-ci il, "Баку-qəzeti, 11 avqust 1905-ci il.
[204] "Каспий" qəzeti, 8 mart 1907-ci il.
[205] Yenə orada.
[206] "Каспий" qəzeti, 8 mart 1907-ci il.

üçün onun qarşısında vəsatət qaldırsın. Məqsəd də o idi ki, "əhali dininə fərq qoymadan iş üçün faydalı hesab etdiyi bütün şəxsləri qlasnı seçə bilsin"[207]. Lakin bu vəsatət diqqətsiz qaldı. Naxçıvan qəzası torpaq sahiblərinin öz nümayəndələri Abbasqulu xan və Cəfərqulu xan vasitəsilə 1910-cu il dekabrın 1-də Peterburqa təqdim etdikləri "məktub" da diqqətsiz qaldı. "Məktub"da silk hüquqlarının rus mülkədarları ilə bərabərləşdirilməsi barədə bənd var idi[208]. 1913-cü ilin fevralında Yelisavetpol quberniyası bəylərinin və ağalarının deputat heyəti Qafqaz canişininin yanında oldu və Rusiya zadəganlarının silk hüquqlarının onlara şamil edilməsi barədə vəsatət qaldırdı[209]. Vəsatət yerinə yetirilmədi və 1914-cü ilin mayında Yelisavetpol quberniyası bəylərinin yığıncağı qərara aldı ki, silk hüquqları təsdiq edilənədək "quberniyanın ali silkinə mənsub olan şəxslərdən ibarət olan və geniş mədəniyyət və maarif vəzifələri daşıyan qarşılıqlı yardım cəmiyyəti"[210] yaradılsın.

Xeyriyyə cəmiyyətlərinin açılması barədə ərizələrə baxılması da hər cür bəhanələrlə uzadılmışdı. Belə ki, Bakı Xeyriyyə Cəmiyyəti nizamnaməsinin baxılmaq üçün Ə.M.Topçubaşov tərəfindən 1905-ci ilin iyulunda canişinə təqdim olunmuş layihəsini o yalnız oktyabrda təsdiq etmişdi. Xeyriyyə Cəmiyyətinin açılmasına razılıq 1905-ci ilin axırlarında - 1906-cı ilin əvvəllərində alınmış, şəhər özünüidarə orqanlarına müsəlmanların seçilməsindəki məhdudiyyətlər isə yalnız 1917-ci ilin fevralından sonra ləğv edilmişdi.

Genişlənmiş petisiya hərəkatında, onun müntəzəm işıqlandırılmasında və cəmiyyətin geniş dairələrinin diqqətinin bu işə cəlb edilməsində o dövrün siyasi publisistikası böyük rol oynamışdı. Çoxsaylı məqalələrin və informasiya materiallarının müəllifləri öz yazılarında petisiya və ərizələrdə qaldırılan məsələləri açıb göstərən materiallarla kifayətlənmirdilər. Onlar bu müraciətlərə səriştəli şərhlər verir, sənədlərə daxil edilmiş hər bir bəndin millətin taleyi üçün əhəmiyyətini izah edirdilər. Belə ki, Ə.Ağayev "Müsəlmanların petisiyalarına dair zəruri izahat" məqaləsində yazırdı: "Bütün rus cəmiyyətini bürümüş cərəyan rus müsəlmanlarını da əhatə etmişdir. Biz əsrlər boyu ümidsiz yaşamış və mürgüləmişik, yalnız indi ayılmağa başlamışıq. Elə bil nəhayət başa düşmüşük ki, həyat yatmaqdan, mürgüləməkdən ibarət deyil, fəal hərəkətdən, həyatın tələblərinə, insan təbiətinin əqli və mənəvi irəliləyişinin tələblərinə dönmədən həssaslıqla yanaşmaqdan ibarətdir. Məhz buradan da görünməmiş bir mənzərə açılır: Rusiyanın müsəlman əhalisinin bütün guşələrindən deputat heyətləri hazırlanır, ona görə yox ki, bu və ya digər stanovoya və ya pristava mədhiyyə oxusunlar, müdrik rəhbərliyi və atalıq qayğısı altında bu cür yaxşı yaşadıqları bu və ya digər qəza rəisinə tərif dolu ərizələr yazsınlar. Yox. Onlar ali reskriptdən ilhamlanaraq və bu

---

[207] "Каспий" qəzeti, 8 mart 1907-ci il.
[208] Талыбзаде И.А. Аграрная реформа 1912 года в Азербайджане. Bakı, 1965, səh. 36-37.
[209] "Мусульманская газета", 28 fevral 1913-cü il.
[210] "Народы и области" (Сборник), № 2, 1 iyun 1914-cü il, səh. 32.

sənədin doğurduğu ümidlə Peterburqa gedirlər ki, lazımi idarələrdə və yerlərdə öz ehtiyacları və tələbatları haqqında danışsınlar, rus vətəndaşı olmağı, rus cəmiyyətinə qoşulmağı, bütün xeyirdə və şərdə, bütün hüquq və vəzifələrdə onunla bir olmağı özləri üçün xahiş etsinlər"[211]. Ə.Ağayev onların tərəfini saxlayaraq seçdikləri yolu müdafiə edirdi: "Onlar (müsəlmanlar - D.S.) xahiş edirlər, onlar tələb edirlər ki, onları unutmasınlar, əvvəlki kimi onları kənarda qoymasınlar. Bu, müsəlmanların bütün xahişlərinin ən əsasıdır, onlar uzun illərdən, əsrlərdən gələn təcrübədən bilirlər ki, unudulmaq nə deməkdir, kənarda qoyulmaq nə deməkdir"[212].

Neft sənayesinin vəziyyətinə baxılması ilə əlaqədar Azərbaycan sahibkarlarının və ziyalılarının nümayəndələri maliyyə naziri V.N.Kokovtsovun sədrliyi ilə oktyabrda Peterburqda açılmış müşavirənin işində iştirak etdilər. Müşavirə mədənlərin işinin bərpası və Bakıda avqust hadisələri zamanı millətlərarası toqquşmalar nəticəsində neft sənayesinə vurulmuş böyük ziyanın kompensasiyası ilə əlaqədar məsələlərin müzakirəsi üçün çağırılmışdı. Müşavirəyə sənaye sahəsində sahibkarlıq təşkilatlarının, gəmiçilik idarələrinin və birja komitələrinin nümayəndələri gəlmişdilər. Müşavirədə cəmi 300 nəfər iştirak edirdi[213].

Neft sənayeçilərinin təkliflərini və xahişlərini ümumiləşdirmək üçün sentyabrın 23-də onların xüsusi müşavirəsində[214] "Bakı neft sənayeçilərinin ərznaməsi"[215] hazırlanmış və maliyyə nazirinin yanında keçirilən müşavirənin müzakirəsinə təqdim olunmuşdu. Neft sənayeçiləri, özlərinin fikrincə, bu sahənin həyatının normallaşması və bərpası üçün konkret və lazımi tədbirləri müəyyən edərək bunları üç kateqoriyaya bölürdülər. Guya dərhal və ya ən yaxın vaxtlarda həyata keçirilməsi mümkün olan birinci və ikinci kateqoriyalara aid tədbirlərə onlar aşağıdakıları şamil etmişdilər: Bakıya əlavə qoşun hissələrinin göndərilməsi, polisin gücləndirilməsi, "yerli əhalidən olan bütün polisləri" çıxarmaqla polisin keyfiyyət tərkibinin yaxşılaşdırılması, neft sənayeçilərinə tərkibində "yerli ünsürlər" olmayan silahlı mühafizə dəstələri saxlamağa icazə verilməsi və s. Onlar "qabaqcadan işlənilməsi və həyata keçirilməsi üçün az-çox vaxt tələb edən" üçüncü kateqoriyaya aid tədbirlər kimi fəhlə qəsəbələrinin tikintisinin sürətləndirilməsini, Balaxanı, Sabunçu, Ramana və Zabrat kəndlərinin tutduqları torpaqların özgəninkiləşdirilməsini, mədənlərdə hər hansı tikinti aparmaq hüququnun yalnız neft sənayeçilərinə verilməsini və s. irəli sürürdülər[216]. Neft sənayeçiləri ərznamədə fəhlələrə demokratik azadlıqlar verilməsinə tərəfdar çıxmışdılar.

---

[211] "Каспий" qəzeti, 30 mart 1905-ci il.
[212] "Каспий" qəzeti, 30 mart 1905-ci il.
[213] "Каспий" qəzeti, 30 sentyabr 1905-ci il.
[214] "Каспий" qəzeti, 30 sentyabr 1905-ci il.
[215] "Нефтяное дело", № 20-21, 1905, sütun 1977-1983.
[216] "Нефтяное дело", № 20-21, 1905, sütun 1980.

V.N.Kokovtsov ərznamə ilə tanış olaraq və ilk iki kateqoriyadan olan tədbirlər üzərində dayanmağı təklif edərək qeyd etmişdi ki, təklif olunmuş tədbirlərdən bəziləri, "məsələn, Bakı rayonuna qoşunlar verilməsi kimi tədbir artıq icradadır". Bakıda və onun ətraflarında "800 əsgər və iki süvari polku" var idi[217]. Polisin tərkibinin yaxşılaşdırılması məsələsini V.N.Kokovtsov Nazirlər Komitəsinə çatdıracağını vəd etmişdi[218].

Fəhlə məsələsinə gəldikdə isə nazir bildirdi ki, bu "məsələ İmperiya üçün ümumi məsələdir, onu yalnız Bakıda islahatlar keçirməklə həll etmək mümkün deyildir"[219]. Fəhlələrə demokratik azadlıqlar verilməsi barədə bildirilmiş və vəd olunmuşdu ki, bu məsələ Dövlət Dumasının müzakirəsinə veriləcək[220].

Sərəncamımızda olan mənbələr ərznamənin bütün bəndlərinə Azərbaycan sahibkarları nümayəndələrinin münasibətini, habelə müşavirənin özündə onların iştirakını kifayət qədər səciyyələndirməyə imkan vermir. Eyni zamanda sənədlər göstərir ki, onlar Balaxanı, Sabunçu, Ramana, Zabrat mədən rayonları sakinlərinin oradan köçürülməsi məsələsinin uzun sürmüş müzakirəsində fəal və yaxından iştirak etmişlər. Bu məsələ ilə əlaqədar çıxış etmiş Ə.M.Topçubaşov, İ.Hacıyev, M.Xanlarov, F.Rüstəmbəyov azərbaycanlı kəndlilərin mənafelərinə istinad edərək iri neft sənayesi firmalarının bu təklifinə qarşı qətiyyətlə çıxmışdılar[221]. Bu torpaqların istifadəçiləri olan yerli kənd sabibkarlarının mənafelərini müdafiə etmək istəyi də öz təsirini göstərirdi. Bu torpaqlarda neft olduğu güman edilməsə də, onlar çox zəngin neft yataqlarının qonşuluğunda idi və hər halda gələcəkdə sənaye məqsədilə həmin ərazidən istifadə edilə bilərdi.

Azərbaycan neft sənayeçilərinin nümayəndələri guya fəhlə qəsəbələri salınması üçün həmin kəndlərin sakinlərinin əlindən 300 desyatin torpaq alınması təklifinə qarşı çıxdılar[222]. Bu təklifi Azərbaycan kəndlilərinin istifadəsində olan torpaqlarda işləyən və hər dəfə müxtəlif bəhanələrlə həmin torpaqları öz xeyirlərinə özgəninkiləşdirməyə çalışan başqa millətlərə məxsus bir sıra iri neft sənayesi firmaları vermişdi. Aydındır ki, bu, Bakı fəhlələrinin mənafeyi üçün edilmirdi, çünki Abşeronda başqa torpaqlar - istifadə olunmayan xəzinə torpaqları və ya xüsusi sahibkar torpaqları da tapmaq olardı[223]. Bu cür təklif yerli əhalinin mənafelərini sıxışdırmaq istəyini bir daha ifadə edirdi.

Ə.Ağayev, sonra isə Ə.M.Topçubaşov bu məsələ ilə əlaqədar çıxış edərək öz etirazlarını bildirmiş, kəndlilərin yaşadıqları torpağa bağlı olduqlarını, kəndlilərin çəkəcəkləri ziyanı göstərmişdilər. Polemikanın qızğın çağında

---

[217] "Каспий" qəzeti, 4 oktyabr 1905-ci il.
[218] "Каспий" qəzeti, 4 oktyabr 1905-ci il.
[219] "Каспий" qəzeti, 4 oktyabr 1905-ci il.
[220] "Сын Отечества", 9 oktyabr 1905-ci il.
[221] "Каспий" qəzeti, 4 və 7 oktyabr 1905-ci il.
[222] "Каспий" qəzeti, 7,11 və 27 oktyabr 1905-ci il.
[223] Сеидзаде Д.Б, Из истории азербайджанской буржуазии в начале XX века. Bakı, 1978, səh. 97-98.

Ə.Ağayev avqust toqquşmaları zamanı yerli əhalinin hərəkətlərinə toxundu. Ə.Ağayev toqquşmalarda müəyyən dərəcədə neft sənayeçilərini də təqsirləndirərək onlara bildirmişdi ki, onların dəyər-dəyməzə aldıqları neft ilə zəngin torpaqlardan götürdükləri milyonlar "yerli qeyri-mədəni ünsürlərdə" itirdiklərini başqa şeylə əvəz etmək istəyi doğurmuşdur[224].

Müzakirə nəticəsində bu məsələlərin heç biri həll olunmadı. Yerli əhalinin mənafeyini ardıcıl surətdə müdafiə etmiş Azərbaycan cəmiyyəti nümayəndələrinin etirazları obyektiv surətdə müsbət rol oynadı, Azərbaycan kəndlilərinin köçürülməsi və ya onların əlindən torpaq paylarının xeyli hissəsinin alınması barədə açıq-aşkar müstəmləkəçilik xarakteri daşıyan təkliflər həyata keçirilmədi. Çar hakimiyyət orqanlarının Azərbaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirməyə başlayan ümummilli azadlıq hərəkatının yüksəlişindən qorxması da buna öz təsirini göstərdi. Müsəlman fəhlələrinin bu müşavirədə iştirak etməsi "mandatı" Ə.M.Topçubaşova həvalə olundu. Mäşavirə onun səlahiyyətlərini tanıdı və iclaslardan birində V.N.Kokovtsov bildirdi ki, müsəlman fəhlələr öz mənafelərinin müdafiə olunmasını Ə.M.Topçubaşova tapşırmışlar[225].

Ə.M.Topçubaşov müsəlman fəhlələrinin tələblərindən ibarət məktub tərtib edib müşavirəyə təqdim etmişdi. Məktubda siyasi tələblər də irəli sürülürdü. Bu tələblər V.N.Kokovtsovun sərəncamı ilə müzakirə edilməmişdi, buna görə də onlar çap olunmayaraq naməlum qalmışdı. Elan olunmuş tələblər arasında Bakı neft sənayeçiləri qurultayı Şurasının işlər müdirinin ikinci köməkçisi vəzifəsinə müsəlman təyin olunması barədə tələb rədd edildi[226]. Fəhlələrin məişət problemlərini əks etdirmiş tələblər də mədənlərdə ayrıca müsəlman hamamlarının, qəbiristanlıqlarının, məscidlərinin yaradılması tələbləri və s. yerinə yetirilmədi[227]. Hətta fəhlələrin adından Ə.M.Topçubaşovun irəli sürdüyü bu cür cüzi proqram da ondan asılı olmayan səbəblərə görə çar məmurlarına "həddindən çox böyük" proqram kimi göründü və bu tələblərdən heç biri yerinə yetirilmədi.

Azərbaycanın ictimai xadimləri öz ərizələrində, petisiyalarında, ərznamələrində, çar hökumətinin bu və ya digər nüfuzlu şəxslərinin qəbulunda olarkən dəfələrlə yerli əhalinin ana dilində qəzet nəşrinin zəruriliyi və senzuranın yüngülləşdirilməsi məsələsini qoymuşdular. Qəzet milli mənlik şüurunun formalaşması, ümummilli vəzifələrin təbliği, diyarda, Rusiya imperiyasında və dünyada baş verən çox mühüm siyasi hadisələrin işıqlandırılması, əhalinin ümumi siyasi səviyyəsinin yüksəldilməsi və s. üçün lazım idi.

1905-ci ili haqlı olaraq milli siyasi mətbuatın təşəkkülü ili hesab etmək olar.

---

[224] "Нефтяное дело", 1905, № 20-21, sütun 1987-1996.

[225] "Həyat" qəzeti 16 oktyabr, 1905-ci il, "Каспий" qəzeti, 8 oktyabr 1905-ci il, "Сын Отечества", 2 oktyabr 1905-ci il.

[226] "Каспий" qəzeti, 15 oktyabr 1905-ci il, "Баку" qəzeti, 29 oktyabr, 1905-ci il.

[227] "Каспий" qəzeti, 15 oktyabr 1905-ci il, "Baku" qəzeti, 29 oktyabr, 1905-ci il.

1905-ci il aprelin 22-də canişinin dəftərxanası Baş Mətbuat İşləri İdarəsinə xəbər vermişdi ki, Ə.M.Topçubaşova Bakıda "ilkin senzura şərti ilə tatar dilində gündəlik "Həyat" qəzetinin"[228] nəşrinə icazə verilmişdir. Ə.Ağayev və Ə.Hüseynzadə məsul redaktor təyin olunmuşdular.

"Kaspi" qəzeti xəbər verirdi ki, "Həyat"ın nəşrində iştiraka "Qafqazın, Kazanın, Krımın, Ufanın və başqa yerlərin yazan müsəlmanları sırasından bütün ən yaxşı müsəlman qüvvələri"[229] cəlb olunmuşdur.

"Həyat" qəzetinin çıxması ilə əlaqədar iyunun 6-da ibadət keçirilmiş[230], quberniya qazısının sədrliyi ilə "Bakının tacirlərinin və tanınmış adamlarının" təntənəli yığıncağı olmuşdu[231]. Toplaşanları qəzetin əhəmiyyəti və vəzifələri ilə tanış etmək qazıya həvalə olunmuşdu. İştirakçılar qəzetin nəşrini səxavətlə maliyyələşdirən H.Z.Tağıyevə minnətdarlıq etmiş və onun "millətə sədaqətini"[232] yüksək qiymətləndirmişdilər.

Yığıncaqda xəbər verilmişdi ki, quberniya idarəsinin katibi A.Atamalıbəyov "Həyat"ın dövlət senzoru təyin edilmişdir. Elə həmin gün H.Z.Tağıyevin və qəzetin redaktorları Ə.Ağayevin və Ə.Hüseynzadənin imzaları ilə canişinə minnətdarlıq teleqramı göndərilmiş və ona "bütün Qafqazın rifahı naminə qüvvə və cansağlığı"[233] arzu olunmuşdu. Qəzetin iyunun 7-də çıxmış birinci nömrəsi onun həyata keçirəcəyi vəzifələrlə oxucuları tanış etmişdi. Bu nömrədə elan olunmuş prinsiplər sonralar Azərbaycanda nəşr edilən demək olar bütün mətbuat orqanları üçün əsas prinsiplər oldu. Bu prinsiplər aşağıdakı kimi ifadə edilmişdi: "Biz müsəlman və Rusiyanın təbəələri olduğumuz üçün rus dövlətinin iqtisadi və siyasi şəraitində tərəqqi etmək istəyirik!" Bir az aşağıda deyilirdi: "Biz müsəlmanlarıq və buna görə də bütün din qardaşlarımızın tərəqqisini arzu edirik və dünyanın hansı guşəsində olursa-olsun onların inkişafını ürəkdən salamlayırıq. Biz türkük və buna görə də hər yerdə bütün türklərə inkişaf, tərəqqi və xoşbəxtlik arzu edirik"[234]. İlk dəfə "Həyat" qəzetində bəyan edilmiş bu prinsiplərə "İrşad", "Füyuzat", "Tərəqqi", "Açıq söz", "Səda", "İstiqlal" və s. qəzet və jurnalların naşirləri və redaktorları da sadiq idilər. Dövri mətbuatın səhifələrində müxtəlif ictimai-siyasi cərəyanların mövqeyini əks etdirən məqalə və korrespondensiyaların da dərc olunmasına baxmayaraq əsasən bu prinsiplər üstünlük təşkil edirdi.

Milli mətbuat senzura məhdudiyyətlərinə məruz qalırdı. Qəzetlərin naşirləri bu məhdudiyyətlərə qarşı çıxaraq 1905-ci il 17 oktyabr tarixli çar manifestində vəd edilmiş söz və mətbuat azadlığına, habelə Dövlət Dumasının qanun layihələrinə

[228] RFDTA, fond 776, siyahı 15, iş 104, vərəq 1.
[229] "Каспий" qəzeti, 30 aprel 1905-ci il.
[230] "Баку" qəzeti, 15 iyun 1905-ci il, "Сын Отечества", 7 iyun 1905-ci il.
[231] "Həyat" qəzeti, 7 iyun 1905-ci il.
[232] Yenə orada.
[233] "Баку" qəzeti, 15 iyun 1905-ci il.
[234] "Həyat" qəzeti, 20 fevral 1905-ci il.

böyük ümidlər bəsləyirdilər: "Biz müasir naşirlik işi qarşısında duran sədlərə və maneələrə göz yumuruq, lakin biz daha yaxşı və üstəlik çox da uzaqda olmayan gələcəyə ümidlə yaşayırıq, o vaxt ki, xalq nümayəndəliyi fikir və sözə görə cəza və repressiya özbaşınalığının ağır zülmünü aradan qaldıracaq, o vaxt ki, mətbuat haqqında qanunu bu və ya digər dərəcədə "pozmağa" görə qiymət verilməsi indi əzilmiş və simasızlaşmış mülki məhkəmənin işinə çevriləcək"[235].

Bu dövrdə Azərbaycan ictimaiyyətini ədəbi dilin daha da inkişafı məsələsi maraqlandırırdı. Əli bəy Hüseynzadə "Tərəqqi" qəzetindəki "Dilimiz, yazımız, ikinci ilimiz" məqaləsində osmanlı dilini ədəbi dil kimi qəbul etmək arzusunu bildirmişdi. Lakin Cəlil Məmmədquluzadə, Sabir, habelə Abbas Səhhət, Fürudin bəy Köçərli və Əbdürrəhim bəy Haqverdiyev hesab edirdilər ki, ədəbi yazılı dilin əsasını "azəri" xalqının danışıq dili təşkil etməlidir[236].

İrəli sürülmüş "avropalaşmaq, islamlaşmaq və türkləşmək"[237] şüarı ətrafında qızğın diskussiyalar gedirdi. Bu diskussiyalar müəyyən dərəcədə milli hərəkatın yüksəlişi prosesini əks etdirirdi. Azərbaycanın azadlıq hərəkatında mütərəqqi və vətənpərvər əhval-ruhiyyəli demokratik ziyalıların nümayəndələrinin əksəriyyəti iştirak edirdi. Onların arasında yazıçılar, müəllimlər, publisistlər və həmin dövrün incəsənət xadimləri, o cümlədən Abdulla Şaiq, Süleyman Sani Axundov, N.Nərimanov və başqaları var idilər[238].

Milli mətbuat orqanları vaxtaşırı olaraq "zərərli istiqamətə" görə bağlanırdı. Jurnalistlər senzura məhdudiyyətlərindən savayı müxtəlif "qaydaların və qərarların" maddələrinə uyğun məhdudiyyətlərə də məruz qalırdılar. Sonralar, məsələn, 1915-ci ildə "Yeni İqbal" qəzetində "ictimai qayda və asayiş üçün zərərli fəaliyyətinə" görə hətta Məmmədəmin Rəsulzadə barədə istintaq işi qaldırılmışdı. Hərbi vəziyyət elan olunmuş yerlər haqqında qaydaların 23-cü maddəsi (qeydlər) əsasında o həbs edilmiş və Bakı həbsxanasının bölməsində saxlanmışdı[239]. İstintaqın gedişində Bakı jandarm idarəsinin məmurları M.Ə.Rəsulzadənin tərcümeyi-halı barədə məlumat verərək xəbərdarlıq edirdilər ki, "o, yerli müsəlmanlar arasında böyük nüfuza malikdir, müsəlman xeyriyyə cəmiyyətinin katibidir" və "qüsurlu fəaliyyəti və ictimai asayiş üçün zərəri olan bir adam kimi tanınır". Yerli hakimiyyət orqanlarının qərarı ilə 1915-ci ilin iyulunda M.Ə.Rəsulzadəyə "hərbi vəziyyət elan edilmədiyi bütün dövr ərzində" Qafqaz

[235] "Каспий" qəzeti, 20 fevral 1905-ci il.
[236] Hüseyn Bəyqara. Azərbaycanın müstəqilliyi uğrunda hərəkatın tarixi. İstanbul, 1975, səh. 130 (türk dilində).
[237] Yenə orada.
[238] Hüseyn Bəyqara. Azərbaycanın müstəqilliyi uğrunda hərəkatın tarixi. İstanbul, 1975, səh. 130 (türk dilində).
[239] ADTA, fond 46, siyahı 3, iş 39, vərəq 7.

diyarı hüdudlarında yaşamaq qadağan edilmişdi[240]. Hərçənd onun şəxsi yazışmasında da axtarış zamanı "heç bir ləkələyici" şey tapılmamışdı[241].

M.Ə.Rəsulzadə XX əsrin əvvəllərində milli mətbuat səhifələrində öz əksini tapmış materialların təhlilini verərək onların aşağıdakı əsas cəhətlərini göstərirdi:

1. Yeni metod məsələsi. Məktəblərdə ana dilinin tədrisi səs metoduna əsasən aparılmalıdır. Mədrəsə proqramına müasir elmlərin daxil edilməsi.
2. Milli məktəblərin açılması. Mövcud kənd molla məktəblərində fars dili əvəzinə ana dilinin öyrədilməsi. Müasir tipli yeni məktəblər açılması.
3. Dövlət məktəblərində ana dilinin öyrədilməsinə icazə verilməsi tələbi.
4. Bütün dini idarələrin və müsəlmanların əmlakının "vəqf" işləri idarəsinin müsəlman əhalisi tərəfindən seçilmiş ruhanilərin və vəzifəli şəxslərin tabeliyinə verilməsi.
5. Başqa millətlərin nümunəsində müsəlmanlar tərəfindən maarifçi, xeyriyyə və başqa bu kimi cəmiyyətlərin təşkili.
6. Şəhər özünüidarəsinə və Dövlət Dumasına seçkilər üzrə seçki qanunlarında müsəlmanlar barəsindəki məhdudiyyətlərə qarşı kampaniya.
7. Bütün mülki və əmlak hüquqlarının müsəlmanlara şamil edilməsi və onların siyasi və mülki hüquqlarının bütün qalan vətəndaşlarla bərabərləşdirilməsi[242].

Beləliklə, publisistlərin diqqəti Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin dəfələrlə qaldırdıqları məsələlər ətrafında cəmləşmişdi.

Petisiya kampaniyası gedişində irəli sürülmüş tələblərdən biri də Azərbaycanda zemstvonun tətbiqi idi.

Canişin 1905-ci ilin iyulunda Qafqazda mülki işlər üzrə baş rəis D.Malameyə teleqramında Qafqazda zemstvo təsisatı haqqında əsasnamənin tətbiqinin məqsədəuyğunluğunu və mümkünlüyünü qeyd etmişdi. Tiflisdə canişinin Şurasının iclasında o geniş nitq söyləyərək diyarda nəzərdə tutulan zemstvo islahatının əsas prinsiplərini ayrı-ayrılıqda şərh etmiş və bu islahat haqqında xüsusi "Əsasnamə" hazırlanmasının zəruriliyini qeyd etmişdi[243]. "Dincliyi və əmin-amanlığı bərqərar etmək" üçün isə canişin Tiflisdə bütün silklərdən və şəhərlərdən olan nümayəndələrin müşavirəsini çağıracağını vəd etmişdi. Vəd olunmuş müşavirə 1905-ci il iyulun 16-da keçirildi, müşavirədə 59 nəfər - çar hökumətinin Qafqazdakı nümayəndələri, mülkədarlar və sahibkarlar, habelə iri qəzetlərin redaktorları və başqaları iştirak etdilər[244].

---

[240] ADTA, fond 46, siyahı 3, iş 398, vərəq 15, 22.

[241] ADTA, fond 46, siyahı 3, iş 398, vərəq 13.

[242] M.Ə.Rəsulzadə. Azərbaycan cumhuriyyəti. Bakı, 1990, səh. 22-23; Mirzəbala Məmmədzadə. Azərbaycan milli hərəkatı. Ankara, 1991, səh. 20-21 (türk dilində).

[243] Azərbaycan tarixi, 2-ci cild, səh. 578.

[244] "Каспий" qəzeti, 20 iyul 1905-ci il; "Баку" qəzeti, 24 iyul 1905-ci il; "Сын Отечества", 17 iyul 1905-ci il.

Çıxış edənlərin əksəriyyəti 1864-cü il "Əsasnaməsi" ilə diyarın əhalisini geniş tanış etməyi təklif etdi. Həmin sənədə görə zemstvonun fəaliyyət sahəsi sırf təsərrüfat məsələləri ilə sərt məhdudlaşdırılmışdı. Əsasnamə Ə.Ağayev tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş və H.Z.Tağıyevin köməyi ilə 1905-ci ilin dekabrında dərc olunmuşdu[245].

Azərbaycan sahibkarları zemstvonun tətbiqinə başlanması xəbərini sevinclə qarşıladılar. Onlar zemstvo təsisatlarında torpaq sahibləri ilə birlikdə başlıca mövqe tutmaq, yerli məsələlərin həllindən fayda götürmək niyyətində idilər. Onlar eyni zamanda diyarın özünüidarəsinə, təsərrüfat məsələlərinin həllində müstəqilliyə nail olmağa ümid bəsləyirdilər.

Ə.M.Topçubaşov Azərbaycan sahibkarlarının istəklərini ifadə edərək "16 iyul gününü" Qafqazın "salnamələrində əbədi olaraq yaddaqalan gün" adlandırmış, bunu "islahatların başlanğıcı" hesab etmiş, "Qafqazda zemstvo təsisatı tətbiqinin mümkünlüyünü və məqsədəuyğunluğunu" alqışlamışdı[246]. O, müşavirənin çağırılmasını canişinin "dininə və milliyyətinə fərq qoymadan diyarın bütün ictimai qüvvələrini"[247] bu məsələnin həllinə cəlb etmək istəyinin göstəricisi kimi qiymətləndirirdi.

Müşavirədən az sonra canişinin göstərişi ilə "Zemstvo əsasnaməsi" dərc olundu. Onun əsasını 1864-cü il "Əsasnaməsi" təşkil edirdi. Ümumsilk zemstvo sahə idarəsi ən aşağı zemstvo vahidi sayılırdı. Rusiyadan fərqli olaraq Zaqafqaziyada sayca çox olmayan kənd cəmiyyətləri tərkibində daha kiçik vahidlər yaratmaq təklif olunurdu. Sonrakı mərhələ zemstvo olmalı idi. Zemstvonun qlasnıları xüsusi sahə yığıncaqlarında və ən iri zemstvo rüsumu ödəyənlərin xüsusi seçki yığıncaqlarında seçilməli idilər. Qəza qlasnılarının ümumi sayı iri torpaq sahibləri ilə başqa iştirakçılar arasında tən bölünürdü.

Diyarda ali zemstvo instansiyası hər qəzadan iki qlasnının nümayəndəliyi ilə mahal zemstvosunu nəzərdə tuturdu[248]. Mahal zemstvosunun hüquqları Mərkəzi Rusiya quberniyalarındakı zemstvoların istifadə etdikləri hüquqlara bərabər tutulurdu. Layihədə nəzərdə tutulduğu kimi, zemstvo təsisatları üzərində ciddi inzibati nəzarətin həyata keçirilməsi Daxili İşlər Nazirliyinin nümayəndəsindən, qubernatorlardan və qəza rəislərindən ibarət canişin Şurasının üzvlərinə həvalə olunmuşdu və bu bir daha çarizmin müstəmləkə siyasətini təcəssüm etdirirdi. Canişinin göstərişi ilə qəza və quberniya müşavirələri sentyabradək keçirilməli idi, sentyabrın 15-dək isə müşavirələrin protokollarının canişinin dəftərxanasına təqdim edilməsi nəzərdə tutulmuşdu[249].

---

[245] "Каспий" qəzeti, 3 avqust 1905-ci il; "Həyat" qəzeti, 7 avqust 1905-ci il; "Баку" qəzeti, 10 avqust 1905-ci il.

[246] "Каспий" qəzeti, 19 iyul 1905-ci il.

[247] "Каспий" qəzeti, 19 iyul 1905-ci il.

[248] Мильман А.Ш. Политический строй Азербайджана в XIX - начале XX в., səh. 276.

[249] "Баку" qəzeti, 4 iyul 1905-ci il.

Müşavirələrin keçirilməsi üçün bu qədər az müddət Azərbaycan sahibkarlarının nümayəndələrini narahat edirdi. Onlar hesab edirdilər ki, qüvvələri qruplaşdırmaq və seçkiləri lazımi səviyyədə keçirmək üçün bu müddət kifayət deyildir[250].

Bununla yanaşı onlar müşavirələrdə fəal iştiraka çağırırdılar. Ə.M.Topçubaşov Yelisavetpolda və Hacıkənddə belə çağırışlarla çıxış edərək zemstvonun Zaqafqaziyada tətbiqinin zəruriliyini izah etmişdi. Yelisavetpol quberniyasında zemstvonun tətbiqi üzrə qəza müşavirələrinin və quberniya müşavirəsinin təşkili vəzifəsini XX əsrin əvvəllərində Azərbaycanın görkəmli ictimai xadimləri - A.Ziyadxanov, Ə.Rəfibəyov, Ə.Xasməmmədov, C.Xoyski öz üzərlərinə götürdülər[251].

1905-ci il avqustun 7-də Bakı qubernatorunun əvəzi həqiqi mülki müşavir P.A.Lileyevin sədrliyi, şəhər rəisinin əvəzi K.Səfərəliyevin, quberniya idarəsinin katibi A.Atamalıbəyovun və başqa vəzifəli şəxslərin iştirakı ilə Bakı quberniyasında zemstvo idarələrinin təşkili üzrə ilk müşavirə keçirildi[252]. Müşavirə qəza müşavirələrinin keçirilməsini avqustun 28-nə təyin etdi, sentyabrın 9-dan 13-dək Bakı şəhərində quberniya müşavirəsinin keçirilməsini nəzərdə tutdu.

Nəzərdə tutulduğu kimi, avqustun axırlarında Bakı quberniyasının Quba, Cavad, Göyçay, Lənkəran, Şamaxı qəzalarında müşavirələr keçirildi. Həmin qəza müşavirələrində quberniya müşavirəsinə və canişinin Şurasına seçilmiş nümayəndələr torpaq sahibləri silkinə mənsub idilər.[253] Lakin avqust hadisələri ilə əlaqədar Bakı qəza müşavirəsinin keçirilməsi təxirə salındı. Avqustun 19-da Bakı şəhər duması qlasnılarının xüsusi müşavirəsində quberniya müşavirəsinə nümayəndələrin seçilməsi nəzərdə tutuldu (canişinin təlimatına görə, Bakı şəhəri quberniya müşavirəsində 10 nümayəndə ilə təmsil oluna bilərdi)[254]. Onlar avqustun 22-də Dumanın iclasında təsdiq edilməli idilər[255]. Lakin yuxarıda qeyd olunduğu kimi, avqust hadisələri Dumanın toplaşmasına imkan vermədi. Buna görə də yalnız oktyabrın 21-də keçirilmiş qəza müşavirəsində Azərbaycan sahibkarlarının - sənayeçilərinin mənafelərini K.Səfərəliyev və sədrlik etmiş M.H.Hacınski təmsil etmişdi[256]. Müşavirədə iri və orta sənaye və ticarət müəssisələrinin, gəmi və torpaq sahiblərinin və başqalarının nümayəndələri iştirak edirdilər[257].

Müşavirə "hökumətin əhaliyə etimad aktı kimi" diyarda zemstvo idarələrinin nəzərdə tutulan tətbiqini alqışladı və canişinə minnətdarlığını bildirdi. Müşavirə öz qərarında torpaq sahiblərinin iri və xırda torpaq sahiblərinə

---

[250] "Каспий" qəzeti, 11 avqust 1905-ci il.
[251] Yenə orada.
[252] "Каспий" qəzeti, 18 avqust 1905-ci il; "Баку" qəzeti, 18 yanvar 1905-ci il.
[253] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəqlər 29, 38, 47, 66; "Каспий" qəzeti, 29 sentyabr 1905-ci il.
[254] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəqlər 11 arxada; fond 50, siyahı 1, iş 260, vərəq 89 arxada - 90.
[255] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəq 11.
[256] ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 89 arxada - 90.
[257] "Каспий" qəzeti, 22 sentyabr 1905-ci il.

bölünməsinə qarşı qətiyyətlə çıxdı, səs hüququ illik dövriyyəsi 6000 rubldan çox olan ticarət-sənaye müəssisələrinin nümayəndələrinə verildi. Şəhər sakinləri üçün azı min rubl məbləğində əmlak senzi müəyyən edildi[258]. Buna görə də zemstvo idarələrində əhalinin yalnız varlı təbəqələrinin nümayəndələri iştirak edə bilərdilər.

Təəccüblü deyildir ki, quberniya müşavirəsinə seçilənlərin əksəriyyətini Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələri təşkil edirdilər: İ.Hacınski, M.H.Hacınski, R.Səlimxanov, Ə.Səlimxanov (o, canişinin Şurasına da seçilmişdi), N.Əmiraslanov, Z.Məmmədov və başqaları[259].

Sentyabrın 27-də Bakıda quberniya müşavirəsi keçirildi. Müşavirədə 33 müvəkkil iştirak edirdi. Çox cüzi istisna ilə onların hamısı sahibkarların nümayəndələri idilər[260]. Müşavirədə sədrlik etmiş M.H.Hacınski bildirdi ki, "bütün əhali idarəetmədə şəxsən iştirak etmək hüququ, bununla yanaşı müstəqil işləmək və şəxsi təşəbbüsünü inkişaf etdirmək imkanı əldə edir"[261]. Bunun həqiqətə nə dərəcədə uyğun olduğunu belə bir fakt sübut edir ki, bu müşavirədə təhsil senzi qoyulmuşdu - yalnız orta təhsili olanlar qlasnı ola bilərdilər[262].

Quberniya müşavirəsi qəza müşavirələrinin arzularını tamamlayaraq belə bir fikir söylədi ki, "Qafqazın bütün zemstvo işlərinin" qəti həlli üçün qəza və quberniya müşavirələrində seçilən şəxslərdən ibarət canişinin yanında Xüsusi Şura təsis edilmişdir[263]. Bununla da diyarın məsələlərinin müzakirəsində və həllində daha fəal iştirakın təmin olunması istəyi ifadə edilmişdi.

Quberniya müşavirəsi Bakı şəhər divanxanasının üzvü M.H.Hacınskini canişinin Şurasına nümayəndə seçdi[264]. Sonralar son dərəcə məhdud olan bu "nümayəndəlik" Dumanın xüsusi vəsatətindən sonra Bakı şəhər dumasının iki qlasnısı - İ.Hacıyev və A.Saparovun simasında artırıldı[265].

Yelisavetpol quberniyasında kəndli hərəkatı artmaqda olduğuna görə qəza müşavirələrini keçirmək mümkün olmadı, bu isə quberniya müşavirəsinin keçirilməsini pozdu[266].

1905-ci il avqustun axırlarında Zaqatala mahalında zemstvonun tətbiqi üzrə müşavirələr keçirildi[267]. Ticarət və sənaye müəssisələri sabiblərinin, Zaqatala şəhərinin, kənd cəmiyyətlərinin və s. nümayəndələrinin iştirak etdiyi müşavirələrdə də diyarda zemstvonun tətbiqinin arzu olunduğu bildirildi. Diyarın ali zemstvo

---

[258] Yenə orada, 28 sentyabr 1905-ci il.
[259] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəq 34; "Каспий" qəzeti, 28 sentyabr 1905-ci il.
[260] Yenə orada.
[261] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəq 29.
[262] "Каспий" qəzeti, 29 sentyabr 1905-ci il.
[263] Yenə orada, 30 sentyabr 1905-ci il.
[264] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəq 29; "Каспий" qəzeti, 30 sentyabr 1905-ci il.
[265] ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 89 arxada - 90; "Каспий" qəzeti, 3 dekabr 1905-ci il.
[266] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəqlər 4-8; Материалы по вопросу введения земских учреждений в Закавказье. 4-cü cild, səh. 29-30; Q.Orucov. 1905-ci ildə Azərbaycanda zemstvo kampaniyası. Azərbaycan EA-nın xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1966, № 1» səh. 37.
[267] ADTA, fond 1, siyahı 1, iş 1507, vərəq 45.

orqanı Qafqaz zemstvo yığıncağı hesab olundu. Qafqaz zemstvo yığıncağı qəza və quberniya müşavirələrini birləşdirməli, diyarın ümumi məsələləri ilə - yollar çəkilməsi, körpülər salınması, ali məktəblər açılması, tibbi xidmətə rəhbərlik məsələləri ilə məşğul olmalı idi[268].

1905-ci ilin zemstvo kampaniyası hissediləcək nəticələr vermədi. Bundan əlinə əlverişli fürsət düşmüş canişin 1909-cu ildə Zaqafqaziya qubernatorlarına müraciətində yazmışdı: "... hələ 1905-ci ildə, diyarı idarə etməyə başlayandan sonra Zaqafqaziyada zemstvo islahatının tətbiqi ilə əlaqədar məsələləri müzakirə etmək üçün mənim sərəncamım ilə əhali tərəfindən seçilmiş nümayəndələrdən ibarət qəza və quberniya müşavirələri çağırıldı. Lakin o dövrün xüsusi şəraiti ucbatından bəzi qəzalarda bu müşavirələr ümumiyyətlə keçirilə bilməzdi, kecirilənlər isə məsələni praktik zəmində qoymaq üçün lazımi material vermədi. Bu səbəblər... nəzərdə tutulmuş dəyişikliklərin həyata keçirilməsinə vaxtında başlamağa imkan vermədi"[269].

"Kaspi" qəzeti zemstvonun tətbiqinə hazırlıq üzrə müşavirələrə bir növ yekun vuraraq zemstvo kampaniyasının uğursuzluğunu "rus həyatının ümumi şəraiti ilə" izah edirdi. Eyni zamanda redaksiya kütlələri inandırmağa çalışırdı ki, zemstvo "aqrar-iqtisadi xarakterli proqram vəzifələrin yalnız bir hissəsini də yerinə yetirsə", bu, Zaqafqaziya üçün irəliyə doğru iri addım olardı[270]. O dövrün əhval-ruhiyyəsini əks etdirən bu mövqe, şübhəsiz ki, diqqətə layiqdir, çünki Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələri zemstvonun tətbiqini regionun özünüidarəetməsinə, siyasi və milli qeyri-bərabərliyin ləğvinə doğru ilk mərhələ kimi qiymətləndirirdilər.

Azərbaycanda zemstvo kampaniyası 1909-cu ildə keçirildi. Noyabrın 12-15-də Bakı quberniyasında və Bakı şəhərində zemstvonun tətbiqi məsələsinə dair Bakı quberniya müşavirəsi keçirildi. Müşavirədə 35 nəfər iştirak etmişdi[271]. Yığıncağı hazırlamaq, onun məsələləri üzərində işləmək üçün Ə.M.Topçubaşovun başçılığı ilə ilkin komissiya seçildi. O, komissiyanın işinin nəticələri haqqında müşavirəyə məruzə etdi. Komissiya 1990-cı il zemstvo əsasnaməsinə aşağıdakı bəndlərin əlavə olunmasını zəruri saymışdı: a) yerli suların idarə olunması; b) əhaliyə hüquq yardımının təşkili; v) barışdırıcı hakimləri seçmək hüququ; q) məktəblərin və məktəbdənkənar təhsil müəssisələrinin idarə olunması. Komissiya barışdırıcılıq təsisatında seçki prinsipinin zəruriliyinə diqqəti cəlb etdi -demək olar bütün barışdırıcı hakimlər yerli əhalinin dilini bilmirdilər, tərcüməçilərə bel bağlayırdılar və onların səhv tərcüməsi səhv qərarlara səbəb olurdu, bu isə əhalinin ədalət mühakiməsinə inamını qırırdı[272]. Üç bəndin hamısı səs çoxluğu ilə keçdi.

---

[268] ADTA, fond 1, siyahı 1, iş 1507, vərəq 45.
[269] ADTA, fond 1, siyahı 1, iş 1509, vərəq 15.
[270] "Каспий" qəzeti, 1 oktyabr 1905-ci il.
[271] ADTA, fond 45, siyahı 2, iş 388$^{a}$,vərəq 9.
[272] ADTA, fond 45, siyahı 2, iş 388$^{a}$, vərəq 15.

Müşavirədə sədrin belə bir təklifi kəskin fikir mübadiləsi doğurdu ki, quberniya zemstvo idarələrinin əvəzində bütün quberniyalar və vilayətlər üçün ümumi olan, bütün Zaqafqaziya üçün nəzərdə tutulan və imperiyada fəaliyyət göstərən quberniya zemstvo idarələrinin ümumi səlahiyyətinə malik olan bir mahal zemstvo idarəsinin təsis edilməsi mümkünlüyü müzakirə olunsun. Ə.M.Topçubaşov toplaşanlara bildirdi ki, komissiyada bu məsələ üzrə fikir ayrılığı olmuşdur: komissiya üzvlərinin bir qismi hesab etmişdir ki, öz mədəni səviyyəsinə görə bəzi vilayətlər çox geri qalmışlar və onlar üçün ümumdiyar zemstvo idarəsi kimi rəhbər orqan lazımdır. Digərləri isə bunun əksinə olaraq hesab etmişlər ki, belə mərkəzi orqana lüzum yoxdur. Ə.M.Topçubaşovun özü isə geniş zemstvoya tərəfdar çıxaraq bunu belə əsaslandırırdı ki, "diyarımızın maraqları nə qədər müxtəlif olsa da, bizim hamımızın Moskva və Ryazan quberniyalarında təsadüf olunmayan, lakin bu qədər çox ümumi ehtiyacımızı da yaddan çıxarmaq lazım deyil. Biz islahatlar ərəfəsindəyik və hüquqi cəhətdən bir vahid təşkil edirik. Yaxşı olardı ki, məsələn, zemstvo ilə bağlı canişin qarşısında sualları ayrı-ayrı quberniya zemstvoları deyil, mərkəzi zemstvo orqanı qoyaydı. Bu orqan təkcə təsərrüfat həyatının deyil, həm də ictimai-siyasi həyatın tənzimləyicisi olacaqdır. Diyar zemstvosunun təsis edilməsi cənab canişin tərəfindən islahatların həyata keçirilməsində diyarın nümayəndələrinin dili ilə onun fikirlərini təsdiqləyən sübutlar söylənilməsinə imkan verərdi".[273] O həmçinin zemstvo idarələrinin fəaliyyəti üzərində hökumət nəzarətinə tərəfdar çıxdı: hökumət nəzarətini yalnız zemstvo idarələrinin fəaliyyətinin və qərarlarının qanuniliyi üzərində qoymaq lazımdır[274].

Müşavirədə senzin minimum həddinin müəyyən edilməsi haqqında, kuriyalar haqqında və təhsil senzi üzrə adamların seçkilərdə iştiraka buraxılması haqqında məsələlər qaldırıldı. Ə.M.Topçubaşov komissiyanın adından ziyalıların zemstvoya cəlb olunmasının məqsədəuyğunluğu məsələsini qoydu. Bu etiraz doğurdu, çünki kuriya sistemində ziyalılara yer verilməmişdi. Ə.M.Topçubaşov, M.H.Hacınski təhsili olan adamlara zemstvoda müvafiq yer verilməsini təkidlə tələb etdilər və bunun üçün hətta kuriya sistemində dəyişikliklər etməyi və ziyalıları xüsusi kuriyaya ayırmağı təklif etdilər. Zemstvoda bütün kargüzarlıq rus dilində aparılmalı idi. Məhz buna görə də təhsilli adamların iştirakı xüsusən vacib idi. Həm də M.H.Hacınski güman edirdi ki, iştirak hüququ yalnız müvafiq ərazidə azı üç il yaşamış şəxslərə verilməlidir[275]. Müşavirə dörd kuriyanın: kəndli, şəhərli, torpaq sahibi və ticarət-sənaye kuriyalarının tətbiqi və hər kuriyadan qlasnıların sayının tutulan vergiyə proporsional olması barədə komissiyanın təklifini yekdilliklə qəbul etdi[276]. Bununla yanaşı Ə.M.Topçubaşov vergi senzinin

---

[273] ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 11 arxada.
[274] ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 24 arxada.
[275] ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 2.
[276] ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 5 arxada.

maksimum dərəcədə aşağı salınması barədə təklif verdi, çünki yuxarı senz çox az adama seçici olmaq imkanı verirdi - "daha geniş seçici hüququ onun məhdudlaşdırılmasından hətta praktik cəhətdən də sərfəlidir"[277]. Senzi müəyyənləşdirmək üçün on nəfərdən ibarət yardımçı komissiya yaradıldı. Onların arasında Ə.M.Topçubaşov, M.T.Əliyev, Ş.Şıxəlibəyov də var idi[278].

Azlıqların hüquqlarının təmin edilməsi məsələsinin ətrafında xeyli müzakirə getdi. Ə.M.Topçubaşov məlumat verdi ki, ilkin komissiya təkcə rus əhalisi barədə deyil, başqa millətlər barədə də azlıq hüququnun təmin edilməsi məsələsinə yekdilliklə öz mənfi münasibətini bildirmişdir. Bakı quberniyasında əsasən üç millət yaşayırdı: ruslar - 7 faizədək, ermənilər - 5 faizədək, qalanlarının isə əksəriyyəti yerli əhali idi[279]. Şamaxı şəhərini təmsil etmiş M.T.Əliyev toplaşanları şəhərin əhalisinin milli tərkibi ilə tanış etdi - 20 min nəfər müsəlman, 800-ə yaxın erməni və 200 nəfərdən çox olmayan, lakin nümayəndələri həmişə müsəlmanlar tərəfindən şəhər özünüidarəetmə orqanına seçilən ruslar. M.T.Əliyev deyirdi: ruslara gəldikdə isə, "müsəlmanların hamısı rus dilini öyrənməyə can atır, Rusiyaya yaxşı münasibət bəsləyirlər və azlıq təşkil edən rusların hüquqlarının təmin olunmasından söhbət getməsi onlar üçün təhqiredicidir. Onlar onsuz da bu azlığı qoruyurlar"[280]. M.R.Vəkilov, Ş.Şıxəlibəyov, İ.V.Rayevski, M.Y.Kərimov və başqaları azlığa imtiyazlar verilməsinə qarşı çıxaraq hesab edirdilər ki, bu, düşmənçilik toxumu səpə bilər. K.İ.Xatisov onlara etiraz edərək demişdi: "Müsəlmanlar azlıq təşkil etdiklərinə görə hüquqlarının qurultayın Şurasında və şəhər rəisliyi yanında Şurada təmin olunmasını tələb edəndə və orada proporsional nümayəndəlik tətbiq olunanda, bu tamamilə təbii bir şey kimi görünürdü, söhbət azlıq təşkil edən ermənilərin hüquqlarının təmin edilməsindən gedəndə isə bu, etiraz doğurur"[281]. Ə.M.Topçubaşov bu məsələyə komissiyanın mənfi münasibətini müşavirə iştirakçılarının nəzərinə çatdıraraq bildirmişdi: "Bizdə ümumi ehtiyacların və mənafelərin təmin olunmasına xidmət edən zemstvo deyil, qarşılıqlı çəkişmə və sonsuz mübahisələr ocağı alınacaq. Bundan isə nə zemstvo üçün, nə də ümumiyyətlə diyarın gələcək firavanlığı üçün heç bir fayda gözləmək olmaz... Bu prinsip bu və ya digər sosial-iqtisadi və siyasi prinsip əsasında birləşmiş hər hansı bir azlığın hüquqlarını təmin edərək düzgün qurulmuş insan birgəyaşayışında münasibətlərin ədalətli tənzimləyicisidir,... rus gerçəkliyi şəraitində hüquqların bu cür təmin edilməsi isə yalnız milli azlıqların hüquqlarının təmin olunmasına gətirib çıxaracaqdır. Zənnimcə, indi bu şüarı Qafqazda irəli sürmək bizdə zemstvonun olmasını istəməmək deməkdir... Vəziyyət əslində necədir: əgər müvafiq rayonun

---

277 ADTA, fond 45, siyahı 2, iş 389, vərəq 5.
278 Yenə orada, vərəq 5 arxada.
279 ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 16 arxada, 19.
280 ADTA, fond 45, siyahı 2, iş 388[a] vərəq 247.
281 ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəqlər 23,24.

adamları ümumi səylərlə öz yerli təsərrüfat ehtiyaclarını mümkün qədər daha məqsədəuyğun və daha yaxşı ödəmək üçün zemstvoda birləşirlərsə, bu cəhətdən bu və ya digər millətin hökmən təmsil olunması üçün ona xüsusi imtiyazlar vermək nə dərəcədə lazımdır"[282].

Səsvermədə 11 səsə qarşı 22 səs çoxluğu ilə və iki nəfər bitərəf qalmaqla müşavirə zemstvoda azlığın mənafelərinin təmin edilməsi zəruriliyinə qarşı çıxdı[283]. Azərbaycanda zemstvonun tətbiqi ilə bağlı geniş məsələlər dairəsinin bu qədər ətraflı müzakirəsinə baxmayaraq əvvəlki və sonrakı müşavirələr kimi bu müşavirə də hər hansı bir müsbət nəticəyə gətirmədi. Zemstvonun tətbiqi tələbləri Azərbaycan cəmiyyətinin aktual ehtiyaclarından biri olaraq qalırdı. Hər dəfə əlverişli fürsət düşəndə çar hökumətinin diqqəti buna cəlb edilirdi. 1916-cı ildə hökumət qarşısında yenə də zemstvo müşavirələrinin keçirilməsi məsələsi qaldırıldı. Yerli hakimiyyət orqanları buna razılıq verərək əvvəlki illərdə (1905, 1909) olduğu kimi bundan əhalinin geniş dairələrinin narazılığını özləri üçün lazımi məcraya yönəltmək, onları əsas ümumsiyasi problemlərdən yayındırmaq vasitəsi kimi istifadə etməyə ümid bəsləyirdilər. Müşavirələrin iştirakçılarının böyük əksəriyyəti 1890-cı il əsasnaməsi[284] üzrə zemstvonun Qafqazda tətbiqinə tərəfdar çıxsa da, Dövlət Duması isə bu qərarı müdafiə etsə də, hökumət bu dəfə də müharibə şəraitinin islahatlar keçirilməsi üçün münasib vaxt olmadığını bəhanə gətirərək bu məsələyə baxmadı. Beləliklə, bütün səylərə baxmayaraq Azərbaycanda zemstvo tətbiq olunmadı.

Azərbaycan Rusiyada Dövlət Dumasının təsis edilməsinə böyük ümidlər bəsləyirdi. "Kaspi" qəzetinin 1905-ci ilin 5 avqust tarixli nömrəsinin baş məqaləsində Bulıgin layihəsi "tarixi akt" kimi səciyyələndirilirdi. Qəzetin fikrincə, layihənin elan edilməsi və müzakirəsi "bütün şübhələri aradan qaldıracaq və dövlət quruluşumuzun böyük yeniləşmə işinə yalnız fayda gətirəcəkdir"[285]. Qəzet razılıq hissi ilə qeyd edirdi ki, Bulıgin layihəsinin surəti Qafqaz canişininə rəy üçün göndərilmişdir. Qəzet ümid edirdi ki, Qafqaz canişini "yerli qüvvələri" layihənin müzakirəsinə cəlb edəcəkdir.

Avqustun 6-da teleqraf "Dövlət Dumasının təsis edilməsi" barədə xəbər yaydı və Dumaya seçkilər haqqında Əsasnamə ilə əhalini tanış etdi. Hər iki aktda xalq nümayəndəliyi kobud surətdə saxtalaşdırılmışdı. Dövlət Dumasının rolu qanunvericilik layihələrinin ilkin qaydada hazırlanması və müzakirəsi, dövlət mədaxili və məxaricinin maddələrinə baxılması ilə məhdudlaşırdı[286]. Mütləqiyyət sarsılmaz olaraq qalırdı. Çar elan edirdi ki, bu yeni təsisatın "daha da təkmilləşdirilməsi qayğısını tamamilə öz üzərinə götürür".

---

282 ADTA, fond 45, siyahı 2, iş 388[a], vərəq 26 arxada.
283 Yenə orada, vərəq 28 arxada.
284 "Наше слово", 10 iyun 1916-cı il.
285 "Каспий" qəzeti, 5 avqust 1905-ci il.
286 Черменский Е.Д. Буржуазия и царизм в первой русской революции, səh. 105.

Çar hökuməti Dumanı çağırmaqla xalq içində konstitusiya xülyalarını möhkəmləndirməyə ümid bəsləyirdi. Liberal sahibkarlar Bulıgin Dumasından tam razı olmasalar da, bununla yanaşı Dumada iştirak etməyi qərara aldılar. Azərbaycan sahibkarları buna daha qızğın tərəfdar çıxdı və Dövlət Dumasının təsis edilməsi barədə xəbəri alqışlamaqda tələsdilər. "Əsaslı islahatlar sahəsində ilk addım", "böyük daxili islahata başlanmışdır, keçmiş quruluş tədricən tarixdə qalır və rus cəmiyyəti parlaq, azad həyat, ciddi qayda-qanun, məqbul əmək və geniş nəzarət ərəfəsindədir", - publisistlər öz sevinclərini bu cür izhar edirdilər. Onlar "iclasa başqalarının buraxılmaması" barədə göstərişə haqq qazandıraraq bunu "aşkarlığı məhdudlaşdırmaq" istəyi kimi deyil, "hazırkı dövrün şəraiti ilə" izah etməyə çalışırdılar[287].

"Dövlət Dumasına seçkilər haqqında Əsasnamə"də kifayət qədər açıq deyilmişdi ki, Rusiyanın milli ucqarlarının əhalisi hələ hazırlanacaq xüsusi qaydalar əsasında Dumaya nümayəndə seçə biləcəkdir və "rus dilini bilməyən şəxslər"[288] Dumaya seçilə bilməzlər. Buna baxmayaraq Azərbaycan ideoloqları bildirdilər ki, "elan olunmuş aktın ayrı-ayrı bəndlərini qiymətləndirməyin hələ vaxtı deyildir"[289]. Bununla yanaşı milli sahibkarlar Dumada təmsil olunacaqlarına ümid bəsləyərək orada "müvafiq yer"[290] almağa can atırdılar. Layihənin müzakirəsi gedişində dəfələrlə söz və mətbuat azadlığı verilməsi, senzuranın ləğvi zəruriliyi haqqında məsələ qaldırılmışdı[291].

Azərbaycan sahibkarları, onların ideoloqları 1905-ci ildə öz tələblərini, ümid və ehtiyaclarını bütövlükdə ifadə edərək sonralar bu məsələləri qoymaq üçün hər bir imkandan istifadə etmişdilər. Belə ki, millətlərarası münasibətlərin kəskinləşməsi ilə əlaqədar 1906-cı ildə canişin tərəfindən çağırılmış "barışdırıcı" qurultay adlanan yığıncağın işinin gedişində Azərbaycan nümayəndə heyətinin demək olar hər bir üzvü öz çıxışında aprel petisiyasının bu və ya digər müddəasına toxunmuşdu. Qeyd etmək lazımdır ki, bu çıxışlarda tələblər konkretləşdirilir və onların həyata keçirilməsi yolları müəyyənləşdirilirdi.

Qurultayda Azərbaycanın çoxmillətli sahibkar təbəqəsinin milli dəstələri arasında ziddiyyətlər tam çılpaqlığı ilə nəzərə çarpırdı. Azərbaycan və erməni sahibkarları arasında iqtisadi sahədə rəqabət getdikcə daha çox ictimai-siyasi həyatda da öz əksini tapırdı. Qurultayın işi buna parlaq sübutdur. Buna baxmayaraq qurultaya böyük ümidlər bəslənilirdi. Qurultaya gərgin hazırlıq getmişdi. Regionun bütün inzibati mərkəzlərini təmsil edən görkəmli ictimai xadimlər nümayəndə heyətinin tərkibinə daxil edilmişdilər. Mətbuat orqanları

---

[287] "Каспий" qəzeti, 9 avqust 1905-ci il.
[288] Sitat bu kitabdan gətirilir. Пясковский А.В. Революция 1905-1907 гг. в России., Л., 1966, səh. 112.
[289] "Каспий" qəzeti, 9 avqust 1905-ci il.
[290] "Həyat" qəzeti, 14 sentyabr 1905-ci il.
[291] "Каспий" qəzeti, 27 avqust 1905-ci il.

qurultayın perspektivləri haqqında müxtəlif rəylər dərc edir, öz səhifələrində mövcud əhval-ruhiyyənin və fikirlərin bütün palitrasını geniş əks etdirirdilər. Üzeyir Hacıbəyovun "İrşad" qəzetində dərc olunmuş məqaləsində qurultayı təşkil edənlərə məsləhətlər verilir, tərəfləri barışdırmaq üçün bütün tərəflərin hər cür səy göstərəcəyinə inam bildirilir və onun verəcəyi tapşırıqlara böyük ümidlər bəslənirdi[292]. Qəzet "Ehtiyatlı olmaq lazımdır" adlı məqalədə qurultayda nümayəndəlik məsələsinin təhlilini verərək hesab edirdi ki, toqquşmaların olmadığı, adamların "qardaş kimi" yaşadıqları yerlərin nümayəndələri qurultaya dəvət olunsaydı, daha yaxşı olardı. "Bax məhz həmin deputatlar sizin gözlərinizi açacaq və o zaman siz görəcəksiniz ki, bizim aramızda heç bir düşmənçilik yoxdur"[293].

Qurultay 1906-cı il fevralın 20-də Tiflisdə canişin sarayının böyük zalında açıldı. Qurultayın tərkibi çox mötəbər idi. Qurultayda canişin Şurasının bütün üzvləri, qubernatorlar, azərbaycanlıların və ermənilərin nümayəndələri, ruhanilər iştirak edirdilər. Nümayəndəliklərin coğrafiyası geniş idi. Sosial tərkibinə görə isə qurultay yekcins idi - orada yalnız sosial cəhətdən yuxarı təbəqələr təmsil olunmuşdular. Azərbaycan tərəfi belə təmsil edilmişdi: Tiflisdən - andlı müvəkkil Məmməd bəy Şahmalıyev, Hüseyn bəy Yadigarov, Şərif Mirzəyev, qazı Mövlazadə; İrəvandan - Ağaxan İrəvanski, Abasqulu bəy Hacıbəyov; Naxçıvandan - Eynalı bəy Sultanov, Məmmədağa Şahtaxtinski; Yelisavetpol qəzasından - Ələkbər bəy Xasməmmədov, Adil xan Ziyadxanov; Zəngəzurdan - Cəlil bəy Sultanov; Şuşa qəzasından - Cahangir xan Nurubəyov, Qalabəy İsabəyov, İsmayıl Quliyev; Nuxa qəzasından - Hacı Cəlil; Qazax qəzasından - İbrahim ağa Vəkilov; Ərəş qəzasından - Sultan bəy Sultanov; Axalkalaki qəzasından - Məmmədağa Pələvəndov; Borçalı qəzasından Rahim bəy Axundov, Əbdürrəhman Haqverdi oğlu; Bakıdan - Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyov, Kərbəlayı İsrafil Hacıyev. "Tiflisski listok", "Qafqaz", "Novoye obozreniye", "Mşak", "Araç", "Kaspi", "İrşad", qəzetlərinin nümayəndələri də qurultayda iştirak edirdilər[294]. Erməni tərəfini Tiflisdən, Bakıdan, İrəvandan, Şuşadan, Yelisavetpoldan, Qarsdan, Qazax qəzasından, Batumdan, Aleksandropoldan, Nuxa qəzasından olan nümayəndələr təmsil edirdilər. Qurultayda yüksək vəzifəli çar məmurları - general Malame, general Sultan-Krım-Girey, canişin Şurasının bütün üzvləri, qubernatorlar, ruhanilər iştirak edirdilər. Ə.M.Topçubaşov qurultayın redaksiya komissiyasının sədri seçildi.

Canişin qraf İ.İ.Vorontsov-Daşkovun giriş nitqində qeyd olunmuşdu ki, il ərzində onun "mənasız erməni-müsəlman qırğınının" qarşısını almağa yönəldilmiş bütün səyləri yalnız "bəlanın bir qədər lokallaşmasına, bir qədər səngiməsinə" gətirib çıxarmışdır. İndi isə onlar "təsirli fayda verə bilən" inzibati tədbirləri

[292] "İrşad" qəzeti, 14 fevral 1906-cı il.
[293] "İrşad" qəzeti, 23 fevral 1906-cı il.
[294] "Каспий" qəzeti, 23 fevral 1906-cı il.

müzakirə etmək üçün toplaşmışlar. O belə nəticəyə gəlmişdi: "Məsələ onda deyil ki, bu qarma-qarışıqlıqda kim günahkardır, məsələ ondadır ki, ölkənin maddi rifahını məhv edən bəlaya son qoymaq üçün hansı vasitələr təsirlidir. Bu bəla yalnız quldurlara və inqilabi təşkilatlara sərf edir"[295].

Azərbaycan tərəfinin nümayəndələrini diyarda millətlərarası münasibətlər sahəsində təkrar olunan bu kədərli hadisələrin səbəblərinin aşkara çıxarılması mexanizmi maraqlandırırdı. Ə.Ağayev aşağıdakı məsələləri aydınlaşdırmağı təklif etdi: diyarda ermənilərin və müsəlmanların məişət vəziyyəti, onların vəziyyətindəki fərqlər; son ildə Rusiyanın ictimai-siyasi həyatında ümumi cərəyanlar; ermənilərin və müsəlmanların bu cərəyanlara münasibəti; erməni təşkilatları. Ə.M.Topçubaşov qurultayın müəyyən proqramının olmamasından narazılığını bildirib toqquşmaların səbəbləri haqqında məsələnin müzakirəsinə istiqamət verməyə çalışaraq demişdi: "Onları (səbəbləri - D.S.) axtarıb tapmaq *Qafqazın Rusiyaya birləşdiyi gündən etibarən bütün tarixini yazmaq* (qeyd müəllifindir - D.S.) deməkdir. Buna burada bizim nə vaxtımız, nə də gücümüz çatar... Senator Kuzminski bu səbəbləri burada yaranmış iqtisadi, milli və inqilabi şəraitdə görür. Hadisələrin səbəbləri məsələsini də bu hüdudlarda müzakirə etmək olar"[296]. Səbəbləri aydınlaşdırarkən nümayəndə heyətləri arasında ciddi fikir ayrılıqları meydana çıxdı: ermənilər səbəbləri hakimiyyət orqanlarının fəaliyyətsizliyində, azərbaycanlılar isə erməni silahlı təşkilatlarında görürdülər.

Ə.M.Topçubaşov "hakimiyyətin özünün pislədiyi keçmiş rejimin" imperiyanın "özgə xalqları" barəsində siyasətini səciyyələndirərək yazırdı: "Bu siyasətin devizi Roma imperiyasının köhnə və sınanmış "divide et impera" prinsipi idi. "Parçala və idarə et", yəni bir milləti başqa millətin üstünə salışdır, birinə müvəqqəti himayədarlıq et, başqasını təqib et, sonra isə cəbhəni dəyiş... Bundan da mənəviyyatsız siyasət ola bilər?!... Onun nəticələri və son dərəcə kədərli nəticələri göz qabağındadır, xüsusən də ucqarlarda... Bir millətin başqa millətdən yadlaşması, bir millətin başqa millətə inamsızlığı - bax bunlar təəssüf doğuran ən yaxın nəticələrdir..."[297].

Qurultayda qərara alındı ki, tərəflər ayrıca müşavirələr keçirsin, bu müşavirələrin nəticəsində hər bir tərəf proqram hazırlasın və sonra bu proqramlar birgə iclaslarda müzakirə edilsin.

Canişin general Malameyə iclaslarda sədrlik etmək, sonra isə irəli sürülən bütün mülahizələr haqqında ona ətraflı məruzə etmək səlahiyyəti vermişdi. 1906-cı il fevralın 23-də general Malameyə proqramlar təqdim olundu. Azərbaycan tərəfinin proqramını Ə.Ağayev elan etdi. O qeyd etdi ki, proqram tərtib edilərkən

[295] "Баку" qəzeti, 23 fevral 1906-cı il.
[296] "Каспий" qəzeti, 23 fevral 1906-cı il.
[297] "Каспий" qəzeti, 27 yanvar 1906-cı il.

"tezliklə möhkəm sülh əldə edilməsi və sülh şərtlərinin mümkün qədər tez yerinə yetirilməsi"[298] nəzərdə tutulmuşdur.

Proqramın bəndlərinin təhlili göstərir ki, tərtibçilərin fikrincə diyarın sakitləşməsinə gətirib çıxara bilən təkliflərlə yanaşı ümumdemokratik tələblər də qoyulmuşdu. Proqramın müzakirəsi prosesində Adil xan Ziyadxanov qeyd etmişdi ki, "müsəlman nümayəndələri proqramı tərtib edərkən orada öz siyasi ideallarını əks etdirmək məqsədi güdməmişlər, yalnız o bəndləri vermişlər ki, bizim dərin inamımıza görə, həyəcan içində olan diyarın sakitləşdirilməsinə gətirib çıxara bilər. Əvvəlcə səmimi və sarsılmaz sülh yaratmaq üçün bütün vasitələri işə salmaq lazımdır, sonra isə 17 oktyabr manifestindən və orada ifadə olunmuş hər cür azadlıqlardan danışmaq olar. Nə qədər ki, bu qanlı hadisələr başımızın üstünü Damokl qılıncı kimi kəsdirmişdir, heç bir azadlıq barədə düşünməyinə də dəyməz, azadlıq isə müsəlmanlara hava və su kimi lazımdır"[299].

Azərbaycan nümayəndə heyətinin proqramı millətlərarası toqquşmalara gətirib çıxarmış səbəblərin aydınlaşdırılması vəzifəsindən başlanırdı. Bu hissədə tərksilahın zəruriliyi göstərilirdi. Buna isə yalnız diyar əhalisini tam sakitləşdirdikdən sonra başlamaq olardı. Yaylaqlar məsələsi də qaldırılmışdı. Köçərilərin əmlakının və həyatının təhlükəsizliyini təmin etmək üçün aşağıdakılar təklif edilmişdi: hər iki millətin nümayəndələrindən ibarət xüsusi qarışıq komissiyaların təsis edilməsi; yerli hakimiyyət orqanının rəhbərliyi altında yerli əhalidən ibarət qarışıq tərkibdə gözətçilər qoyulması; şəhərlərdə bitərəf millətdən olan yerli hakimiyyət orqanı nümayəndəsinin sədrliyi ilə hər iki millətin nümayəndələrindən ibarət qarışıq komissiya yaradılması - həm də bu komissiyaların qərarları hakimiyyət orqanları tərəfindən icra edilməli idi. Daha sonra nümayəndə heyəti tələb edirdi ki, "vəzifəli şəxslərə və ictimai xadimlərə milli zəmində hücumlar olmasın", milli zəmində törədilən "cinayətkar hərəkətlərin" qarşısı alınsın, hərbi və inzibati tədbirlər - məhkəmələrin qərarları, inzibati sürgünlər və s. yalnız yerli qarışıq komissiyaların razılığı ilə tətbiq edilsin.

Elə həmin gün proqrama əlavələr edildi. Azərbaycanın deputat heyəti verilmiş imkandan istifadə etməyi qərara aldı və proqrama öz tələblərini daxil etdi - diyarda ümumi, icbari, pulsuz ibtidai təhsilin tətbiqi, əhalinin bütün qruplarının hüquqi vəziyyətinin faktiki bərabərləşdirilməsi və s. Bütün vəzifəli şəxslərin onlara həvalə edilmiş xidməti funksiyaları maneəsiz həyata keçirməsinə təminat verən tələblər də daxil edilmişdi. Deputat heyəti öz yaşayış yerini tərk etməyə məcbur olmuş adamlar üçün həyat şəraiti yaratmaq məqsədilə tədbirlər görülməsi barədə də təklif vermişdi[300].

Azərbaycan tərəfi millətlərarası toqquşmaların qızışdırılmasında "Daşnaksütyun" partiyasını, erməni silahlı dəstələrini ittiham edərək bu quldur

298 "Каспий" qəzeti, 25 fevral 1905-ci il.
299 "Каспий" qəzeti, 3 mart, 1905-ci il.
300 "Каспий" qəzeti, 25 fevral 1906-cı il.

dəstələrinin buraxılmasını tələb etmişdi. A.Ziyadxanov öz çıxışında demişdi: "Əgər "Daşnaksütyun" Qafqazdakı öz silahlı qüvvələrini buraxmasa, müsəlmanlar da tədricən öz dəstələrini yaratmağa məcbur olacaqlar, onda qanlı toqquşmalar labüd olacaq və çiçəklənən Qafqaz yenidən qan içində üzəcəkdir"[301].

Ə.M.Topçubaşov müzakirə olunan bütün məsələləri -toqquşmaların səbəblərini, öz yurd-yuvasını tərk etməyə məcbur olmuş adamlar üçün həyat şəraitinin yaradılmasını və başqa məsələləri ümumi təhsil proqramı ilə üzvi surətdə əlaqələndirdi. O, Ə.Ağayev ilə tam həmrəylik göstərdi. "On min əhali arasında on nəfər də olsa savadlı tapılmadığını" qeyd edən Ə.Ağayev hesab edirdi ki, "bircə təhsil vasitəsilə hər şeyə son qoymaq olar". Bunun üçün o təklif etmişdi ki, "bütün diyara hər bir müsəlmanın ödəməyə hazır olduğu xüsusi vergi qoyulsun". Ə.M.Topçubaşov diyarda ümumi, icbari, pulsuz ibtidai təhsilin tətbiqinin çox böyük əhəmiyyətini göstərərək izah edirdi: "Yönümündən asılı olmayaraq Rusiyanın bütün siyasi partiyaları və ictimai qrupları dövləti-ictimai firavanlığın bu əsaslı məsələsini öz platformalarına daxil edirlər və öz tələblərinin önünə çıxarırlar"[302].

Tələbləri ifadə etmək, tam bir sıra sənədləri, petisiyaları tərtib etmək sahəsində sanballı təcrübəsi olan Ə.M.Topçubaşov bu zərurəti elan edərək məsələnin həyata keçirilməsi üçün müşavirədə praktik tövsiyələr verməyə çalışmışdı: hər şeydən əvvəl ümumi və pulsuz qaydada icbari təhsil tətbiq edilməli, ibtidai məktəbdə dərslər ana dilində keçilməlidir. "Bu prinsip səmərəli pedaqogikanın əsas tələbinə cavab verən prinsip kimi artıq canişin qraf Vorontsov-Daşkov tərəfindən bəyan edilmişdir"[303]. O, sözünə davam edərək bildirmişdi ki, lakin müsəlmanlar uşaqlarını ana dilində oxutmaq üçün onlara verilmiş hüquqdan istifadə edə bilmirlər, çünki onların ana dilində "müəllim hazırlayan müvafiq institutu" yoxdur. Zaqafqaziya müəllimlər seminariyası nəzdindəki tatar bölməsində başqa tədris ocaqlarında olduğu kimi polis rejimi və "müqəddəs təhsil işi ilə heç bir əlaqəsi olmayan nə isə bir rəislik siyasəti"[304] hökm sürür. Bu bölmə müsəlmanların manafelərinə uyğun deyildi. Ə.M.Topçubaşov Qori seminariyasının tatar bölməsini Azərbaycanın şəhərlərindən birinə köçürməyi, onu müəllimlər institutuna çevirməyi, müsəlman ruhani seminariyası açmağı təklif etmişdi[305]. O həmçinin belə bir məsələ qoymuşdu ki, müsəlmanların həyati mənafelərinin müzakirəsində onların özlərinin rəyləri nəzərə alınsın, müsəlmanlara təkcə tədris ocaqlarının təsərrüfat məsələlərində deyil, həm də təlim-tərbiyə məsələlərində iştirak etmək hüququ verilsin.

---

[301] "Каспий" qəzeti, 28 fevral 1906-cı il.
[302] "Каспий" qəzeti, 1 mart 1906-cı il.
[303] "Каспий" qəzeti, 1 mart 1906-cı il.
[304] "Каспий" qəzeti, 1 mart 1906-cı il.
[305] "Каспий" qəzeti, 1 mart 1906-cı il.

Məlum olduğu kimi, N.Nərimanov da 1906-cı il iyunun 18-də "Həyat" qəzetində dərc edilmiş məqaləsində "Qori seminariyasının Azərbaycan əhalisinin mərkəzindəki başqa şəhərə" köçürülməsi məsələsini qoymuşdu. O bunu belə əsaslandırırdı ki, hər şeydən əvvəl seminariyadakı təlim proqramını dəyişmək lazımdır. Seminariya elə müəllimlər hazırlamalıdır ki, öz dilini, ədəbiyyatını, dinini bilsinlər və ibtidai məktəblərdə uşaqlara zamanın tələbinə uyğun dərs keçə bilsinlər, xalq və vətən üçün tərbiyəli, savadlı uşaqlar hazırlaya bilsinlər. O, müəllimlərin buraxılışını ildə 10 nəfərdən 40 nəfərədək artırmağı təklif edirdi. Qori seminariyasından başqa daha 2-3 seminariya, özü də Azərbaycan əhalisinin yaşadığı mərkəzi yerlərdə: Bakıda, Gəncədə və s. seminariyalar açmaqla bu problemi həll etmək olardı. "Qori seminariyasına ən çoxu 60 şagird qəbul olunur və təkrar edirik ki, Qoridə daim yaşayan azərbaycanlılar yoxdur. Əgər beləələri yoxdursa, kənardan oxumağa gələnlər də olmayacaqdır"[306].

Qurultayda ümumi təhsil, məktəblərin növləri barədə diskussiya getdi. Q.Qarabəyov bundan narahat olduğunu bildirdi ki, əhalinin pərakəndə yaşaması ümumi təhsili çətinləşdirəcəkdir. Öz tərəfindən ümumi təhsilin tətbiqini və onun tezliklə həyata keçirilməsini alqışlayan Tiflis qubernatoru baron Rauş fon Trauntenberq Finlandiya və İsveç təcrübəsini götürüb səyyar məktəblər açmağı məsləhət gördü. Ə.M.Topçubaşov bunu yalnız cəmiyyətin daha çox müstəqil olduğu və "hələ də məktəb işində hökm sürən polis qaydalarının"[307] aradan qaldırıldığı şəraitdə mümkün hesab etdi. Məktəblərin növlərindən birini İ.Vəkilov təklif etdi - əhalinin qarışıq yaşadığı yerlərdə qarışıq məktəblər; həmin məktəblərdə şəriət mollalar və ruhanilər tərəfindən tədris olunardı, dillər isə birlikdə öyrədilərdi. Q.Qarabəyov şagird kontingentinin qruplaşdırılması kimi alternativ variant irəli sürdü.

Təhsil proqramları bəndinin müzakirəsini general Malame bu cür yekunlaşdırdı: "Diyarda ümumi ibtidai təhsili tətbiq etmək lazımdır və bunun üçün xalq dövlətin xəzinəsinə kömək kimi lazımi vəsait verməyə hazırdır; müəllimlər institutunu müsəlman mərkəzinə keçirmək, müsəlman mərkəzində müsəlman ruhani seminariyasını açmaq, kəndlərdə şagirdlərin qruplaşdırılmasına mane olmamaq, Tiflisdəki şiə və sünni ruhani məktəblərini birləşdirmək zəruridir"[308]. Çıxarılan bu nəticə aşkar əhəmiyyətə malik olsa da heç vaxt həyata keçirilmədi.

Azərbaycan nümayəndə heyətinin proqramına müsəlmanların hüquqlarının Qafqazın başqa əhalisinin hüquqları ilə faktiki bərabərləşdirilməsi barədə bənd də daxil edilmişdi. Hər şeydən əvvəl söhbət şəhər əsasnaməsinin 44-cü maddəsinin ləğvindən gedirdi. Həmin maddəyə görə şəhər özünüidarəetmə orqanlarında müsəlman qlasnıların sayı qlasnıların ümumi sayının yarısından çox ola bilməzdi.

---

306 Nərimanov. N.N. Избранные произведения, т. I, Bakı, 1988, səh. 99.
307 "Каспий" qəzeti, 1 mart 1906-cı il.
308 "Баку" qəzeti, 1 mart 1906-cı il.

Ə.M.Topçubaşovun məlumat verdiyinə görə, canişinin şəxsi təşəbbüsü ilə Yelisavetpolda şəhər dumasına seçkilərdə məhdudiyyətlərin götürülməsinə baxmayaraq 44-cü maddə hələ də qüvvədə idi. Bakı birja komitəsinə və arbitraj məhkəməsinə seçkilərdə də məhdudiyyətlər saxlanmışdı. Ə.M.Topçubaşov qeyd edirdi ki, belə bir vəziyyətdə müsəlmanların laqeydliyinin səbəbi tamamilə aydındır.

Ə.Ağayev din sahəsində məhdudiyyətlərin aradan götürülməsi zəruriliyindən danışaraq toplaşanları xəbərdar etdi ki, o, 11 il orta məktəbdə müəllimlik etmişdir və bu vəzifəyə müsəlman olduğuna görə təsdiq olunmamışdır. O, hüquqların bərabərləşdirilməsində xalqlar arasındakı çəkişmələrin aradan qaldırılması yolunu görürdü[309]. A.Ziyadxanov demişdi: "Müsəlmanın andlı müvəkkil olması üçün ədliyyə nazirinin təsdiqi tələb olunurdu"[310].

Proqramda canişinin yanında "diyar sakitləşənədək əhalinin nümayəndələrindən ibarət xüsusi müşavirənin" təsis edilməsi məsələsi qaldırılmışdı. Ə.M.Topçubaşov nümayəndə heyəti adından izah verdi ki, "bu qədər müxtəlif və rəngarəng əhalisi olan diyarın idarə olunması son dərəcə mürəkkəb və çətin işdir. Diyarımızın geridə qalmasının səbəblərindən biri də budur. Qafqazın ən görkəmli nümayəndələri bunu dərk edirdilər". O sözünə davam edərək demişdi: "Hətta istəsən də, bütün yerli xüsusiyyətlərdən lazımınca baş çıxarmaq mümkün deyil. Rəhbərlik funksiyalarını yerinə yetirmək üçün isə bu xüsusiyyətləri bilmək zəruridir. Yalnız yerli adamlar bu xüsusiyyətlərdən baş çıxarmağa qadirdirlər. Canişin yanında təklif etdiyimiz xüsusi müşavirə bütün əhalini təmsil edən məhz belə adamlardan ibarət olacaqdır. Müsəlmanlar bu müşavirəni diyarda hökumət idarələrinin mövcud quruluşuna bir düzəliş kimi təklif edirlər". Ə.M.Topçubaşov həm də ümid etdiyini bildirirdi ki, "təklif olunan xüsusi müşavirə diyarın ali başçısı yanında daimi nümayəndəli orqan əhəmiyyəti, Ümumqafqaz seymi əhəmiyyəti kəsb edə bilər"[311]. O deyirdi: "Həsrətində olduğumuz azadlıq naminə biz diyarın sakitləşdirilməsi işinə kömək və yardım göstərməliyik və təklif olunmuş tədbirlərin bütün praktik çətinliklərinə baxmayaraq biz bunu eləməliyik"[312].

Ölkədə hüquq qaydasının, bununla yanaşı isə sülhün və əmin-amanlığın yaradılmasının təməl daşı olan ədalət mühakiməsi haqqında məsələ yenə də qaldırıldı.

Öz fəaliyyətinə məhkəmə qanunvericiliyinə yenidən baxılması ilə başlamalı olan Dövlət Dumasına Ə.M.Topçubaşov böyük ümidlər bəsləyirdi. 1864-cü il məhkəmə nizamnamələri Qafqazda qısaldılmış şəkildə tətbiq edilmişdi, barışdırıcı hakimin, andlı məhkəməsinin seçkiliyinə məhəl qoyulmurdu, ilkin istintaqın təşkili qeyri-normal idi. Əsl müstəntiqlər olmadığına görə ilkin istintaq məhkəmə

---

[309] "Баку" qəzeti, 1 mart 1906-cı il.
[310] "Каспий" qəzeti, 1 mart 1906-cı il.
[311] "Каспий" qəzeti, 1 mart 1906-cı il.
[312] "Каспий" qəzeti, 4 mart 1906-cı il.

vəzifələrinə namizədlərin və barışdırıcı hakimlərin köməkçilərinin əlində idi. Ə.M.Topçubaşov Qafqazda "məhkəmə müstəntiqlərinin surroqatını deyil, öz təcrübəsi və müstəqilliyi ilə mühüm istintaq funksiyalarının yerinə yetirilməsində azad ola bilən əsl istintaq hakimlərini" görmək istədiyini bildirdi. Onun fikrincə, nəzərə almaq lazımdır ki, "ilkin istintaqı aparanların onda doqquzu və hətta daha böyük faizi yerli əhalinin dilini, mənəviyyatını, məişətini və bütün xüsusiyyətlərini bilməyən adamlardır". O, məhkəmə polisi kimi məhkəmə təsisatının tətbiq edilməsi zəruriliyini göstərirdi[313].

A.Ziyadxanov II Aleksandrın məhkəmə nizamnamələrinin üç prinsipi üzərində dayandı - təcili, həqiqi və mərhəmətli məhkəmə. O etiraf etdi ki, məhkəmə islahatından sonra Azərbaycanda məhkəmə müəyyən dərəcədə "həqiqətpərəst və mərhəmətli" olmuşdur. Lakin məhkəmənin sürəti yoxdur. Məsələn, "mülkədar Şahmalıyevlərin prosesi demək olar 100 ildir ki, uzanır"[314]. Ədalət mühakiməsi prosesinə "yerli və nüfuzlu" adamlar dəvət olunmurdular. Yelisavetpol şəhərinin ədalət mühakiməsi orqanlarında demək olar bir nəfər də müsəlman yox idi.

Qurultayda nümayəndə heyətinin qətnamələri oxundu. Azərbaycan nümayəndələrinin təklifləri bütövlükdə aşağıdakılardan ibarət idi: 1. ibtidai məktəbdə ümumi, icbari, pulsuz təhsilin tətbiqi, məktəbləri yaratmaq və saxlamaq məqsədilə əhaliyə daha iri qruplarda birləşmək imkanının verilməsi, mümkün olan yerlərdə isə səyyar məktəblərin tətbiqi; əhalisinin tərkibi qarışıq olan kəndlərdə qarışıq məktəblərin təsis edilməsi, istər təsərrüfat, istərsə də təlim-tərbiyə sahəsində məktəb işinə yuridik hüquqlar verilməsi, müəllim və ruhani seminariyalarının təsis edilməsi; 2. müsəlmanların hüquqlarının başqa millətlərlə faktiki tam bərabərliyinin qanunvericilik yolu ilə təmin edilməsi, ictimai özünüidarə üzrə seçkilər üçün müəyyən edilmiş senzin aşağı salınması; 3. andlı məhkəmənin, yerli dilləri bilən barışdırıcı hakimlərin seçkiliyi prinsipinin tətbiqi, təcrübəli müstəntiqlər, məhkəmə polisi, seçkili münsif hakimləri təsisatının tətbiqi, məhkəmə müstəntiqləri tərkibinin gücləndirilməsi, təhsil senzi nəzərə alınmaqla etibarlı tərcüməçilərin ciddi seçilməsi, ilkin istintaqın icraatında vəkillərin iştirakı və i.a. Toplaşanlar bu tədbirlərin həyata keçirilməsi işində canişinə böyük ümidlər bəsləyərək ona bir növ kömək göstərmək üçün təklif etmişdilər ki, canişinin yanında xalq tərəfindən seçilmiş nümayəndələrdən ibarət xüsusi müşavirə təsis edilsin. "Taxt-tac zirvəsindən rus xalqının nümayəndələrini dövlət işlərində (Dövlət Duması nəzərdə tutulur - D.S.) iştiraka çağıran güclü səsin eşidildiyi indiki vaxtda Qafqaz əhalisinin də səsinin eşidiləcəyinə"[315] inanan Əlimərdan bəy Topçubaşov başqalarını da buna inandırmağa tələsirdi.

---

[313] "Каспий" qəzeti, 5 mart 1906-cı il.
[314] "Каспий" qəzeti, 7 mart 1906-cı il.
[315] "Каспий" qəzeti, 11 mart 1906-cı il.

Köçərilər, onların hərəkəti zamanı təhlükəsizliyin təmin edilməsi məsələsi üzrə xüsusi komissiya seçildi. Komissiyaya İrəvan general-qubernatoru qraf V.F.Tizenqauzen başçılıq etdi. Komissiyanın tərkibinə Tiflis qubernatoru baron P.A.Rauş fon Trauntenberq, Yelisavetpol qubernatoru A.A.Kalaçov, Qafqazda baytarlıq işinin müdiri P.A.Zolotaryov daxil oldular. Azərbaycanı Ə.M.Topçubaşov, İ.Vəkilov, C.Sultanov, M.Eminov, Ş.Mirzəyev təmsil edirdilər. Tarla işlərinin, köçərilərin təhlükəsizliyinin təmin edilməsi barədə komissiyanın konkret təklifləri nümayəndələr tərəfindən bəyənildi. Nümayəndələr bu tədbirlərdən başqa köçərilərin oturaq həyata keçməsinə kömək tədbirləri haqqında ümumi məsələnin müzakirəsi üçün canişinin dəftərxanası yanında səriştəli şəxslərin iştirakı ilə xüsusi müşavirənin yaradılmasını zəruri hesab etdilər. Zərərçəkənlərin ailələrinə yardım göstərilməsi zəruri sayıldı[316]. "İrşad" qəzetinin müxbiri bununla əlaqədar xəbər verirdi ki, məclisin üzvləri canişinin yanında keçirilən müşavirədə müsəlmanların təklifi ilə qərar qəbul etdilər ki, hökumət köçərilərin həyat və əmlakının təhlükəsizliyini təmin etsin. Bunun üçün tədbirləri hökumətin özü müəyyən etməli idi[317].

Qurultayın sonuncu, yekun müşavirəsində canişin çıxış etdi. O qeyd etdi ki, millətlərarası münaqişəni bir tərəfdən qeyri-leqal silahlı təşkilatlar, digər tərəfdən isə "çox vaxt nüfuzlu şəxslər tərəfindən rəhbərlik edilən quldur dəstələri" həyata keçirirdilər. O dedi: "Əlahəzrət imperator istərdi ki, erməni-müsəlman davasına son qoyulsun və buna son qoyulmalıdır"[318]. Bütövlükdə barışdırıcı komissiyaların, xüsusi müşavirənin təsis edilməsi, zərərin əvəzinin ödənilməsi, əhalinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəndləri, hətta qurultayın tövsiyə etdiyi prinsiplərlə əhalinin təcili ədalət mühakiməsi ilə təmin olunması məsələsini qəbul edərək canişin qeyd etdi ki, "maarifçilik tədbirləri və müsəlmanların hüquqlarının başqa millətlərin hüquqları ilə bərabərləşdirilməsi barədə müşavirənin nəzərdə tutduğu məsələlər artıq mərkəzi hökumət tərəfindən işlənilib hazırlanır və güman etmək lazımdır ki, müşavirənin arzu etdiyi mənada həll olunacaqdır". O həmçinin əmin etdi ki, "əhalinin savadlandırılması və məktəb işinin lazımi səviyyəyə qaldırılması üçün özündən asılı olan bütün tədbirləri" görəcəkdir[319]. Canişin həmçinin söz verdi ki, Rusiya qanunvericiliyində və inzibati sərəncamlarda müsəlmanların sıxışdırılmasına aid olan və ləğv edilməsi onun səlahiyyətində olan bəndləri aydınlaşdırmaq üçün təxirə salmadan sərəncam verəcəkdir. Qalan bəndləri isə o, müəyyən edilmiş qaydada yuxarı instansiyalar qarşısında vəsatət qaldırmaq yolu ilə həll etmək niyyətində idi. O, Qoridən daha münasib olan yerdə müəllimlər seminariyası açılmasının mümkünlüyü üzərində də dayandı.

---

316 "Баку" qəzeti, 11 mart 1906-cı il.
317 "İrşad" qəzeti, 28 fevral 1906-cı il.
318 "Баку" qəzeti, 12 mart 1906-cı il.
319 "Баку" qəzeti, 12 mart 1906-cı il.

Nümayəndələr çar hakimiyyətinin Qafqazdakı nümayəndəsinə bu dəfə də o qədər inandılar ki, İ.Hacıyevin aşağıdakı bəyanatı iştirakçıların hamısı tərəfindən yekdilliklə bəyənildi: "Canişinin yanında hazırkı müşavirələr haqqında xatirə olaraq canişinin adına Tiflisdə Qafqaz üçün ali məktəb təsis edilsin və bu məqsədlə bütün diyarda ianə toplanmasına başlansın"[320]. Qurultay belə ruh yüksəkliyi ilə öz işini başa çatdırdı.

Nümayəndələr öz yerlərinə gedib çatmağa macal tapmamış canişinin nə qədər səmimi olduğuna əmin oldular. Martın 6-da keçirilmiş müşavirədə canişinin yanında xüsusi müşavirəyə Azərbaycan nümayəndələri seçildilər. Onlar Ə.M.Topçubaşov, İ.Vəkilov, Ə.Zülqədərov, M.Şahmalıyev, A.Kazanalipov idilər (nümayəndəliyə namizəd - İ.Ziyadxanov və M.Eminov)[321]. Lakin canişinin dəftərxanası qurultayın qərarlarını həyata keçirməyə tələsmirdi. Martın 17-də dəftərxananın direktoru bildirdi ki, quberniya və qəza barışdırıcı komissiyalarının yaradılması barədə hələlik heç bir sərəncam yoxdur. Yalnız aprelin 6-da bu komissiyaların yaradılması barədə canişindən teleqram gəldi, lakin həmin komissiyalara millətlərarası münasibətlərin bütün məsələləri üzrə məşvərətçi səs hüququ verildiyi bildirilirdi. Başqa məsələlərə gəldikdə isə onlar həyata keçirilmədi.

Qurultayın siyasi yekunu isə 1906-cı ilin payızında "Difai" partiyasının yaradılması oldu. Bir çox azərbaycanlı nümayəndələri belə bir nəticəyə gəlmişdilər ki, 1905-1906-cı illərin toqquşmalarında ermənilərin üstünlüyü onların "Daşnaksütyun" partiyasının və silahlı dəstələrinin mövcud olmasında idi. Bunu nəzərə alaraq onlar siyasi qüvvələrini bir təşkilatda birləşdirmək qərarına gəlmişdilər.

Beləliklə, Azərbaycanda siyasi cərəyanların formalaşması XX əsrin əvvəllərində ölkədə yaranmış obyektiv şəraitlə sıx bağlıdır. Sərt hüquqsuzluq və zülm şəraitində hər cür qadağanlar və məhdudiyyətlər barəsində danışmaq imkanı əldə etmiş Azərbaycan sahibkarları öz ideoloqlarının simasında ilk dəfə olaraq tələblərini, arzularını və istəklərini ifadə edib ali hökumət instansiyalarına təqdim etdilər. 1905-ci ilin aprel petisiyasında toplanmış, sonralar isə ərizələrdə, müraciətlərdə və mətbuat yazılarında konkretləşdirilən bu tələb, arzu və istəklər bütün xalqın mənafeyini əks etdirirdi və gələcək partiyaların və təşkilatların siyasi platformalarının təməlini qoydu.

---

[320] "Баку" qəzeti, 12 mart 1906-cı il.
[321] "Каспий" qəzeti, 23 mart 1905-ci il.

## § 3. İctimai-siyasi təşkilatlar

Din azadlığını nəzərdə tutan 1905-ci il 17 aprel tarixli çar fərmanı, habelə imperiya əhalisinə "vətəndaş azadlıqlarının sarsılmaz əsaslarının" verilməsini elan etmiş 1905-ci il 17 oktyabr tarixli çar manifesti siyasi partiyaların və təşkilatların, xeyriyyə cəmiyyətlərinin və s. yaranmasında böyük rol oynadı. Bu işdə milli sahibkarların nümayəndələri və ideoloqları fəallıq göstərirdilər.

1905-ci ilin yazında və yayında Rusiya imperiyasının müsəlman ucqarlarında yaşayan xalqların siyasi qüvvələrinin birləşməsi prosesi getdi. Azərbaycan nümayəndələri müsəlman hərəkatında, xüsusən müsəlmanların siyasi təşkilatının - özünü "İttifaqi-müslimin" adlandırmış Ümumrusiya müsəlmanları ittifaqının yaranmasında yaxından iştirak etdilər.

İttifaqın yaradılmasının təşəbbüskarları Krım və Kazan tatarları - R.İbrahimov, Y.Akçurin, İ.Qasprinski idilər. Ə.M.Topçubaşov hazırlıq işində fəal iştirak etmişdi.

Ümumrusiya müsəlmanları ittifaqının yaradılması, bu təşkilatın təsis qurultayının çağırılması ideyası hələ 1905-ci ilin əvvəllərində meydana gəlmiş, 1905-ci ilin iyununda isə Çistopolda 500 nəfərədək adamın toplaşdığı görüşdə təşkilati cəhətdən rəsmiləşdirilmişdi. Bu görüşə bəhanə "Çistopol toyu" deyilən hadisə oldu (molla Kamalov öz bacısını ərə verirdi). Toy mərasimi ictimai yığıncağa çevrildi və hətta orada qətnamə qəbul olundu. Müşavirənin iştirakçıları konstitusiyalı monarxiya ideyasını müdafiə edərək həmçinin vicdan, din, söz, mətbuat, yığıncaq, toplantı azadlığının həyata keçirilməsinə, ümumi və bərabər seçki hüququ şərti ilə "xalq nümayəndəliyinə" tərəfdar çıxdıqlarını bildirdilər[322].

Siyasi platformada müsəlmanların birləşdirilməsinin tərəfdarları tərəqqipərvərlərin - "bitərəflik" bayrağı altında müxtəlif burjua-mülkədar partiya və qruplarından olan ünsürləri birləşdirməyə cəhd göstərən rus liberal-monarxiya burjuaziyasının siyasi qruplaşmalarının təsirini öz üzərlərində hiss edirdilər. Müsəlman dünyasında geniş tanınmış İ.Qasprinskinin naşirliyi və redaktorluğu altında Baxçasarayda nəşr olunan "Tərcüman" qəzeti 1905-ci il avqustun 12-də Nijni Novqorodda qurultaya hazırlıq üzrə təşkilat müşavirəsinin çağırılmasını xəbər verərək qeyd edirdi ki, bu müşavirəni tərəqqipərvər müsəlmanlar təşkil edirlər[323].

İttifaqın birinci (təsis) qurultayı 1905-ci il avqustun 15-də Nijni Novqorodda yarmarka zamanı keçirildi. Qurultayda Rusiyada "İttifaqi-müslimin" partiyasının yaradılması barədə qərar qəbul olundu[324].

Qurultayda Rusiyanın müsəlman əhalisinin müxtəlif təbəqə və qrupları, özü də ziyalılar və xırda sahibkarlar kifayət qədər geniş təmsil olunmuşdular.

[322] "Tərcüman" qəzeti, 7 və 10 iyun 1905-ci il.
[323] Yenə orada, 19 iyul; "Баку" qəzeti, 6 avqust 1905-ci il.
[324] "Баку" qəzeti, 26 avqust 1905-ci il.

Çıxışlarda əsasən Rusiyanın bütün müsəlmanlarının "birləşməsinə" çağırışlar səslənirdi. Praktik vəzifələr kimi ilk növbədə müsəlman sahibkarlarının hüquqlarının hakim rus siniflərinin hüquqları ilə bərabərləşdirilməsi vəzifəsi irəli sürülürdü. Bu, bütün petisiyalarını və ərizələrini məhz həmin tələblərlə başlayan Azərbaycan sahibkarları nümayəndələrinin diqqətini cəlb etməyə bilməzdi. Qurultayın qərarlarında qeyd olunurdu ki, "Rusiya müsəlmanları bütün siyasi, mədəni məsələlərdə, habelə Rusiyanın indiki vəziyyətindən asılı olaraq meydana çıxan məsələlərdə həmrəy olmalıdırlar"[325]. Tələblərin yerinə yetirilməsi üçün isə vaxtaşırı çağırılmalı olan yerli yığıncaqların təsis edilməsi nəzərdə tutulurdu.[326]

Müsəlman sahibkarlarının rus kapitalından asılılığı, onların siyasi cəhətdən təşkil olunmaması Ümumrusiya müsəlmanları ittifaqının proqram sənədlərinə öz təsirini göstərdi. Buna görə də qəbul olunmuş qərarlarda qeyd olunurdu ki, müsəlmanlar barəsindəki mövcud sıxışdırmaların və hüquqsuzluğun ləğvi, onların siyasi, dini və əmlak hüquqlarının ruslarla bərabərləşdirilməsi uğrunda mübarizə "qanuni üsullarla" həyata keçiriləcəkdir, "müsəlmanlar öz ehtiyaclarını ödəmək işində" Rusiyanın bu gününü və gələcəyini düşünəcəklər[327]. Tələblər "arzular" kimi qələmə verilirdi. Sənədlərdə belə fikirlərə təsadüf olunur ki, "qabaqcıl rus adamları ilə həmfikir olan düşüncəli müsəlmanlar elə bir qaydanın yaradılması işində iştirak edirlər ki, bu qaydaya görə qanunlar xalqın özünün seçdiyi nümayəndələrin iştirakı ilə tərtib ediləcəkdir". Sənədlərdə həmçinin "məktəblər açılması, kitab, qəzet və jurnallar nəşri yolu ilə müsəlmanların hərtərəfli inkişafına"[328] səy göstərilməsi bəyan edilirdi.

Rusiya müsəlmanlarının ikinci və üçüncü qurultayları "İttifaqi-müslimin"i təşkilat cəhətdən möhkəmləndirdi. Bu qurultaylarda nizamnamə qəbul edildi, İttifaqın proqramı müəyyən olundu.

Azərbaycan sahibkarlarının mövqeyindən çıxış edən ideoloqlar bu qurultayların işində yaxından iştirak etmişdilər. Demək kifayətdir ki, İttifaqın proqramını və nizamnaməsini Ə.M.Topçubaşov yazmışdı.

İkinci qurultay 1906-cı il yanvarın 13-23-də Peterburqda qeyri-leqal şəraitdə, rəsmi icazə olmadan keçirilmişdi. Qurultayda 100-dək adam - sahibkarların, ruhanilərin və ziyalıların nümayəndələri iştirak edirdilər[329]. Qurultaya toplaşmazdan əvvəl tatar liberal cərəyanının ideoloqları qərara gəldilər ki, rus kadetləri ilə proqramın əsasları və onlarla seçki bloku yaratmaq mümkünlüyü barədə razılığa gəlsinlər. Bu məqsədlə "Müsəlmanlar ittifaqı"nın üzvləri Y.Akçurin və S.Alkin 1906-cı ilin yanvarında Peterburqda konstitusiyalı

---

[325] RFDTA, fond 821, siyahı 133, iş 461, vərəqlər 61 arxada, 62.
[326] Yenə orada.
[327] RFDTA, fond 821, siyahı 133, iş 461, vərəqlər 61 arxada, 62.
[328] RFDTA, fond 821, siyahı 133, iş 461, vərəqlər 61 arxada, 62.
[329] А.Аршаруни и Х.Габидулин. Очерки панисламизма и пантюркизма в России. М. 1931, səh. 26; Ибрагимов Г. Татары в революции 1905 года. Казан, 1926, səh. 150.

demokratiya partiyası qurultayının işində iştirak etdilər. Özü də passiv iştirak etmədilər. Onlar qurultaya xüsusi bəyanatla müraciət edərək İttifaqın kadetlərin proqramını qəbul etməyə hazır olduğunu bildirdilər. Onlar bəyanatda yazmışdılar: "Bizim fikrimizcə, konstitusiyalı demokratiya partiyası spesifik rus təşkilatı deyildir, əksinə, o, müxtəlif millətlərin partiyasıdır. Buna sübut belə bir cəhətdir ki, bu qurultayda müxtəlif xalqların nümayəndələri iştirak edirlər. Kadetlər partiyası ideyalarının müsəlmanlar arasında çox da qənaətbəxş yayılmadığına baxmayaraq onun proqramının əsas motivləri böyük rəğbətlə qarşılanır..."[330].

Daha sonra İttifaqın adından bildirildi ki, kadetlər öz proqramlarına müsəlmanların mənafeyinə uyğun olan bəzi dəyişikliklər və əlavələr etsələr müsəlmanlar tərəfindən daha çox müdafiə oluna bilərlər. Onda ayrı-ayrı müsəlmanlar da, bütövlükdə İttifaq da tərəddüd etmədən konstitusiyalı demokratiya partiyasına qoşulardı.

Kadetlər qurultayının nümayəndələri İttifaqın bəyanatının partiya proqramının əsas ideyaları ilə uyğun gəldiyini hesab edərək müsəlmanların bütün müddəalarını qəbul etdilər. Kadetlər partiyasının liderləri Gessen və Petrajitski də buna çağırırdılar. Kazan liberallarının orqanı razılıq hissi ilə öz oxucularına xəbər vermişdi: "Konstitusiyalı demokratiya partiyasının ikinci qurultayı müsəlmanların demək olar bütün müddəalarını qəbul etdi"[331].

Qurultayın işində Azərbaycan müsəlmanlarının nümayəndələri: "Kaspi" qəzetinin redaktoru Ə.M.Topçubaşov, həkimlər Q.Qarabəyov və Ə.X.Axundov fəal iştirak etdilər[332].

Qurultay İttifaqın nizamnaməsinin və proqramının layihələrini, I Dövlət Dumasına seçkilərdə taktikasını müzakirə etdi. Dumada müsəlman fraksiyası qurultayın müəyyən etdiyi istiqamətə uyğun fəaliyyət göstərdi.

Qurultayda İttifaqın nizamnaməsi qəbul edildi. Nizamnamənin 23 bəndində Rusiya müsəlmanlarına təklif olunurdu ki, vahid siyasi partiya yaratsınlar və bütöv təşkilat kimi fəaliyyət göstərsinlər. Müsəlmanların yaşadıqları Rusiya quberniyalarından aşağıdakı 16 rayonun və onların mərkəzlərinin yaradılması nəzərdə tutulurdu: Qafqaz rayonunda - Bakı, Krım rayonunda - Simferopol, Moskva və Peterburq rayonunda - Peterburq, aşağı Volqaboyunda - Həştərxan, Yuxarı Volqaboyunda - Kazan və i.a. Bütün bu bəndlərdə göstərilirdi ki, Ümumrusiya qurultayına, qurultaylararası dövrdə isə İttifaqın Baş şurasına tabe olacaq rayon yığıncaqları təsis edilir. Nizamnamə İttifaqın üzvlərindən 50 qəpikdən 5 rubladək məbləğdə üzvlük haqqı toplanmasını, habelə "Allah naminə"

---

[330] "Казан мухбире", 8 fevral 1905-ci il; Sitat bu kitabdan gətirilir: Хасанов Х.Х. Революция 1905-1906 гг. М., 1965, səh. 284.
[331] "Казан мухбире", 8 fevral 1905-ci il; Sitat bu kitabdan gətirilir: Хасанов Х.Х. Революция 1905-1906 гг. М., 1965, səh. 284.
[332] "Баку" qəzeti, 12 yanvar 1906-cı il.

ianələr qəbul edilməsini müəyyən edirdi. Toplanmış məbləğ rayon yığıncaqlarının qərarları ilə xərclənməli idi.

Nizamnamə hər il Ümumrusiya qurultaylarının çağırılmasını nəzərdə tuturdu. Qurultaylarda rayon yığıncaqlarından iki nümayəndə, yerli (şəhər) yığıncaqlarından bir nümayəndə həlledici səslə iştirak etməli idi. İttifaqın üzvləri qurultayın qərarlarına tabe olacaqları barədə öhdəlik götürürdülər. Qurultay İttifaqın müvəqqəti proqramını qəbul etdi. Bu proqram kadetlərin proqramı ilə demək olar tamamilə eyni idi.

Dövlət Dumasına seçkilərə kifayət qədər əhəmiyyət verən qurultay seçkilərdə taktika məsələsində kadetlərə qoşulmağı yekdilliklə qərara aldı və bəyan etdi ki, bu, müsəlmanlar üçün ən yaxşı qərardır. Bununla da İttifaq özünün kadetlərlə blokunu rəsmiləşdirdi. Öz növbəsində kadetlər yerli sahibkarlar sırasından olan millətçilər ilə can-başla bloka girirdilər. Onları isə kadet-doktrinaçıların lideri P.B.Struvenin təmtəraqla təbliğ etdiyi "yaradıcı millətçilik" ideyası cəlb edirdi. Bu ideya əslində ondan ibarət idi ki, birincisi, sağ qüvvələrin təbliğ etdiyi ruslaşdırmanın və milli zülmün kobud zorakılıq metodlarından əl çəkilsin, ikincisi isə, qeyri-rus xalqlara məktəbdə, məhkəmədə və zemstvo özünüidarəsində ana dilindən istifadə etmək hüququ verilsin. Əslində isə "yaradıcı millətçiliyin" məqsədləri hökumətin məqsədləri ilə eyni idi: imperiyanın möhkəmləndirilməsi, Rusiyanın bütövlüyü və bölünməzliyi. Fərq yalnız vasitələrdə idi[333].

Kadetlərin irəli sürdükləri şüarların son məqsədlərinə baxmayaraq onlar XX əsrin ilk illərində imperiya hüdudlarında hüquq və imtiyazlarının genişləndiriləcəyinə ümid bəsləyən Rusiya ucqarlarındakı sahibkar millətçiləri cəlb edirdilər. Onlar xüsusi inadkarlıqla istər məktəblərdə ana dilinin tədrisinə, istərsə də ana dilində məktəblər açılmasına tərəfdar çıxırdılar. Milli dilin inkişafı, millətin, onun ziyalılarının formalaşması və inkişafı cəmiyyətin intellektual potensialının yüksəlişi üçün böyük əhəmiyyətə malik idi. Buna görə də müsəlman, o cümlədən Azərbaycan sahibkarlarının və ziyalılarının bu sahədə bəzən uğursuz mübarizəsi müsbət əhəmiyyətə malik idi. Lakin bu mübarizə hər cür millətçilərin və irticaçıların qızğın müqavimətinə rast gəlirdi. İş bundadır ki, ana dilinin tədrisi uğrunda mübarizə çox vaxt millətçilərin bəzi güzəştlərə getməsi ilə başa çatırdı. III Dövlət Dumasında məsələnin müzakirəsi buna nümunədir. 1908-ci il aprelin 3-də Hərbi İdarənin təqdim etdiyi dövlət müdafiəsi planının layihəsi barədə xalq maarifi naziri A.A.Şvarts hökumətin mövqeyini əks etdirən rəy ilə çıxış etdi. Şvarts məktəbdə rus milli hissini inkişaf etdirməyi və möhkəmləndirməyi, buna görə də "özgə xalqların məktəbi milliləşdirmək meylinin" qarşısını hər cür almağı təklif edirdi. Şvarts bildirirdi ki, "məktəb milli və mühafizəkar olmalıdır və bu mövqenin

---

333 Аврех А.Я. Столыпин и третья дума. М., 1968, səh. 33.

hər hansı şəkildə zəifləməsinə dözmək olmaz"[334]. Müsəlman fraksiyası üzvlərinin bütün ərizələrində, petisiyalarında və çıxışlarında deyildiyinə baxmayaraq ali təhsil müəssisələrinin açılmasından söhbət də gedə bilməzdi. Şəxsi məktəblərə gəldikdə isə buna yerli hakimiyyət orqanlarının ciddi nəzarəti altında yol verilirdi.

Kadetlər yerli sahibkar millətçilər ilə can-başla bloka girirdilər. Məsələn, 1906-cı ilin fevralında kadet partiyasının MK-sı müsəlmanların nümayəndələri ilə partiyanın mərkəzi orqanları arasında daimi əlaqələr təşkil etməyi zəruri hesab etdi[335]. İttifaqın kadetlər ilə bloka can atmasını müdafiə edən M.Ə.Rəsulzadə yazırdı ki, müsəlmanlar irtica rejiminə qarşı səylərini Rusiyada yaşayan başqa xalqlarla birləşdirməlidirlər. O belə nəticəyə gəlirdi ki, müsəlmanların öz səyləri ilə qalib gəlmək ümidi qeyri-realdır[336].

1906-cı il avqustun 16-dan 21-dək Nijni Novqorodda keçirilmiş müsəlmanların üçüncü qurultayında "İttifaqi-müslimin"in proqramı qəbul edildi. Qurultayda 800-ə yaxın adam - yarmarkaya gəlmiş tacirlər, sənayeçilər, müəllimlər, mollalar, müsəlman qəzetlərinin naşirləri iştirak edirdilər. Qurultayda qəzetlərin, o cümlədən "İrşad" qəzetinin də müxbirləri iştirak edirdilər[337]. Qurultayda Ə.M.Topçubaşov sədrlik edirdi.

11 bölmədən və 79 paraqrafdan ibarət proqramın qəbul edilməsi qurultayın fəaliyyətində ən əhəmiyyətli hadisə oldu. Bu proqramın əsasını kadetlər partiyası proqramının başlıca müddəaları təşkil edirdi. Təşkilatın siyasi məqsədlərinin izah olunduğu elə birinci bölmədə göstərilirdi ki, onun vəzifəsi Rusiyanın bütün müsəlmanlarını birləşdirməkdən ibarətdir. İttifaqın təsisçiləri onun "sinfi əlamətdən kənar" və ya "ümummilli" bir təşkilat olduğunu bildirməklə müsəlman ucqarlarının geniş kütlələrini İttifaqa cəlb etməyə ümid bəsləyirdilər.

Kadet partiyasının proqramı kimi İttifaqın da proqramı konstitusiyalı monarxiya ideyalarını müdafiə edirdi[338]. Proqram xüsusi mülkiyyəti müqəddəs elan edirdi. Kəndlilərin ehtiyaclarını "ödəmək" məqsədilə (§ 60) proqram "bütün udel, dövlət, kabinet və monastır torpaqları hesabına" lazımi ölçüdə onlara torpaq verilməsini mümkün hesab edirdi. Xüsusi sahibkar torpaqlarının özgəninkiləşdirilməsi zəruri olduğu hallarda isə proqram dövlət tərəfindən mülkədarlara bunun əvəzinin "ədalətli qiymətlə"[339] ödənilməsini icbari şərt hesab edirdi. Bu məsələdə İttifaq kadetlərlə tam həmrəylik nümayiş etdirirdi. Proqram 8 saatlıq iş günü məsələsindən yan keçərək "normal iş gününün maksimum saatının" (§ 67)[340] müəyyən olunmasının arzu edildiyini göstərirdi. Bununla da İttifaqın

[334] Sitat bu kitabdan gətirilir: Аврех А.Я. Göstərilən əsər, səh. 26; RFDTA, fond 1276, siyahı 5, iş 143, vərəq 11.
[335] RFDTA, fond 150, siyahı 1, iş 266, vərəq 99.
[336] "Təkamül" qəzeti, 12 mart 1907-ci il.
[337] Хасанов Х.Х. Göstərilən əsər, səh. 205.
[338] RFDTA, fond 821, siyahı 150, iş 419, vərəqlər 11,12 arxada.
[339] RFDTA, fond 821, siyahı 150, iş 419, vərəq 17.
[340] Yenə orada, vərəq 17 arxada.

proqramı fəhlələrin mübarizəsinin təzyiqi altında hələ XIX əsrin axırlarında qəbul edilmiş iş günü haqqında çar qanunvericiliyindən uzağa getməmişdi.

İttifaqın ideoloqları "milli-mədəni muxtariyyət" tələbini irəli sürdülər (ana dilində məktəblər açılması, milli dildə qəzet və jurnal nəşri və s.)

Müsəlmanların ruhani idarələrinin yenidən təşkili məsələlərinə baxılmasına kifayət qədər mühüm yer verilmişdi. Məktəb işinin islahatı layihəsi də bu məsələyə xidmət edirdi. Təklif olunurdu ki, məktəb və mədrəsələr Maarif Nazirliyinin tabeliyindən müsəlmanların ruhani idarələrinin ixtiyarına verilsin. Müsəlmanların ruhani idarələrinin hüquqlarının genişləndirilməsi, müsəlman ruhanilərinin hüquqlarının pravoslav ruhanilərinin hüquqları ilə bərabərləşdirilməsi, vəqf işinin nizama salınması barədə tələblər irəli sürülmüşdü[341]. Mövcud rejimin əsaslarına qətiyyən toxunmayan bu tələblər ruhaniləri imkan daxilində öz tərəfinə çəkmək meylini əks etdirirdi.

Qurultayda İttifaqın Mərkəzi Komitəsinin 15 nəfərdən ibarət daimi bürosu seçildi. Büronun tərkibinə Ə.M.Topçubaşov da daxil oldu[342]. Daha 5 üzvün MK-ya kooptasiya edilməsi barədə də qərar qəbul edildi (onlardan üçü Bakı, Yelisavetpol və İrəvan quberniyalarından olan müsəlmanları təmsil edirdi)[343]. "İttifaqi-müslimin" qurultayın bütün qərarlarını təbliğ etməyi, İttifaqın proqramını və nizamnaməsini təşviq etməklə Rusiya müsəlmanları arasında izahat işi aparmağı MK bürosunun bütün üzvlərinə bir vəzifə olaraq tapşırdı. İttifaq MK-sının üzvlərinə ünvanlanmış məktubda deyilirdi: "Bütün rayonların müsəlmanları İttifaqın proqramına uyğun hərəkət etməli, şəhərlərdə və rayonların kəndlərində regional ittifaqlar yaratmalı, onları təşkilati cəhətdən rəsmiləşdirməlidirlər". Daha sonra təşkilatın məqsədləri izah olunurdu: "İttifaqi-müslimin" təşkilatının ümdə məqsədi maddi və ictimai sahələrdə xalqın mənafelərini müdafiə etməkdən, icmanın islahatında vahid xətt hazırlamaqdan və ona əməl etməkdən ibarətdir"[344]. "Bürhani-tərəqqi" qəzeti "İttifaqi-müslim"in Rusiya müsəlmanlarına ünvanlanan və vicdana, ədalətə, şəriətə, birliyə və qardaşlığa çağıran çağırışını dərc etmişdi. Qəzet həmçinin xəbər vermişdi ki, təşkilat 23 nəfərdən ibarət komissiya yaratmışdır. Din komissiyasına Azərbaycandan Əlimərdan bəy Topçubaşov, Əbdürəşid İbrahimov, Xəlil bəy Xasməmmədov daxil idilər.

İqtisadi komissiyaya F.Xoyski, Sultanov, Sabir Molla Həsənov və başqaları daxil oldular. Hüquq komissiyasının tərkibində Ə.M.Topçubaşov, F.Xoyski, X.Xasməmmədov da var idilər[345].

Qurultay bütün başqa vəzifələrdən başqa müsəlman partiyası nizamnaməsinin tərtib edilməsini də seçilmiş MK-ya həvalə etdi. 1906-cı il

---

[341] Хасанов Х.Х. Göstərilən əsər, səh. 286.

[342] RFDTA, fond 821, siyahı 133, iş 461, vərəq 68 arxada; "İrşad" qəzeti, 27 aprel 1907-ci il.

[343] Политическая жизнь русских мусульман до Февральской революции. Oksford, 1987, səh. 42.

[344] "Bürhani-tərəqqi" qəzeti, 29 aprel 1907-ci il.

[345] "Bürhani-tərəqqi" qəzeti, 29 aprel 1907-ci il.

noyabrın 18-20-də Moskvada MK-nın müşavirəsində nizamnaməyə baxıldı və o, qəbul olundu. Noyabrın 30-da layihə cəmiyyətlər və ittifaqlar haqqında 1906-cı il 4 mart tarixli müvəqqəti qaydalar əsasında qeydiyyata alınmaq üçün cəmiyyət işləri üzrə Peterburq xüsusi şəhər idarəsinə təqdim olundu. Layihəyə yalnız 1907-ci il fevralın 28-də baxıldı və bəzi formal əsaslara isnad edilməklə geri qaytarıldı. Nizamnamədə müvafiq dəyişikliklər etmək üçün 1906-cı il aprelin 6-da Peterburqda keçirilmiş MK-nın dördüncü müşavirəsində müvəqqəti komissiya seçildi və bundan sonra layihə idarəyə bir daha təqdim olundu[346]. 1907-ci il aprelin ortalarında keçirilmiş MK müşavirəsində İttifaqın işlərini aparmaq və Dövlət Dumasında müsəlman fraksiyasının dumadankənar işinə kömək etmək üçün beş nəfərdən ibarət daimi büro seçildi[347]. Büroya aşağıdakı qəzetlərin redaktorları daxil oldular: "Kaspi" - Ə.Topçubaşov, "Ülfət" - A.İbrahimov, "Kazanski vestnik" - S.Alkin, F.Kərimov, "Vakt" - Y.Akçurin[348].

Müsəlmanların üçüncü Ümumrusiya qurultayında millətlərarası toqquşmalar məsələsinə dair qətnamə qəbul olundu. Qətnamədə hər iki xalqın din və ictimai-siyasi xadimlərinin diqqəti belə bir zərurətə cəlb edilirdi ki, "Zaqafqaziya müsəlmanları ilə ermənilərin qarşılıqlı barışması işini" öz əllərinə alsınlar "və insanpərvərlik naminə, azadlıq hərəkatında Rusiyanın bütün xalqlarının mənafelərinin ümumiliyi naminə qarşılıqlı qırğına son qoysunlar və vətəndaş azadlığı və siyasi azadlıq prinsipləri əsasında Rusiyada şüurlu həyatın bərqərar olmasına ümumi səylərlə kömək göstərsinlər"[349].

Müsəlmanlar İttifaqının MK-sı Dövlət Dumasında müsəlman fraksiyasının fəaliyyətinə də rəhbərliyi həyata keçirirdi. Onun üzvləri Dumaya deputat seçilir, qanun layihələrinin müzakirəsində, proqram hazırlanmasında iştirak edirdilər. Bu zaman onlar Ümumrusiya müsəlman qurultaylarının qərarlarını rəhbər tuturdular.

İttifaqın üzvləri təşkilatın şöbələrinin coğrafiyasını genişləndirmək məqsədilə izahat işi aparırdılar. Onlar Bakı şəhərinə xüsusi əhəmiyyət verərək İttifaqın şöbəsini yaratmaq üçün 1907-ci ilin aprelində buraya öz nümayəndəsini göndərdilər. Bakı ziyalıları onların təşəbbüsünü müdafiə etdilər. "Proqress" qəzetində dərc olunmuş məqalədə belə bir çağırış var idi ki, "öz xalqına heç olmasa bir damla məhəbbəti olan, bütün ətrafındakılara şüurla yanaşan və müsəlmanların irəliyə doğru hazırkı hərəkatının bütün gedişini diqqətlə izləyən hər bir kəs bu cür birləşdirici vahidlərin yaradılmasına var gücünü sərf etməlidir, müsəlmanların birliyi ideyasının hamı üçün ümumi və müqəddəs olacağı şəraitə can atmalıdır"[350].

Bununla yanaşı qəzet qeyd edirdi ki, İttifaqın nümayəndəsi "ümummüsəlman məsələlərinə Bakı işçilərinin laqeyd münasibətindən məyus

[346] "Каспий" qəzeti, 23 may 1907-ci il.
[347] Yenə orada, 20 aprel 1907-ci il; "İrşad" qəzeti, 27 aprel 1907-ci il.
[348] "Каспий" qəzeti, 20 aprel 1907-ci il.
[349] Политическая жизнь русских мусульман до Февральской революции. Oksford,1987, səh. 44-45.
[350] "Прогресс" qəzeti, 7 aprel 1907-ci il.

halda" getdi. Nüfuzlu müsəlmanlar elan olunmuş yığıncağa gəlmədilər, yığıncağın iştirakçıları isə komitənin seçilməsi məsələsinin həllinə cürət etmədilər[351]. Bakıda İttifaqın şöbəsi yaradılmadı. Qeyd etmək lazımdır ki, Bakı cəmiyyətinin yuxarı təbəqəsi Ümumrusiya müsəlman birliklərinə qəribə laqeydlik göstərdi. "Açıq söz" qəzetinin naşiri M.Ə.Rəsulzadə sonralar IV Dövlət Dumasında və onun bürosunda müsəlman fraksiyasına kömək göstərilməsi işində Bakının rolunu və yerini qiymətləndirərək yazmışdı ki, "tariximizin ən məsul anında, Rusiya tarixinin ən ciddi anında, həyatın ən təhlükəli vaxtında... bütün şimali Rusiya köməyə tələsdi"[352] və "... yalnız Bakı, bu qızıl xəzinəsi, varlı diyar kənarda qaldı"[353].

1907-1908-ci illərdə mövcud rejimə qarşı mübarizədə müsəlmanları birləşdirmək işində İttifaqın fəaliyyəti bir qədər zəiflədi. 1909-cu ilin avqustunda isə Nijni Novqorod mühafizə bölməsinin rəisi Polis Departamentinin xüsusi şöbəsinə xəbər vermişdi ki, Dövlət Dumasının müsəlman fraksiyasının üzvləri, o cümlədən də Ə.M.Topçubaşov qarşıdakı qurultayın proqramını hazırlamaq və bəzi təşkilati məsələləri müzakirə etmək üçün Nijni Novqorod yarmarkasına gəlmişlər. O məlumat vermişdi ki, müsəlmanlar hazırda imperiyada mövcud olan və milli müqəddəratlarını təyin etmək üçün maneə saydıqları dövlət quruluşuna qarşı siyasi mübarizə məqsədilə bütün şüurlu müsəlmanları birləşdirmək üçün qurultay çağırırlar[354].

1909-cu il avqustun 21-də Şamaxı və Salyan nümayəndələri X.Salahovun, İ.Veysovun, AAxundovun, Y.Vəzirovun iştirak etdiyi müsəlmanların yığıncağı Dövlət Dumasının müsəlman fraksiyasının fəaliyyəti haqqında informasiyanı dinləyərək fraksiya yanında büro yaratmağı qərara aldı. Onun işini maddi cəhətdən təmin etmək üçün Orenburqda maliyyə komissiyası yaradılmışdı. Yığıncaq birinci və ikinci çağırışlar Dövlət Dumasının fəaliyyətində Ə.M.Topçubaşovun rolunu qeyd etdi. Lakin yığıncaq göstərdi ki, "maddi cəhətdən zərrə qədər də olsa təmin olunmayan cənab Topçubaşov üçün fraksiyanın dumadankənar bütün mürəkkəb və məsul işini təkbaşına aparmaq çətindir". Yığıncaq "Dövlət Dumasının hazırkı sessiyasında müsəlman fraksiyasının cənab Topçubaşovun köməyindən məhrum ola biləcəyindən" qorxaraq belə bir nəticəyə gəldi: Büro yaradılsın, maddi cəhətdən təmin edilsin və fraksiyanın sədri K.M.Tevkelevdən və Ə.M.Topçubaşovdan xahiş olunsun ki, zəruri izahat işinin aparılması üçün "müsəlman əhalisinin yaşadığı müxtəlif mərkəzlərə getsinlər". Həmçinin qanun layihələrinə, məruzələrə, Dumanın komissiya və iclaslarında fraksiya üzvlərinin çıxışlarına aid materialların toplanmasını və sistemləşdirilməsini davam etdirmək də nəzərdə tutulmuşdu[355].

---

[351] "Прогресс" qəzeti, 7 aprel 1907-ci il.
[352] "Açıq söz" qəzeti, 13 aprel 1916-cı il.
[353] Yenə orada, 23 may 1916-cı il.
[354] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909, iş 291, vərəq 5, 6.
[355] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909, iş 291, vərəq 10.

Ə.M.Topçubaşov və K.M.Tevkelev bu məqsədlə Orenburqda, Ufada, Troitskdə, Yekaterinburqda, Permdə, Petropavlovskda oldular[356].

"İttifaqi-müslimin"in sonrakı fəaliyyəti Dövlət Dumasının müsəlman fraksiyasının işi ilə sıx bağlı idi. Fraksiya Rusiya müsəlmanlarının bütün ictimai - siyasi həyatının bir növ əlaqələndiricisi olmuşdu. Məsələn, onun üzvlərinin təşəbbüsü ilə 1914-cü ilin iyununda Peterburqda müsəlmanların növbəti qurultayı keçirildi. Özü də qurultaya nümayəndələr seçilmir, müsəlman fraksiyası tərəfindən dəvət olunurdular. Bu barədə Ə.M.Topçubaşov xüsusi olaraq ayrıca müşavirəyə toplaşmış Bakı ziyalılarına məlumat verdi. Onları qurultayda nümayəndəlik məsələsi narahat edirdi. Ə.M.Topçubaşov izah etdi ki, məhz fraksiya bütün şəhərlərə qurultaya dəvətnamə göndərmişdir. Qurultayın gündəliyini də fraksiya müəyyən etmiş, Rusiya müsəlmanlarının ruhani idarələrinin yenidən təşkili, onlar üçün vahid ruhani idarəsinin təsis edilməsi ilə əlaqədar məsələləri gündəliyə daxil etmişdi[357]. Qurultayda K.M.Tevkelev sədr, Ə.M.Topçubaşov və İ.Axtyamov isə onun köməkçiləri seçildilər.

Qurultayda M.Y.Cəfərov çıxış etdi. O, müsəlmanların mənəvi məsələlərinin təşkilinə dair hökumət tədbirlərinin tarixi icmalını verərək mövcud qanunvericiliyi təhlil etdi və xalqın mənəvi həyatına hökumətin müdaxilə etməsinin arzuolunmazlığını göstərdi. O, "özünün sıxışdırıcı tədbirləri və müsəlmanların mənəvi həyatına müdaxilə etməsi nəticəsində Qafqaz tarixində müridlik adı ilə tanınan hərəkat doğurmuş"[358] general Yermolovun fəaliyyəti üzərində dayandı.

Qurultayın adına Peterburqda və Moskvada ali qadın kurslarının dinləyiciləri olan müsəlman qadınlarından petisiya daxil oldu. Onlar müsəlmanların ictimai həyatı üçün qurultayın əhəmiyyətini qeyd edir və buna görə də qurultay iştirakçılarının diqqətini müsəlman qadının siyasi və mülki hüquqsuzluğuna, ailədə son dərəcə ağır vəziyyətinə cəlb edirdilər. Onlar qadın məsələsi həll edilmədən ictimai tərəqqini qeyri-mümkün hesab edərək öz ümidlərini qanunvericilik idarələri üzvlərinin müdafiə olunması ilə bağlayır və qurultaydan xahiş edirdilər ki, dərdlərinə şərik çıxsın və onları müdafiə etsin[359].

1905-ci il 17 oktyabr tarixli çar manifestinin Azərbaycan cəmiyyətinin siyasi cəhətdən fəallaşması üçün böyük əhəmiyyəti oldu. Azərbaycan sahibkarlarının nümayəndələri bu manifesti sevinclə qarşıladılar ki, bu da konstitusiyalı monarxiya çərçivəsində tələblərinin ödəniləcəyinə onların ümidlərini əks etdirirdi. Manifestdən və orada azadlıqların elan olunmasından sonra mətbuatda müəyyən qətiyyət, tələbkarlıq və müxalifətçilik müşahidə olunurdu.

"Kaspi" qəzeti "Böyük akt" adlı baş məqaləsində yazırdı ki, manifest saflaşdırılmış "mühafizəçiliyi" özünün əsas vəzifəsi hesab edən və bununla da

---

[356] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909, iş 291, vərəq 8-9.
[357] "Баку" qəzeti, 5 iyun 1914-cü il.
[358] "Баку" qəzeti, 21 iyun 1914-cü il.
[359] "Баку" qəzeti, 5 iyun 1914-cü il.

"bütün böyük ölkəni başdan-başa qarışıqlıq və açıq terror ocağına çevirmiş"[360] polis nəzarətinin və ağır bürokratik qəyyumluğun dar, məhvedici məhdudiyyət çərçivəsinə salınmış ictimai və dövlət məişətinin görkəmini əsaslı surətdə dəyişəcəkdir. Ə.M.Topçubaşov qəzetin fikrinə şərik çıxaraq yazırdı: "İndi elə bir işıqlı dövr başlanmışdır ki, bu və ya digər dinə, milliyyətə mənsubluğundan asılı olmayaraq Rusiyanın hər bir vətəndaşı özünün insan hüquqlarını dərk etmişdir"[361]. O, "din azadlığının" elan olunması və müsəlmanların Rusiya vətəndaşı kimi tanınması ilə əlaqədar xüsusilə sevindiyini bildirirdi[362]. Ə.M.Topçubaşov imperiyada müsəlmanların vəziyyətini əvvəlkindən daha qətiyyətlə tənqid edərək ümid edirdi ki, "işıqlı 17 oktyabr günü Rusiyanın hər bir vətəndaşına öz insan hüquqlarını hiss etməyə imkan verəcək və müsəlmanlar ümumi quruculuq işində iştirak edəcəklər"[363]. O yazırdı: "İnnən belə vətəndaş azadlığı və siyasi azadlıq prinsipləri əsasında şüurlu sosial-siyasi həyat üçün onların qarşısında ümumi meydan açılır"[364].

"Həyat" qəzetində dərc olunmuş yazılarda da bu cür ümidlər ifadə olunurdu: Biz gərək ictimai hərəkata qoşulaq və onda iştirak edək... Çünki bizim iştirakımız bizə gələcəkdə yalnız xeyir və fayda gətirəcəkdir. Perspektivdə bu, zərər yox, yalnız fayda və xoşbəxtlik verə bilər[365].

Şəhər dumasının üzvləri manifestə çox böyük əhəmiyyət verərək oktyabrın 19-da təcili iclasa toplaşdılar[366]. Çıxış etmiş İ.Hacıyev sevinclə bildirdi: "... elə bir vaxt gəlib çatmışdır ki, istədiyini qorxmadan deyə bilirsən. Bu, həyatımızda böyük hadisədir"[367]. İclasda qərara alındı ki, S.Y.Vitteyə çara məruzə edilmək üçün "verdiyi azadlığa görə"[368] minnətdarlıq teleqramı göndərilsin. Teleqramda bildirilirdi ki, duma "böyük dövlət müdrikliyi olan bu aktı sevinclə qarşılamışdır". 17 oktyabr manifestinin ölkəyə "asayişə" nail olmağın bütün üsullarını verdiyini, "asayiş olmasa bundan sonra yaşamağın artıq qətiyyən mümkün olmadığını" yazan Bakı şəhər duması II Nikolayı "azad xalqın çarı"[369] adlandırırdı. S.Y.Vittenin şəhər rəisini əvəz edən K.Səfərəliyevin adına daxil olmuş cavab teleqramında deyilirdi: "Əlahəzrət imperator lütfən buyurmuşdur ki, ifadə etdiyi hisslərə görə dumaya minnətdardır"[370].

---

[360] "Каспий" qəzeti, 26 oktyabr 1905-ci il.
[361] "Каспий" qəzeti, 9 noyabr 1905-ci il.
[362] Yenə orada.
[363] "Каспий" qəzeti, 9 noyabr 1905-ci il.
[364] "Каспий" qəzeti, 9 noyabr 1905-ci il.
[365] "Həyat" qəzeti, 19 dekabr 1905-ci il.
[366] "Каспий" qəzeti, 27 oktyabr 1905-ci il.
[367] "Каспий" qəzeti, 27 oktyabr 1905-ci il.
[368] ADTA, fond 50, siyahı 1, iş 260, vərəq 80.
[369] "Каспий" qəzeti, 26 oktyabr 1905-ci il; "Баку" qəzeti, 27 oktyabr 1905-ci il.
[370] "Каспий" qəzeti, 27 oktyabr 1905-ci il.

Azərbaycan sahibkarları belə bir xəbəri də eyni ruh yüksəkliyi və "dərin minnətdarlıq" hissi ilə qarşıladılar ki, manifestdə elan olunmuş söz və nıətbuat azadlığından sonra Qafqaz canişini mətbu sözün üzərindən "senzura zəncirini və qandallarını"[371] götürmüşdür. Azərbaycan sahibkarları bu addıma canişinin "humanist və məqsədəuyğun proqramının"[372], "onun uzaqgörənliyinin və Qafqaz ucqarlarının ehtiyaclarını dərindən başa düşməsinin"[373] təzahürü kimi baxmışdılar. Milli sahibkarların nümayəndələri əmin olduqlarını bildirirdilər ki, senzuranın ləğvi onlara mətbuat səhifələrində öz mənafelərini daha geniş müdafiə etməyə imkan verəcək, "ictimai yaraların və ağrıların azad tənqidi, bütün bəlalara qarşı azad mətbuat mübarizəsi üçün"[374] imkanlar açacaq.

Çar manifesti ilə əlaqədar Bakıda manifestasiyalar təşkil olunmuşdu. Oktyabrın 18-də və 19-da şəhərdə təşkil olunmuş yürüşlərə şəhər özünüidarəsinin nümayəndələri başçılıq edirdilər[375]. Nümayişçiləri general-qubernator salamladı. Oktyabrın 20-də çarın "mərhəmət və bəxşişi olan konstitusiya"[376] ilə əlaqədar Təzəpir məscidində ibadət keçirildi. Manifest Azərbaycanın başqa şəhərlərində də sevinclə qarşılandı. Yelisavetpolda, Şuşada, Nuxada, Zaqatalada və başqa yerlərdə mitinqlər və nümayişlər keçirildi.

Lakin çox tezliklə çar manifesti ilə əlaqədar Azərbaycan sahibkarlarının sevinci manifestdə verilmiş vədlərin çar hökuməti tərəfindən yerinə yetiriləcəyinə görə narahatlıqla əvəz olunmağa başladı. 1905-ci ilin noyabrında Azərbaycan sahibkarlarının siyasi çıxışlarından göründüyü kimi, onların bir qismi artıq başa düşmüşdü ki, çarizmin elan etdiyi güzəştlərin həyata keçirilməsi üçün qarşıda hələ uzun mübarizə var.

Vədlərin yerinə yetirilməsi barədə xahişlər və tələblər mətbuatda və Bakıda keçirilən mitinqlərdə də bildirilirdi. Artıq noyabrın 3-də "Kaspi" qəzetinin baş məqaləsində vəd olunmuş azadlıqların həyata keçirilməsi zəruriliyi qeyd olunmuş və deyilmişdi ki, müvəqqəti sakitliyi "tam daxili sülhün başlanması" hesab etmək səhv olardı, "tam daxili sülh yalnız o zaman mümkündür ki, ölkədə yarımçıq yox, tam konstitusiya olacaq və elan olunmuş azadlıqların həqiqi təminatları fəal həyata keçiriləcək"[377]. Məsələnin bu cür qoyuluşu islahatların keçirilməsinə, mövcud quruluşun yeniləşdirilməsi uğrunda mübarizənin konstitusiya formasına ümidlər bəsləyən sahibkar təbəqələrinin mövqeyini əks etdirirdi.

"Kaspi" qəzetinin redaktoru Ə.M.Topçubaşov 1905-ci ilin noyabrında bu mövqedən yazılmış məqalələr ilə qəzetin səhifələrində çıxış etdi. Məqalələrdə

---

[371] "Каспий" qəzeti, 28 oktyabr 1905-ci il.
[372] Yenə orada, 6 noyabr 1905-ci il.
[373] Yenə orada, 28 oktyabr 1905-ci il.
[374] "Каспий" qəzeti, 28 oktyabr 1905-ci il.
[375] "Каспий" qəzeti, 26 oktyabr, 1905-ci il.
[376] ADTA, fond 484, siyahı 1, iş 57, vərəq 109 arxada; "Каспий" qəzeti, 26 oktyabr 1905-ci il.
[377] "Каспий" qəzeti, 3 noyabr 1905-ci il.

"elan olunmuş azadlıq ilə əsarət vəziyyəti, xüsusən də... Qafqaz işlərində əsarət vəziyyəti" arasındakı ziddiyyət qeyd olunur, diyarda hakimiyyət orqanlarının özbaşınalığının, satqınlığının və rüşvətxorluğunun, qanunsuzluğun davam etdiyi göstərilirdi. Hətta yerli orqanların tərkibi də əvvəlki kimi qalmışdı. "Bu fikri möhkəmləndirmək üçün xüsusi sübutlar gətirmək lazım deyil ki, köhnə rejimin qəti pislənmiş polis-bürokratik qaydaları kökündən məhv edilməlidir, çünki yalnız o zaman azadlıq hərəkatı tərəfindən qəti elan olunmuş azadlıq prinsipləri əsasında həyatımızı yeniləşdirmək mümkündür. Rusiyanın hər tərəfində və hər yerində qanunu birinci pozan və ictimai əxlaqı korlayanların başında dayanan "inzibatçılar" bu cəhətdən birinci yerdə gedirlər"[378]. Ə.M.Topçubaşov canişinin Qafqaz əhalisindən nümayəndələr çağıracağı barədə vədini yerinə yetirməməsi ilə əlaqədar tənqidi iradlarını bildirərək əvvəlki kimi yenə də bu cür müşavirələrə "diyarı vətəndaş azadlığı və siyasi azadlıq üçün hazırlayacaq orqan" kimi baxırdı. Ə.M.Topçubaşov Qafqazın sosial cəhətdən yuxarı təbəqələrini və ziyalılarını birləşdirməyin mühüm vasitəsi kimi "qarşılıqlı anlaşılmazlıqları aradan qaldırmaq və qarşılıqlı tədbirlər hazırlamaq üçün"[379] Qafqaz xalqları nümayəndələri qurultaylarının keçirilməsini təklif edirdi. Ə.M.Topçubaşov "geniş miqyasda diyarın özünüidarəsinə", Qafqazda "diyarın daxili həyatı məsələlərində qanunvericilik funksiyaları olan seymin"[380] yaradılmasına tərəfdar çıxaraq bununla da Gürcüstanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələrinin irəli sürdükləri proqrama qoşuldu. Həmin proqram bu məsələlərdə Azərbaycan sahibkarlarının mənafeləri ilə səsləşirdi.

Ə.Ağayev 1905-ci il noyabrın 4-də "Həyat" qəzetində dərc olunmuş məqalədə manifestdən sonra yaranmış siyasi vəziyyətə münasibətini daha mülayim şəkildə bildirmişdi. O yazırdı ki, çar manifesti verildikdən sonra Rusiya tamamilə dəyişmişdir, böyük imperator öz əli ilə öz hüquqlarından əl çəkmişdir və xalq hökuməti yaradılmasına razılıq verərək xalqa hər cür azadlıqlar və bərabərliklər vermişdir. İnnən belə qubernatorlar, pristavlar tam hakimiyyətə malik olmayacaq və istədikləri kimi hərəkət edə bilməyəcəklər[381]. Ə.Ağayev ehtiyatlı olmağa və çarın elan etdiyi "azadlığa", hər cür maarifçilik cəmiyyətlərinin təşkilinə, məktəblər açılmasına, qəzetlərin nəşrinə, kitabların tərcüməsinə "zərər gətirən" hərəkətlərdən çəkinməyə çağırırdı.

1905-ci ilin noyabr-dekabrında Bakıda keçirilmiş mitinqlərdə manifestin verilməsindən sonra ölkədə yaranmış siyasi vəziyyət müzakirə edilmişdi. Çıxışlarda həm çarın demokratik azadlıqlar elan etməsi faktından razılıq, həm də onların həyata keçirilməsinin ləngidildiyindən narahatlıq hissi bildirilir, onların təxirə salınmadan icrası, yeni islahatların keçirilməsi tələbləri irəli sürülürdü.

---

[378] "Каспий" qəzeti, 20 noyabr 1905-ci il.
[379] "Каспий" qəzeti, 10 noyabr 1905-ci il.
[380] Yenə orada, 11 noyabr 1905-ci il.
[381] "Həyat" qəzeti, 4 noyabr 1905-ci il.

Noyabrın 18-də keçirilmiş mitinqdə Ə.Ağayev siyasi mənlik şüurunun artması üçün mitinqlərin əhəmiyyətini qeyd etdi, Qurandan gətirdiyi sitatlar əsasında "ümumiyyətlə azadlığın, xüsusən də din və vicdan azadlığının"[382] zəruriliyini göstərdi, vətəndaş azadlığının peyğəmbərin təlimi ilə tam ahəngdar olduğunu sübut etdi. N.Vəzirovun çıxışında hökumətin ünvanına daha kəskin ittihamlar səsləndi. Natiq hökuməti bunda ittiham etdi ki, "onun qeyri-mütəşəkkilliyi və fərasətsizliyi ucbatından müsəlmanların indiyədək azadlıq haqqında heç təsəvvürləri də yox idi". N.Vəzirov bildirdi ki, "müsəlmanlar indi verilmiş azadlıqdan istifadə etməlidirlər"[383]. Noyabrın 27-də mitinqə toplaşanlar belə bir nəticəyə gəlmişdilər ki, "manifest hələ də ölü akt olaraq qalır və manifestdə elan olunmuş ən adi vətəndaşlıq əsaslarının həyata keçirilməsinə xalqın özü nail ola bilər və nail olmalıdır"[384]. Mitinqdə bir çox sosial-siyasi məsələlər müzakirə olundu. Çıxışlarda manifestin konstitusiyanı "işdə deyil, yalnız kağız üzərində əks etdirməsi" qeyd olunur, vəd olunmuş hüquqların həqiqətən verilməsini tələb etmək çağırışı səslənirdi[385]. Bakı şəhər dumasının qlasnıları X.Kazımov, N.K.Sadıqov və başqaları Dövlət Dumasında müsəlmanların proporsional nümayəndəliyi tələbini söyləyirdilər[386]. İ.Hacıyev hətta Azərbaycan gənclərini azadlıq uğrunda mübarizlər cərgəsində dayanmağa çağırırdı[387], Rusiyada aqrar hərəkatından danışan K.Səfərəliyev Qafqazdakı xəzinə torpaqlarının yerli kəndlilər arasında bölüşdürülməsi tələbini mitinqin qətnaməsinə daxil etmək təklifini verdi. S.Nərimanov vəqf əmlakının qaytarılması tələbini qətnaməyə daxil etməyi təklif etdi[388].

Mitinqdə qəbul olunmuş qərarda mitinq iştirakçıları manifesti alqışlayaraq, vəd olunmuş azadlıqların həyata keçirilməsini tələb edərək göstərirdilər ki, "hər cür siyasi və vətəndaş azadlıqları islamın ruhuna zidd deyil, əksinə, onlar islamın əsasını təşkil edirlər"[389]. Qərara ümumi seçki hüququ[390], Dövlət Dumasında müsəlmanların proporsional nümayəndəliyi[391] tələbləri də daxil edilmişdi.

17 oktyabr çar manifesti verildikdən sonra Rusiyada tam bir sıra siyasi partiyalar və təşkilatlar yarandı. Bununla əlaqədar Ə.M.Topçubaşov məqalələr silsiləsi ilə "Kaspi" qəzetində çıxış etdi. Bu məqalələrdən biri "Partiyalar"[392] adlanırdı. Müəllif məqalədə qeyd edirdi ki, Rusiyada azadlıq hərəkatı siyasi

---

[382] "Həyat" qəzeti, 23 noyabr 1905-ci il.
[383] "Həyat" qəzeti, 23 noyabr 1905-ci il.
[384] "Баку" qəzeti, 29 noyabr 1905-ci il.
[385] "Həyat" qəzeti, 30 noyabr 1905-ci il.
[386] "Каспий" qəzeti, 29 noyabr 1905-ci il.
[387] "Образование" jurnalı, 1906, №3, səh. 6.
[388] "Баку" qəzeti, 29 noyabr 1905-ci il.
[389] "Образование" jurnalı, 1906, № 3, səh. 6.
[390] "Образование" jurnalı, 1906, № 3, səh. 6.
[391] "Каспий" qəzeti, 29 noyabr 1905-ci il.
[392] Yenə orada, 8 noyabr 1905-ci il.

partiyalara həyat vermişdir. Onlardan bəziləri artıq formalaşa bilmiş, digərləri isə yalnız nəzərə çarpmağa başlamışdır. Ə.M.Topçubaşov belə partiyaların yaranmasına prinsipcə müxtəlif ictimai qrupların siyasi ideallarını əks etdirən qanunayuyğun hal kimi baxırdı[393]. Lakin 1905-ci ilin noyabrının əvvəllərindəki Rusiyanın konkret şəraitində Ə.M.Topçubaşov 17 oktyabr manifestinin faktiki həyata keçirilməsi tələbi ətrafında bütün partiyaların birləşməsini zəruri sayırdı. Kadet liderlərinin aşkar təsiri altında yazılmış bu məqalədə Ə.M.Topçubaşov həmin şəraitdə yalnız bir "vətəndaş və siyasi azadlıqlar"[394] partiyasının yaradılmasına tərəfdar çıxırdı. Mütləqiyyətin devrilməsini tələb edən partiyalara isə o, "dağıdıcı xarakterli"[395] partiyalar kimi baxırdı.

Zemstvo-şəhər xadimlərinin noyabrın 6-13-də Moskvada keçirilmiş qurultayına Ə.M.Topçubaşov xüsusi məqalə həsr etmişdi. Ə.M.Topçubaşov bu qurultayı "indiki hökumətin də hesablaşmalı olduğu siyasi partiyanı təmsil edən Rusiyanın qabaqcıl adamlarının"[396] yığıncağı adlandıraraq Moskva qurultayını Rusiyada ilk konstitusiya yığıncağı hesab edirdi. Məqalədə kadetlər partiyasının yaranması tarixi və proqramı öz əksini tapmışdı. Partiyanın proqramı səciyyələndirilərkən qanunvericilik hakimiyyətinin həyata keçirilməsində iştirak hüququ ilə yerli muxtariyyətin və nümayəndəli vilayət yığıncaqlarının vəd olunduğu xüsusi qeyd edilirdi. Kadetlər proqramının bu bəndini Ə.M.Topçubaşov "Rusiyanın federativ prinsiplər əsasında yenidən qurulması ideyasının"[397] onlar tərəfindən müdafiə edilməsi kimi yozurdu. Məqalədə həmçinin Peterburqda yaradılmış Demokratik Konstitusiyaçılar İttifaqının bu məsələdə mövqeyi də qeyd olunur və göstərilirdi ki, onun proqramında "özünüidarənin Rusiya imperiyasının bütün məkanında tətbiqi"[398], özünüidarə fıınksiyalarının genişlənməsi nəzərdə tutulmuşdur. Eyni zamanda Ə.M.Topçubaşov qeyd edirdi ki, N.İ.Quçkovun başçılıq etdiyi sağ təmayüllü partiya Rusiyanın ictimai-siyasi quruluşunun federativləşməsi əleyhdarı kimi çıxış edərək "Rusiyanın birliyi və bölünməzliyi" ideyasını müdafiə edir.

Bu məsələlər barədə Ə.M.Topçubaşovun fikirləri şübhə doğurmur ki, Azərbaycanın sahibkar-liberal dairələri kadetlərə rəğbətlə yanaşırdılar. 1905-ci ilin dekabrından çıxmağa başlamış "İrşad" qəzeti də bu mövqedə idi. 1905-ci il dekabrın 4-də konstitusiyalı demokratiya partiyasının Bakı bölməsinin təşkili sahibkarların bu qruplarının siyasi cəhətdən formalaşmasına kömək etmişdi[399]. Bu bölmənin təsis yığıncağının qətnaməsində qeyd olunurdu ki, partiyanın Bakı

[393] "Каспий" qəzeti, 8 noyabr 1905-ci il.
[394] "Каспий" qəzeti, 8 noyabr 1905-ci il.
[395] "Каспий" qəzeti, 8 noyabr 1905-ci il.
[396] "Каспий" qəzeti, 13 noyabr 1905-ci il.
[397] "Каспий" qəzeti, 13 noyabr 1905-ci il.
[398] "Каспий" qəzeti, 13 noyabr 1905-ci il.
[399] "Каспий" qəzeti, 6 dekabr 1905-ci il; "Баку" qəzeti, 6 dekabr 1905-ci il.

bölməsinə üzvlərin yazılışı keçirilir. Yazılışı aparmaq səlahiyyəti verilmiş şəxslər sırasında İ.Hacınski, K.Hacınski, K.Əfəndiyev, M.S.Həsənov da var idi[400].

Konstitusiyalı demokratiya partiyasının Bakı bölməsinin sonrakı fəaliyyəti 1906-cı ilin əvvəllərində baş vermiş hadisələrlə əlaqədardır. 1906-cı il yanvarın 7-də bölmənin yığıncağında Azərbaycan sahibkarlarının və ziyalılarının nümayəndələri - Ə.M.Topçubaşov, İ.Hacıyev, İ.Hacınski, K.Səfərəliyev onun daimi bürosunun tərkibinə seçildilər[401]. Bölmənin 300 nəfər üzvü var idi[402]. Bu barədə 1906-cı il yanvarın 19-da kadetlərin Bakı komitəsinin katibi partiyanın mərkəzi bürosuna xəbər vermişdi. O həmçinin yazmışdı ki, "hərbi vəziyyət və erməni-tatar münasibatləri fəaliyyəti inkişaf etdirməyə güclü mane olur"[403]. Bölmənin rəhbərlərindən mərkəzə daxil olan məlumatlardan göründüyü kimi, təşviqat və təbliğat işində Azərbaycan bölməsinin fəaliyyəti hələlik cüzi idi və bölmənin siması hələ tam müəyyənləşməmişdi[404].

Dövlət Dumasına seçkiqabağı kampaniyanın gedişində kadetlərin fəaliyyəti xeyli canlanmışdı. Partiya proqramı müddəalarının təbliği və izahı üçün Bakıya görkəmli xadimlər dəvət edilmişdilər. Seçkilərin nəticələrinə və Dumada Azərbaycandan olan deputatların fəaliyyətinə əsasən demək olar ki, onların səyləri əbəs deyildi.

1912-ci ilin yanvarında Yelisavetpol qubernatoru Polis Departamentinə məlumat vermişdi ki, quberniyada "ziyalılar büsbütün kadetçilərdir - ayrı-ayrı, müstəsna hallarda öz daxili əqidələrinə görə ciddi kadetçilərdir, əksəriyyət isə nədənsə belə hesab edir ki, kadet platforması hər bir ziyalı üçün vacibdir. Bu cəhət siyasi partiyaları, mətbuatı və yerli əhalinin maarif-mədəni fəaliyyətinin bütün başqa növlərini də hərtərəfli səciyyələndirir"[405].

1905-ci ilin payızında "Milli müdafiə cəmiyyəti və müsəlman zadəganlarının, ziyalılarının və yuxarı təbəqələrinin ittifaqı"[406] yarandı. "Kaspi" qəzeti bu təşkilatı "Birləşmiş müsəlman ziyalılarının xalq müdafiəsi komitəsi" adlandırmışdı. Lakin eyni müraciətin "Kaspi" və "Həyat" qəzetlərində müxtəlif təşkilatlar adından dərc olunması onların eyni bir təşkilat olduğuna şübhə doğurmurdu. Təşkilatın "Həyat" qəzetində getmiş adı bu cəmiyyətdə iştirak etmiş sosial qüvvələri daha geniş açıb göstərirdi. Adından göründüyü kimi, bu cəmiyyətdə Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin və ziyalıların nümayəndələri birləşmişdilər. Görünür, 1905-ci ilin oktyabrında Bakıda yaranmış "İttifaqi" qrupunun üzvləri olmuş sosialist-inqilabçıların nümayəndələri də cəmiyyətə daxil idilər.

---

[400] "Каспий" qəzeti, 6 dekabr 1905-ci il; "Баку" qəzeti, 6 dekabr 1905-ci il.
[401] "Баку" qəzeti, 8 yanvar 1906-cı il.
[402] RFDA, fond 523, siyahı 1, iş 172, vərəq 1.
[403] Yenə orada.
[404] RFDA, fond 523, siyahı 1, iş 172, vərəq 4 arxada.
[405] RFDA, fond 102,4-cü kargüzarlıq, 1909, iş 108, hissə 19, vərəq 35.
[406] "Həyat" qəzeti, 30 noyabr 1905-ci il.

Bu təşkilatın fəaliyyəti barədə yeganə, lakin kifayət qədər əhəmiyyətli fakt onun nəşr etdiyi "Bakı şəhərinin zadəganlarına və nüfuzlu şəxslərinə müraciət"dir[407]. "Müraciət"in müəllifləri hökumətə qarşı yönəlmiş azadlıq hərəkatına rəğbət bəslədiklərini bildirirdilər[408]. Eyni zamanda "Müraciət"də qeyd olunurdu ki, bu hərəkatdan müsəlmanlara qarşı istifadə olunmasına cəhd göstərilərsə, Cəmiyyətdə birləşmiş qüvvələr bunu qəti dəf edəcəklər[409].

1906-cı ilin avqust-sentyabrında Bakı və Yelisavetpol quberniyalarında "Difai" partiyası - "Qafqaz Ümumüsəlman Komitəsi" təşkil olundu[410]. 1905-ci ildə erməni-azərbaycanlı ziddiyyətlərinin kəskinləşməsi milli siyasi təşkilatın yaradılmasının zəruriliyini aşkar etdi. 1906-cı ilin fevral-martında Tiflisdə keçirilmiş "barışdırıcı" qurultayda Azərbaycan nümayəndələrinin çıxışlarında milli qüvvələrin birləşməsi, xalqın mənafelərinin müdafiəsi və onun təhlükəsizliyi üçün təşkilatların, o cümlədən siyasi təşkilatların rolu xüsusi qeyd olunmuşdu. Qızğın disskussiyalar nəticəsində çıxarılmış nəticələrdən biri bu oldu ki, "Daşnaksütyun"a və onun silahlı qüvvələrinə qarşı siyasi partiyanın və döyüş drujinalarının yaradılması zəruridir. "Son qanlı hadisələrdə" "Daşnaksütyun" partiyasının mövqeyini "özünümüdafiə" kimi adlandırmış K.İ.Xatisova etiraz edən Adil xan Ziyadxanov qeyd etdi ki, "bu belə deyildir, çoxlu fakt və sübut var ki, hücum edən tərəf ermənilər olub, hələ onu demirik ki, müsəlmanların heç bir təşkilatı və hazır döyüş qüvvələri yox idi"[411].

"Difai" təşkilatının əsasını Azərbaycanın görkəmli ictimai xadimi Əhməd bəy Ağayev qoydu. Partiyanın yaradılmasından əvvəl böyük hazırlıq və izahat işi aparılmışdı. Azərbaycanın bir çox regionlarında təsis yığıncaqları keçirilir, bunların nəticəsində partiyanın "komissiyaları" adlanan bölmələr yaradılırdı. Partiyanın MK-sı Bakıda yerləşirdi[412]. Ona Ə.Ağayev başçılıq edirdi[413]. MK-ya Q.Qarabəyov, M.H.Hacınski, İ.Aşurbəyov, B.Cavanşir, N.Behbudov daxil idilər[414]. Yelisavetpolda, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Karyagində, Tərtərdə, Qarsda, Naxçıvanda və başqa yerlərdə partiyanın bölmələri yaradılmışdı. Jandarm məlumatlarında belə bir informasiya gedir ki, Vladiqafqazda da partiyanın komitəsi var idi[415].

---

407 "Каспий" qəzeti, 27 noyabr 1905-ci il.
408 "Həyat" qəzeti, 30 noyabr 1905-ci il.
409 "Həyat" qəzeti, 30 noyabr 1905-ci il.
410 RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909, iş 309, vərəq 34; Документы по русской политике в Закавказье, Bakı, səh. 24.
411 "Каспий" qəzeti, 26 fevral 1906-cı il.
412 ADTA, fond 62, siyahı 1, iş 59, vərəqlər 151 arxada - 152.
413 Yenə orada, vərəqlər 152-153; RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1907, iş 388, vərəqlər 4-5.
414 Документы по русской политике в Закавказье, səh. 28.
415 RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1907, iş 388, vərəq 10.

"Difai" partiyasının vərəqləri Bakıda çap olunur və bütün bölmələrə göndərilirdi. 1906-cı ilin avqustunda, sonralar isə oktyabrında "Difai"nin eyni zamanda Azərbaycan və rus dillərində vərəqləri buraxılmışdı. Bu vərəqələrdə diyarın əhalisinə müraciət çap olunmuş və onların nəzərinə çatdırılmışdı ki, "Daşnaksütyun" partiyası çar hakimiyyət orqanları ilə əlbir olaraq müsəlman əhalisini qırmağa və Qafqazdan qovmağa çalışmışdır ki, "Qafqazdakı erməni əhalisi üçün muxtariyyət - milli idarəetmə əldə etsin". Daha sonra vərəqədə deyilirdi ki, buna görə də Şimali Qafqazdan, Dağıstandan və Zaqafqaziyadan olan "minlərlə gənc" partiya yaratmağı qərara almışlar. Bu partiyanın məqsədi "Qafqaz müsəlmanlarını məhv olmaq təhlükəsindən" xilas etməkdir. Maariflənmə və qüvvə toplamaq bu məqsədə çatmaq vasitələri elan edilmişdi. Vərəqədə yazılmışdı ki, bu iki vasitə onun üçün lazımdır ki, "xalqın savadsız kütləsini" maarifləndirərək onu "hakimiyyət orqanlarının hərəkətlərindən" azad etmək mümkün olsun[416].

Vərəqələrdə əkinçinin arzusunu ifadə edən tələb də var idi: "torpaq əməkçi sinfə mənsub olmalıdır"[417].

"Difai"nin çağırış-proqramı "İrşad" qəzetində çap olunmuşdu[418]. Redaksiya bildirirdi ki, proqramı çap edərkən o, işin xeyrinə olaraq dövlət əleyhinə bəzi fikirləri atmışdır.

Proqramda Azərbaycan xalqının təqiblərə və məhvə məruz qalması ilə nəticələnmiş regiondakı mövcud siyasi vəziyyətin xarakteristikası verilmişdi. Bunun başlıca səbəbinin millətlərarası toqquşmalar və kütlələrin savadsızlığı olduğu göstərilmişdi. Vəziyyətdən çıxış yolu kimi hökumət tədbirlərinin tətbiqi və əhalinin maarifləndirilməsi zəruri sayılmışdı. Daha sonra izah olunurdu ki, yerli hakimiyyət orqanları və onların nümayəndələri qoşunu, mütəşəkkilliyi və silahı olan "Daşnaksütyun"un əlində miskin bir alət idi. Azərbaycan cəmiyyətinin qabaqcıl hissəsi pərakəndəlikdə təqsirləndirilərək qeyd olunurdu ki, o, milli qüvvələrin birləşməsinə kömək etmədi, nə xalqı "əbədi cəhalətdən və nadanlıqdan" qurtarmaq üçün, "nə də bizi geridə qoyan və hüquqlarımızı tapdalayan hökumətə qarşı" heç bir iş görmədi.

Proqram təşkilatın başlıca məqsədini müəyyən etdi -"Qafqazın başqa xalqları ilə birləşərək əsl qardaşlıq münasibətləri yaradılsın, hətta "Daşnaksütyun" partiyası ilə də, lakin bir şərtlə ki, o öz proqramını elan etsin və Qafqazın rifahı, bütün xalqların hüquqları və mənafeləri ilə razılaşsın...".

Öz qabaqcıl adamlarına gəldikdə isə partiya xəbərdarlıq etmişdi ki, "xəncər və güllə ilə" onları məcbur edəcək ki, "həyatlarını və əmlaklarını əsirgəməyərək innən belə xalqın qayğısına qalsınlar və onun azadlığa çıxmasına xidmət etsinlər". Bu xüsusən o şəxslərə aid idi ki, "cəmiyyət içində nifaq salır və təşviş doğururlar,

[416] ADTA, fond 62, siyahı 1, iş 59, vərəq 153 arxada; RFDTA, fond 1410, siyahı 2, iş 482, vərəq 1.
[417] Документы по русской политике в Закавказье, səh. 37.
[418] "İrşad" qəzeti, 13 oktyabr 1906-cı il.

gənclərin ayrı-ayrı qrupları arasında ədavət toxumu səpirlər. Bununla da xalqın məhvinə və var-yoxdan çıxmasına xidmət edirlər"[419].

Çağırış vərəqəsi oxucuları təşkilatın rəmzi ilə tanış edirdi. Təşkilatın rəmzi altıguşəli ulduz ilə ayparanın və dəstəkləri aşağıda olan, bir-birinin üzərinə çarpaz şəkildə qoyulmuş iki qılıncın təsvirindən və "Difai" - "Mübariz milli firqəsi" sözlərindən ibarət idi[420].

"Difai"nin təşkilatçıları başa düşürdülər ki, təbliğ etdikləri siyasi məqsədləri və vəzifələri başa düşmək üçün kütlələrin şüurluluğunun və mütəşəkkilliyinin müvafiq səviyyəsi lazımdır. Buna görə də onlar əhali arasında geniş maarifçilik işi aparırdılar. Bu işə onlar həmin dövrdə Yelisavetpolda yaradılmış müsəlman xeyriyyə cəmiyyətinin üzvlərini cəlb etmişdilər. "Difai"nin qərargahı "Cəmiyyəti-Xeyriyyə" və "Nəşr-Maarif" xeyriyyə cəmiyyətlərinin binasında yerləşirdi. Bu cür sıx əməkdaşlıq konspirasiya normalarına əməl etmək zərurətindən də irəli gəlirdi, çünki bu təşkilat hakimiyyət orqanları tərəfindən təqib olunurdu. Jandarm işçilərinin Polis Departamentinə çoxsaylı məlumatları buna sübutdur. Bu məlumatlarda "Difai"yə mənsubluğu şübhə doğuran şəxslərin evində axtarış zamanı müsadirə edilmiş nəşrlərin siyahısı da göstərilirdi. Məsələn, Yelisavetpoldan daxil olmuş məlumatlardan birində axtarış zamanı götürülmüş ədəbiyyatın ətraflı siyahısında aşağıdakı nəşrlər var idi: Olqa Volkenşteynin "Söz və yığıncaq azadlığı nə üçün lazımdır" kitabçasının Azərbaycan dilinə tərcüməsi, Gedin və Lafarqın rus dilində "Sosial-demokratlar nə istəyirlər?" kitabçası, "Kolokol", "Rusiya siyasi partiyalarının proqramı", "Rusiyada siyasi partiyaların proqramları məcmuəsi", Kautskinin "Respublika və Fransada sosial-demokratlar", Ə.M.Topçubaşovun "Müsəlman parlament fraksiyası", S.Rusovun "Bolqarlar necə azadlıq əldə etdilər", İ.Naumovun "Rusiyada aqrar məsələyə dair", A.A.Nikolayevin "Ziyalılar və xalq", A.Q.Baxuruyevin "Xalq nümayəndələrini necə seçməli", D.Qalevinin "Anarxizm və sosializm", Q.Balitskinin "Tətil və boykot" kitabçaları, habelə "Məmurlar və xalq idarəetməsi haqqında" və s. kitabçalar[421].

Partiyanın sosial bazasını əsasən cəmiyyətin orta təbəqələrinə mənsub şəxslər - tacirlər, ziyalılar, kəndlilər, tələbələr və başqaları təşkil edirdilər.

"Difai"nin bölmələri yerli əhali arasında böyük nüfuz qazanmışdı. Çar məmurları qeyd edirdilər ki, bu partiyanın mövcud olduğu vaxt ərzində yerli əhalinin ictimai işlərə marağı xeyli artmışdır, indi əhali hakimiyyət orqanlarından daha çox partiyanın komitələrinə müraciət edir[422]. Bundan başqa onları belə bir fakt da narahat edirdi ki, "müsəlmanlar təbliğatın təsiri ilə birləşəndə, zehni

---

[419] RFDTA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1906, siyahı 1, iş 25, hissə 73, vərəq 1-2.
[420] "Красный архив", № 3 (34): 1929, səh. 188.
[421] ADTA, fond 62, siyahı 1, iş 59, vərəq 81-110 arxada.
[422] Документы по русской политике в Закавказье, səh. 1.

cəhətdən inkişaf edəndə və "şüurlu" olanda partiya, şübhəsiz ki, dövlət əleyhinə məqsədlərini də təbliğ etməyə başlayacaqdır"[423].

Partiyanın bölmələri maliyyə məsələləri ilə də məşğul olurdular. Partiyanın vəsaiti üzvlük haqlarının hesabına yaranırdı. Üzvlük haqlarını yığarkən partiyanın xəzinədarlarının yanında çek kitabçaları olurdu. Pulu alanda üstünə ştempel vurulmuş qəbz verirdilər. Əhalidən xeyriyyəçilik adı ilə də pul yığılırdı. Camaat içində buna "ac müsəlmanlara yardım" adı qoymuşdular. Həm də elan olunurdu ki, bu vəsait mərkəzi müsəlman xeyriyyəçilik cəmiyyətinə göndərilir[424]. Partiyanın bölmələri pul vəsaiti yığmaqdan başqa məhkəmə işlərinin təhqiqatı, cərimə qoyulması, torpaq münaqişələrinin həlli, döyüş drujinalarının yaradılması ilə də məşğul olurdular.

İri qəza mərkəzlərində partiyanın bölmələri var idi. Kəndlərdə yardımçı komitələr var idi ki, bunlar da qəza komitələrinə tabe idilər. Komitələrə varlı təbəqələrin və ziyalıların nümayəndələri rəhbərlik edirdilər.

Yelisavetpolda partiyanın lideri böyük ictimai-siyasi xadim Ələkbər bəy Rəfibəyov idi. Təşkilat komitəsinə zadəganların və ruhanilərin nümayəndələri Ələkbər bəy və Ələsgər bəy Xasməmmədovlar, Həsən bəy Ağayev, şeyxülislam Ə.M.Pişnamazzadə, Həbib bəy Usubbəyov, Adil xan Ziyadxanov və başqaları daxil idilər[425]. Komitənin yaradılması Yelisavetpol şəhər divanxanasının üzvləri H.İsrafilbəyovun və C.Xoyskinin narazılığına səbəb oldu. Onlar hətta bu barədə rəisliyə məlumat verəcəkləri ilə hədələmişdilər[426]. Buna baxmayaraq bölmə yaradılmış və sənədlərdən göründüyü kimi, əhali arasında çox böyük iş aparmış və onun layiqli hörmətini qazanmışdı. Bu isə yerli hakimiyyət orqanlarını çox narahat edirdi. Bölmənin fəaliyyətini müşahidə edən çar məmuru Kovalyov onun yaxın gələcəkdə "müsəlman kütlələrinin" rəhbəri rolu oynayacağını bildirmişdi. Yelisavetpol qubernatoru difaiçilərin "ağıllı, ehtiyatlı, ardıcıl, vicdanlı və səmimi"[427] şəxsiyyətlər olduğunu yazırdı.

Komitələrə Zəngəzur və Cəbrayıl qəzalarında Məşədi Cəfər, Bərdədə - Məşədi Mehdiqulu Şərif oğlu, Ağdamda -Bahaş bəy Kazımbəyov, Məşədi Şamil Hacıyev, Yevlaxda - Asan Qaraca oğlu, Əşrəf Tağıyev, Saleh Hüseynov, Qarsda - polis praporşiki Qurban Əfəndi və mülk sahibi Nadir Atabaşzadə[428] başçılıq edirdilər.

1907-ci ilin martında Yelisavetpol şəhərində Zaqafqaziya, Şimali Qafqaz və Krım müsəlmanları nümayəndələrinin qurultayı keçirildi. Qurultayda qərara alındı

[423] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909, iş 309, vərəq 34.
[424] Gürcüstan DTA, fond 13, siyahı 27, iş 5269, vərəq 29 arxada.
[425] ADTA, fond 62, siyahı 1, iş 59, vərəq 151 arxada - 152.
[426] ADTA, fond 62, siyahı 1, iş 59, vərəq 10 arxada və 11.
[427] Документы по русской политике в Закавказье, səh. 25.
[428] Документы по русской политике в Закавказье, səh. 26; RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1907, iş 388, vərəq 4-5.

ki, Qarabağda mövcud olan erməni təşkilatlarına cavab olaraq "Difai"nin fəaliyyəti orada təşkil edilsin; Bakı kapitalistləri Tağıyevin və Əsədullayevin köməyi ilə Ağdam yaxınlığında knyaz Uzmiyevlərin (yəqin ki, Utsmiyevlərin - D.S.) mülkləri satın alınsın və Ağdamdan Xocalı stansiyasınadək bütün torpaqlar ermənilərdən satın alınaraq orada yalnız müsəlmanlar yerləşdirilsin; hökmən Şuşada yaşamaq azərbaycanlılara bir vəzifə olaraq tapşırılsın; Qarabağ müsəlman əyalətinə çevrilsin. Bunları Moskvadan Polis Departamenti Simbirsk, Kazan, Həştərxan, Saratov, Samara, Ufa, Penza, Don qoşunları, Kostroma, Ryazan qubernatorlarına məlumat vermişdi[429].

Qurultayın qərarı ilə "Difai" partiyasının Qarabağda "Qarabağ Birlik Məclisi" adlı bölməsi yaradılmışdı. O, Qarabağda - Yelisavetpol quberniyasının Cavanşir, Karyagin, Şuşa qəzalarında fəaliyyət göstərirdi. Onun təşkilatçıları ticarətçilər, ziyalıların bir qismi, qolçomaqlar və kəndlilər idilər. Məclisin baş komitəsi Şuşada yerləşirdi. Onun sədri Kərim bəy Mehmandarov, sədrin müavini Cahangir xan Nuribəyov, katib Xuduş Quliyev idi[430]. Təşkilatın 400 nəfərdən ibarət döyüş drujinası var idi[431].

"Qarabağ Birlik Məclisinin" 1907-ci ilin oktyabrında qəbul edilmiş proqramı 53 bənddən ibarət idi. Proqramda "müsəlmanlar arasında milli mənlik şüurunun inkişaf etdirilməsi" vəzifəsi qoyulur və müsəlmanlar birliyə çağırılırdı. Proqramda belə hesab olunurdu ki, məhz müsəlmanların birliyi onların əmlak toxunulmazlığının, maddi firavanlığının, mədəni inkişafının və milli özgünlüyünün qorunub saxlanılmasının rəhnidir. Proqram təşkilatın nizamnamə prinsiplərini müəyyən edirdi. Sədr, onun köməkçisi və katib vəzifələri nəzərdə tutulurdu. Məclisin vəsaiti pul yığımlarından ibarət idi. Pul yığımları yığıcılarda olan mədaxil-məxaric kitablarında qeyd olunurdu.

Proqramda həm siyasi məqsədlər, həm də əxlaqi normalar göstərilirdi. O, millətlər arasında münasibətləri müəyyən edir, millətlərarası qırğına qarşı çıxırdı. Milli ədavəti qızışdırmağa görə məsuliyyət, pul qoparmağa, hakimiyyətdən sui-istifadəyə, böhtana, andı pozmağa, intriqalara, qiymətlərin əsassız olaraq qaldırılmasına görə cərimələr və s. haqqında onun müddəaları sübut edirdi ki, məclis şüurluluq, mütəşəkkillik, məsuliyyət ünsürlərinin kütlələrin şüuruna yeridilməsi üçün addımlar atmış, siyasi mədəniyyət, insanların birgəyaşayışı və qarşılıqlı hörməti, yardımı və köməyi normalarının tərbiyə olunmasına cəhd göstərmişdir. "Qarabağ Birlik Məclisi" və onun proqramı cəmiyyətin həyatına qanunçuluğun və hüquq qaydasının yeridilməsinə doğru bir qədər cəsarətsiz də olsa ilk addımlar atırdı. Proqram həmçinin yeni metod üzrə məktəb təhsilini, o cümlədən qadınlar üçün məktəblər şəbəkəsinin yaradılmasını da nəzərdə tuturdu.

---

[429] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1907, iş 180, hissə 5, vərəq 30; fond 102, 4-cü kargüzarlıq, 1908, iş 19, hissə 9, vərəq 6.

[430] Документы по русской политике в Закавказье, səh. 25.

[431] Yenə orada, səh. 26.

Ticarətdə, istehsalatda və məhsulların satışında qayda və sistem yaradılması barədə bəndlər var idi. Bu məsələlərdə də qarşılıqlı yardım ünsürü nəzərə çarpırdı - müsəlmanlardan bütün kənd təsərrüfatı məhsullarını satın almaq məqsədilə varlı müsəlmanlar üçün səhmdar şirkətlərinin yaradılması məsələsi qoyulmuşdu. Müsəlmanlar sənaye mallarını da özününkülərdən almağı öhdələrinə götürürdülər.

Kasıblara qayğı göstərilirdi. Proqramda öz ev-eşiyini ataraq şəhəri tərk edənlərin hamısına xəbərdarlıq edən maddələr var idi. Onların əmlakı Məclisə keçirdi. Məclis həmin əmlakın gəlirini kasıblara verirdi. Bütövlükdə Məclisə bütün mübahisəli məsələlərin həllində müəyyən rol ayrılırdı. Məclis özünün ümumi yığıncağında Dumaya qlasnı seçkiləri məsələlərinə baxırdı - onun razılığı olmadan heç kim Dumaya seçilə bilməzdi[432].

Beləliklə, Məclisin proqramı cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatı ilə bağlı məsələlərin həllinin partiyanın əlində cəmləşdirilməsini nəzərdə tuturdu. Bu proqram bir növ cəmiyyətin hüquq qaydası və qanunçuluq prinsipləri əsasında yenidən qurulması proqramı oldu, kütlələrin siyasi cəhətdən oyanmasına kömək etdi. Jandarm məlumatlarında axırıncı dəfə 1908-ci il sentyabrın axırlarında "Qarabağ Birlik Məclisinin" adı çəkilir[433].

"Difai" partiyası çar hakimiyyət orqanları tərəfindən təqib olunurdu. 1908-ci ildən başlayaraq onun fəaliyyəti məhdudlaşmağa başladı. Bu, çox güman ki, onun yaradıcısı Əhməd bəy Ağayevin İstanbula getməsi ilə də bağlı idi. 1908-ci ilin aprelində Yelisavetpol qubernatoru "hökumət əleyhinə çıxan müsəlman partiyasına" mənsub şəxslər kimi "Difai" rəhbərlərinin 3 il müddətinə Zaqafqaziyadan Həştərxan quberniyasına sürgün edilməsi barədə sərəncam verdi. 1911-ci ilin yanvarında isə Qafqaz canişininə xəbər verilmişdi ki, 1908-ci il aprelin 12-də bu şəxslər Zaqafqaziya hüdudlarından sürgün edilmişlər. Sürgün olunanlar arasında H.Usubbəyov da var idi[434]. Həmin ilin mart ayında xəbər verilirdi ki, 1910-cu il yanvarın 1-dən iyulun 1-dək "Difai" heç bir fəaliyyət göstərməmişdir, buna görə də belə hesab etmək lazımdır ki, bu partiyanın təşkilatı qətiyyən yoxdur[435]. Bununla yanaşı təşkilatın üzvləri, xüsusən də liderləri izlənir, onların evlərində axtarış aparılır, bunun nəticəsində də, jandarm idarəsinin təbirincə, "senzuradan keçməmiş vərəqələr və kitabçalar" aşkar edilirdi. Məsələn, Nuxada Zaqafqaziya şeyxülislamı Ə.M.Pişnamazzadənin evində 1912-ci il mayın 12-də qəflətən keçirilmiş axtarış zamanı Azərbaycan dilində 11 kitabça və 12 vərəqə aşkar edilmişdi[436]. Yelisavetpol qubernatoru 1912-ci il mayın 12-də quberniyanın polis rəislərinə göndərdiyi məktubda "Difai"nin vərəqələrinin yayılması faktları olduğunu xəbər verir və "müsəlman mühitində baş verən hadisələri çox diqqətlə

[432] RFDA, fond 102, 4-cü kargüzarlıq, 1908, iş 19, hissə 9, vərəq 7 arxada.
[433] Документы по русской политике в Закавказье, səh. 38.
[434] Документы по русской политике в Закавказье, səh. 52-53.
[435] ADTA, fond 62, siyahı 1, iş 63, vərəq 28.
[436] ADTA, fond 62, siyahı 1, iş 70, vərəq 162.

müşahidə etməyi"[437] təklif edirdi. Zaqafqaziya dəmir yolunun jandarm polis sahəsinin rəisi 1912-ci il mayın 18-də Azərbaycan dilində çağırışın bir nüsxəsini Tiflisə ötürmüş və xəbər vermişdi ki, bu çağırış 1912-ci il aprelin 29-da Ərəş qəzası kəndində axşam toplantısında paylanmışdır[438].

Ayrı-ayrı sübutlardan və xatirələrdən belə təxmin etmək olar ki, difaiçilər birinci dünya müharibəsi dövründə də öz fəaliyyətini davam etdirmişlər. Belə ki, bu illərdə əsir düşmüş, 1917-ci il inqilabından sonra isə Gəncəyə gəlmiş Hüsaməddin Quqaç adlı birisi yazırdı ki, milli Azərbaycan ordusunun döyüşçüləri arasında "Difai"yə mənsub olan şəxslər də var idi[439]. Türkiyə tarixçisi Abdullaxalıq Çay bildirir ki, sonralar "Difai"nin üzvləri "Müsavat" partiyasının sıralarına qoşuldular. Bununla yanaşı "Difai" 1917-ci islədək öz fəaliyyətini davam etdirmişdi[440].

Müsəlmanların 1907-ci ildə Yelisavetpol şəhərində keçirilmiş yuxarıda adı çəkilən qurultayının qərarlarından biri də bu idi ki, İsmayıl xan Ziyadxanov başda olmaqla Zaqafqaziya Ümummüsəlman İttifaqı yaradılsın.

1907-ci ilin mayında "Müdafiə" təşkilatı yarandı. Görkəmli ictimai xadim İsmayıl xan Ziyadxanov ona başçılıq etdi[441]. Kənd müəllimləri Ə.Qiyasbəyli, H.Saniyev, hərbi topoqraf podpolkovnik Vəkilov, notarius Xəlilbəyov və başqaları "Müdafiə"nin təşkilatçılarından idilər[442]. "Müdafiə" əsas etibarilə Yelisavetpol quberniyasının qərb hissəsində və Tiflis quberniyasının qərb qəzalarında fəaliyyət göstərirdi[443]. Yuxarıda adı çəkilən quberniyaların əhalisinin imtiyazlı hissəsinin nümayəndələri, mülkədar-bəyləri, habelə kənd ziyalılarının nümayəndələri "Müdafiə" təşkilatının sosial dayağı idilər. "Müdafiə"nin məqsəd və vəzifələri onun nəşr etdiyi "Çağırış"da ifadə olunmuşdu. Bu "Çağırış" Tiflisdə Ə.Qiyasbəyli və H.Saniyev tərəfindən tərtib olunmuş, "Bakı Mərkəzi Müsəlman Komitəsi" tərəfindən bəyənilmiş, sonra isə Azərbaycanın qəzalarındakı "əhalinin görkəmli nümayəndələrinə və polis işçilərinə" göndərilmişdi[444].

"Çağırış"da təşkilatın məqsədləri müəyyən edilmişdi - müsəlmanlar arasında maarif və mədəniyyət işlərinə qayğı göstərilsin və hüququ, ədaləti və vicdanı tapdalayanların hamısı amansızcasına cəzalandırılsın[445]. "Çağırış"da deyilirdi ki, "partiya cəmiyyətin sağlam düşüncəli və alicənab hissəsini ədalət və

---

[437] Yenə orada, vərəq 180.
[438] ADTA, fond 62, siyahı 1, iş 70, vərəq 177-179.
[439] Bu kitabdan gətirilir: Abdullaxalıq Çay. Ermənilərin Azərbaycanda törətdikləri terror və qətllər. Ankara, 1978, səh. 65.
[440] Bu kitabdan gətirilir: Abdullaxalıq Çay. Ermənilərin Azərbaycanda törətdikləri terror və qətllər. Ankara, 1978, səh. 65.
[441] Gürcüstan DTA, fond 13, siyahı 27, iş 5262, vərəq 28.
[442] Документы по русской политике в Закавказье, səh. 13, 16.
[443] Gürcüstan DTA, fond 13, siyahı 27, iş 5262, vərəq 28.
[444] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1907, iş 709, vərəq 1; Документы по русской политике в Закавказье, səh 11.
[445] RFDA, fond 102, PDXŞ, 1907, iş 709, vərəq 2.

azadlıq uğrunda apardığı çətin mübarizədə köməyə çağırır... "Müdafiə" sülh yolu ilə işləsə də, hüququ, ədaləti və vicdanı tapdalayanların hamısını amansızcasına cəzalandıracaqdır. Xalqın fəlakətlərində günahı olanlar amansız qisasdan qaça bilməyəcəklər. "Müdafiə" və onun silahlanmış əli zəhmli cəllad kimi həmişə xatırladacaqlar ki, innən belə müsəlmanlar incidilməməlidirlər".

"Çağırış"da göstərilirdi ki, ayrı-ayrı partiyalar icra etdikləri işlər barədə MK-ya hesabat təqdim etməlidirlər[446]. Kəndlilərin məişətini yaxşılaşdırmaq, mülkədar torpaqlarını kəndlilər arasında bölüşdürmək, mövcud dövlət quruluşunun devrilməsi və kəndlilərin mülkədarlara torpaq vergisini, gəlir vergisi - "bəhrə"ni ödəməmələri yolu ilə onların mədəni rifahını yüksəltmək partiyanın vəzifələrindən biri elan edilmişdi[447].

Jandarm məlumatlarına dair arxiv sənədlərində təşkilatın yuxarıda adı çəkilən yalnız bir müraciəti qalmışdır. Çağırış onunla əlamətdardır ki, onun üzərində "Müdafiə"nin möhürü vardır. Möhürdə tərəzi, kitab, saman topası və aşağıda kəsişən iki qılınc təsvir olunmuşdur. Təşkilatın rəmzləri onun qarşısına qoyduğu vəzifələri əks etdirirdi: ədalət və biliklər uğrunda müharizə, əkinçinin mənafelərinin qorunması, habelə "tamahkarlığının və amansızlığının həddi olmayan məmurlar"[448] tərəfindən əhalinin azadlığına edilən qəsdlərdən onun müdafiəsi. Polis Departamentinə Yelisavetpol qubernatorunun raportunda dəfələrlə qeyd olunmuşdu ki, "Müdafiə" azsaylı təşkilatdır, dəqiq proqramı yoxdur və xüsusi bir fəaliyyət göstərmir[449].

Azərbaycan xalqının siyasi cəhətdən sıx birləşməsində "Müsavat" ("Bərabərlik") Müsəlman Demokratik Partiyası mühüm rol oynadı. Partiyaya Azərbaycanın bir sıra fəal ictimai xadimləri başçılıq edirdilər. Xalqın mənafeyi uğrunda mübarizədə artıq təcrübəsi olan bu xadimlər istər yaxın illər, istərsə də perspektiv üçün milli-azadlıq hərəkatının məqsəd və vəzifələrini aydın təsəvvür edirdilər. Əsrimizin ilk illərində "Müsavat" təşəkkül dövrü yaşamışdı, onun əsas fəaliyyəti 1917-ci ilin fevralından sonra baş vermişdi. Lakin nəzərdən keçirdiyimiz dövrdə də "Müsavat", bu partiyanın lideri M.Ə.Rəsulzadə və onun tərəfindən 1915-ci ildən nəşr olunan "Açıq söz" qəzeti Azərbaycanın siyasi həyatında çox fəal idilər.

"Müsavat" partiyası 1911-ci ilin oktyabrında Bakıda yaranmışdı. Onu yaradıcı ziyalıların nümayəndələri – jurnalistlər və ədiblər - Tağı Nağıyev, Məmmədəli Rəsulzadə (Rəsul oğlu) və Abasqulu Kazımzadə yaradaraq özək (üçlük) təşkil etmişdilər[450]. 1929-cu ildə Bakıda "Müsavat" partiyasının bu günü və keçmişi" kitabını nəşr etmiş Mirzə Davud Hüseynov partiyanın yaradıcıları

---

[446] RFDA, fond 101, PDXŞ, 1906, iş 25, hissə 73, vərəq 2.
[447] Документы по русской политике в Закавказье, səh. 6-7.
[448] RFDA, fond 102, 4-cü kargüzarlıq, 1908, iş 19, hissə 9, vərəqlər 2, 18, 23.
[449] RFDA, fond 102, Polis Departamentinin xüsusi şöbəsi, 1909 iş 309, vərəq 34.
[450] Nəsib Nəsibzadə. Müsavat və müsavatçılıq. "Yeni müsavat", 1991, dekabr, səh. 4.

sırasında tacir Qulam Riza Şərifzadə və Kərbalayı Vəli Mikayılovun adlarını çəkir[451]. Partiya çox tezliklə ziyalıların, fəhlələrin, kəndlilərin, qulluqçuların, xırda sahibkarların nümayəndələrini öz sıralarına çəkmişdi[452]. Partiyanın sosial dayağı kifayət qədər geniş idi. Bu, partiyanı demokratik partiya kimi tanımağa əsas verir. Partiyanı yaradanlar da "Müsavat"ı demokratik partiya hesab edirdilər. 1912-ci ildə partiyanın 8 bənddən ibarət manifest-proqramı dərc olundu[453]. Qısalığına baxmayaraq proqram milli və dini mənsubiyyətinə fərq qoymayaraq öz qarşısına bütün xalqlar üçün həyati cəhətdən mühüm vəzifələr qoymuşdu - müsəlman xalqlarını birləşdirmək, müsəlman dövlətlərinin müstəqilliyini bərpa etmək, müstəqilliyinin bərpa olunması və qorunub saxlanması uğrunda mübarizə aparan müsəlman xalqlarına maddi və mənəvi kömək göstərmək. Partiya istər müsəlmanlar, istərsə də bütün bəşəriyyət barəsində bu cür vəzifələri qarşısına qoymuş bütün partiyalar ilə əməkdaşlıq etmək niyyətində idi. Partiya bərabərlik və tərəqqi, azadlıq və müstəqillik ideyalarını elan etmişdi. Ümumbəşəri dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi uğrunda mübarizə vəzifəsi onun ətrafına geniş tərəfdarlar dairəsi toplamışdı.

1912-ci ildə partiya öz proqramını qəbul etdi. İqtisadi dayağı olmayan hər cür mübarizənin uğursuzluğa düçar olduğunu başa düşən partiya xüsusi bənd ilə özünün bütün üzvlərinə bir vəzifə olaraq tapşırmışdı ki, "müsəlmanların həyati mübarizəsi üçün vəsaiti artırsınlar, onların ticarətinin, peşə sahələrinin və bütövlükdə iqtisadi həyatının inkişafına kömək etsinlər"[454].

"Müsavat" çox tezliklə Rusiyanın bir sıra yerlərində, habelə Rəştdə öz özəklərini (üçlüklərini) yarada bilmişdi[455]. Partiyanın üzvləri onun ideyalarının, çağırışlarının yayılmasında böyük iş görürdülər. 1912-ci il oktyabrın 22-də Bakı şəhər jandarm idarəsi rəisi Polis Departamentinin xüsusi şöbəsinə xəbər vermişdi ki, oktyabrın 21-də Tiflisdən Bakıya 74 paket gəlmişdir, onların hər birinin içində "yerli müsəlmanlar və müsəlman məktəbləri üçün"[456] nəzərdə tutulmuş 4 çağırış vardır. Məlumata əlavə olunmuş "Müsəlman həmməzhəblərimiz" adlı çağırışda deyilirdi ki, "xilasımız Türkiyə imperiyasının mövcudluğundan və onun tərəqqisindən" asılıdır, bu tərəqqi üçün isə təhlükə yaradan "iddialı zalım", "dünyanın jandarmı", "şimal ayısı", "zülmkar rus dövlətidir". Məhz o, bolqarları, serbləri və çernoqoriyalıları həm canlı qüvvə, həm də artilleriya ilə silahlandıraraq Türkiyəyə qarşı mübarizədə onlara kömək edir. Daha sonra müsəlmanların "Bərabərlik" təşkilatının mərkəzi komitəsi onları Türkiyənin qüdrəti üçün "həyatlarını və əmlaklarını" əsirgəməməyə çağırırdı[457].

---

[451] Мирза Давуд Гусейнов. Партия "Мусават" в настоящем и будущем. Bakı, 1929, səh. 9.
[452] R.N.Xudiyev. "Müsavat" partiyasının sosial mahiyyəti. Azərbaycan, Ankara. 1991.
[453] Мирза Давуд Гусейнов. Göstərilən əsər, səh. 93.
[454] Mirzəbala Mehmetzadə. Milli Azərbaycan hərəkatı. Ankara, 1991, səh. 39.
[455] Nəsib Nəsibzadə. Göstərilən əsər, səh. 4.
[456] RFDA, fond 101, Polis Departamentinin xüsusi şöbəsi, iş 74, hissə 6, vərəq A, səh. 11.
[457] RFDA, fond 101, Polis Departamentinin xüsusi şöbəsi, iş 74, hissə 6, vərəq A, səh. 13 arxada.

M.Ə.Rəsulzadə 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar amnistiyadan istifadə edərək Azərbaycana qayıdır və geniş kütləlləri siyasi mübarizəyə cəlb etmək üçün böyük səylər göstərir. Bu işdə onun "Açıq söz" qəzeti böyük rol oynadı. "Açıq söz" inqilabdan əvvəlki Azərbaycan mətbuatının ənənələrini yaşadaraq, öz səhifələrində istər ölkədə, istərsə də dünyada baş verən hadisələrin müfəssəl təhlilini verən ətraflı icmallar dərc edirdi. Qəzet elm və mədəniyyətin inkişafına həsr etdiyi məqalələrlə həm də maarifçilik missiyasını bəyata keçirirdi. Məsələn, o zamanlar Rusiyada siyasi həyatın reallıqlarını əks etdirən Dövlət Dumasının demək olar hər bir iş gününə qəzetin həsr etdiyi gündəlik baş məqalələr diqqətəlayiqdir. Qəzet oxucuları Azərbaycan deputatlarının çıxışları, müsəlman fraksiyasının fəaliyyəti və s. ilə ətraflı tanış edirdi. Qəzet oxucuların diqqətini Dumada müzakirə edilən məsələlərə cəlb edərək bəzən onları bu və ya digər məsələyə dair lazımi informasiyanı deputatlara göndərməyə yönəldir, bununla da onların seçici funksiyalarını və vəzifələrini dərk etməsinə kömək edir, habelə onlarda baş verən hadisələrlə bağlılıq hissini formalaşdırırdı. Rusiyanın müsəlman hərəkatında Bakının roluna və yerinə tam bir sıra məqalələr həsr olunmuşdu. Bu məqalələrdə bəzən milli sahibkarlar, genişlənən azadlıq hərəkatına onların laqeydliyi barədə kifayət qədər kəskin, acı tənqid söylənilirdi. Bununla da qəzet və onun redaktoru Azərbaycan sahibkarlarının nümayəndələrini fəal siyasi mübarizəyə cəlb etməyə və eyni zamanda onlardan maddi və mənəvi yardım almağa ümid bəsləyirdi. Milli, dini və etnik mənsubiyyətin mahiyyəti haqqında qəzetdə dərc olunmuş çoxsaylı materiallar milli mənlik şüurunun inkişafında, gənc nəslin, xüsusən də tələbələrin tərbiyəsində böyük rol oynamışdı.

1913-cü ildən 1917-ci ilin fevralınadək "Müsavat" partiyası qeyri-leqal şəraitdə idi.

Yaranandan az sonra təqiblər nəticəsində "Müsavat" öz fəaliyyətini müvəqqəti dayandırmağa məcbur oldu. Lakin 1917-ci ilin fevralından sonra yenidən dirçələn "Müsavat" tezliklə hakim partiyaya çevrildi.

Beləliklə, XX əsrin əvvəllərində, azadlıq hərəkatının güclü yüksəlişi dövründə Azərbaycanda yaranmış vəziyyət siyasi təşkilatların və partiyaların formalaşması üçün obyektiv şərait yaratdı. Sosial cəhətdən kifayət qədər rəngarəng olan, öz sıralarında əhalinin demək olar bütün nümayəndələrini birləşdirən bu təşkilatlar bütövlükdə Azərbaycan cəmiyyətinin mənafelərini ifadə etməyə çalışırdılar. Petisiyaların və ərizələrin müddəaları, partiya və təşkilatların proqramları uzun illər hər cür hüquqsuzluq və məhdudiyyətlərlə dolu amansız şəraitdə yaşamış xalqın ümid və arzularını özündə əks etdirirdi.

# III FƏSİL

## Rusiya Dövlət Duması və Azərbaycan

### § 1. Azərbaycan deputatları I və II Dövlət Dumalarında

1905-ci il dekabrın 11-də Rusiyanın Dövlət Dumasına seçkilər haqqında çar fərmanı elan olundu. Fərmana uyğun olaraq fəhlələrin bir qisminə seçki hüquqları verilmişdi. Kəndlilərin iştirakı payı nəzərdə tutulsa da, bu çox cüzi idi. Seçkilərdə və Dumanın özündə sosial cəhətdən yuxarı təbəqələrin nümayəndələrinin üstünlüyü təmin olunurdu.

Azərbaycan da Dövlət Dumasında nümayəndəlik hüququ aldı. Burada, eləcə də bütövlükdə Qafqazda seçkilərin keçirilməsi canişinin tam ixtiyarına verilmişdi. O, ayrı-ayrı quberniyalarda, diyarlarda seçkilərin keçirilməsi müddətlərini öz mülahizəsinə görə müəyyən edə bilərdi, əhalinin bu və ya digər hissəsini seçkilərdə iştirakdan məhrum edə bilərdi, quberniya seçki yığıncaqlarından bölmələr ayırıb deputatların quberniya üçün təyin olunmuş ümumi sayından bu və ya digər bölmədə seçilən Duma üzvlərinin sayını müəyyən edə bilərdi[458].

Ən müxalifətçi partiya kadetlər partiyası idi. Bu partiya imperiyanın demək olar bütün quberniyalarında fəal seçkiqabağı təşviqat apararaq, öz platformasını təbliğ edərək seçkilərdə qələbə qazandı. Bu ona görə baş verdi ki, həmin şəraitdə kadetlər əhalinin geniş təbəqələrinin mənafelərini daha çox ifadə edirdilər. Onlar təkcə "Rusiyanın birliyi və bölünməzliyini" bəyan etmir, həm də bu birliyə nail olmaq yollarını açıb göstərməyə hər vasitə ilə səy göstərirdilər. Onlar buna güc hesabına nail olmaqda hökuməti töhmətləndirərək "süngü və güllə ilə Rusiyanın birliyinə nail olmağın mümkünsüzlüyünü" bildirir və "tabelikdə olan hər bir xalqın adətlərinə, dilinə və dininə"[459] hörmət hissi bəslədiklərini elan edirdilər. Xalq azadlığı partiyası seçicilərə bildirirdi ki, o, geniş özünüidarəetmə, "özünəməxsus milli həyatı" olan bütün yerlərin muxtar quruluşu, "ümumi, pulsuz, icbari təhsil" və s. tərəfdarıdır[460]. Bütün bunlar müsəlman ucqarlarının, o cümlədən də Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələri üçün çox cəzbedici idi. Çünki onlar özlərinin bütün ərizələrində bu məsələləri dəfələrlə qaldırmışdılar və ümidlərini məhz kadetlərə bağlayırdılar.

Kadetlər partiyasının Bakı bölməsi geniş təşviqat işi apardı. 1996-cı il aprelin 29-da partiya üzvlərinin ümumi yığıncağında qeyd olunmuşdu ki, «partiyanın bürosu müsəlman seçicilərə tatar (Azərbaycan - D.S.) dilində müraciət

---

[458] Сидельников С.М. Образование и деятельность первой Государственной думы. М., 1962, səh. 80.

[459] "Баку" qəzeti, 16 mart 1906-cı il.

[460] "Баку" qəzeti, 19 mart, 1906-cı il.

tərtib edərək partiyanın proqramı və hazırkı seçki kampaniyasında qarşıya qoyduğu vəzifələr ilə onlara tanış olmaq imkanı vermişdir»[461]. Bölmənin bürosunun keçirdiyi mühazirələrdə partiyanın ideyaları təbliğ olunur və bildirilirdi ki, "müxtəlif millətlərə münasibətdə partiya hüquq bərabərliyinə və geniş muxtar idarəetməyə", "məktəbə daxil olarkən adamların cinsi, mənşəyi və dini ilə əlaqədar bütün sıxışdırmaların ləğvinə"[462] tərəfdardır. Bütün bunlar kadetlərə arzu etdikləri nəticələri əldə etməyə imkan verdi: Peterburqda müsəlmanların Ümumrusiya qurultayı qarşıdakı seçkilərdə Rusiya müsəlmanlarının mövqeyini müəyyənləşdirməyi özünün ən başlıca vəzifələrindən biri hesab edərək kadetlərin siyasi ptatformasına qoşulmağı qərara aldı[463] və bununla da Rusiyanın müsəlman ucqarlarından Dumanın gələcək deputatlarının partiya mənsubiyyətini və mövqeyini qabaqcadan müəyyən etdi.

Seçkilər Bakıda və Bakı quberniyasında 1906-cı il mayın 31-də[464], Yelisavetpol quberniyasında mayın 16-da[465], yəni aprelin 27-də açılmış I Dövlət Duması artıq öz fəaliyyətinə başladıqdan sonra keçirildi.

Azərbaycandan olan deputatlar gec seçilərək Dumanın açılışında iştirak etməsələr də, H.Z.Tağıyev Dumanın sədri S.A.Muromtsevin adına göndərdiyi təbrik teleqramında bildirirdi ki, "bütün Bakı müsəlmanları məscidə yığışaraq Allaha dua ediblər ki, öz üzərlərinə bu qədər ağır və məsuliyyətli iş götürmüş xalq nümayəndələrinə xoşbəxtlik və uzun ömür bəxş etsin. Bununla yanaşı biz ürəkdən istəyirik ki, rus hökuməti ölkədə azadlıqların əsaslarını qan tökmədən möhkəmləndirə bilsin"[466].

Bakı və Yelisavetpol quberniyalarını, Bakı şəhərini Dumada aşağıdakılar təmsil edirdilər; Məmmədtağı Əliyev - 48 yaşlı, tacir ailəsindən, Petrovsk Kənd Təsərrüfatı Akademiyasının məzunu, Dumanın 8-ci şöbəsinin üzvü, xalq azadlığı partiyasına mənsub idi; Əsədulla bəy Muradxanov - 40 yaşlı, bəy ailəsindən, müəllimlər seminariyasının məzunu, Cavad kənd şöbəsində mirzə, Dumanın 1-ci şöbəsinin üzvü, xalq azadlığı partiyasına mənsub idi; Əlimərdan bəy Topçubaşov - 41 yaşlı, bəy ailəsindən, andlı müvəkkil, Peterburq Universitetinin hüquq fakültəsinin məzunu, "Kaspi" qəzetinin redaktoru, Bakı şəhər dumasının qlasnısı, müsəlmanların parlament fraksiyasının üzvü, Dumanın 1-ci şöbəsinin üzvü, xalq azadlığı partiyasına mənsub idi; İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanov - 39 yaşlı, iri torpaq sahibi, Moskva Universitetinin hüquq fakültəsinin məzunu, Tiflis dairə məhkəməsində prokuror köməkçisi, müsəlmanların parlament fraksiyasının üzvü, xalq azadlığı partiyasının müsəlman qrupuna mənsub idi; Əbdürrəhim bəy

---

461 "Баку" qəzeti, 5 may 1906-cı il.
462 "Каспий" qəzeti, 9 fevral 1906-cı il.
463 "Каспий" qəzeti, 4 fevral 1906-cı il.
464 RFDTA, fond 1278, siyahı 1, iş 1906,1 çağırış, iş 54, vərəqlər 3,4,7,12; iş 41, vərəq 4 arxada.
465 RFDTA, fond 1278, siyahı 1, iş 1906,1 çağırış, iş 54, vərəqlər 3,4,7,12; iş 97, vərəq 3,5.
466 "Баку" qəzeti, 3 may 1906-cı il.

Haqverdiyev - 36 yaşlı, mülkədar ailəsindən, Peterburq Universitetinin şərq fakültəsi kursunun dinləyicisi, görkəmli dramaturq, yazıçı, Dumanın 4-cü şöbəsinin üzvü, xalq azadlığı partiyasının müsəlman qrupuna mənsub idi[467].

Kadetlər Dumada ən iri partiya qrupu idilər. Dumanın fəaliyyəti dövründə kadetlər fraksiyasının tərkibi yeni seçilmiş deputatlar hesabına tədricən artırdı; Bunlar əsasən imperiyanın müsəlman ucqarlarının sosial cəhətdən yuxarı təbəqələrini təmsil edən şəxslər idilər[468].

I Dumanın mövcud olduğu 72 gün ərzində 301 məsələ qaldırılmışdı ki, bunlardan da 123-ü təcili məsələlər idi[469]. Kadetlər şöbələrə başçılıq edirdilər. Duma üzvlərinin səlahiyyətlərini yoxlamaq üçün yaradılan 11 belə şöbə var idi. Kadetlər 30-a yaxın daimi və müvəqqəti komissiyaya başçılıq edərək bütövlükdə Dumanın fəaliyyətinin siyasi istiqamətini müəyyən edirdilər. Şəxsiyyətin toxunulmazlığı, ölüm cəzasının ləğvi, vətəndaş bərabərliyi, siyasi azadlıqlar və s. haqqında məsələlərin müzakirəsi gedişi buna sübutdur.

Azərbaycan deputatları Müsəlman parlament qrupuna daxil oldular. İmperiyanın bütün müsəlman ucqarlarının nümayəndələrini birləşdirən bu qrup 36 nəfərdən ibarət olmalı idi. Bu qrup sayca Dumadakı ən iri qruplardan idi və Ukrayna qrupundan, Polşa Kolosundan və başqa qruplardan böyük idi. Fraksiya 1906-cı il iyulun 21-də özünün ilk iclasında yaradılmışdı. Fraksiyanın 7 nəfərdən ibarət bürosu seçilmişdi. Büroya Azərbaycandan Ə.M.Topçubaşov və İ.Ziyadxanov daxil idilər. Ə.M.Topçubaşov fraksiyanın sədri seçilmişdi. Fraksiya yaradılarkən 22 nəfəri birləşdirirdi, çünki həmin vaxtadək Qırğızıstan vilayətlərindən, Türküstan diyarından və Zakaspi, Fərqanə, Semireçinsk, Semipalatinsk, Sır-Dərya, Akmola və Dağıstan vilayətlərindən deputatlar hələ gəlib çıxmamışdılar. Fraksiyanın yaradılmasının təşəbbüsçüləri bundan çox narahat idilər, çünki Duma artıq aqrar məsələnin, vicdan azadlığı, vətəndaş bərabərliyi kimi mühüm məsələlərin müzakirəsinə başlamışdı və deputat sorğuları azı 30 deputatın imzası ilə verilirdi. Təşkil olunub "bu məsələlərə öz münasibətini bildirmək"[470] lazım idi. Fraksiyanın yaradılması barədə Dumanın sədrinə məlumat verilmiş, fraksiyaya ayrıca kabinet ayrılmışdı, lakin Dumada onun haqqında rəsmi elan verilməmişdi və dövri mətbuatda onun fəaliyyəti çox zəif işıqlandırılırdı.

---

[467] RFDTA, fond 1278, siyahı 1, iş 1906,1 çağırış, iş 54; Альбом портретов членов Государственной думы первого созыва. Л., 1906, səh. 116, 117; Azərbaycan tarixi, Bakı, 1960, 2-ci cild; səh 385; Стельник Б.Я. Буржуазия Азербайджана и I Государственная дума. В кн.: Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Bakı, 1983, səh. 184.

[468] Сидельников С.Л. Göstərilən əsər, səh. 195.

[469] Шелохаев В.В. Кадеты-главная партия либеральной буржуазии в борьбе с революцией 1905-1907 гг. М., 1983, səh. 204.

[470] "Каспий" qəzeti, 31 yanvar 1907-ci il.

Fraksiya xalq azadlığı partiyası ilə həmrəy fəaliyyət göstərməyi qərara aldı. Bu barədə Ə.M.Topçubaşov partiyanın lideri P.N.Milyukova xəbər vermişdi[471]. Xalq azadlığı partiyasının iclasında bu təklif qəbul olunmuş, fraksiyanın nümayəndəsinə dərhal kadetlərin fraksiya komitəsinin tərkibinə daxil olmaq və kadetlər partiyası MK-sına seçilmək hüququ verilməsi qərara alınmışdı[472]. Müsəlman deputatlarını kadetlərə yaxınlaşdıran Dumada kadetlərin irəli sürdükləri "Bütün millətlərin hüquq bərabərliyi" şüarı idi.

Fraksiyanın bir neçə iclası olmuşdu. İlk iclasda Dumaya təqdim olunan bütün qanun layihələri və sorğular haqqında ətraflı məruzələr dinlənilməsi qərara alınmışdı. Lakin qarşıya qoyulmuş vəzifələrdən heç biri yerinə yetirilmədi. Zənnimizcə, fraksiyanın fəaliyyətinin yeganə təzahürü onun təklif etdiyi aqrar islahatı müddəalarının müzakirə olunduğu 24 iyun iclasında baş vermişdi[473]. Bu addımın nə qədər cəsarətsiz olduğunu və Dumanın aqrar komissiyasının fəaliyyəti üçün heç bir əhəmiyyət kəsb etmədiyini o sübut edir ki, iyunun 7-dən iyulun 8-dək aqrar komissiyası iclaslarının jurnallarında bu layihənin adı bir kəlmə ilə də çəkilmir, yəni komissiya müsəlman fraksiyası üzvlərinin təkliflərindən yan keçmişdi[474]. Vicdan azadlığı haqqında qanun layihəsi üzrə məruzə edilmiş, lakin onun iyulun 10-na təyin olunmuş müzakirəsi keçirilməmişdi, çünki həmin vaxt artıq Duma buraxılmışdı. Fraksiya Ə.M.Topçubaşova belə bir bəyanat verməyi tapşırmışdı ki, müsəlman fraksiyasının fikrincə, Belostokdakı talanlar yerli hakimiyyət orqanları tərəfindən təşkil olunmuşdur. Lakin o çıxış edə bilmədi, çünki müzakirələr dayandırıldı və heç bir natiq söz ala bilmədi[475].

Dumanın tezliklə buraxıldığına görə fraksiyanın sorğularına baxılmadı. Dumanın iyulun 14-nə təyin olunmuş iclasında fraksiyanın tərkibi və vəzifələri haqqında Ə.M.Topçubaşovun məlumatı da baş tutmadı[476]. Rusiya imperiyası qanunlarında təsbit olunmuş müsəlmanların məhdudiyyətlərinin müəyyən olunması sahəsində deputatlar Axtyamovun, Alkinin və Topçubaşovun başladıqları iş də başa çatdırılmadı[477].

I Dövlət Dumasının, eləcə də sonrakı dumaların başlıca müzakirə obyekti aqrar-kəndli məsələsi idi. Təsadüfi deyildir ki, bütün partiya və qrupların mövqeyi məhz bu məsələdə daha dəqiq meydana çıxmışdı.

Mayın 8-də kadetlər "42-lərin" aqrar qanunu layihəsini müzakirəyə təqdim etdilər. Layihədə mülkədar torpaqlarının qismən məcburi özgəninkiləşdirilməsinə yol verilirdi. Bu qanun layihəsinin əvəzində trudoviklər "104-lərin" aqrar

---

[471] Политическая жизнь русских мусульман до Февральской революции. Oksford, 1987, səh. 51.
[472] Yenə orada.
[473] RFDTA, fond 1278, siyahı 1,1 çağırış, 1906, iş 223-225.
[474] "Каспий" qəzeti, 1 iyul 1906-cı il.
[475] RFDTA, fond 1278, siyahı 1, iş 1906,1 çağırış, iş 223-225.
[476] Политическая жизнь мусульман, səh. 51.
[477] Политическая жизнь мусульман, səh. 55.

layihəsində mülkədar torpağının tamamilə ləğvini, "ümumxalq torpaq fondunun" yaradılmasını, yəni torpağın milliləşdirilməsini tələb edirdilər[478].

İyunun 24-də müsəlman fraksiyası aqrar islahatının əsas müddəalarını müzakirə etdi. Fraksiyanın proqramının layihəsində göstərilirdi ki, vəqf torpaqları özgəninkiləşdirilə bilməz, torpaq payları isə "udel, kabinet və monastır torpaqları hesabına" artırıla bilər. Xüsusi sahibkar torpaqlarının özgəninləşdirilməsinə isə "yalnız tələb olunan hallarda, müsadirə olunmuş torpaqların əvəzinin ədalətli qiymətlə ödənilməsi şərtilə" yol verilirdi. Layihədə köçürmənin dayandırılması tələb olunurdu[479].

İyunun 23-də Dövlət Dumasının sədrinə "təcili" bəyanat verildi. Bu bəyanatda Torpaq Məsələsi Nazirliyinin mətbuatda dərc olunmuş məlumatlarına etiraz ifadə olunurdu. Həmin məlumatda guya torpaq məsələsində Dövlət Dumasının "xəzinə, udel, kabinet, monastır, kilsə torpaqlarının və məcburi surətdə özgəninkiləşdirilən xüsusi sahibkar torpaqlarının hökmən kəndlilərə verilməsinə əsaslanan" işi əhalinin gözündən salınırdı. Bu bəyanatı M.T.Əliyev də imzalamışdı[480].

Ə.M.Topçubaşov aqrar komissiyanın məruzəsinin müzakirəsində iştirak etdi. Hökumət məlumatına aqrar komissiyanın etirazının tamamilə haqlı olduğunu hesab edən Ə.M.Topçubaşov (etirazın tonunu yumşaltmağa çağırsa da) bir "ucqarlı" və "qafqazlı" kimi komissiyanın məlumatını geniş yaymağı təklif etmişdi. Həm də o, məlumatın təkcə "dövlət dilində" dərci ilə kifayətlənməməyə, imkan daxilində onu yerli dillərə tərcümə etməyə çağırmışdı. "Qoy xalq, tatarı da, ermənisi də, polyakı da, gürcüsü də, başqaları da, hər bir kəs burada gedən işi öz ana dilində oxusun, qoy hər kəs bilsin və öz ana dilində oxusun ki, indiki nazirlik nədir və xalq nümayəndələrinin səmərəli fəaliyyətinə kim əngəl törədir".[481] Sonralar "Kaspi" qəzetində dərc olunmuş məqalədə o göstərirdi ki, "bütün rus təbəələrinin hüquq bərabərliyi, vicdan azadlığı, söz azadlığı, şəxsiyyətin toxunulmazlığı, kəndlilərə torpaq verilməsi kimi məsələlərin hazırlanmasında, bu cür ümumdövlət məsələlərində hər hansı bir milli xarakterli məsələyə yer ola bilməzdi. Buna Rusiyanın bütün xalqlarının mənafeləri yol vermirdi, hazırkı dövrün bütün şəraiti bunun əleyhinə idi"[482].

Birinci Duma aqrar problemini həll etmədi. Mülkədarların mənafelərini "qanunvericilik" yolu ilə təmin etmək niyyətində olan hökumət mülkədar torpaqlarının məcburi surətdə özgəninkiləşdirilməsi tələbini tamamilə rədd edən bir neçə fərman verdi.

---

[478] Шелохаев В.В. Göstərilən əsər, səh. 206-207.
[479] "Каспий" qəzeti, 1 iyul 1906-cı il; Стельник Б.Я. Göstərilən əsər, səh. 186.
[480] RFDTA, fond 1278, siyahı 1,1906, iş 343, vərəq 8.
[481] RFDTA, fond 1278, siyahı 1,1906, iş 203, vərəq 23 arxada.
[482] "Каспий" qəzeti, 23 dekabr 1906-cı il.

İrəvan və Yelisavetpol quberniyalarında millətlərarası toqquşmalar ilə əlaqədar Duma deputatlarının verdikləri sorğu üzrə İ.Ziyadxanov çıxış etdi. O, aqrar məsələyə də toxundu. O, başlıca bəlanı çarizmin köçürmə siyasətində görürdü. İ.Ziyadxanov köçürməyə etirazını bildirərək dedi: "Mərkəzi Rusiya kimi bizim də torpağa ehtiyacımız var, biz də torpağın azlığından, yoxluğundan əziyyət çəkirik. Lakin administrasiya bu məsələni başqa cür həll etdi. Burada heç bir komissiyaya və yardımçı komissiyaya ehtiyac yox idi, - onların sistemi onların fikrincə çox əladır: gözəl Gürcüstanı qoşunların tapdağı altına verdilər, ermənilərin və müsəlmanların yaşadıqları əyalətlərə gəldikdə isə, bu millətləri bir-birinin üstünə salışdıraraq qərara aldılar ki, beləliklə onları asanca yer üzündən silib atmaq olar. Onda, cənablar, acizanə xahiş edirik ki, Qafqazın mərd övladlarının sümükləri qalanmış torpaqlarda özünüzə köçürmə sahələri götürün". İ.Ziyadxanov Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin arzu və ümidlərini ifadə etməyə çalışmışdı. Onun kifayət qədər ətraflı çıxışında XX əsrin əvvəllərində Azərbaycan sahibkarlarının bütün petisiya və ərizələrində irəli sürülmüş tələblərin demək olar hamısı öz əksini tapmışdı. O, imperiya çərçivəsində siyasi hüquqsuzluq vəziyyətindən bir də narazılığını bildirdi, rus sahibkarları və mülkədarları ilə bərabər hüquqlara tərəfdar çıxdı. O, Duma tribunasından hökumətin azğınlığı, müsəlman ruhanilərinin hüquqlarının sıxışdırılması barədə məlumat verdi. O, ürək yanğısı ilə deyirdi: "Artıq elə bir vaxt gəlib çatmışdır ki, biz də oyanmışıq və bizim susmağa ixtiyarımız yoxdur. Yüz il bundan əvvəl Rusiya Zaqafqaziyanı fəth etmişdi... Siz sosial-iqtisadi və siyasi həyatın hansı sahəsinə toxunsanız, hər yerdə yalnız hüquqsuzluq görərsiniz. Hətta vəqf pullarını tutub almışlar, burada məscidlər sökülür, minarələr uçulur və bunların bərpasına pul əldə etmək üçün neçə il lazımdır". İ.Ziyadxanov zemstvonun olmamasına, şəhər idarəetmə orqanlarında yerli millətin nümayəndələrindən olan qlasnıların məhdudiyyətlərinə diqqəti cəlb etmişdi. Onu narahat edən bu idi ki, ali savadlı azərbaycanlıların dövlət idarələrində vəzifə tutmasına yol verilmirdi, bəzi ali məktəblər onlar üçün qadağan olunmuşdu. "Xalq təhsili haqqında heç düşünməyinə dəyməz. Sağa, sola, geriyə və irəliyə yüz verst[483] getsəniz də bir dənə məktəb görməyəcəksiniz[484].

Azərbaycan nümayəndələrini, eləcə də Dumanın başqa deputatlarını əhalinin şəxsi və əmlak təhlükəsizliyi məsələləri maraqlandırırdı. 1906-cı il iyunun 26-da Dövlət Dumasının 31 üzvü daxili işlər nazirinə ərizə təqdim edərək, elan olunduğuna görə, əsas qanunlar verilənədək (1906-cı ilin apreli) bir sıra yerlərdə gücləndirilmiş mühafizənin saxlanmasından narahatlığını bildirdilər. Onların arasında Ə.Haqverdiyev də var idi[485]. İrəvan və Yelisavetpol quberniyalarında əhalinin şəxsi və əmlak təhlükəsizliyinin qorunması üçün tədbirlər görülməsi ilə

---

[483] Verst - 1,05 kilometrə bərabər uzunluq ölçüsü.

[484] RFDTA, fond 1278, siyahı 1, 1906, iş 190, vərəq 8 arxada; Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, 1906. SPb., 1906, 2-ci cild, sütun 1228-1231.

[485] RFDTA, fond 1278, siyahı 1,1906, iş 452, vərəq 6.

əlaqədar deputat sorğusunda Duma üzvləri xəbərdarlıq edirdilər ki, belə bir vəziyyət bu quberniyalarda bir ildən çoxdur ki, yaranıb və "minlərlə insan tələfatına və diyarın iqtisadi cəhətdən tamamilə var-yoxdan çıxmasına" səbəb olmuşdur. Onlar bu hərc-mərcliyin aradan qaldırılması üçün hansı tədbirlər görüldüyü barədə Qafqaz canişininə sorğu göndərilməsini xahiş etmişdilər. Bu sorğunun sonrakı taleyi belə oldu. Duma bu ərizəni təcili məsələ hesab etmədi, ərizə ümumi yığıncaqda müzakirə olundu və iyunun 14-də Nazirlər Şurasının sədrinə göndərildi[486]. İyulun 7-də, yəni Dumanın buraxılması ərəfəsində Nazirlər Şurasının sədri Qoremıkin Dumanın sədrinə cavab verir ki, "canişinin vəzifəsi və hakimiyyəti ümumi yerləşdirmə nazirliyinə münasibətdə tamamilə müstəqildir və buna görə də Qafqaz diyarı barədə Dövlət Dumasının sorğularına cavab vermək üçün Nazirlər Şurasının heç bir səlahiyyəti və zəruri məlumatı yoxdur"[487]. Beləliklə, Nazirlər Şurası Qafqaz millətlərinin taleyinə tam biganəlik göstərib bu sorğunu başından edərək onun müəlliflərini formal surətdə canişinin üstünə göndərdi. Elə həmin 1906-cı ilin sonrakı hadisələri göstərdi ki, canişin diyarda şəxsiyyət toxunulmazlığının təmin edilməsi üçün heç tədbirlər görmək niyyətində də deyildi.

Ə.M.Topçubaşov, İ.Ziyadxanov, M.T.Əliyev, Ə.Muradxanov Dövlət Dumasının üzvləri ilə həmrəylik göstərərək 1906-cı il iyunun 22-də sədrə müraciət etmişdilər ki, Qafqaz administrasiyası Tersk vilayətinin strajnikləri olan dağlılardan "dinc rus vətəndaşları üçün talançılar hazırlayır" və onlar "dərhal qaytarılsın"[488]. Bununla da onlar belə tədbirlərlə Rusiya imperiyasının xalqlarında bir-birinə qarşı ədavət və nifrət hissi doğurmağa ümid bəsləyən çar administrasiyasının siyasətinə mane olmağa çalışırdılar.

M.T.Əliyev və Dumanın 30 deputatı sui-qəsd dərəcəsinə çatdırılmış siyasi məhbuslara qarşı zorakılıqda təqsiri olan vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi tələbi ilə sədrə müraciət etdilər[489]. İ.Ziyadxanov Pribaltika diyarında özbaşınalıq təzahürlərinin və "kədərli qanunsuzluq hallarının"[490] qarşısının alınması üçün tədbirlər görülməsi zəruriliyi barədə bəyanata qoşuldu. Dumanın deputatları, o cümlədən də Ə.Haqverdiyev Novominsk sakinlərindən daxil olmuş teleqram barədə məlumat verdilər. Teleqramda ədalətsizliklər, ölüm cəzası barədə hökmlər barədə xəbər verilir və ölüm hökmünün icrasının dayandırılması tələb olunurdu. Xarkov quberniyasının Sumı qəzasında administrasiyanın özbaşınalıqları barədə sədrə məlumat verən M.T.Əliyev, Ə.Muradxanov və başqaları bunların dayandırılması və günahkarların cəzalandırılması üçün tədbirlər görülməsini tələb

---

[486] RFDTA, fond 1278, siyahı 1,1906, iş 715, vərəqlər 42 arxada - 43.
[487] RFDTA, fond 1278, siyahı 1,1906, iş 452, vərəq 6.
[488] RFDTA, fond 1278, siyahı 1,1906, iş 341, vərəq 1.
[489] RFDTA, fond 1278, siyahı 1,1906, iş 190, vərəq 195.
[490] RFDTA, fond 1278, siyahı 1,1906, iş 199, vərəq 24.

edirdilər.[491] Krım tatarları Ə.M.Topçubaşova səlahiyyət vermişdilər ki, Krım müsəlmanlarının petisiyada təsvir olunmuş vəziyyətini bəyan etsin. Duma buraxıldığına görə Ə.M.Topçubaşov Krım tatarlarının xahişini Dumanın nəzərinə çatdıra bilmədi.

Azərbaycan deputatları müxtəlif sorğuların və "qanunvericilik bəyanatlarının" müzakirəsində və təqdim olunmasında iştirak edirdilər. Lakin onlar məktəbdə icbari təhsil haqqında 45 deputatın ərizəsini imzalamamışdılar. Ərizədə qeyd olunurdu ki, bu məsələyə laqeyd münasibət nəticəsində "Rusiyada olduğu kimi Avropanın heç bir ölkəsində savadsızların bu qədər nəhəng kontingenti yoxdur. Özgə xalqların öz mühitində və həm də öz ana dilində təhsili yaymaq cəhdləri isə çox vaxt hətta müxtəlif təqiblərə səbəb olmuşdur"[492]. Şübhəsiz ki, onlar bu bəyanata şərik çıxırdılar, çünki ana dilində məktəblərin açılması tələbi Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin petisiyalarının əsas müddəalarından biri idi. Onlar bu tələbi müşavirələrin, qurultayların proqram sənədlərinə daxil edirdilər. Üstəlik İ.Ziyadxanov millətlərarası toqquşmalar barədə sorğu ətrafındakı çıxışında da müsəlmanların məhdudiyyətlərindən danışaraq qeyd etmişdi: "Xalq təhsilinə gəldikdə isə onun yaxşılaşdırılmağa ehtiyacı var - kəndlərdə ümumiyyətlə məktəb yoxdur, məktəblərdə hər cür yeniliklər təqib olunur, bəzi ali məktəblərə qəbul tamamilə qadağandır. Müsəlmanlar ali məktəbləri bitirdikdən sonra onlara təkcə Zaqafqaziyada deyil, həm də bütün Rusiya imperiyasında heç bir orta məktəbdə dərs deməyə icazə verilmirdi".

Azərbaycan deputatlarının, eləcə də I Dövlət Dumasında bütün müsəlman fraksiyasının siyasi amalı, zənnimizcə, fraksiyanın lideri Ə.M.Topçubaşovun "Müsəlmanların parlament fraksiyası" haqqında məqaləsində çox dəqiq ifadə olunmuşdur: "Müsəlmanların proqramı Konstitusiya prinsiplərinə ciddi əsaslanaraq vilayət torpaqlarının milliləşdirilməsi, dini işlərdə tam muxtariyyət və bütün imperiya məkanında xırda özünüidarəetmə vahidləri və vilayət müşavirələri təsis olunmaqla yerlərdə geniş muxtariyyətli idarəetmə prinsipini irəli sürür"[493]. Ə.M.Topçubaşov "... 72 gündən ibarət məcburi qısa həyatı ərzində Dumanın özündə milli zəmində heç bir təzahürün baş vermədiyini" qeyd edərək "xalq nümayəndəliyinin ilk addımlarının Rusiyanın bütün xalqları üçün ümumi olan ictimai-dövlət quruculuğu məsələlərinin həllinə yönəldilməli olduğunu dərk etmiş millətlərin nümayəndələrini"[494] xüsusi olaraq tərifləyirdi. Ancaq bu yolla onlar özləri üçün bəzi imtiyazlar almaq fikrində idilər, Rusiyanın müsəlman ucqarlarının əhalisi üçün tam bir sıra məhdudiyyətlərin ləğvinə ümid bəsləyirdilər. Onlar hələ 1905-ci ilin avqustunda Nijni Novqorodda Rusiya müsəlmanlarının birinci Ümumrusiya qurultayında "Rusiya imperiyasının idarə olunması formasının

---

[491] RFDTA, fond 1278, siyahı 1,1906, iş 202, vərəq 121.
[492] RFDTA, fond 1278, siyahı 1, iş 190, vərəq 195.
[493] "Каспий" qəzeti, 1 fevral 1907-ci il.
[494] "Каспий" qəzeti, 9 fevral 1907-ci il.

konstitusiyalı dövlət prinsipləri əsasında yenidən qurulması şərtilə... bütün vətəndaş həyatı və siyasi həyat quruluşunun azadlıq, həqiqət və mərhəmət prinsipləri əsasında yeniləşməsinə" çalışdıqlarını elan etmişdilər.

Müsəlman fraksiyası məruzələr oxumaq və söhbətlər aparmaq, dövri mətbuatda materiallar dərc etmək, müsəlman vilayətlərinə getmək və qurultaylar çağırmaq yolu ilə çoxmilyonlu müsəlman əhalisini Dövlət Dumasının fəaliyyəti ilə tanış etmək üçün səmərəli addımlar atmışdı.

Müsəlman ucqarları deputatlarının böyük ümidlər bəslədiyi I Dövlət Dumasının fəaliyyəti kifayət qədər şərəfsiz başa çatdı. Çar hökuməti "nümayəndəli qanunvericilik idarəsinə" son qoymağı qəti qərara gəldi. Ə.M.Topçubaşov sonralar yazmışdı: "...hökumət hesab etdi ki, Dumanın deputatları pis işləmişlər, ... başlıcası isə nazirlərə qarşı çox düşmən əhval-ruhiyyəsində idilər. Birinci Dumanın buraxılması ilə əlaqədar ölkəyə elan olunmuşdu ki, hökumət ilə əlbir fəaliyyət üçün başqa nümayəndələr lazımdır, o nümayəndələr ki, hökumətin əleyhinə yox, lehinə olsunlar"[495].

İyulun 9-da Tavriçeski sarayının bütün qapıları bağlı idi. Bu, Dumanın deputatları üçün, müsəlmanların parlament fraksiyasının üzvləri üçün gözlənilməz oldu. Çünki məhz həmin gün iki iclas təyin edilmişdi: səhər-Peterburqun nüfuzlu müsəlmanları ilə, günorta - büronun özünün iclası[496].

Kadetlər fraksiyasının təşəbbüsü ilə hökumətə etiraz ifadə olundu. Fraksiya Dumanın iclaslarını Vıborqa keçirməyi, orada iclasları trudoviklər və sosial-demokratlar ilə birlikdə davam etdirməyi qərara aldı.

İyulun 9-da və 10-da Vıborqda iclaslar keçirildi[497]. Həmin iclaslarda Azərbaycan deputatları da iştirak etdilər. Xalqa çağırışın-müraciətin mətnini tərtib etmək üçün fraksiyaların nümayəndələrindən ibarət qarışıq komissiya yaratmaq qərara alındı. "Xalq nümayəndələrindən xalqa" çağırışın layihəsi kadetlər tərəfindən tərtib olundu və Vıborq iclaslarının iştirakçıları tərəfindən imzalandı. İmzalayanlar arasında Ə.M.Topçubaşov və İ.Ziyadxanov da var idi[498].

Vıborq çağırışının müəllifləri Dumanın buraxılmasını "Rusiya vətəndaşlarına" elan etdilər və onları aşağıdakılar barədə xəbərdar etdilər: "Sizin tapşırığınızı və borcumuzu yerinə yetirərək biz xalqın azadlığını təmin etmək üçün qanunlar tərtib edir, qanunları cəzasız surətdə pozaraq azadlığı boğan məsuliyyətsiz nazirlərin kənarlaşdırılmasını tələb edir, lakin hər şeydən əvvəl isə xəzinə, udel, kabinet, monastır, kilsə torpaqları da daxil olmaqla və xüsusi sahibkar torpaqlarını məcburi surətdə özgəninkiləşdirməklə əməkçi kəndlilərə torpaq vermək haqqında qanun qəbul etməyi arzulayırdıq. Hökumət bu qanunu yolverilməz hesab etdi, Duma məcburi özgəninkiləşdirmə haqqında qərarını bir

495 "Каспий" qəzeti, 20 fevral 1907-ci il.
496 "Каспий" qəzeti, 1 fevral 1907-ci il.
497 "Красный архив", 1933, № 2(57), səh. 86-89.
498 Выборгский процесс. СПб., 1908 səh. 21.

daha inadla təsdiq edəndə xalq nümayəndələrinin buraxılması elan olundu". Vıborq çağırışı bütün Rusiya əhalisini Dumanın buraxılmasına müqavimət göstərməyə, vergiləri ödəməkdən, rekrut mükəlləfiyyətindən imtina etməyə, istiqrazları tanımamağa çağırdı. Sənəddə deyilirdi: "... Xalq nümayəndəliyi olmadan xəzinəyə bir qəpik də, orduya bir əsgər də verməyin. Öz rədd cavabınızın üstündə möhkəm durun, hamı bir nəfər kimi öz hüquqlarınızın müdafiəsində durun... Bu məcburi, lakin labüd mübarizədə sizin seçdiyiniz adamlar sizinlə olacaqlar"[499].

Çar hökuməti, onun yerli bölmələri çox ciddi narahat olmuşdu. 1906-cı il iyulun 12-də Qafqaz canişini daxili işlər nazirinin adına teleqram göndərmişdi: "Dövlət Dumasının keçmiş üzvlərinin qayıtmasının bəzi çətinliklər doğuracağını güman etməkdə əsasım olduğu üçün xahiş edirəm... müşahidə etmək və iğtişaşların qarşısını almaq üçün vaxtında lazımi tədbirlər görmək məqsədilə onların Qafqaza gəlişinin vaxtını mənə xəbər verəsiniz"[500].

Bakının müvəqqəti general-qubernatoru 1906-cı il iyulun 15-də yerli qəzet və mətbəələrin bütün redaktorlarına sərəncam göndərərək "Dövlət Dumasının keçmiş üzvlərinin çağırışının" çap olunmasını qadağan etdi, onları inzibati qaydada ən ciddi cəza ilə hədələdi[501]. İyulun 31-də isə Bakı jandarm idarəsinin rəisi "çağırışın ottiski ilə Dövlət Dumasının keçmiş üzvlərinin əsl çağırışının eyniliyini müəyyənləşdirmək üçün və mənə həvalə olunmuş idarədə Vıborq çağırışının çapı barədə istintaq aparıldığına görə" çağırışın əslinin bir nüsxəsinin ona göndərilməsini Polis Departamentindən xahiş etmişdi"[502].

Lakin kadetlər hökumətin əksinqilabi həmlələrinə qarşı cavablarını əməli hərəkətlərlə möhkəmləndirə bilmədilər. Onların müqavimətə çağırışı havadan asılı qaldı. Vıborq iclaslarının iştirakçılarına isə divan tutuldu. Çağırışı imzalamış şəxslərə qarşı cinayət işi açıldı; onlar məhkəməyə verildilər. Onlardan bəziləri, məsələn İ.Ziyadxanov və Ə.M.Topçubaşov çağırışda əlləri olduğunu inkar etməyərək onlara qarşı irəli sürülmüş ittihamın mahiyyəti üzrə izahat vermək istəmədilər[503]. "Əsil zadəganlar: Bakı quberniyasından 42 yaşlı Əlimərdan bəy Topçubaşov, ...Yelisavetpol quberniyasından 39 yaşlı İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanov" onda ittiham edilirdilər ki, "xalqa ünvanlanan xüsusi çağırış vasitəsilə Rusiya əhalisini itaətsizliyə və qanuna qarşı çıxmağa sövq etmək" istəmişlər və onun "Rusiya hüdudlarında çoxlu nüsxələrini" yaymışlar[504].

1907-ci ilin dekabrında keçirilmiş məhkəmənin çıxardığı hökmə görə təqsirkarlar üç aylıq həbs cəzasına məhkum edilmişdilər. Dumanın 167 nəfər keçmiş üzvü, o cümlədən də Ə.M.Topçubaşov və İ.Ziyadxanov gələcəkdə Dövlət

---

499 "Красный архив", 1933, № 2 (57); Выборгский процесс, səh. 5.

500 RFDA, PDXŞ, fond 102, 1906, iş 716 (1), vərəq 96.

501 "Баку" qəzeti, 16 iyul 1906-cı il.

502 "RFDA, PDXŞ, fond 102,1906, iş 716 (II), vərəq 227.

503 "Выборгский процесс", səh. 9-10.

504 "Выборгский процесс", səh. 21; RFDA, fond 523, siyahı 1, iş 423, vərəq 20, 56; fond 102, PDXŞ, 1906, II bölmə, iş 716, II hissə, vərəq 225.

Dumasının tərkibinə seçilmək hüququndan məhrum edilmişdilər[505]. Ə.M.Topçubaşov "Kaspi" qəzetinə rəhbərlikdən kənarlaşdırılmışdı[506]. 1907-ci il fevralın 15-də Bakı şəhər dumasının iclasında onun qlasnılar sırasından xaric olunması məsələsinə baxıldı. Bir sıra qlasnıların təkidi ilə və Moskva şəhər dumasının nümunəsi əsasında qərara alındı ki, o, "müvəqqəti kənarlaşdırılmış" hesab edilsin[507]. Buna baxmayaraq Ə.M.Topçubaşov şəhər dumasının tərkibindən çıxarıldı[508].

1906-cı il sentyabrın 14-də Nazirlər Şurasının iclasında hökumət idarələrində qulluq ilə siyasi partiyalara mənsubiyyətin bir araya sığmaması məsələsi müzakirə edildi. Özü də yerli hakimiyyət orqanlarına verilən sərəncamda qeyd edilirdi ki, bu, özlərini açıq surətdə "inqilabi" qüvvələrə aid etməsələr də, öz proqramlarında, "öz rəhbərlərinin çağırışlarında (məsələn, Vıborq çağırışı kimi) və özlərinin başqa fəaliyyətində hökumətə qarşı mübarizəyə səy göstərən və ya əhalini belə mübarizəyə çağıranlara" da aiddir. Daha sonra onların hərəkətləri "səlahiyyətindən və adından istifadə etdikləri hökumətin əleyhdarları" kimi qiymətləndirilirdi. Bu hal isə "yolverilməzdir və ona heç bir dövlətdə yol verilməmişdir"[509].

Hökumət I Dövlət Dumasını qovaraq II Dövlət Dumasına seçkilər elan etdi. Bununla əlaqədar "Kaspi" qəzeti öz oxucularına izah edərək yazırdı ki, I Dövlət Duması buraxıldıqdan sonra hökumət kadetləri hər cür gözdən salmağa çalışırdı, lakin "məcbur edib inandırmaq olmazdı ki, xalq azadlığı partiyasının tərkibinə daxil olan ən yaxşı rus alimləri, professorları, publisistləri, zemstvo və şəhər xadimləri hətta "Vıborq çağırışı"nın mövcudluğunu nəzərə alsaq da əsl "üsyançılara" və "inqilabçılara" çevrilmişlər. Bu partiyanın liderlərinin və başlıca xadimlərinin adları hamıya deyirdi ki, proqram və taktiki səhvlərinə baxmayaraq kadetlər ciddi konstitusiyaçıdırlar və xalq nümayəndəliyinin əsl tərəfdarıdırlar"[510]. Sonra qəzet Stolıpinin nazirliyinin dumalararası dövrdə seçki qanununa dəyişikliklər edilməsinə yol verməyən Əsas Qanunun 87-ci maddəsini pozaraq seçicilərin tərkibini dəyişdirdiyini və "demokratik ünsürlər" əvəzinə "qəzalarda iri torpaq sahiblərinin, şəhərlərdə sahibkarların" sayını artırdığını göstərərək əmin olduğunu bildirirdi ki, qutulara yaxınlaşan seçicilər "hər şeyi xatırlayacaqlar: ölkəni mənəvi və iqtisadi səfalətə kim gətirib çıxarmışdır,... hökumətin birinci Duma ilə mübahisəsində kimin haqlı olması məsələsində hökumətdən şikayət

---

505 "Выборгский процесс", səh. 21; RFDA, fond 523, siyahı 1, iş 423, vərəq 20, 56; fond 102, PDXŞ, 1906, II bölmə, iş 716, II hissə, vərəqlər 194, 217, 248.

506 Мовлаева С.А. Пропаганда русской и азербайджанской культуры на страницах газеты "Каспий" (1881-1917 гг.). Bakı, 1983, səh. 24.

507 "Каспий" qəzeti, 17 fevral 1907-ci il.

508 "Каспий" qəzeti, 29 mart 1907-ci il.

509 ADTA fond 62, siyahı 1, iş 67, vərəq 82.

510 "Каспий" qəzeti, 15 dekabr, 1906-cı il.

etməyə icazə verəcəklər, bununla da ikinci Dumaya hansı deputatları göndərməyə icazə verəcəklər"[511].

Sahibkarlar seçicilərin səsinin əksəriyyətini qazanmaq məqsədilə öz mətbu orqanlarının səhifələrindən geniş istifadə edirdilər[512]. Onlar "Rusiyada konstitusiya quruluşunu bərqərar etmək istəyən" mütərəqqi ünsürləri "bütün proqram və taktiki anlaşılmazlıqları, mübahisələri, fərqləri ikinci plana çəkməyə və ümumi təhlükə yarandığına görə istər seçkilərdə"[513], istərsə də Dumanın özündə[514] həmrəylik göstərməyə çağırırdılar. Məqalələrdə gələcək nümayəndələrə xeyir-dua verilirdi: "Qafqaz diyarı Rusiya imperiyasının ayrılmaz hissəsidir, onun xalqları heç bir separatçı məqsədlər güdmürlər... 17 oktyabr manifesti azadlıqlarının faktiki həyata keçirilməsi, ölkə qanunvericiliyində xalq nümayəndələrinin həqiqi iştirakı, bu nümayəndələrin qarşısında məsuliyyət daşıyan nazirlik və ən geniş prinsiplər əsasında yerli özünüidarə - biz ciddi konstitusiya qaydaları dedikdə məhz bunları başa düşürük və indiki şəraitdə Qafqazdakı bütün mütərəqqi partiyaların proqramlarının əsasını bunlar təşkil etməlidir... Göstərilən ünsürlər qarşıdakı seçkilərdə bu şüarı rəhbər tutmalıdırlar"[515]. Məqalədə "beynəlmiləlçilik naminə bütün millətçi ünsürlərə qarşı mübarizə aparmaq üçün milliyyətinə fərq qoymadan vahid sinfi partiya yaradılmasına çalışan Qafqazın ifrat sol partiyalarına" irad tutulmuş və "qəzetin təklif etdiyi seçki sazişinə daxil olmağı mümkün hesab etməyən bəzi ifrat solların etirazlarından"[516] narazılıq ifadə olunmuşdu.

Ə.M.Topçubaşov "Seçkilərə doğru" adlı məqalələr silsiləsi ilə çıxış etmişdi. O yazmışdı ki, "cəhalət dövründə mövcud olmuş səbəblərə görə əhalinin əhval-ruhiyyəsindəki hər cür dəyişiklik hakimiyyətin özü tərəfindən pislənmiş indiki quruluşun həqiqətən vətəndaş azadlıqları və siyasi azadlıqlar prinsipləri əsasında şübhəsiz dəyişməsinin daha inadlı təzahürləri xeyrinə baş verə bilər və baş verməlidir. Bu məhz o haldır ki, buna parlament dilində "sollaşma", müxalifətin güclənməsi deyirlər"[517]. Öz siyasi əqidəsinə sədaqətli olan Ə.M.Topçubaşov ümidvar olduğunu bildirirdi ki, ikinci Dumada da xalq azadlığı partiyası böyük rol oynayacaqdır. O hesab edirdi ki, xalq azadlığı partiyası "müvəqqəti ünsürləri" birləşdirə biləcək və bununla da Dumanın əksəriyyətinin fəaliyyətini "rus vətəndaşının şəxsiyyətinin toxunulmazlığına və onun bütün konstitusiya hüquqlarına təminat verən müsbət qanunvericilik işi"[518] istiqamətinə yönəldə biləcəkdir. O, Dumanın deputatları M.Mahmudova və Z.Zeynalova "kəndlilərin deputatı" kimi xeyir-dua verərək onlara bir vəzifə olaraq tapşırırdı: "yadda

---

[511] "Каспий" qəzeti, 15 dekabr 1906-cı il.
[512] «Каспий» qəzeti, 17 dekabr 1906-cı il, 20 dekabr 1906-cı il, 21 dekabr 1906-cı il, 23 dekabr.
[513] «Каспий» qəzeti, 17 dekabr 1906-cı il.
[514] Yenə orada, 20 fevral 1907-ci il.
[515] «Каспий» qəzeti, 23 dekabr 1907-ci il.
[516] «Каспий» qəzeti, 23 dekabr 1907-ci il.
[517] "Каспий" qəzeti, 8 fevral 1907-ci il.
[518] "Каспий" qəzeti, 18 fevral 1907-ci il.

saxlasınlar ki, ancaq Dumanın ən yaxşı ünsürləri ilə birləşməklə onlar seçiciləri olan kəndlilərin və ümumiyyətlə Bakı quberniyasının zəhmətkeş kütlələrinin mənafelərini müdafiə edə bilərlər. Güc təkcə birləşməkdə deyil, ancaq indiki vəziyyətdə bütün nicatımız məhz bundadır, birləşməkdədir"[519]. Bununla yanaşı Ə.M.Topçubaşov bir çox məsələlərdə, o cümlədən aqrar məsələdə trudoviklər partiyası ilə (Z.Zeynalov) kadetlər partiyası (M.Mahmudov) arasında mövcud olan fikir ayrılıqları barədə susmuşdu.

Azərbaycanda sosial cəhətdən yuxarı təbəqələrin mənafeyinə uyğun olaraq keçirilmiş seçkilər artıq onların özlərini də razı salmırdı. Qəzetlər bu barədə yazırdılar: seçkilərdə o adamları deputatlığa layiq bilirdilər ki, "heç olmasa nəyi isə başa düşsün, heç olmasa bir təhər fikrini izah edə bilsinlər"[520]. Bu zaman ona isnad edirdilər ki, fəhlələr arasından seçilmiş "yazıq" Z.Zeynalov "deputatlığa hazır olmadığını" özü etiraf etmişdir. Qəzet şərh edərək yazırdı: "Buna baxmayaraq ondan yaxşısı yox idi və məcbur olub onun üzərində dayanmalı olmuşdular"[521].

F.İ.Xoyski, X.H.Xasməmmədov, İ.Z.Tağıyev, M.M.Şahtaxtinski, M.H.Mahmudov, Z.E.Zeynalov II Dövlət Dumasına deputat seçildilər.

Fətəli xan İsgəndər xan oğlu Xoyski 31 yaşlı, mülkədar, kollej asessoru, Moskva Universitetinin hüquq fakültəsinin məzunu, Yekaterinodar mahal məhkəməsi prokurorunun köməkçisi, Dumanın II şöbəsinin, altı komissiyasının üzvü, xalq azadlığı partiyasına mənsub idi; Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov 34 yaşlı, mülkədar, kollej assesoru, Moskva Universitetinin hüquq fakültəsinin məzunu, Yekaterinodar mahal məhkəməsi prokurorunun köməkçisi, Dumanın II şöbəsinin, beş komissiyasının üzvü, xalq azadlığı partiyasına mənsub idi; İsmayıl Zeynal oğlu Tağıyev 42 yaşlı, həqiqi mülki müşavir, Azərbaycanın ən iri sahibkarı H.Z.Tağıyevin oğlu idi. Bakı realnı məktəbinin məzunu, kommersant, Dumanın IV şöbəsinin üzvü, bitərəf idi; Məmmədağa Məmmədtağı Sultan oğlu Şahtaxtinski 56 yaşlı, mülkədar ailəsindən, Fransada, Sorbonnada mühazirə kursu dinləmiş, Leypsiq universitetinin fəlsəfə fakültəsinin məzunu, "Şərqi-rus" qəzetinin naşiri, Şərq dilləri müəllimi, Dumanın X şöbəsinin, ərzaq və aqrar komissiyalarının üzvü, xalq azadlığı partiyasına mənsub idi; Mustafa Hacımusa oğlu Mahmudov 29 yaşlı, kəndli ailəsindən, Qori müəllimlər seminariyasının məzunu, Bakıda ilk rus-tatar məktəbinin müəllimi, sonralar direktoru, Dumanın IX şöbəsinin, dörd komissiyasının üzvü, xalq azadlığı partiyasına mənsub idi; Zeynal Eynal oğlu Zeynalov - 29 yaşlı, kəndli ailəsindən, ev təhsili almış, "Xəzər-Qara dəniz" cəmiyyətinin mexaniki, Dumanın müsəlman əmək fraksiyasının sədri, IX şöbəsinin, üç komissiyasının üzvü, əməkçilər qrupuna mənsub idi[522].

---

[519] "Каспий" qəzeti, 14 fevral, 1907-ci il.
[520] "Прогресс" qəzeti, 15 mart 1907-ci il; Бакинские губернские ведомости", 31 mart 1907-ci il.
[521] "Прогресс" qəzeti, 24 mart 1907-ci il.
[522] RFDA, fond 423, siyahı 1, iş 22, vərəq 37; fond 102, PDXŞ, siyahı 1907, iş 110, I hissə, vərəq 55; RFDTA, fond 1278, siyahı 1, 1907, iş 1333, vərəq 640, 466, 272, 815, 649, 418, 628, 471, 490;

Bakı şəhərindən deputat olan İ.Z.Tağıyev Peterburqa getmədi. M.Şahtaxtinski 1907-ci il martın 24-də "Proqress" qəzetinin redaktoru Ə.Ağayevə müraciət edərək İ.Tağıyevin gəlib Dumada iştirak etmək niyyətində olub-olmadığını aydınlaşdırmağı xahiş etdi[523]. "Proqress" qəzeti xəbər verirdi ki, bu deputat "qiyabi surətdə seçilmişdir, heç kimin bundan qabaqcadan xəbəri olmamışdır, heç kim Dumadakı gələcək fəaliyyəti barədə proqramını elan etməyi ondan tələb etməmişdir, heç kim onu tanımır, bir sözlə, cənab Tağıyev şəhərdən seçilmiş olsa da indiyədək əhalinin böyük bir hissəsi üçün tapmacadır"[524]. "Proqress" qəzetində həmçinin M.Şahtaxtinskinin və Ə.Ağayevin İ.Tağıyevə "Açıq məktubu" dərc olunmuşdu. Məktubda deyilirdi ki, əgər o, Dumaya gəlməkdən imtina etdiyini rəsmi surətdə bildirərsə, onda Bakı şəhəri yenidən öz deputatını seçmək hüququ qazanacaq. M.Mahmudovun xəbər verdiyinə görə, bu məktuba müsəlman deputatlar da qoşuldular[525]. Lakin müraciət cavabsız qaldı. İ.Tağıyev kommersiya fəaliyyətini parlament fəaliyyətindən üstün tutaraq Dumada iştirak etmədi. Ancaq əvvəlcə o getmək istəyirdi. Bunu aşağıdakılar da sübut edir. O, deputat seçilməsi ilə əlaqədar 1907-ci ilin fevralında Bakı şəhər rəisi K.Səfərəliyevdən aldığı təbrik teleqramına belə cavab vermişdi: "Məni Dövlət Dumasına üzv seçmiş seçicilərin etimadına və belə rəğbətinə görə hamıya səmimi minnətdarlığımı bildirməyə borcluyam"[526]. M.H.Hacınski ilə görüşündə - yeri gəlmişkən M.H.Hacınski onu kadetlərin sağ qanadına aid edirdi, - namizədliyi barədə söhbətdə isə o bildirmişdi: Bakı şəhərinin deputatı kimi "milliyyətinə, dininə fərq qoymadan şəhərin istisnasız olaraq bütün sakinlərinin mənafelərini müdafiə etməyi özümün mənəvi vəzifəm hesab edərdim. Belə olan təqdirdə müsəlman partiyasının işində onun iştirakı qeyri-mümkün olacaqdır"[527]. Nəticədə isə Bakı şəhəri Dumada təmsil olunmadı. Bu, Dumada son dərəcə azsaylı nümayəndəliyi olan Rusiya müsəlmanlarını narahat edirdi. Ümumrusiya müsəlmanlar ittifaqının mərkəzi bürosu hətta öz nümayəndəsini Bakıya göndərmiş və o, əliboş qayıtmışdı[528].

II Dövlət Duması 1907-ci il fevralın 20-də açıldı. Kadet F.A.Qolovin onun sədri seçildi. Azərbaycan sahibkarları yeni Dumaya böyük ümidlər bəsləyərək hesab edirdilər ki, məhz fevralın 20-si "ölkədə yeni dövrün başlanmasını əks

---

"Каспий" qəzeti, 24 fevral və 16 mart 1907-ci il; "Баку" qəzeti, 7 fevral, 13 fevral, 14 fevral 1907-ci il; Члены Государственной думы (портреты и биографии). 1907-1912 гг. Л., 1907, səh. 456, 458, 478; S.M.Əfəndiyev. Seçilmiş əsərləri, Bakı, 1977, səh. 93-94; Зейналова К.А. Литературно-публицистическая деятельность М.Шахтахтинского в русской периодической печати. Автореферат. Bakı, 1984, səh. 15, 22.

523 "Прогресс" qəzeti, 24 mart 1907-ci il.

524 "Прогресс" qəzeti, 12 mart 1907-ci il.

525 "Прогресс" qəzeti, 24 və 31 mart 1907-ci il.

526 "Баку" qəzeti, 10 fevral 1907-ci il.

527 "Баку" qəzeti, 7 fevral 1907-ci il.

528 "Каспий" qəzeti, 7 aprel 1907-ci il.

etdirəcək"[529] gün olacaqdır. Azərbaycan saibkarları əmin olduqlarını bildirirdilər ki, rus deputatları birinci Dumada, xüsusən də Vıborq çağırışının imzalanmasında Azərbaycan deputatlarının həmrəyliyini nəzərə alaraq onları bundan sonra daha yaxşı başa düşəcək və müdafiə edəcəklər[530]. Bakı və Yelisavetpol şəhər dumalarının qlasnıları da Dumanı salamlayaraq[531] ümid edirdilər ki, "xalqın yenidən toplaşmış nümayəndələri birinci Dumanın ölkədə azadlığın əsaslarının və qayda-qanunun bərqərar olunmasını sürətləndirmək üçün lazımi təminatlar yaratmaq istəyi ilə başladığı işi axıra çatdıra biləcəklər".

Azərbaycan sahibkarları, onların ideoloqları həm seçkilərə, həm də yeni Dumanın fəaliyyətinə kifayət qədər diqqətlə yanaşırdılar. Sahibkarların dövri mətbuat orqanlarının səhifələrində Dumada baş verən hadisələr barədə geniş söhbətlər gedirdi.

Deputat M.Şahtaxtinski Dumanın zəruriliyini belə qiymətləndirirdi: "Hamı başa düşür ki, Dövlət Dumasının təsis edilməsi barədə qüvvədə olan qanunun verdiyi hətta dar siyasi nüfuz çərçivəsində də xalq nümayəndəliyinin fəaliyyəti bizim indi yaşadığımız bu qədər həyəcanlı və təhlükəli vaxtda nə qədər yüksək qiymətə layiqdir"[532].

"Füyuzat" jurnalında Duma deputatlarına xeyir-dua verilərək yazılmışdı: "...aldadılmamaq üçün "bitərəflərdən" çəkinmək və öz proqramlarının məqsədini bildirən müəyyən partiyaların tərəfində olmaq lazımdır... Ancaq bizim yeganə arzumuz budur ki, müsəlmanların da öz proqramı və partiyası olmalıdır... Eyni zamanda biz onun tərəfdarıyıq ki, müsəlmanların bərabərliyini və azadlığını təmin edərək... onların dilinə və dininə hörmət edən başqa partiyalara qoşulaq. Bizim nicatımız bərabər azadlıq və hüquqlar tələb edən partiyalarla birləşməkdədir"[533]. Daha sonra qəzet bütün proqramların mahiyyəti barədə oxuculara məlumat verəcəyini vəd edirdi.

Mətbuatda deputatlara tapşırıqlar verilirdi: "Bacardığınız qədər öz din qardaşlarınızın mənafelərinin keşiyində duraraq ümumiyyətlə Rusiya vətəndaşlarının azad həyatı və tərəqqisi və xüsusən də əsarət altında olan çoxmilyonlu müsəlman xalqının mədəni inkişafı naminə özünüzün şəxsi mənafelərinizi qurban verin"[534]. M.Mahmudov buna cavab verərək əmin edirdi ki, "Vətənimizin çoxmilyonlu və əzabkeş əhalisinin azad həyatı və mədəni inkişafı üçün fədakarlıqla çalışacaqlar"[535].Prosesdə deputatların hərəkətlərinə və çıxışlarına qiymət verilirdi. Dumanın rəyasət heyətində yerlərin bölüşdürülməsi də mətbuatın

---

[529] "Каспий" qəzeti, 20 fevral 1907-ci il.
[530] "İrşad" qəzeti, 27 fevral 1907-ci il.
[531] "Каспий" qəzeti, 24 fevral 1907-ci il; Dövlət Duması: Stenoqrafik hesabatlar. İkinci sessiya. 1907. SPb., 1907, sütun 684.
[532] "Прогресс" qəzeti, 23 mart 1907-ci il.
[533] "Füyuzat" jurnalı, 26 noyabr 1906-cı il.
[534] "Каспий" qəzeti, 9 fevral 1907-ci il.
[535] Yenə orada, 13 fevral 1907-ci il.

diqqət mərkəzindən kənarda qalmamışdı. S.N.Maqsudovun katibin müavini seçilməsi böyük razılıq hissi ilə qəbul olunmuşdu[536]. Bu, bütün müsəlman deputatlarının xidməti hesab olunmuşdu. Onlar kadetlər fraksiyasının iclasında nail olmuşdular ki, katibin müavinlərindən biri Rusiyanın müsəlman ucqarlarının deputatlarının nümayəndəsi seçilsin[537]. Bununla əlaqədar belə bir ümid ifadə olunurdu ki, müsəlmanlar "başqa əhali ilə eyni hüquqlar - mülki, siyasi, dini hüquqlar alacaqlar"[538]. Eyni zamanda katibin müavinlərinin sayının artırılmasına qarşı çıxmış və bu zaman "Stolıpinin əlaltılarına deyil, xalqın nümayəndələrinə"[539] müraciət etdiyini bildirən M.Mahmudovun davranışından narazılıq qeyd olunurdu. Qəzetlər yazırdı ki, əlbəttə, hər bir deputat öz fikrini bildirməkdə azaddır, lakin belə hərəkətlərdən hər vəchlə qaçmaq lazımdır"[540].

Azərbaycan deputatları müsəlmanların parlament fraksiyasının tərkibinə, F.Xoyski və X.Xasməmmədov isə onun bürosuna daxil oldular[541]. "İrşad" qəzeti yazırdı: "Müsəlman deputatlarımız hər şeydən əvvəl ayrıca fraksiya yaratmalıdırlar, həmin fraksiyada siyasi, iqtisadi və başqa ehtiyaclar müzakirə olunmalı, müzakirədən sonra isə baxılmaq üçün Dumaya təqdim edilən qanun layihələri tərtib olunmalıdır"[542]. Fraksiyanın keçmiş lideri Ə.M.Topçubaşov onun praktik fəaliyyətində fəal iştirak edirdi. Vıborq çağırışını imzaladıqdan sonra parlament fəaliyyətindən rəsmi surətdə kənarlaşdırıldığına baxmayaraq o dəfələrlə Peterburqa getmiş, Dumada müzakirə olunan və qəbul edilən qanun layihələri və sorğular üzrə fraksiyanın mövqeyini hazırlayan müsəlmanların parlament fraksiyasının və Ümumrusiya Müsəlmanlar İttifaqı Mərkəzi Komitəsi üzvlərinin ümumi iclaslarında iştirak etmiş və bəzən də sədrlik etmişdi[543]. O həmçinin bu təşkilatın fraksiyanın dumadankənar fəaliyyətinə kömək etməli olan daimi bürosuna da seçilmişdi[544]. Fraksiya öz fəaliyyətində əsasən kadetlərin platformasında dayanaraq Müsəlman İttifaqının göstərişlərini yerinə yetirir və birinci Duma fraksiyasının siyasətini davam etdirirdi.

Müsəlmanların parlament fraksiyası öz proqramını tərtib etmiş və ayrıca kitabça şəklində çapdan buraxmışdı[545]. 11 bölmədən ibarət olan proqramda vətəndaşların hüquqları müəyyən edilir, dövlət və din quruluşuna, yerli özünüidarəetməyə, məhkəməyə, xalq maarifinə, maliyyə və dövlət iqtisadiyyatına, kəndli və fəhlə məsələsinə dair müddəalar, fraksiyanın əsas siyasi məqsədləri və

---

[536] "İrşad" qəzeti, 27 fevral 1907-ci il.
[537] "Каспий" qəzeti, 27 fevral 1907-ci il.
[538] "Каспий" qəzeti, 27 fevral 1907-ci il.
[539] Dövlət Duması: Stenoqrafik hesabatlar, SPb., I cild, sütun 26.
[540] "Каспий" qəzeti, 27 fevral 1907-ci il; "İrşad" qəzeti, 27 fevral 1907-ci il.
[541] "İrşad" qəzeti, 27 fevral 1907-ci il.
[542] Yenə orada, 25 fevral 1907-ci il.
[543] "Каспий" qəzeti, 8 aprel 1907-ci il.
[544] "Каспий" qəzeti, 20 aprel 1907-ci il.
[545] Программа Мусульманской парламентской фракции. СПб., 1907.

vəzifələri ifadə olunurdu. Fraksiya Rusiyanın bütün müsəlman vətəndaşlarını, siyasi əqidəyə görə həmfikirləri Rusiya imperiyasının idarə olunması formasının dəyişdirilməsinə səy göstərməyə çağırırdı. Məqbul forma konstitusiyalı parlament monarxiyası hesab olunurdu. Bu zaman ali dövlət hakimiyyəti konstitusiya ilə hüquqları məhdudlaşdırılmış padşaha və bir palata - xalq nümayəndələrinin "ümumi, bərabər, birbaşa və gizli səsvermə" yolu ilə seçildikləri Ümumrusiya Dövlət Duması və ya Ümumrusiya parlamenti şəklində xalq nümayəndəliyinə verilirdi. Fraksiya Dumada müsəlmanların nümayəndəliyi məsələsinə qayıdaraq onu Rusiyanın müsəlman əhalisinin sayına proporsional miqdarda müəyyən edirdi. Proqramda həmçinin XX əsrin əvvəllərində dəfələrlə Azərbaycan sahibkarları və onların ideoloqları tərəfindən təqdim olunan petisiyaların müddəaları ilə uyğun olan aşağıdakı tələblər də var idi - müsəlmanların siyasi və vətəndaş hüquqlarının Rusiyanın qalan əhalisinin hüquqları ilə bərabərləşdirilməsi və bu hüquqların imperiyanın əsas qanunlarına daxil edilməsi, ibtidai məktəbdə icbari, ümumi və pulsuz təhsilin tətbiqi, ana dilində təhsilin təmin edilməsi, seçkili hakimlər və andlı iclasçıların iştirakı ilə məhkəmələr təsisatının yaradılması, bütün yerli nümayəndəli orqanlarda, ümumi məhkəmələrdə dövlət dili ilə yanaşı imperiyanın müvafiq vilayətində üstünlük təşkil edən millətin dilinin də işlənməsi və s. Proqram aqrar siyasəti sahəsində torpağın özgəninkiləşdirilməsi və onun əvəzinin sahiblərinə ədalətli qiymətlə ödənilməsi barədə kadetlərin tələbini təkrarlayırdı.

Müsəlman ucqarlarının nümayəndələri siyasi və vətəndaş hüquqlarının bərabərliyinə, fəhlə ittifaqlarının, yığıncaqlarının azadlığına və tətil hüququna, 8 saatlıq iş gününə tərəfdar çıxaraq eyni zamanda "cümə günlərində müsəlman fəhlələrə qanunvericilik qaydasında istirahət verilməsini, müsəlmanların xristian bayramlarını keçirmək vəzifəsindən azad edilməsini" tələb edirdilər.

Fraksiya hökumətə loyal münasibətini Dumanın elə ilk iclaslarında nümayiş etdirmişdi. Nazirlər Şurasının sədri P.A.Stolıpinin martın 6-da Dumanın iclasında elan etdiyi hökumətin bəyannaməsini sükutla qarşılamaq barədə kadetlərin ideyasını müdafıə edən F.Xoyski fraksiyanın adından bildirmişdi ki, dinlənilmiş bəyannamə "hökumətin gələcəkdə öz siyasətini həyata keçirmək üçün nəzərdə tutduğu yolu müəyyən edir" və fraksiya "nazirlik tərəfindən Dumaya ayrı-ayrı qanunvericilik layihələri təqdim olunanadək nazirliyin bəyannaməsi haqqında mülahizələrini təxirə salmağı daha məqsədəuyğun sayır"[546]. Kadetlər və onların müsəlman ucqarlarından olan həmfikirləri kəskin məsələlərdən qaçmağa və bəyannaməni müzakirə etmədən növbəti işlərə keçməyə tələsdilər[547]. Ə.M.Topçubaşov bu taktikanı qiymətləndirərək yazırdı: bununla Duma sübut etdi ki, "onun işlərinin planauyğunluğu hələlik möhkəm həyati əsası olmayan mülahizələr və fikirlər ilə pozula bilməz və pozulmamalıdır"[548]. Ə.Ağayev II

[546] Dövlət Duması. Stenoqrafik hesabatlar, SPb., 1907, I cild sütun 131 arxada.
[547] Yenə orada.
[548] "Каспий" qəzeti, 10 mart 1907-ci il.

Dumada kadetlərin mövqeyinə öz münasibətini bildirərək yazırdı: "Bu partiya mahiyyətcə yalnız siyasi məqsədlər güdərək öz proqramının başında sosial-iqtisadi vəzifələr qoymuşdur. Lakin o bunu yalnız taktiki mülahizələrə görə etmişdir, onun ikili yalan mövqeyi də buradan irəli gəlir. Hər dəfə bu vəzifələr bütün kəskinliyi və təxirəsalınmazlığı ilə onun qarşısında çıxanda və qanunvericilik sanksiyası tələb edəndə bu partiya özünü itirir və "işgüzarlıqda", "praktik mülahizələrdə", "dövlət zəruriliyində" nicat axtarır. Öz proqramlarının başında torpaq məsələsini, məcburi özgəninkiləşdirməni, fəhlə məsələsini, kapital ilə əmək arasında münasibətlərin tənzimlənməsini qoymuş adamlar, Vıborq çağırışını imzalamış adamlar... indi bu məsələlər onların qarşısına çıxanda əsməyə başlayırlar və son nəticədə Stolıpinin, nümayişçiləri qovan nazirliyin, onlara divan tutan nazirliyin, hərbi-səhra məhkəmələrinin ağuşuna atılırlar. Onlar karıxmış halda kəkələyir, cənab Stolıpinin dediklərini təkrar edirlər, fərq bircə ondadır ki, Stolıpin daha maraqlı, qətiyyətli və daha istedadla danışır"[549].

1907-ci ilin martında müsəlmanların parlament fraksiyasında parçalanma baş verdi. Fraksiyanın bir neçə üzvü, dəqiq desək, Xasanov, Zeynalov, Atlasov, Nemetdinov, Maqasutov[550] bildirdilər ki, onlar qatı kadetlər "və konstitusiyalı demokratiya proqramına qoşulan deputatlar ilə sosialistlərin birlikdə olmasından əldə edilən işin"[551] məhsuldarlığına inanmırlar. Özlərini kəndlilərin nümayəndələri hesab edən deputatlar hər şeydən əvvəl ondan narazı idilər ki, fraksiya əsas məsələnin - aqrar məsələnin müzakirəsini uzadırdı, "torpağın məcburi surətdə özgəninkiləşdirilməsinə"[552] tərəfdar çıxmağa tələsmirdi, "fəhlələri və kəndliləri tamamilə yaddan çıxarmışdır və proqram yalnız varlılar və zadəganlar üçün yaradılmışdır"[553]. Onlar öz seçicilərinə müraciət edərək onları bütövlükdə fraksiyadan ayrılmağa və trudoviklərə qoşulmağa məcbur etmiş səbəbləri şərh etdilər və trudoviklərin platformasına əhalinin ana dilində təhsili tələbini əlavə edəcəkləri barədə vəd verdilər. Yeri gəlmişkən deyək ki, onların bu hərəkəti seçiciləri tərəfindən də bəyənilmişdi. Bunu seçicilərin məktubları da sübut edirdi[554]. Bu deputatlar öz izahatlarında yazırdılar ki, "rus müsəlmanlarının rəhbər dairələri" müsəlman əhalisinin müxtəlif təbəqələrində öz mənafelərinin kifayət qədər dərk olunmasından istifadə edərək, mülkədar və kəndli müsəlmanın mənafelərinin zahiri eyniliyini iddia edir, habelə müsəlmanları "azadlıq uğrunda mübarizə aparan başqa millətlərin" sırasından ayırmaq zəruriliyini elan edir, bununla da onları "Rusiyanın başqa millətlərinin siyasi cəhətdən şüurlu ünsürlərinin" təsirindən qoruyurdular. Qrup etiraf edirdi ki, onun irəli sürdüyü

[549] "Прогресс" qəzeti, 16 mart 1907-ci il.
[550] "Прогресс" qəzeti, 1 aprel 1907-ci il.
[551] "Прогресс" qəzeti, 21 mart 1907-ci il.
[552] "Каспий" qəzeti, 21 mart 1907-ci il.
[553] "Прогресс" qəzeti, 16 mart 1907-ci il.
[554] "Прогресс" qəzeti, 6 aprel 1907-ci il.

tələblər "mütləqiyyət Rusiyasının tör-töküntüləri" tərəfindən maneələrlə qarşılaşacaqdır. Bu tələblərin yerinə yetirilməsini onlar "xalq kütlələri arasında sıx qarşılıqlı fəaliyyət və bu kütlələrin Dumanın xalq tələbləri ətrafında birləşməsi" ilə əlaqələndirərək bunu həmin tələblərin həyata keçirilməsinə doğru "əvvəl atılmış ilk və zəruri addımlar" hesab edirdilər. Onlar "demokratik kütlələri"[555] fəal mübarizəyə deyil, Duma ilə dinc əməkdaşlığa çağırırdılar. Vahid fraksiyada birləşmək onlarda şübhə doğururdu. "Rus" qəzeti onların sözlərinə isnad edərək yazırdı ki, "milli qruplar yalnız sırf milli məsələyə baxılınca mümkündür"[556].

Martın 11-də Z.Zeynalovun başçılıq etdiyi əməkçi müsəlman fraksiyasının Dumanın əməkçi qrupu ilə birləşməsi barədə bəyanat verildi[557]. "Kaspi" qəzetində dərc olunmuş bəyanatda bununla yanaşı bildirilirdi: "Əməkçi xalq içindən seçilmiş biz deputatlar müsəlman fraksiyası ilə ancaq iqtisadi və siyasi məsələlərdə düz gəlmirik, qalan məsələlərdə, sırf müsəlman məsələlərində isə rus müsəlmanlarının arzusuna uyğun olaraq müsəlman fraksiyası ilə birlikdə fəaliyyət göstərəcəyik"[558]. Qalan məsələlər dedikdə "vəqfin mahiyyəti və hüquqi normalarını aydınlaşdırmaq üçün" və "müsəlmanların vətəndaş hüquqlarının məhdudlaşdırılması məsələsini aydınlaşdırmaq üçün"[559] fraksiyanın yaratdığı komissiyalarda iştirak nəzərdə tutulurdu. 1907-ci ilin aprel-may aylarında Z.Zeynalov və Q.Xasanov Peterburqda "Duma" qəzetini nəşr edirdilər. Onlar qəzetin səhifələrində oxucuları Dumada müzakirə edilən məsələlərə fraksiyanın münasibəti ilə imkan qədər daha tam şəkildə tanış etməyə çalışırdılar. Məsələn, qəzetdə Z.Zeynalovun Bakı fəhlələrinin vəziyyətinə həsr olunmuş yazıları dərc edilmişdi[560].

Özlərini "solların gənc tatar partiyasına" aid edən F.Xoyski və X.Xasməmmədov fraksiyanın proqramını "varlılar və zadəganlar üçün"[561] olan proqram elan edərək bunu tam şəkildə qəbul etmədilər. Belə olan təqdirdə Müsəlman İttifaqının Mərkəzi bürosu müsəlman fraksiyasının üzvlərinə müraciət etdi. Mərkəzi büro proqramın müəyyən "qüsurlarını" etiraf edərək bütün müsəlmanları onun müddəalarını rəhbər tutmağa çağırdı[562].

Azərbaycan deputatları xalq azadlığı partiyasından Dumanın müxtəlif komissiyalarına seçilmişdilər. Məsələn, bu partiyanın Dumadakı parlament fraksiyasının üzvü olan M.Şahtaxtinski aşağıdakı komissiyaların tərkibinə daxil idi: milli-dini bərabərlik komissiyası, yerli özünüidarəetmə komissiyası, zemstvo müəssisələrinə seçkilər haqqında qanun layihəsinin hazırlanması üzrə komissiya,

---

[555] "Прогресс" qəzeti, 6 aprel 1907-ci il.
[556] "Русь" qəzeti, 19 mart 1907-ci il.
[557] Колесниченко Д.А. Трудовики в период первой российской революции. Л., 1985, cəh. 307.
[558] "Каспий" qəzeti, 5 aprel 1907ci il, 8 aprel 1907-ci il, "Прогресс" qəzeti, 1 aprel 1907-ci il.
[559] "Каспий" qəzeti, 21 mart 1907-ci il; "Proqress" qəzeti, 1 aprel 1907-ci il.
[560] Периодическая печать Азербиджана (1832-1920 гг.). Библиография. Tərtibçi N.Axundov. Bakı, 1987, səh. 71.
[561] "Каспий" qəzeti, 18 mart 1907-ci il.
[562] "Каспий" qəzeti, 7 aprel 1907-ci il.

aqrar komissiyası, kəndli məsələsi üzrə komissiya, kəndlilərin hüquq bərabərliyi üzrə komissiya, qanunvericilik komissiyası, xalq təhsili üzrə komissiya və şəhər özünüidarəetməsi üzrə komissiya[563]. Deputatlar X.Xasməmmdov və F.Xoyski milli-dini bərabərlik komissiyasının üzvü idilər[564].

Martın 9-da kadetlər növbəti hiyləyə əl ataraq hərbi-səhra məhkəmələrinin ləğvi barədə qanun layihəsini baxılmaq üçün Dumaya təqdim etdilər. Onlar yaxşı bilirdilər ki, 1906-cı ilin avqustunda tətbiq edilmiş hərbi-səhra məhkəmələrinin qüvvədə olma müddəti 1907-ci il aprelin 20-də başa çatır. Onlar ayrıca qanun layihəsi ilə çıxış etdilər, bu sənəd Duma tərəfindən qəbul edildi, mayda isə Dövlət Şurası tərəfindən rədd edildi[565]. M.Mahmudov və M.Şahtaxtinski hərbi-səhra məhkəmələrinin ləğvinə tərəfdar çıxdılar. M.Şahtaxtinski yazırdı: "Qanun ilə Dumanın hüququ var ki, mövcud daimi qanunları ləğv etsin. Buna görə də onlar hərbi-səhra məhkəmələri haqqında bu müvəqqəti qanunun da ləğvini tələb etdilər. Bəs nə oldu? Nazirlik Dumanın tələbinə qoşulmadı, səhra məhkəmələrinin ləğvi barədə təklif keçmədi". Daha sonra o etiraf edirdi: "Deməli, bu hadisədə olduğu kimi, qanunun hərfi də olmasa, ruhu Dumanın arxasında dayandığı vaxtda da o öz qanunvericilik fəaliyyətini həyata keçirmək üçün maneələrlə rastlaşır"[566]. Deputatlar F.Xoyski, M.Mahmudov, X.Xasməmmədov hərbi nazirə müraciət edərək Qafqaz hərbi-səhra məhkəməsi tərəfindən ölüm cəzasına məhkum olunanların cəzasını yüngülləşdirmək barədə vəsatət qaldırdılar. Lakin bu müraciət qəbul olunmadı[567].

1907-ci il martın 21-də kadetlər parlament fraksiyasının iclasında qərara aldılar ki, Dumanın vicdan azadlığı və milli bərabərlik komissiyasına seçkilərdə təkcə partiyalılıq prinsipini deyil, həm də milli və dini mənsubiyyət prinsipini rəhbər tutsunlar. Bunun əsasında qərara alındı ki, 15 nəfərin, o cümlədən də üç müsəlmanın daxil olduğu komissiya seçilsin"[568].

Martın 23-də kadetlərin milli-dini bərabərlik haqqında parlament komissiyasının iclasında müsəlmanların yardımçı komissiyasının məruzələri dinlənildi. M.Şahtaxtinski də çıxış etdi. O, qırğızların nümayəndəsi Qarabayevi müdafiə edərək şəhər özünüidarəsi, xalq təhsili və dövlət qulluğu sahəsində müsəlmanların məhdudiyyətləri üzərində dayandı. Komissiya milli-dini qrupların nümayəndələrinə təklif etdi ki, ləğv edilməli olan məhdudlaşdırıcı qanunların maddələr üzrə siyahısını tərtib etsinlər[569]. Müsəlman fraksiyası gələcəkdə bu məhdudiyyətləri ləğv edən qanun layihəsini hazırlamaq üçün komissiya

---

[563] RFDA, fond 523, siyahı 1, iş 22, vərəqlər 12, 16, 19, 34, 37, 51, 52 arxada, 54, 56 arxada, 58, 59.
[564] RFDA, fond 523, siyahı 1, iş 22, vərəq 12.
[565] Колесниченко Д.А. Göstərilən əsər, səh. 219.
[566] "Прогресс" qəzeti, 23 mart 1907-ci il.
[567] "Каспий" qəzeti, 20 aprel 1907-ci il.
[568] RFDA, fond 523, siyahı 1, iş 1, vərəq 60 arxada.
[569] "Каспий" qəzeti, 5 aprel 1907-ci il.

yaratmaqda və bu komissiyaya siyahını tərtib etməyi tapşırmaqda tələsdi[570]. Bu, növbəti formal bir addım oldu. Kadetlərin millətlərə münasibətində nə dərəcədə ardıcıl olduqlarını 1907-ci ilin aprelində fraksiyanın iclasında M.Şahtaxtinskinin çıxışı sübut edir. Ümumi seçki hüququ barədə qanun layihəsi ətrafında söhbət getmiş həmin iclasda M.Şahtaxtinski qanun layihəsinin milli ehtiyaclara toxunmadığı üzərində dayanmış və qeyd etmişdi ki, konstitusiyalı demokratlar fraksiyası müsəlmanlara kifayət qədər diqqət yetirmir[571]. Fraksiyanın fəal üzvlərindən biri N.V.Teslenko buna cavab verərək bildirmişdi ki, kadetlərin dəfələrlə müsəlmanlara müraciət etdiklərinə baxmayaraq müsəlmanlar guya heç bir konkret təklif hazırlamamışlar. Qərara alınmışdı ki, müsəlmanlar qanun layihəsinin hazırlanmasına cəlb edilsinlər[572].

Müsəlman deputatlarının müxtəlif məsələlər üzrə çıxışları məhz konkret təkliflərin hazırlanmasına sübutdur. Məsələn, aclıq çəkənlərə və işsizlərə kömək məsələsinin müzakirəsində Z.Zeynalov trudovikləri müdafiə etdi. Kadetlərin bu zavallıdarı bir-birindən ayırmaq təklifini rədd edən Z.Zeynalov onlara kömək göstərmək üçün vahid komissiya yaradılmasını təklif etdi. O, Dumaya məlumat verdi ki, onu yola salarkən seçiciləri ona tapşırıq verərək demişdilər: "Bizə torpaq lazımdır, bizə azadlıq lazımdır, bizə çörək lazımdır, bizə iş lazımdır"[573]. O öz çıxışında konkret dəlillər gətirərək göstərdi ki, tətil edən çörək ilə təmin olunmasa, aclıq çəkənə doymaq imkanı verilməsə tətillərin qarşısını almaq mümkün olmayacaqdır. Bu fikri kadetlərin təkliflərinə qarşı çıxmış sosial-demokratlar da açıq müdafiə etdilər. Yalnız "sənaye böhranından" zərər çəkmiş işsizlərə kömək göstərməyi təklif etmiş kadetlər bununla inqilabi nümayişlərdə, tətillərdə iştirak etdiklərinə görə işdən çıxarılanları istisna edirdilər. Duma səs çoxluğu ilə bu məsələ üzrə kadetlərin qətnaməsinə düzəliş edərək "sənaye böhranından zərər çəkmiş" sözlərini çıxardı[574]. Bu məsələnin müzakirəsində M.M.Şahtaxtinski də çıxış etdi. O, aclıq çəkənlərə kömək üçün xüsusi parlament komissiyasının yaradılması fikrinə qoşuldu. O, Qafqazda aclığın səbəblərini zemstvonun olmamasında, məhsul qıtlığında, millətlərarası münaqişələrdə və s. gördüyünü bildirdi[575]. O etiraf edərək söylədi: "Bu Dumanın iç üzü onda bilindi ki, Dumanın iclasında ərzaq işini Dumanın bilavasitə öz əlinə götürməsi tələbi onun tərəfindən rədd edildi və aclıq çəkənlərə kömək üçün dövlət tərəfindən buraxılan məbləğlərin xərclənməsi üzərində nəzarət komissiyasının təsis edilməsi barədə deputat Rodiçevin təklifi xalq nümayəndələrinin sanksiyasını aldı. Qanunun ruhuna və

[570] "Каспий" qəzeti, 13 aprel 1907-ci il.
[571] RFDA, fond 523, siyahı 1, iş 1, vərəq 76 və arxada.
[572] RFDA, fond 523, siyahı 1, iş 1, vərəq 76 və arxada.
[573] "Каспий" qəzeti, 21 mart 1907-ci il.
[574] Колесниченко Д.А. Göstərilən əsər. səh. 215.
[575] Dövlət Duraası. Stenoqrafik hesabatlar, 1907,1 cild, sütun 436-437.

hərfinə tam uyğun olan belə bir komissiya xalqa xidmət göstərəcəkdir"[576]. M.Şahtaxtinski bu komissiyaya Qafqaz nümayəndələrinin daxil edilməsini təklif etdi[577]. İşsizlərə kömək göstərilməsi üzrə komissiyanın üzvü M.Mahmudov "Proqress" qəzeti vasitəsilə oxuculara müraciət etdi ki, işsizlər və onlara zəruri köməyin məbləği haqqında məlumatlar göndərsinlər[578].

Deputatların torpaq məsələsində mövqeyi əvvəlki Dumada olduğu kimi sinfi cəhətdən ziddiyyətli idi. Müsəlman fraksiyası onun müzakirəsinə böyük əhəmiyyət verirdi. Aqrar komissiyasının fəaliyyətində iştirak etmək üçün Bakıdan Ə.Topçubaşov, Q.Qarabəyov, B.Axundov dəvət olunmuşdular[579]. Müsəlman fraksiyası adından F.Xoyski çıxış etdi. Kifayət qədər geniş bəyanatında o bildirdi ki, "kəndlilər, şübhəsiz ki, dövlətin elə bir əsası, elə bir bazisidirlər ki, bu skamyalarda oturanların hamısı ona xidmət etmək üçün toplaşmışdır. Buna görə də torpaq məsələsi son dərəcə mühüm, son dərəcə təxirəsalınmazdır və elə həmin dərəcədə də mürəkkəbdir". F.Xoyski hökumətin kəndli torpaq bankı əməliyyatı və köçürmə yolu ilə kəndlilərin torpaq məsələsini həll etmək niyyəti ilə razı olmadığını bildirdi. O, sözünə davam edərək bildirdi ki, bankın əməliyyatları qiymətlərin artmasına gətirib çıxardı və nəticədə torpaq "təmin olunanların" əlinə keçdi və "aztorpaqlılar və torpaqsızlar" kənarda qaldı. O, çarizmin köçürmə siyasətinin xarakterini açıb göstərməyə çalışmadan eyni zamanda yerli əhalinin mənafelərinin sıxışdırılması hesabına bu siyasətin həyata keçirilməsini tənqid etdi və torpaq məsələsinin qəti həllinədək köçürməni dayandırmağı təklif etdi. Daha sonra o, fraksiyanın birinci Dumada hazırladığı aqrar proqramını faktiki olaraq təkrar edib "torpaqların məcburi özgəninkiləşdirilməsi və onların əvəzinin ədalətli qiymətlə ödənilməsinə" yenə də tərəfdar çıxdı, kadetlərin mülahizələrini tamamilə müdafiə etdi. O bildirdi: "Lakin müsəlman qrupu hesab edir ki, özgəninkiləşdirilən torpaqlar ümumdövlət torpaq fondunun yox, hər bir müvafiq vilayətin hüdudlarında vilayət torpaq fondunun torpaqları olmalıdır, vilayət hüdudlarında torpağın bölüşdürülməsi və əhalinin yerləşdirilməsi məsələsi isə ən demokratik prinsiplər əsasında təşkil edilmiş vilayət özünüidarəetmə orqanlarının ixtiyarına verilməlidir"[580]. V.İ.Lenin "1905-1907-ci illərdəki birinci rus inqilabında sosial-demokratiyanın aqrar proqramı" əsərində "nasionalların" Dumada aqrar məsələsinə dair çıxışlarının icmalını verərkən, F.Xoyskinin yuxarıdakı bəyanatına xüsusilə diqqəti cəlb edərək yazmışdı ki, onlar "müxtəlif "ölkə" və "vilayət" fondlarını mühafizə etməyi "öz öhdələrinə almışlar". Həm də əyalətləşdirmənin ... aqrar məzmununu nasionallar kənara atıb dedilər: heç bir məsələ qabaqcadan həll

[576] "Прогресс" qəzeti, 23 mart 1907-ci il.
[577] "Каспий" qəzeti, 17 mart 1907-ci il.
[578] "Прогресс" qəzeti, 1 aprel 1907-ci il.
[579] "Баку" qəzeti, 7 mart 1907-ci il.
[580] Dövlət Duması. Stenoqrafik hesabatlar, 1907, I cild, sütun 581.

olunmasın, hamısı - ödənc məsələsi də, mülkiyyət məsələsi də və s. - muxtar seymlərin və ya vilayət və i.a. özünüidarələrinin sərəncamına verilsin"[581].

M.Şahtaxtinski insan üçün xüsusi mülkiyyətin zəruriliyini elan etdi. "Buna görə də mən xalq nümayəndələrinin o hissəsi ilə birlikdəyəm ki, onlar vacib şərt kimi xüsusi sahibkar torpaqlarının pulsuz yox, ədalətli qiymətlə məcburi özgəninkiləşdirilməsini tələb edirlər". O, kabinet və udel torpaqlarını da xüsusi sahibkar torpaqlarına aid edirdi. O, kilsə və monastır torpaqları barədə susaraq bununla vəqf torpaqlarının özgəninkiləşdirilməsini də istisna edirdi. Onun üçün vəqf torpaqları toxunulmaz idi[582].

Aqrar məsələ müzakirə edilərkən başçılıq etdiyi əməkçi müsəlman fraksiyası adından Z.Zeynalov çıxış etdi. O, Bakı quberniyası kəndlilərinin vəziyyəti üzərində ətraflı dayanaraq qeyd etdi ki, onlar heç bir qiymətlə torpaq sahələrini almaq iqtidarında deyillər. Kəndlilərə torpaqları pulsuz vermək lazımdır. Bunun üçün "xüsusi sahibkar torpaqları məcburi surətdə özgəninkiləşdirilərək Rusiyanın bütün vətəndaşları üçün xalq fonduna"[583] keçirilməlidir. Z.Zeynalov şəxsi mülkiyyətə, hər cür ödəncə qarşı çıxdı. Dumanın aqrar komissiyasında o, neft və zavod tikililəri üçün Bakı quberniyası torpaqlarının kəndlilərin əlindən alınması faktları barədə bəyanat verdi[584], yerli torpaq komitələrinin yaradılması məsələsində trudovikləri müdafiə etdi[585]. V.İ.Leninin sosial-demokrat fraksiyası üçün yazdığı "İkinci Dövlət Dumasında aqrar məsələsinə dair nitqin layihəsi"ndə "ümumi, müstəqil, bərabər və gizli səsvermə"[586] ilə seçilmiş yerli torpaq komitələrinin yaradılmasına böyük diqqət yetirilmişdi. Bu layihə Z.Zeynalovun çıxışında səslənən müddəalar ilə səsləşirdi və mülkədar torpaqlarının müsadirə edilməsi barədə bolşevik tələbini irəli sürürdü.

Aqrar müzakirələr uğursuz başa çatdı. Əvvəlki Dumada olduğu kimi, bu müzakirələr də növbəti işlərə keçid formulunun qəbul edilməsi ilə bitdi. Həmin formula isə kadetlər mülkədar torpaqlarının məcburi surətdə özgəninkiləşdirilməsi tələbini daxil etməyi lazım bilmədilər.

Müsəlman fraksiyasının iclaslarında vicdan azadlığı, yerli məhkəmə, özünüidarəetmə, seçki qanunu, müsəlman idarələrinin yenidəntəşkili barədə qanun layihələri müzakirə edilmişdi[587]. Fraksiya vəqf torpaqları haqqında qanun layihəsində məscidlərin bu gəlirə iddialarını dəf edərək vəqf komissiyasının, vəqf əmlakı idarəsinin ləğvini tələb etmişdi[588]. Bu qanun layihəsi fraksiyanın özgə xalqlar üçün ümumi hüquqi və dini məhdudiyyətlərin müfəssəl aydınlaşdırılmasına

---

[581] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 16-cı cild, səh. 427.
[582] Dövlət Duması. Stenoqrafik hesabatlar, 1907, I cild, sütun 1817.
[583] Dövlət Duması. Stenoqrafik hesabatlar, 1907, I cild, sütun 1958.
[584] "Каспий" qəzeti, 7 aprel 1907-ci il, "Баку" qəzeti, 7 aprel 1907-ci il.
[585] RFDTA, fond 1278, siyahı 1907, 2-ci çağırış, iş 788, vərəq 16 arxada.
[586] V.İ.Lenin. Əsərlərinin tam külliyatı, 15-ci cild, səh. 170.
[587] "Каспий" qəzeti, 6 may 1907-ci il.
[588] "Каспий" qəzeti, 3 iyun 1907-ci il.

yönəlmiş geniş fəaliyyətinin yalnız bir fraqmenti idi. Bu fəaliyyət müsəlmanların hüquqlarındakı məhdudiyyətlərin ləğvi barədə qanun layihəsinin tərtibi ilə başa çatmalı idi[589].

Deputatlar əvvəllər petisiyalarda qaldırılmış problemlər - diyarda zemstvonun, yerli özünüidarəetmənin, ümumi ibtidai təhsilin tətbiqi və s. problemlər üzərində dəfələrlə dayanmışdılar. Azərbaycandan olan bütün deputatlar "onların dinində müqəddəs sayılan" günlərdə ticarət və sənaye sahəsindəki qulluqçulara hər həftə istirahət verilməsi barədə mayın 21-də Dumaya yekdilliklə müraciət etmişdilər.

F.Xoyski mayın 18-də Dumanın 173 deputatı ilə birlikdə Dövlət Dumasına müraciət edərək dini və milliyyəti ilə bağlı siyasi və vətəndaşlıq hüquqlarında məhdudiyyətlərin ləğvi barədə əsas müddəaların layihəsini təqdim etmişdi. Həmin layihədə dinindən və milliyyətindən asılı olaraq vətəndaşların bütün hüquq məhdudiyyətlərinin ümumi qanunlardan çıxarılmasının zəruriliyi, Rusiyanın bütün vətəndaşlarına yaşayış yeri seçmək, başqa yerə köçmək, peşə seçmək azadlığı, dövlət və ictimai qulluqda bərabər hüquqlar, şəxsiyyət toxunulmazlığı, söz, mətbuat, yığıncaq və birləşmək azadlığı, təhsil hüququ və s. verilməsi haqqında məsələ qoyulmuşdu. Dumanın sədri bu layihə barədə deputatlara məlumat verdi, onu müzakirəyə qoyacağını vəd etdi və bununla da məsələ bitdi[590].

Şəhər özünüidarəetməsi sahəsində məhdudiyyətlərin ləğvi məsələsi dəfələrlə Bakı və Yelisavetpol şəhər dumalarının iclaslarında müzakirə edilmişdi. Dumanın fəaliyyəti dövründə Bakı şəhər dumasının qlasnısı Ə.Ağayev 1907-ci il martın 6-da keçirilmiş iclasda demişdi: "Bütün Rusiyanın, bütün dünyanın öz əsas hüquqları uğrunda mübarizə apardığı bir vaxtda ... müsəlmanlar hər cür məhdudiyyətlərin həmişəlik ləğvini tələb etməlidirlər". O çox böyük narahatlıq ilə deyirdi ki, senat Qubada və Yelisavetpolda şəhər özünüidarəetmə orqanlarına seçkiləri ləğv etmişdir, çünki müsəlmanlardan seçilən qlasnıların sayı şəhər əsasnaməsinin 44-cü maddəsində müəyyən edilmiş normadan, yəni qlasnıların tərkibinin 1/2 hissəsindən çoxdur. Bakı şəhər dumasına seçkiləri də bu gözləyir. Buna görə də o təklif edirdi ki, müsəlmanların bütün məhdudiyyətlərinin ləğv edilməsi barədə Dövlət Dumasına müraciət etmək lazımdır. Bu məsələ ilə əlaqədar çıxış etmiş H.Z.Tağıyev qeyd etmişdi ki, əsas məsələ, yəni ictimai şəhər özünüidarəetməsinin yenidəntəşkili məsələsi Dumada həll ediləcəkdir və bu, müsəlmanlara da aid olacaqdır. Dumanın qlasnıları şəhər dumasına martın 15-də keçiriləcək seçkilərdə məhdudiyyətlərin aradan qaldırılması barədə canişinə vəsatətlə müraciət etməyi qərara aldılar[591]. Lakin bu dəfə də onların müraciətləri kağız üzərində qaldı.

---

589 Yenə orada.

590 RFDTA, fond 1278, siyahı 1, 2-ci çağırış, 1907, iş 1221, vərəq 1-4.

591 "Баку" qəzeti, 8 mart 1907-ci il.

Müsəlman fraksiyasında qadınların hüquq bərabərliyi haqqında məsələ də qaldırılmışdı. Bu məsələ üzrə müzakirə gecəyədək çəkmişdi. Bəziləri ehtiyat edirdilər ki, şüursuz kütlənin əsrlər boyu mövcud olmuş həyat tərzinə zidd olan bu qərar kütləələri fraksiyadan uzaqlaşdıracaq və fraksiya "ordusuz generallar"[592] rolunu oynayacaqdır. Molla şuraları və müxtəlif dini instansiyalar ilə çoxlu razılaşdırmadan sonra fraksiya bu qərara gəldi: qadınlara seçmək hüququ verilsin, lakin seçkiqabağı yığıncaqlar ayrı-ayrılıqda keçirilsin[593].

Fraksiyanın iclasında X.Xasməmmədov amnistiya məsələsini qaldırmış və onun Dumadan qanunvericilik yolu ilə keçirilməsi təklif edilmişdi[594].

Xalq maarifi naziri tərəfindən təqdim olunmuş qanun layihəsi barədə Dumanın xalq təhsili komissiyasının üzvü M.Mahmudov çıxış etdi. O, çoxmilyonlu müsəlman əhalisi arasında maarifin vəziyyəti məsələsinin üstündən nazirin sükutla keçməsinə narazılığını bildirərək müsəlman müəllimlərin şəraiti üzərində dayandı və diqqəti buna cəlb etdi ki, onlar "insan ləyaqətindən məhrum olmuş, xalq təhsili sahəsində bu və ya digər mövqe tutmaq hüququndan məhrum olmuş xüsusi bir təbəqə" təşkil edirlər. Onlar öz ana dillərində danışmaq hüququndan məhrumdurlar, buna görə onları təqib edirlər. M.Mahmudov qanun layihəsinin komissiyaya verilməsi barədə kadetlərin təklifini müdafiə edərək, layihəyə ümumi və icbari ibtidai təhsil haqqında tələbin daxil olunmasını təklif etdi.

Dumanın yerli məhkəmə komissiyasının məruzəsi peşəkar hüquqçular F.Xoyskidə və X.Xasməmmədovda xüsusi maraq doğurdu. F.Xoyskini narazı salan bu idi ki, islahat yalnız zemstvonun, yerli özünüidarənin tətbiq olunduğu quberniyalarda nəzərdə tutulmuşdu. İşdə bu o demək idi ki, islahat ucqarları deyil, Rusiyanın yalnız mərkəzi hissəsini əhatə etməlidir. O, barışdırıcı hakimlərin yerli sakinlərdən seçilməli olduğundan da narazı idi. Özünün mənsub olduğu zadəganlar sinfini "kəndlilərdən və dövlətin başqa ünsürlərindan daha ziyalı sinif" sayan F.Xoyski barışdırıcı hakim yerində "münasib" adam olacağından da narahatlıq keçirirdi. Onun fikrincə, "barışdırıcı hakim seçilə biləcək şəxslər dairəsini bu qədər kəskin şəkildə məhdudlaşdırmağa qətiyyən ehtiyac yoxdur və bu məqsədəuyğun deyildir"[595]. X.Xasməmmədov öz çıxışında məhkəmə icraatının yerli əhalinin dilində aparılması zəruriliyinə tərəfdar çıxdı, çünki "tərcüməçilər tərəfindən həyata keçirilən hər cür ədalət mühakiməsi, Duma komissiyasının da etiraf etdiyi kimi, həyatilikdən - canlı və birbaşa təmasdan məhrumdur"[596].

1907-ci ilin aprelində Dumada Xəzər dənizi limanlarında gəmi komandalarının tətili ilə əlaqədar sorğunun təciliiliyi məsələsi müzakirə edilmişdi.

---

[592] "Каспий" qəzeti, 21 mart 1907-ci il.
[593] "Прогрес" qəzeti, 23 mart 1907-ci il.
[594] Yenə orada.
[595] Dövlət Duması: Stenoqrafik hesabatlar. 1907, 2-ci cild, sütun 1434.
[596] Dövlət Duması. Stenoqrafik hesabatlar. 1907, 2-ci cild, sütun 1424.

Müzakirə zamanı xəbər verilmişdi ki, "baş vermiş iğtişaşlar ümumdövlət əhəmiyyətli olduğuna görə" hökumət "jandarmların əlahiddə korpusunun komandanı general-mayor Taubeni xüsusi səlahiyyətlərlə"[597] Bakıya ezam etmişdir. M.Mahmudov sorğunun təcili verilməsinə tərəfdar çıxaraq "tətil edənlər ilə komandanın yeni formalaşan heyəti arasında ola biləcək toqquşmaların qarşısını almaq üçün"[598] onu komissiyaya verməyi təklif etdi. Fəhlələr ilə sənayeçilər arasında saziş əldə olunmasına kömək edən tədbirlər hazırlanmasını təklif etmiş Z.Zeynalov da bu fikirlə həmrəyliyini bildirdi[599]. Sorğunun təcililiyi rədd edildi və o, sorğu komissiyasına verildi. Komissiya öz növbəsində "hökumətin hərəkətlərinin qanunauyğunsuzluğu barədə hökumətə sorğu təqdim etmək üçün əsas" görmədi və "sorğunu təqdim etməməyi", lakin Bakı neft sənayesinin əhəmiyyətini başa düşərək "Bakı rayonunda vəziyyət haqqında Dumaya izahat verməsini hökumətdən" xahiş etməyi qərara aldı. Komissiya bunu da əlavə etdi ki, "əmək ilə kapital arasında mübarizəyə müdaxilə etmək barədə məsələyə toxunmamaq qərara alınmışdır"[600].

Azərbaycan deputatları bir sıra daxili məsələlərin - Dumanın işinin nizamlanması, Duma dəftərxanasına seçkilərin qaydası və s. məsələlərin müzakirəsinə də biganə qalmadılar. F.Xoyski Dövlət Dumasının dəftərxanasına qulluğa götürülərkən təhsil senzinin zəruriliyini qəbul edərək dövlət qulluğu senzi ilə razılaşmadı. Onu narahat edirdi ki, ali təhsili olan, lakin heç bir dövlət qulluğunda çalışmayan, bununla yanaşı tamamilə yararlı ola bilən və şöbə müdiri yerini və başqa vəzifələri tutmaq üçün kifayət qədər praktik biliyi olan "çox böyük andlı müvəkkillər silki bütövlüklə" dəftərxanaya buraxılmaya bilərlər[601]. Bu təklif Duma tərəfindən nəzərə alındı və qəbul edildi[602].

II Dövlət Duması 103 gün yaşadı. 1907-ci il iyunun 3-də Dumanın buraxılması haqqında çar manifesti elan olundu. Manifestdə göstərildiyinə görə, Rusiyanı "sakitləşdirmək" üçün yaradılmış Duma ümidləri doğrultmadı, çünki onun tərkibinin xeyli hissəsi "qarışıqlığı artırmağa və dövlətin dağılmasına kömək etməyə" çalışırdı[603].

İstər birinci, istərsə də ikinci Duma qovularaq qarşıya qoyulmuş məsələlərdən heç birini həll etmədi. Azərbaycan nümayəndələrinin parlament tribunasından öz hüquq və imtiyazlarını genişləndirmək üçün istifadə etmək səyləri bu dəfə də faydasız oldu. Dumanın buraxılması xəbərini Azərbaycanda müxtəlif cür qarşıladılar. Yelisavetpol qubernatoru Polis Departamentinə bildirirdi ki,

---

597 Dövlət Duması: Stenoqrafik hesabatlar. 1907, 2-ci cild, sütun 1564-1565.
598 Dövlət Duması. Stenoqrafik hesabatlar. 1907, 2-ci cild, sütun 1572.
599 Yenə orada.
600 "Каспий" qəzeti, 7 aprel 1907-ci il.
601 Dövlət Duması. Stenoqrafik hesabatlar. 1907, 2-ci cild, sütun 29.
602 Yenə orada, sütun 32-33.
603 "Каспий" qəzeti, 5 iyun 1907-ci il.

"ikinci çağırış Dövlət dumasının buraxılmasına" etiraz əlaməti olaraq "Şuşa şəhərində yerli tacirlər və sənətkarlar iyunun 11-nə tətil hazırlamışlar". Buna cavab olaraq Şuşa qəza polis idarəsi "bütün yerli tacirlərə" elan etmişdi ki, "tətil keçirilərsə, onlar həbs ediləcəklər". Polis idarəsi "əhaliyə isə bildirmişdi ki, hər hansı bir manifestasiya təşkil olunarsa ən ciddi cəza tədbirləri görüləcəkdir. Bu tədbirlərə görə tətil keçirilmədi"[604]. Bakı qubernatoru 1907-ci il mayın 14-də Polis Departamentinə bildirmişdi ki, quberniyanın əhalisi Dövlət Dumasına təmkinlə yanaşır və buna görə də "əhali arasında Dumanın sessiyasının təsiri altında yüksək əhval-ruhiyyə və ya inqilabi təşviqat nəzərə çarpmır"[605]. Bakı şəhər rəisi Duma buraxıldıqdan sonra, 1907-ci il iyunun 8-də Polis Departamentindəki rəislərini sakitləşdirməyə tələsmişdi ki, onun başçılıq etdiyi rayonda sakitlikdir, Dumanın buraxılmasına əhali, "görünür, etinasız"[606] yanaşmışdır. İyunun 17-də isə canişinin dəftərxanasından Polis Departamentinə belə bir xəbər gəlmişdi ki, "sənaye fəhlələri arasında bir qədər yüksək, gözləmə əhval-ruhiyyəsini nəzərə almasaq şəhərdə və mədənlərdə sakitlikdir"[607]. Duma kampaniyalarının ikinci mərhələsi belə başa çatdı. Bu mərhələ irəli sürdüyü məsələlərin həllinə nail ola bilməyən Azərbaycan deputatlarına növbəti məyusluq gətirdi.

## § 2. III və IV Dövlət Dumaları və Azərbaycan

İkinci Duma buraxıldıqdan dərhal sonra qəzetlərdə III Dövlət Dumasına seçkilər üzrə seçki qanunu dərc olundu[608].

Yeni seçki qanununa uyğun olaraq Duma üzvlərinin ümumi sayı 524-dən 442-yə endirilmişdi. Əməkçi xalqın - fəhlə və kəndlilərin nümayəndələri hesabına mülkədarlardan və iri sahibkarlardan olan seçicilərin sayı kəskin surətdə artmışdı. Əhalinin yalnız 15 faizinin seçki hüququ var idi. Bir çox şəhərlər, o cümlədən də Bakı nümayəndəlikdən məhrum edilmişdilər. Milli ucqarlardan seçilənlərin sayı demək olar yox dərəcəsinə çatdırılmışdı. Məsələn, Orta Asiya xalqlarının, Həştərxan və Stavropol quberniyalarının köçəri əhalisinin, Zabaykalyenin qeyri-rus millətlərinin Dumada öz nümayəndələri yox idi. Qafqaz da böyük məhdudiyyətlərə məruz qalmışdı. Seçkilərin keçirilməsi üçün burada altı seçki dairəsi yaradılmışdı. Seçicilər milli əlamətə görə fərqləndirilmişdilər: Zaqafqaziyanın rus əhalisi qalan əhalidən ayrıca surətdə Dumaya bir deputat seçirdi. Seçkilər silklər üzrə keçirilirdi: torpaq sahiblərindən, şəhər seçicilərindən və kənd dairələri yığıncaqlarından. Torpaq sahiblərinin seçki qurultayında ildə azı 30 rubl torpaq rüsumu ödəyən

[604] RFDA, fond 102,4-cü kargüzarlıq, 1907, iş 19, hissə 3, vərəq 4.
[605] RFDA, fond 102, 4-cü kargüzarlıq, 1907, iş 108, hissə 65, vərəq 1.
[606] RFDA, fond 102, 4-cü kargüzarlıq, 1907, iş 108, hissə 65, vərəq 3, iş 5, hissə 2, vərəq 148 arxada.
[607] Листовки бакинских большевиков 1905-1907 гг. Bakı, 1955, səh. 269.
[608] "Каспий" qəzeti, 5 iyun 1907-ci il.

şəxslər iştirak edirdi. Bundan az rüsum vermiş şəxslər seçkilərdə müvəkkillər vasitəsilə iştirak edirdilər.

Əvvəlki Dövlət Dumalarına seçkilərdə olduğu kimi, Qafqaz canişininə ixtiyar verilmişdi ki, zəruri bildiyi hallarda eyni bir quberniyanın və ya vilayətin hüdudlarında: ayrı-ayrı qəzaları, dairələri və ya şöbələri birləşdirərək onlar üçün birləşmiş seçki qurultayları yaratsın; bir qəzanın, dairənin və ya şöbənin torpaq sahiblərini və şəhər seçicilərini başqa qəzanın, dairənin və ya şöbənin müvafiq qurultayı ilə birləşdirsin[609].

II Dumanın buraxılması xəbəri agent teleqramı vasitəsilə Bakıya çatdı. "Kaspi" qəzeti yazırdı ki, "bu çox mühüm hadisə bütün gün və bütün axşam evlərdə, klublarda və başqa ictimai yerlərdə müzakirə olundu. Hamını bir sual maraqlandırırdı: yeni seçki qanunu necə olacaq"[610]. Seçki qanunu isə onları çox məyus etməli idi: əgər əvvəlki dumalarda hər bir quberniyanın - Bakı, Yelisavetpol, İrəvan quberniyalarının hərəsinin 3 nümayəndəsi var idisə, indi bütün bu quberniyalar birlikdə yalnız 2 nümayəndə seçmişdilər, Tiflis quberniyasının isə əvvəlki dörd nümayəndəsi əvəzinə bir nümayəndəsi var idi. Say məhdudiyyətləri sosial cəhətdən yuxarı təbəqələrin nümayəndələrini narahat edirdi. "Yadda saxlayın ki, Qafqaz məhdudiyyətlərə düçar olub: 28 deputat əvəzinə o, Dumaya cəmi 10 deputat göndərəcək"[611] - deyə onlar xəbərdarlıq edir və hesab edirdilər ki, məhz bu cəhət qarşıdakı seçkilərə, xüsusən də gələcək deputatların "keyfiyyətinə" xüsusilə ciddi yanaşılmasını tələb edir. "Elə etmək lazımdır ki, indi Dumaya gedəcək on deputat əvvəlki 28 deputata bərabər olsun"[612]. Qəzet yazırdı: "Elələrini seçmək lazımdır ki, onlar üçün xalq hakimiyyəti ideyası boş bir şey deyil, onlar üçün deputat adı yalnız onların şəxsiyyətini bəzəyən, onlara şərəf gətirən yarlık deyil, bir sözlə, onlar üçün xalq qarşısında borc - müqəddəs bir anddır. Məhz bu cür seçim Qafqazı özünü məzlum hiss etməyə imkan verməz"[613]. Müəllif deputatların fəallığını təhlil edərək bu nəticəyə gəlir ki, II Dövlət Dumasında daim deputatların üçdə bir hissəsi iştirak etmirdi. O, III Dumada da belə bir vəziyyət yaranacağını, Dumanın fəal hissəsini yalnız 280-ə yaxın adamın təşkil edəcəyini güman edərək yazırdı ki, Qafqazdan olan 10 deputat Dumada əvvəlki beş faiz əvəzinə təxminən dörd faiz təşkil edəcəkdir. Qəzet bu nəticəyə gəlirdi ki, "deməli, Qafqazdan olan gələcək deputatların fəallığı yeni seçki qanununun təsirini zərərsizləşdirə bilər. Beləliklə, tale öz əlimizdədir və biz daha yaxşı gələcəyə inamla vətəndaşları yeni seçki kampaniyasında iştirak etməyə çağırırıq"[614]. "Kaspi" qəzetinin məqalələrindən biri bu seçkilərdə və təbii ki, III Dumada Bakının tutduğu yerə həsr

609 "Каспий" qəzeti, 5 iyun 1907-ci il.
610 "Каспий" qəzeti, 5 iyun 1907-ci il.
611 "Бакинец" qəzeti, 24 sentyabr 1907-ci il.
612 "Каспий" qəzeti, 24 iyun 1907-ci il.
613 "Каспий" qəzeti, 24 iyun 1907-ci il.
614 "Каспий" qəzeti, 24 iyun 1907-ci il.

olunmuşdu. Məqalədə qeyd olunurdu ki, əgər əvvəllər Bakının və Bakı quberniyasının hərəsinin Dumada bir nümayəndəsi vardısa, indi seçkilərdəki vəziyyət başqadır. Bu vəziyyətin öz xüsusiyyətləri var və həmin xüsusiyyətlər ondan ibarətdir ki, Dumanın üzvləri arasında milli hədd qoyulacaqdır: "Bu dairədə (Bakı, İrəvan, Yelisavetpol quberniyaları nəzərdə tutulur - D.S.) seçilən iki deputatdan biri müsəlman, yəni yerli tatar əhalisindən və ona qohum müsəlman tayfalarından olmalıdır, o birisi isə başqa millətlər ilə təmsil olunacaqdır"[615]. Daha sonra göstərilirdi ki, qanun ikinci deputatın başqa millətlərin hansına mənsubluğunu müəyyən etməsə də, üç quberniyanın etnoqrafik tərkibini nəzərə alaraq təxmin etmək olar ki, deputat ermənilərdən olmalıdır[616]. Vəzifə "indiki vaxtda xalq deputatı qarşısında irəli sürülən maksimum keyfiyyətlərə malik"[617] bir nümayəndə tapmaqdan ibarətdir. Məqalədə ticarət və sənayedə Bakının üstün mövqeyi etiraf edilərək diqqət buna cəlb edilirdi ki, belə bir vəziyyət Bakıya seçki səslərinin ehtiyatını təmin edə bilər və ona "ilk növbədə hər şeyi həll etməyə qadir olan fəallıq və siyasi mənlik şüuru" verə bilər. Rus əhalisindən olan deputat da bakılı olmalıdır[618]. Lakin məqalə müəllifinin bu proqnozları həyata keçmədi...

1907-ci il iyunun 3-də təsdiq olunmuş Dövlət Dumasına seçkilər haqqında əsasnamənin 25-ci maddəsində göstərilirdi ki, Bakı, Yelisavetpol, İrəvan quberniyaları üçün ümumi olacaq seçki yığıncağında seçkilərin keçirilməsinə nəzarət Yelisavetpol qubernatoruna həvalə olunur, yığıncaq isə Yelisavetpol şəhərində çağırılır[619]. Nəticədə də əvvəllər II Dövlət Dumasının deputatı olan Xəlil bəy Xasməmmədov yuxarıda sadalanan quberniyaların müsəlman əhalisi tərəfindən üçüncü Dövlət Dumasına deputat seçildi.

Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələrini yeni Dumanın necə olacağı sualı narahat edirdi. "Bu - Purişkeviçlərin, Kruşevanların Duması olacaq, yaxud «a la» zemstvo qurultayı və ya da əksinə olacaq?"[620]. "Kaspi" qəzeti quberniya seçki yığıncaqlarında seçicilərin təhlilinə isnad edərək belə bir nəticəyə gəlirdi: "Torpaq sahibləri və iri şəhər mülkiyyətçiləri özlərinə mütləq əksəriyyəti təmin edirlər". Qəzet etiraf edirdi ki, "kəndlilər və fəhlələr şəhərin xırda təbəqələri ilə birlikdə hər yerdə azlıq təşkil edirlər. Deməli, Dumanın gələcək tərkibi sosial qruplaşma cəhətdən bir növ burjua təbəqələrinin xeyrinə olacaq"[621].

Qəzet Dumanın buraxılması barədə manifestə müraciət edərək yazırdı ki, "Rusiya birinci və ikinci Dumanın mövcud olduğu zaman özü üçün hər cür

---

615 "Каспий" qəzeti, 28 iyun 1907-ci il.
616 "Каспий" qəzeti, 28 iyun 1907-ci il.
617 Yenə orada.
618 "Каспий" qəzeti, 28 iyun 1907-ci il.
619 "Бакинские губернские ведомости" qəzeti, 30 iyul 1907-ci il.
620 "Каспий" qəzeti, 19 iyul 1907-ci il.
621 "Каспий" qəzeti, 19 iyul 1907-ci il.

konstitusiyada labüd olan şərait yaratmağa macal tapmadı"[622]. Bu ona gətirəcəkdir ki, III Dumadakı partiyalar, öz "dünyagörüşlərinə" görə bir-birindən uzaq olan, lakin konstitusiya təminatlarının zəruriliyində yekdil olan partiyalar birləşəcəklər. "Sonra isə biz öz mənafelərimizi müdafiə edəcəyik". Həm də belə bir cəhət göstərilirdi: "Əgər torpaq sahibləri arasında mütərəqqi cərəyanlar hökmranlıq etsə, onda seçicilərin hazırkı bölgüsündə də müxalifətçi Duma yarana bilər"[623]. Beləliklə, üçüncü Dumada da varlı siniflər üstünlük təşkil edəcək, onların mənafeləri ifadə olunacaq, idarəetmənin konstitusiya forması müdafiə ediləcək - proqnoz belə idi.

Peterburq teleqraf agentliyi yeni seçki qanununa həsr olunmuş məqalədə bütün əhalini tamamilə rəsmi surətdə "mədəni və ictimai cəhətdən sabit" əhaliyə və "qeyri-mədəni,... dövlət idarəetmə işlərini başa düşməyə qətiyyən hazır olmayan və xeyli hissəsi ən adi təhsildən məhrum olan"[624] əhaliyə bölürdü. Qeyd olunurdu ki, yeni qanun dövlətin ucqarlarından – Polşadan və Qafqazdan nümayəndələrin sayını azaltmışdır. Bu regionlar guya "imperiya ilə o qədər də birləşməmişlər ki, onların deputatları öz mənafeləri ilə əsas əhalinin mənafelərinin ümumiliyini başa düşsünlər. Vətəndaşlıq cəhətdən qətiyyən inkişaf etməmiş ucqarlarda, Türküstanda, səhra vilayətlərində və Yakutiya vilayətində isə seçkilər müvəqqəti dayandırılır"[625]. Hökumət bildirirdi ki, bu məhdudiyyətlər hesabına onun qanunu "yerli özünüidarəetmə sahəsində artıq təcrübəsi olan və dinc sakit işə vərdiş etmiş nümayəndələrdən ibarət Dövlət Duması yaranacağını vəd edir"[626].

III Dövlət Duması 1907-ci il noyabrın 1-də açıldı. Dumanın elə ilk iclaslarında Dumanın sədri, onun müavinləri, katib və onun köməkçiləri seçildilər. Əvvəlcə N.A.Xomyakov sədr seçildi, sonra isə A.İ.Quçkov və M.V.Rodzyanko növbə ilə sədr vəzifəsini tutdular. Onların hamısı oktyabristlər idi. Bu onu sübut edirdi ki, III Dövlət Duması əvvəlkilərdən daha çox sağ təmayüllü olacağını vəd edirdi və belə də oldu. Dumada səkkiz daimi komissiya seçildi: büdcə komissiyası, maliyyə komissiyası, mədaxil və məxaricin dövlət cədvəlinin icrası komissiyası, redaksiya komissiyası, sorğular üzrə komissiya, kitabxana komissiyası, şəxsi heyət komissiyası və sərəncamçı komissiya. İyirmi beşdən çox komissiya yaradılmışdı. Onların arasında dövlət müdafiəsi, ərzaq, xalq təhsili, köçürmə işi, torpaq, fəhlə məsələsi, qanunvericilik təkliflərinin göndərilməsi, pravoslav kilsəsinin işləri, məhkəmə islahatı, yollar, ticarət və sənaye, yerli özünüidarəetmə və s. komissiyalar var idi[627]. "Bakinski proletari" qəzeti yazırdı ki, III Dövlət Dumasının fəaliyyəti üçün müzakirə edilən məsələlərin ağırlıq mərkəzinin "nazirlərin nümayəndələri ilə

---

622 "Каспий" qəzeti, 19 iyul 1907-ci il.
623 "Каспий" qəzeti, 19 iyun 1907-ci il.
624 "Бакинские губернские ведомости" qəzeti, 9 iyun 1907-ci il.
625 "Бакинские губернские ведомости" qəzeti, 9 iyun 1907-ci il.
626 "Бакинские губернские ведомости" qəzeti, 9 iyun 1907-ci il.
627 Государственная дума в России. Л., 1957, səh. 347.

razılaşdırmaqla layihələr hazırlayan komissiyalara" keçirilməsi səciyyəvi idi. Duma nazirliklərin direktivləri əsasında fəaliyyət göstərən komissiyaların yığıncağıdır - üçüncü Dumanın əsl mənzərəsi belədir. Bu, inqilabı "mədəni" surətdə boğmaq üçün Nazirlər Komitəsi yanında düzəldilmiş "konstitusiyalı" dəftərxana deyilsə, bəs nədir?"[628].

Azərbaycan, daha dəqiq desək, üç quberniyanın - Bakı, Yelisavetpol, İrəvan quberniyalarının azərbaycanlı əhalisi Dumada bir nəfərlə təmsil olunmuşdu. Artıq yuxarıda deyildiyi kimi, Yelisavetpol şəhərinin nümayəndəsi - özünü xalq azadlığı partiyasına aid edən X.Xasməmmədov deputat seçilmişdi. Erməni əhalisi "Daşnaksütyun" partiyasını təmsil edən İ.Saqatelyanı seçmişdi. Rus əhalisi isə sağların fraksiyasından olan, "prikazçikin şəhadətnaməsi ilə zaqafqaziyalıya çevrilmiş təsadüfi həştərxanlı" Timoşkini "özünün xəbəri olmadan" deputat seçmişdi[629].

Xəlilbəy Xasməmmədov Dumanın imperatora müraciət hazırlanması, sorğular, köçürmə işi, məhkəmə islahatı üzrə komissiyalarının üzvü idi.

Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələri öz deputatlarını ərizə və petisiyaların kağız üzərində qalmış bəndləri uğrunda mübarizə aparmağa yönəldirdilər. Eyni zamanda onlar öz deputatlarını mövcud vəziyyəti tənqid etməyə çağırırdılar. "Bakinskoye exo" qəzeti yazırdı: "Bu istiqamətdə Qafqaz deputatlarını təkcə kadetlər və başqa sol partiyalar deyil, həm də Dumanın daha mülayim ünsürləri - bitərəf proqressistlər, mirnoobnovleniyeçilər və sol oktyabristlər də müdafiə edəcəklər". Bunu deməklə onlar ümid edirdilər ki, bu tənqid Stolıpini məcbur edəcək ki, "yerli idarəetmə və ucqarların ən adi ehtiyaclarının ödənməsi sahəsində bəzi islahatlara başlasın. Qoy bu ilk addım olsun, lakin bu addım atılmasa sonrakı islahatları gözləmək çətindir. Zənnimizcə, deputatlarımızın real siyasəti belə olmalıdır"[630]. Lakin gerçəklik göstərdi ki, hətta bu minimal ümidlər də doğrulmadı. Heç bir islahat keçirilmədi, çar hökuməti onları heç keçirmək niyyətində də deyildi.

Dövlət Dumasının açılışı günü İmperatora müraciət hazırlanması üçün komissiya seçildi. 18 nəfər[631] arasında X.Xasməmmədov da var idi. Noyabrın 13-də keçirilmiş iclasda X.Xasməmmədov müraciət barədə çıxış edərək onu "çox mühüm sənəd" hesab etdi. Müraciətin mətni iki hissədən ibarət idi: I - təbrik hissəsi; II - siyasi hissə. "Mən, siyasi "credo"su konstitusiyalı monarxiya olan qrupa məxsus şəxs kimi bu müraciətin birinci hissəsinə tam qoşuluram. Müraciətdə biz Hökmdarımıza sədaqət və məhəbbət hisslərimizi həqiqətən ifadə etməliyik və edirik; bu sözləri mən siyasi hissə barədə deyə bilmərəm". X.Xasməmmədov

---

[628] "Бакинский пролетарий" qəzeti, 15 may 1908-ci il.

[629] Dövlət Duması. Stenoqrafik hesabatlar. III çağırış, 1-ci sessiya, I hissə, SPb., 1907, sütun 135, 288, 514, 526, 749.

[630] "Бакинское эхо" qəzeti, 27 oktyabr 1907-ci il.

[631] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 95, 135.

"Qafqaz müsəlmanları" adından mülahizə yürütmək məsuliyyətini öz üzərinə götürərək Dumanın deputatlarına elan etdi ki, "dövlətimizin siyasi quruluşunun bu və ya başqa cür adlanması qətiyyən vacib deyil, bu siyasi quruluşun tələbatımızı, istəklərimizi yerinə yetirməyə qadir olan məzmunu bizim üçün daha vacibdir"[632]. Onun və seçicilərin "istəkləri" isə çarın 1905-ci il 17 oktyabr manifestində vəd etdiyi "azadlıqların" həyata keçirilməsindən ibarət idi. X.Xasməmmədovun fikrincə, manifestdə "köhnə Rusiya ilə yeni Rusiya arasında aşkar demarkasiya xətti çəkilmişdir". Manifest veriləndən sonra "özgə xalqların" iki il ərzində gözlədikləri aşağıdakılardan ibarət idi: tam vətəndaş azadlığı, bütün vətəndaşların siyasi və vətəndaşlıq cəhətdən hüquq bərabərliyi, əsl xalq nümayəndəliyi, hakimiyyətin qanunauyğunluğu və dövlət qanunvericiliyi işlərində xalq nümayəndələrinin tam iştirakı[633]. X.Xasməmmədov Duma üzvlərinin nəzərinə çatdırdı ki, ötən iki il ərzində müsəlmanların hüquqlarının imperiyanın əsas əhalisi ilə bərabərləşdirilməsi üçün heç bir şey edilməmişdir, müsəlmanların maariflənməsi, onların rifahının yüksəldilməsi üçün heç bir şey edilməmişdir[634]. O öz çıxışında köçürmə məsələsi üzərində dayandı və Dumanın deputatlarını inandırmağa çalışdı ki, "bu qədər uzun müddət torpaqsızlıqdan əziyyət çəkən" yerli kəndlilər torpaq ilə təmin edilərsə, onlar "kimliyindən və harada yaşamasından asılı olmayaraq Rusiyanın bütün övladlarını bağrılarına basarlar". Azərbaycan kəndlilərinin torpaqsızlığından X.Xasməmmədovun narahatlığının nə qədər əsaslı olduğunu belə bir fakt sübut edir ki, "hökmdarın" kəndlilərə torpaq verilməsinin əleyhinə çıxdığı təşviqat çıxışına cavab olaraq 1908-ci il fevralın 13-də üçüncü Dumanın 307 deputatı "ura" qışqırmışdılar. Bu isə o demək idi ki, ən başlıca məsələdə Duma "fəhlələrə və kəndlilərə qarşı hökmdar ilə"[635] birlikdə olacaq.

X.Xasməmmədov müraciətin siyasi hissəsinə də düzəliş etməyi, Rusiyada yaşayan millətlərin haqlı istəyini həyata keçirməyi təklif etdi: "Bu düzəlişimiz çox vacibdir. Bununla Dövlət Duması hökmdar qarşısında sübut edəcək ki, bu istək və tələbata Dövlət Duması şərik çıxır, bizim istək və tələbatımız hökmdarın iradəsinə uyğundur. Əgər 17 oktyabrdan sonra köhnə Rusiyanın siyasəti davam etməsəydi biz şəxsən bu düzəlişin aparılmasını təkid etməzdik. Bu cəhətdən mən dəhşətli 3 iyun aktını göstərməliyəm, həmin akta görə bizim nümayəndəliyimiz məhdudlaşdırılmışdır və biz qismən ondan tamamilə məhrum olmuşuq..."[636].

III Dövlət Dumasında müsəlman deputatları vahid fraksiyada birləşmişdilər. Fraksiya 8 nəfərdən ibarət idi, fraksiyanın bürosuna Ə.M.Topçubaşov başçılıq edirdi[637]. Dumanın deputatı olmayan Ə.M.Topçubaşov

---

[632] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 95, 135.
[633] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 174.
[634] Yenə orada.
[635] "Бакинский пролетарий" qəzeti, 15 may, 1908-ci il.
[636] Dövlət Duması. Stenoqrafik hesabatlar, I sessiya, I hissə, sütun 174.
[637] "Каспи"qəzeti, 8 oktyabr 1908-ci il.

bu Dumanın da müsəlman fraksiyasının fəaliyyətində, sorğuların, qanun layihələrinin hazırlanmasında çox yaxından iştirak edirdi. Bir çox məsələlərdə fraksiyanın üzvləri həmrəy idilər. Onlar xalq azadlığı partiyasının təşəbbüslərini müdafiə etməkdə də yekdil idilər. Bu yekdilliyi S.Maqsudov belə izah edirdi: "Rusiyada 20 milyon müsəlman yaşayır. Onların hamısı bir dinə qulluq edir və Dağıstanın bəzi xalqlarını istisna etməklə eyni dildə danışır". O izah edirdi ki, müsəlmanlar panislamist məqsədlər güdməyərək vahid ittifaqda birləşmişlər. Onları milli mənlik hissi və inkişaf yolu seçmək zəruriliyi birləşdirmişdir. O, sözünə yekun vuraraq deyirdi: "Bu iki məfhum bizim üçün müqəddəsdir və biz maarif və mədəniyyət yolu ilə bunları həyata keçirəcəyik"[638].

Fraksiyanın xüsusi iclasları ana dilində ibtidai təhsil (məruzə Dumanın altıncı yardımçı komissiyasına verilmişdi)[639], Qafqazda zemstvo müəssisələrinin tətbiqi[640] məsələlərinə münasibət və mövqenin hazırlanmasına həsr olunmuşdu. Müsəlman fraksiyası din azadlığı məsələsinə böyük əhəmiyyət verərək bu məsələ ilə əlaqədar Dövlət Dumasına təqdim edilmiş məruzənin tatar dilinə tərcümə olunması barədə qərar qəbul etmişdi[641].

1908-ci ilin martında keçirilmiş iclasda müsəlman fraksiyasının üzvləri ana dilində ibtidai təhsil məsələlərini müzakirə etdilər. Məlumat verildi ki, Duma müsəlman fraksiyasının "əsaslandırılmış məruzəsini" rədd etmişdir. Özgə xalqların məktəbləri haqqında məsələyə ətraflı baxılmaq üçün Dumanın xalq təhsili üzrə üçüncü yardımçı komissiyasının ayırdığı "səkkizlərin müşavirəsi" tərəfindən hazırlanan və müsəlman fraksiyası adından təqdim olunan bu "əsaslandırılmış məruzədə" ibtidai məktəblərdə ana dilində təhsilin zəruriliyi sübuta yetirilirdi. Məruzə ikinci dəfə baxılmaq üçün Dumanın altıncı yardımçı komissiyasına verildi. Həmin yardımçı komissiyada fraksiyanın üzvləri məruzənin təsdiqinə təkid etməyə hazırlaşırdılar. Özgə xalqların orta ibtidai məktəbləri haqqında layihənin də baxılmaq üçün yardımçı kommissiya təqdim olunması zəruri hesab edilirdi[642]. 1908-ci il martın 10-da fraksiya Dumanın din işləri komissiyasının qərarını müzakirə etmişdi. Bu zaman göstərilmişdi ki, din məsələsi müsəlmanların həyatında ən ağrılı məsələdir, bu məsələnin din təbliğatının azadlığı mənasında həll olunması səbirsizliklə gözlənilir. Qərara alınmışdı ki, qeyri-pravoslav xristian dinləri nizamnaməsinin 4-cü maddəsinin ləğvinə qətiyyət və inadla təkid göstərilsin. Bu maddə yalnız pravoslav dini üçün təbliğat azadlığına yol verirdi[643].

1908-ci il martın 17-də müsəlman fraksiyası xalq təhsili məsələsinə qayıdaraq onun ehtiyacları üçün 6 milyon rubl buraxılması məsələsini müzakirə

---

[638] "İttifaq" qəzeti, 13 mart 1909-cu il.
[639] "Каспий" qəzeti, 9 və 18 mart 1908-ci il.
[640] "Каспий" qəzeti, 18 mart 1908-ci il.
[641] "Каспий" qəzeti, 6 mart 1908-ci il.
[642] "Каспий" qəzeti, 9 mart 1908-ci il.
[643] "Каспий" qəzeti, 18 mart 1908-ci il.

etdi. Bu məbləğə səs verilməsi qərara alınaraq belə bir ümid ifadə olundu ki, həmin məbləğ yeni xalq məktəblərinin yaradılmasına yönəldiləcəkdir, çünki "köhnə tipli məktəblərə müsəlmanlar öz uşaqlarını göndərməyəcəklər, belə ki, bunlar müsəlman əhalisinin ehtiyaclarına uyğun deyil"[644].

Müsəlman fraksiyası pasxa tətillərinə getməkdən imtina etdi və bu dövr üçün fəaliyyət məsələləri dairəsini müəyyənləşdirdi: Qafqazda zemstvo idarəsinin tətbiqi məsələsi və "Qafqaz canişinliyində vəziyyət haqqında sağların sorğusuna etirazın"[645] hazırlanması. X.Xasməmmədov öz müsəlman seçicilərinə və Bakı şəhəri seçicilərinə müraciətində müsəlman fraksiyasının fəaliyyətində Azərbaycan nümayəndələrinin iştirakı və onunla "daha yaxından və ətraflı ünsiyyətin" zəruriliyi barədə danışmışdı. X.Xasməmmədov Bakı şəhəri seçicilərini istər bütün fraksiyaya, istərsə də onun bürosuna "daha əzmlə mənəvi və maddi yardım"[646] göstərməyə çağırmışdı.

Pasxa tətillərinə getməmək qərarı 1909-cu ilin martında müsəlman fraksiyasının üzvləri tərəfindən qəbul olunmuşdu. Pasxa tətilləri zamanı Əlimərdan bəy Topçubaşovun iştirakı ilə müsəlman həyatının müxtəlif məsələləri üzrə müşavirələr keçirilməsi nəzərdə tutulmuşdu[647]. Fraksiya 1909-cu ilin martında da öz seçicilərinə xəbər vermişdi ki, onun üzvləri şəriət tələblərinə əsaslanaraq müsəlmanlar üçün "ümumi vərəsəlik qaydasının" tətbiqi əleyhinə səs verəcəklər[648].

Bütövlükdə müsəlman fraksiyası deputatlarının, o cümlədən də Azərbaycanın deputatının fəaliyyəti aşağıdakılardan ibarət idi: fraksiyanın iclaslarında bütün qanun layihələrinin müzakirəsində iştirak, Duma iclaslarındakı çıxışlarda fəaliyyət xəttinin hazırlanması. Məqsəd isə islahatlara nail olmaq idi, çünki, fraksiya adından tez-tez çıxış edən X.Xasməmmədovun dediyinə görə, "yalnız islahatlar sayəsində əhalidə hakimiyyətə etimad yaratmaq olar"[649]. X.Xasməmmədovun çıxışlarını təhlil edərək onları aşağıdakı iri məsələlər ətrafında qruplaşdırmaq olar: Müsəlmanlara vətəndaş və siyasi azadlıqların verilməsi, köçürmə məsələsinin nizama salınması, ana dilində təhsil və məhkəmə icraatı, zemstvo idarələrinin tətbiqi və s. X.Xasməmmədovun ümidlərinin nə dərəcədə real olduğu Stolıpinin bəyanatından görünürdü: "Hökumət yaxın vaxtlarda daxili quberniyaların nəzərdə tutulan yeni quruluşu ilə əlaqədar bəzi ucqarlarda özünüidarəetmə layihələrini də Dövlət Dumasının müzakirəsinə vermək niyyətindədir, həm də hökumət dövlətin vahidliyi və bütövlüyü ideyasını rəhbər tutacaq"[650].

[644] "Каспий" qəzeti, 18 mart 1908-ci il.
[645] Yenə orada, 9 mart 1908-ci il.
[646] "Каспий" qəzeti, 8 oktyabr 1908-ci il.
[647] "Каспий" qəzeti, 24 mart 1908-ci il.
[648] "Каспий" qəzeti, 27 mart 1909-cu il.
[649] "Каспий" qəzeti, 12 fevral 1909-cu il.
[650] Sitat bu kitabdan gətirilir: Государственная дума. М., 1957, səh. 401.

X.Xasməmmədovun Qafqaz məsələsi deyilən məsələ üzrə çıxışı onun çıxışları arasında ən əhəmiyyətlisi idi. Bu çıxışda Dumanın iclaslarında onun qaldırdığı demək olar bütün məsələlər öz əksini tapmışdı.

O hər şeydən əvvəl ali hökumət məmurlarının Qafqaz xalqlarını bir-birinə qarşı qoymaq təbliğatını dövlət əleyhinə təbliğat adlandırmışdı. Sonra sözünə davam edərək demişdi: "Biz hesab edirik ki, hakimiyyət xalqlar arasında heç bir fərq qoymamalıdır. Biz hesab edirik ki, xalqlar eyni hüquqlardan istifadə etməli və eyni vəzifələr daşımalıdırlar. Yalnız bu şərtlə əhalinin hakimiyyətə etimadı mümkündür, bunsuz isə sağlam idarəetmə ola bilməz"[651]. O, köçürmə məsələsinə bir daha qayıdaraq deyirdi ki, Zaqafqaziyanın bütün əhalisi xristianlara və qeyri-xristianlara bölünür. Qeyri-xristian olduqlarına görə müsəlmanlara etimad yoxdur, onlar üçün bir sıra məhrumiyyətlər, məhdudiyyətlər qoyulmuşdur - onlar diyarda ali vəzifələrə, çox vaxt isə aşağı vəzifələrə də buraxılmırlar. Xalq təhsili kimi "mədəni inkişaf vasitəsinə" müsəlmanların yolu bağlıdır. Mövcud məktəblər əhalini təmin etmir, çünki bu məktəblərdə təhsil ana dilində aparılmır. Məktəblərin sayı da çox azdır - müsəlman əhalinin yaşadığı yerlərdə 14 min sakinə bir ibtidai məktəb, xristianların yaşadıqları yerlərdə isə 4 min əhaliyə bir məktəb düşür. Ali təhsilli müsəlmanlar pedaqoji fəaliyyət üçün orta məktəblərə buraxılmır, nazirin icazəsi olmadan vəkillik işi ilə məşğul ola bilməzdilər. Şəhər özünüidarəetmə orqanlarında onların sayı şəhər əsasnaməsinin 44-cü maddəsi ilə məhdudlaşdırılmışdı. X.Xasməmmədov müsəlman ruhanilərinin məhdudiyyətləri üzərində də dayanmışdı: "Adamları dini vəzifələrə hazırlamaq üçün hər hansı məktəbin olmaması, dini orqan və idarələrin əhəmiyyətinin azaldılması və tabeçilik vəziyyətinə gətirilməsi müsəlman cəmiyyəti ilə birlikdə öz vəqfindən, müsəlmanların din, təhsil və maarif işinə təsir göstərmək imkanından məhrum olmuş ruhani idarələrimizin nüfuzunu kökündən sarsıtmışdır"[652]. O sözünə yekun vuraraq deyirdi: "Bir neçə il bundan əvvəl vəqflər bizim əlimizdən alınmışdır, vəqflər, necə deyərlər, milli sərvətimizdir"[653]. X.Xasməmmədov izah edirdi ki, bütün bunların nəticəsində müsəlmanlar mədəni cəhətdən öz qonşularından geridə qalmışlar, "sənayedə də, ticarətdə də, texniki biliklərdə də"[654] onlardan arxadadırlar.

X.Xasməmmədov Qafqaz əhalisi ilə Rusiyanın Avropa hissəsinin əhalisinin mədəni tələbatının ödənilməsini müqayisə edərək statistikaya isnad edirdi: Rusiyada 55 kvadratverstə və 1376 sakinə bir ibtidai məktəb, 777 kvadratverstə və 19000 sakinə bir xəstəxana, 650 sakinə bir həkim düşür. Zaqafqaziyada vəziyyət müvafiq surətdə belədir: 108 kvadratverstə və 2965 sakinə bir məktəb, 1218

---

[651] "Каспий" qəzeti, 11 fevral 1909-cu il.
[652] "Каспий" qəzeti, 11 fevral 1909-cu il.
[653] Yenə orada.
[654] Yenə orada.

kvadratverstə və 38000 sakinə bir məktəb, 13 min sakinə bir həkim düşür. Qafqazda ədalət mühakiməsi yoxdur. Onun fikrincə, məhkəmə müstəntiqləri vermək əvəzinə burada barışdırıcı hakimlər, istintaq hissəsi müdirləri təsisatı yaradılmışdır[655]. Müstəntiqlər yerli dilləri bilmirlər, savadsız tərcüməçilərin əlində olan ilkin istintaq icraatı texnikasından xəbərsizdirlər. Yerli dili, adətləri, xüsusiyyətləri bilməyən barışdırıcı hakimlər də tərcüməçilərin əlindədirlər. Hakimlər dili bilsələr də, kargüzarlığı dövlət dilində aparmalı idilər[656].

X.Xasməmmədov diyarda ali hakimiyyət məsələsinə də biganə qalmayaraq hesab edirdi ki, diyarın ali hakimiyyəti "hadisələrə əsl rus nöqteyi-nəzərindən baxmamalıdır, çünki bu nöqteyi-nəzər milli müstəsnalıq və özgə xalqlara qarşı mübarizə nöqteyi-nəzəridir". Əksinə, hakimiyyət əhaliyə münasibətdə xeyirxah olmalı, millətləri bir-birindən ayırmamalı, bir-biri ilə birləşdirməli, onlarda dövlətə məhəbbət oyatmalıdır. X.Xasməmmədov Qafqazda mövcud vəziyyətdən çıxış yolunu artıq iyirmi ildən bəri Qafqaz xalqlarının tələb etdikləri zəruri islahatların keçirilməsində: zemstvo idarələrinin tətbiqində, yerli məhkəmənin dəyişdirilməsində, ədalətli administrasiyada, yerli əhaliyə torpaq verilməsində və s. görürdü. "Yalnız bu islahatlar diyarımızı sakitləşdirə və ictimai qüvvələri quruculuq işinə sövq edə bilər"[657]. Sorğu nə qəbul edildi, nə rədd edildi, nə də müəllifləri tərəfindən geri götürüldü. Duma bu məsələni hətta səsə də qoymayaraq və adətən bu və ya başqa məsələ üzrə qərar qəbul olunmadığı hallarda olduğu kimi növbəti məsələyə keçdi[658].

X.Xasməmmədov isə Dumanın bütün fəaliyyəti dövründə müxtəlif sorğular və məsələlər üzrə çıxış edərkən dəfələrlə bu problemlərə qayıtmışdı. 1908-ci il martın 28-də o, Köçürmə İdarəsinin mədaxil və məxaric smetasına baxılmasında iştirak etdi. X.Xasməmmədov müsəlman fraksiyası adından bildirdi ki, köçürmə işini çox böyük əhəmiyyəti olan dövlət tədbiri hesab edir. Bu iş iki məqsəd güdməlidir: birincisi, gərək köçkünlər yeni yerlərdə yaxşı yerbəyer olsunlar və ikincisi, gərək onların həmin yerlərdə məskunlaşması yerli əhalinin torpaq hüquqlarına və mənafelərinə toxunmasın və bunları pozmasın. Deputat göstərirdi ki, həqiqətdə isə hökumətin bu işdə müəyyən və aydın xətti olmamışdır. Hökumət tələm-tələsik köçürmə sahələri yaradır və köçkün kütlələrini istədiyi kimi ora göndərirdi. "Bu zaman hökumət yalnız bir məqsəd güdürdü - mərkəzi quberniyalardakı aztorpaqlı və torpaqsız kəndlilərdən tez yaxa qurtarsın". Hökumət köçürmə siyasətini həyata keçirərkən əhalini öz yurd-yuvasından qovur, torpaqları varlı kəndlilərə verərək bu zaman torpaqsız və aztorpaqlı kəndlilərin qayğısına qətiyyən qalmırdı. X.Xasməmmədov tamamilə haqlı olaraq təklif edirdi ki, əvvəlcə

[655] "Каспий" qəzeti, 11 fevral 1909-cu il.
[656] "Каспий" qəzeti, 11 fevral 1909-cu il.
[657] "Каспий" qəzeti, 12 fevral 1909-cu il.
[658] "Волна" qəzeti, 17 fevral 1909-cu il.

öz kəndlilərimiz torpaqla təmin olunmalı[659], qalan torpaqlar isə köçkünlərə ayrılmalıdır. X.Xasməmmədov Dumaya məlumat verərək bildirmişdi ki, Qafqaz canişini də "diyarda köçürmə işinin bu cür təşkilinin qeyri-məqsədəuyğunluğuna əmin olaraq köçürmənin dayandırılması barədə mərkəzi idarələrə müraciət etmişdir. Doğrudan da, artıq ilyarımdır ki, köçürmə dayandırılmışdır"[660]. O, əhalisinin özünün yararlı torpaqlara kəskin ehtiyac duyduğu Qırğızıstanda köçürmə hərəkatının dayandırılmasını tələb etmişdi.

X.Xasməmmədov fraksiyanın tapşırığı ilə Dövlət Dumasına bəyanat vermişdi ki, köçürmə məsələsi aqrar məsələ ilə sıx bağlıdır, aqrar məsələ həll olunmadan düzgün və ədalətli köçürmə mümkün deyil. Rusiyanın daxili quberniyalarından köçürmə yerli əhalinin torpaqdan istifadəsində məhrumiyyətlərə və məhdudiyyətlərə gətirib çıxarır. Buna görə də müsəlman fraksiyası hesab edir ki, Zaqafqaziyanın və Türküstanın düzən vilayətlərinə köçürmə aqrar məsələ həll olunanadək dayandırılmalıdır[661]. "Kaspi" qəzeti baş məqalədə bununla əlaqədar yazırdı: yerli əhalinin torpaqla təminatını aydınlaşdırmaq və yalnız bunun əsasında "ədalətli nəticə"[662] çıxarmaq lazımdır.

Qafqazda çarizmin köçürmə siyasəti məsələsinə X.Xasməmmədov dəfələrlə qayıtmışdı. Məsələn, 1910-cu ilin martında Köçürmə İdarəsinin smetası barədə çıxış edərkən göstərmişdi ki, Qafqazın məskunlaşdırılması vaxtsız və ədalətsiz bir addımdır, çünki "Qafqazın yerli əhalisi torpaq cəhətdən zərrə qədər də təmin olunmamışdır və o, həm torpaqsızlıqdan, həm də aztorpaqlılıqdan eyni dərəcədə əziyyət çəkir"[663]. O bir daha bildirdi ki, yerli əhali torpaq ilə təmin olunduqdan sonra qalan torpaqları köçürmə üçün ayırmaq olar və lazımdır[664].

Görünür, bu cür bəyanatlar Qafqaz canişininə təsir göstərmiş və o da öz hesabatında qeyd etmişdi ki, koçkünlərə torpaq verilərkən hər şeydən əvvəl Şərqi Zaqafqaziyada suvarmaya ehtiyacı olan baxımsız torpaqlardan istifadə edilməlidir[665]. Lakin 1913-cü ildə elə onun təşəbbüsü ilə "rus köçkünlərinin diyarda yerləşdirilməsində" yeni meyl yaranır, "yerli əhali arasında yerləşdirilən ayrı-ayrı qəsəbələrin əvəzində rus əhalisinin geniş massivləri yaranır. Muğanın sərhədə yaxınlığını nəzərə alsaq, köçkünlərin yerləşdirilməsində yeni xəttin həm də strateji əhəmiyyəti aydındır və bunu hökumət də gizlətmirdi"[666]. Canişinin ideyası bir növ Kiyev quberniyasından deputat, Dumanın köçürmə komissiyasının üzvü

---

[659] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, SPb., 1903, sütun 1243.
[660] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, SPb., 1903, sütun 1243.
[661] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, SPb., 1908, sütun 1247.
[662] "Каспий" qəzeti, 9 aprel 1908-ci il.
[663] Dövlət Duması. Stenoqrafik hesabatlar. SPb., 1910, III sessiya, III hissə, sütun 869.
[664] Dövlət Duması. Stenoqrafik hesabatlar. SPb., 1910, III sessiya, III hissə, sütun 886.
[665] Всеподданнейший отчет за восемь лет управления Кавказом генерал-адъютанта графа Воронцова-Дашкова. SPb., 1913, səh. 28.
[666] Исмаилзаде Д.И. Русское крестянство в Закавказье. (30-е годы XIX - начало XXв.). М., 1982, səh. 196.

Suvçinskinin bəyanatından irəli gəlirdi: "... Hər dəfə köçürmə smetasına baxılanda Qafqazın nümayəndələri rus köçkünlərinin ucbatından yerli əhalinin sıxışdırıldığını göstərirlər. Ola bilsin ki, administrasiyanın səhv fəaliyyəti nəticəsində belə hallar baş verir, lakin bunun Qafqazın planauyğun surətdə məskunlaşdırılması ilə heç bir əlaqəsi yoxdur və bu məskunlaşma ən geniş miqyasda həyata keçirilməlidir"[667].

1908-ci ilin mayında III Dumanın kəndli deputatları Dumaya 43-lərin layihəsini təqdim etdilər. Layihədə sahibləri tərəfindən becərilməyən mülkədar torpaqlarının orta bazar qiyməti ilə məcburi surətdə özgəninkiləşdirilməsi nəzərdə tutulurdu. Torpaq islahatının keçirilməsi üçün ümumi səsvermə ilə seçilən yerli torpaq komissiyalarının yaradılması təklif olunurdu.

X.Xasməmmədov kəndli torpaq sahibliyinə aid bəzi qərarlara dəyişikliklər və əlavələr olunması barədə qanun layihəsi ilə əlaqədar torpaq komissiyasının məruzəsinin müzakirəsində iştirak etdi. O bildirdi ki, müsəlman fraksiyası adından verilmiş 1906-cı il 9 noyabr tarixli qanun sayca kiçik torpaq sahibləri sinfinin mənafeyi naminə aqrar məsələnin həllinin çətinləşdirilməsinə yönəldilərək siyasi məqsədlər güdür. Buna görə də müsəlman fraksiyası bu qanun layihəsinin maddə-maddə müzakirəsinin əleyhinədir. X.Xasməmmədov qeyd edirdi ki, 9 noyabr qanunu dövlətin bir çox yerlərində "həyat qabiliyyətini hələ də itirməyən və indiki şəraitdə torpaqdan istifadənin daha məqsədəuyğun forması olan"[668] icmanı süni surətdə dağıdır, icmanın bu qanunda təklif olunan şəkildə dağıdılması daha da torpaqsızlaşacaq kəndli kütləsinin ziyanına olaraq ayrı-ayrı şəxslərin varlanmasına gətirib çıxaracaq, bu fərman kəndi siniflərə parçalayır və onların arasında nifaq salır. Daha sonra X.Xasməmmədov sübut etməyə çalışmışdı ki, bu fərman kəndlilərin dağınıq və pərakəndə halda yaşaması ucbatından istər kəndli cəmiyyətinin özünün, istərsə də dövlətin maarifçilik fəaliyyətinə mənfi təsir göstərəcəkdir, ümumi aqrar qanunvericiliyinin yalnız bir qırığı olan bu qanun kütləvi surətdə kəndlilərin torpaqdan istifadəsini çətinləşdirəcək, bu isə zəifləri və bədbəxtləri müdafiə etmək məqsədi daşıyan dövlətin etik vəzifələrinə ziddir[669]. Bolşeviklərin "Volna" qəzeti 9 noyabr qanunu ilə əlaqədar yazırdı: "... hakim siniflərin bütün siyasəti bu balinanın üzərində dayanır və bu balina kəndi sakitləşdirmək əvəzinə orada daha intensiv təbəqələşmə yaradır, sinfi mənafeləri kəskinləşdirir, kəndlilərin proletarlaşmasını gücləndirir, deməli, daha intensiv, daha kəskin və daha şüurlu sinfi mübarizə yaradır"[670]. Əgər Xasməmmədov bu fərmanın kəndlilər arasında "maarifçilik fəaliyyətinə mənfi təsir göstərəcəyini hesab edirdisə", bolşeviklər isə hesab edirdilər ki, qanun "... təşviqat və təbliğat

[667] Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, III hissə, səh. 886.
[668] Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, III hissə, sütun 1307.
[669] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, I hissə, 1908, sütun 1308.
[670] "Волна" qəzeti, 17 fevral 1909-cu il.

illərindəkindən daha çox kəndli şüurunu aydınlaşdıracaq və onu öz mənafelərinin müdafiəsi üçün daha qətiyyətlə çıxış etməyə məcbur edəcəkdir"[671].

Bu qanun layihəsi maddə-maddə müzakirə edilsə də, müsəlman fraksiyası həmin müzakirədə iştirak etmədi və Duma heç bir konkret qərara gəlmədi.

Diyarda zemstvonun tətbiqi barədə Azərbaycan deputatının tələbinə də heç bir diqqət verilmədi. Rusiya imperiyasının qərb quberniyalarında zemstvonun tətbiqi barədə qanun layihələrinə baxan Duma Zaqafqaziyada, o cümlədən də Azərbaycanda onun tətbiqi məsələni heç qoymaq niyyətində də deyildi.

Xalq təhsili məsələləri barədə çıxışlarında X.Xasməmmədov ibtidai məktəbdə ana dilində təhsili müdafiə etsə də, "dövlət dilini bilmək zəruriliyinə" tərəfdar çıxırdı. "Nə qədər ki, diyarımızda ibtidai məktəb bizim məişət və dini xüsusiyyətlərimizə cavab vermir və ibtidai məktəblərimizdə tədris doğma türk-tatar dilində tətbiq edilmir, məktəb işinin nizama salınacağına və gənclərimizin düzgün tərbiyəsinə ümid etmək mümkün deyil"[672]. O, müəllimlərin hazırlanması problemi üzərində dayanaraq diqqəti buna cəlb etdi ki, müəllimlərin hazırlandığı mövcud seminariyalar - Tiflis quberniyasının Qori şəhərindəki və İrəvan quberniyasındakı Zaqafqaziya seminariyasının tatar bölmələri Azərbaycandan kənardadır, oradakı vakansiyaların sayı məhduddur, ona görə də bu, "müsəlmanları qane edə bilməz. Onların Azərbaycandan kənarda hazırlanması da buna gətirib çıxarır ki, gələcək müəllimlər nə "milli ənənələri, nə tarixi, nə də adətləri bilirlər, əhali ilə ünsiyyət yarada bilmirlər"[673]. Buna görə də X.Xasməmmədov Zaqafqaziya seminariyası tatar bölməsinin Yelisavetpola köçürülməsi və onun müstəqil seminariya şəklində yaradılması barədə Xalq Maarifi Nazirliyi qarşısında vəsatət qaldırmışdı[674]. X.Xasməmmədov qadınların təhsili məsələsinə toxunaraq bildirmişdi ki, "müsəlman qadınları üçün" diyarda bir dənə də olsun "hökumət məktəbi yoxdur", olan iki-üç məktəb də ayrı-ayrı şəxslərindir. Müsəlman qadınlarından müəllim hazırlamaq üçün qadın müəllim seminariyasının yaradılması yaxşı olardı"[675].

1910-cu ilin oktyabrında X.Xasməmmədov Xalq Maarifi Nazirliyinin qanun layihəsi barədə qeyd etmişdi ki, Dumada bir çox qanunvericilik məsələlərində fikir ayrılıqları ola bilər, lakin "yalnız ibtidai təhsil məsələsində"[676] fikir ayrılığı olmamalıdır. O, layihənin 16-cı maddəsinin əleyhinə çıxış edərək demişdi: "İbtidai məktəblərdə tədris Xalq Maarifi Nazirliyinin icazə verdiyi təlimat və vəsaitlər əsasında rus dilində aparılır". O izah etdi ki, bu maddə artıq mövcud olan qanunlara, məsələn 1907-ci il 1 noyabr qaydalarına nisbətən "özgə xalqlara" qarşı daha çox ədalətsizdir. 1907-ci il 1 noyabr qaydalarına uyğun olaraq "özgə xalqların

[671] Yenə orada.
[672] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, III hissə, SPb., 1909, sütun 2450.
[673] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya. III hissə, SPb., 1909, sütun 2451.
[674] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya. III hissə, SPb., 1909, sütun 2451.
[675] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya. III hissə, SPb., 1909, sütun 2452.
[676] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya. I hissə, sütun 414.

məktəblərində" təhsilin ilk iki ilində ana dilində tədrisə yol verilirdi. X.Xasməmmədov qeyd edirdi ki, bu qanun layihəsində qara irtica ruhu özünü göstərmişdir. Qanun layihəsi ana dilinin öyrənilməsini ikinci kateqoriya (cəmi iki kateqoriya var idi) fənlərinə, yəni "imkan daxilində", həm də məktəb şurasının icazəsi və ya nazirliyin razılığı ilə məktəb kursuna daxil edilən fənlərə aid edirdi. Layihənin 31-ci və 36-cı maddələrinə uyğun olaraq ibtidai məktəblərdə müəllimlər pravoslav dinindən olan rus təbəələrindən seçilirdi. Belə bir qeyd-şərt qoyulurdu ki, orta məktəblərdə başqa dinlərə mənsub uşaqlar üçün "müvafiq dinə mənsub şəxslər də müəllim seçilə bilərlər". X.Xasməmmədov hesab edirdi ki, "seçilə bilərlər" sözləri heç kimi heç nəyə məcbur etmir. Buna görə də o kədərlənirdi ki, müəllimlər kontingenti yenə də əhalinin nə adətlərini, nə məişətini, nə də xüsusiyyətlərini bilən adamlardan ibarət olacaq. O qabaqcadan bildirirdi ki, bu cür məktəb "təşəbbüsü, demək olar ki, məhvə məhkumdur"[677].

X.Xasməmmədov ruhani idarələri üzərində ifrat inzibati qəyyumluğa qarşı çıxdı. Məsələ bunda idi ki, ruhani idarələrinin şəriət və başqa müəllimləri quberniya rəislərinin razılığı ilə təsdiq olunmalı idilər. O həm də məktəb şurası sədrinin və üzvlərinin azı yarısının xristian dinindən olmasına qarşı da çıxdı. O bildirdi: "Bu cür məhdudiyyətləri biz din azadlığı barədə əlahəzrətin 17 aprel və 17 oktyabr aktlarının olduğu indiki vaxtda yolverilməz hesab edirik". Bu məsələyə o, 1910-cu il noyabrın 19-da keçirilmiş iclasdakı çıxışında[678] bir daha qayıdaraq belə bir düzəliş vermişdi ki, bu məhdudiyyətlər çıxarılsın. Lakin onun düzəlişi Duma tərəfindən qəbul edilməmişdi[679]. Bütövlükdə qanun layihəsi barəsində danışan X.Xasməmmədov qeyd etmişdi ki, "layihənin gizli məqsədləri aydındır. Bu məqsədlər özgə xalqların milli xüsusiyyətlərini boğmaq istəyindən ibarətdir. Bu, əbəs işdir və özgə xalqların məktəblərinin bütün keçmişi bunu sübut edir. Siz bizə əziz olan dillərimizi dövlət həyatı sahəsindən nə qədər çox uzaqlaşdırsanız, onlar bir o qədər mühakiməmizin və əqlimizin ən yaxın və doğma sahələrində: ailə həyatında, məbədlərdə, ədəbiyyatda ən fəal işimizin predmeti olacaqdır"[680]. "Bu layihə ən zərərli layihədir. Əgər siz istəyirsiniz ki, üçüncü çağırış Dumanın gələcəkdə xalq maarifi Duması adını daşımağa ümidləri olsun, qanun layihəsini dəyişin və onu Rusiya imperiyasında yaşayan bütün millətlər üçün məqbul edin" - deyə o sözünü "sol tərəfdən" alqışlar altında yekunlaşdırdı[681].

1910-cu ilin noyabrında X.Xasməmmədov yenidən bu məsələyə qayıdaraq bildirdi ki, özgə xalqların məktəblərində ana dili ikinci kateqoriya fənləri siyahısına daxil edilmişdir. O, 12-ci maddəyə düzəliş verdi və ibtidai məktəblərin icbari fənlərinə rus dilindən sonra şagirdlərin ana dilinin daxil edilməsini təklif

[677] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya. I hissə, sütun 418.
[678] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, I hissə, sütun 418, 1649.
[679] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, I hissə, sütun 1600.
[680] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, I hissə, sütun 1600.
[681] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, I hissə, sütun 420.

etdi[682]. Lakin bütün müsəlman fraksiyası adından irəli sürülmüş bu təklif də Duma tərəfindən rədd edildi[683].

X.Xasməmmədov dini etiqad sahəsindəki məhdudiyyətlər barədə qanun layihəsinin müzakirəsində də fəallıq göstərmiş, müsəlman deputatlar hesabına dini etiqad komissiyası üzvlərinin sayının artırılması tərəfdarı olmuşdu[684]. 1909-cu ilin mayında o, hər cür dinə və məzhəbə sərbəst keçmək hüququ haqqında qanun layihəsi üzrə çıxış etdi. O, dini etiqad azadlığını ən mühüm həyat məsələsi elan etdi. "Din sahəsində heç bir məcburiyyət ola bilməz"[685]. X.Xasməmmədov bazar və bayram günlərində ticarət işçilərinin istirahəti məsələsinin müzakirəsində iştirak edərək din azadlığı haqqında 1905-ci il 17 aprel aktına isnad edərək cümə günlərində və müsəlman bayramlarında müsəlmanlara tam istirahət verilməsini xahiş etmişdi. O, müsəlman fraksiyası adından bildirmişdi: "Bayram günlərinin istirahət günləri kimi müəyyən edilməsi biz müsəlmanlar üçün ... dini-milli məsələdir, çünki bunlar bizim daxili və xarici məişətimizi başqa millətlərdən fərqləndirən cəhətlərdir". Buna görə də Rusiyanın bütün çoxmilyonlu müsəlman ucqarlarının əhalisi "sinfindən və sərvətindən asılı olmayaraq müsəlman fraksiyasının təklif etdiyi mənada bu məsələnin həllini yekdilliklə tələb edir"[686]. Bu vəsatət xalq azadlığı fraksiyası tərəfindən də müdafiə olundu, lakin Duma tərəfindən qəbul edilmədi[687]. Müsəlman fraksiyası üzvlərinin etiraz əlaməti olaraq iclas zalını tərk etməsi də bu qərara təsir göstərmədi. "Kaspi" qəzeti kədərlə yazırdı: "Sayca gücsüz olan, öz səsləri ilə öz arzusu üçün üstünlük yarada bilməyən fraksiya daha heç bir şey edə bilmədi. Onun üzvləri deyirdilər, inandırırdılar, lakin əksəriyyət onların inamını eşitmirdi və nəticədə Dumanın qəbul etdiyi qanun hətta mövcud qaydalarla müqayisədə geriyə doğru qeyri-adi addım oldu"[688].

X.Xasməmmədov Terek daimi milisinin Terek polis mühafizəsinə çevrilməsi barədə qanun layihəsinin müzakirəsində də "yerli əhalinin" müdafiəsində durdu. Qanun layihəsində göstərilirdi ki, onun tərkibində yalnız "yerli əhalidən etibarlılar" ola bilərlər. Bununla da yerli əhali əsasən etibarsız sayılırdı. "Bu cür prezumpsiya yolverilməz və qeyri-mümkündür, çünki bütün xalqı ittiham və təhqir etmək olmaz"[689]. O, mətndən "etibarlılar" sözünü çıxarmağı təklif etdi. Səsvermə nəticəsində təklif qəbul olundu.

Mükəmməl hüquqi təhsili X.Xasməmmədova qanun layihələrinin geniş dairəsi üzrə çıxış etməyə imkan verirdi. O, 45 deputat sırasında şəhər işləri

---

682 Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, I hissə, sütun 4879.
683 Yenə orada, sütun 922.
684 Dövlət Duması. Stenoqrafik hesabatlar. III çağırış, IV sessiya, I hissə, sütun 1712.
685 Dövlət Duması. Stenoqrafik hesabatlar. III çağırış, IV sessiya, I hissə, sütun 2002.
686 Dövlət Duması. Stenoqrafik hesabatlar. III çağırış, III hissə, sütun 92.
687 Dövlət Duması. Stenoqrafik hesabatlar. III çağırış, IV hissə, sütun 548, 552-553, 556.
688 "Каспий" qəzeti, 5 may, 1910-cu il.
689 Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, III hissə, sütun 3194.

komissiyasına seçilmişdi və 1909-cu il mayın 21-də Qarsda şəhər əsasnaməsinin tətbiqi barədə Qafqaz canişinin nümayəndəsinin təqdim etdiyi qanun layihəsinə dair çıxış etdi. O, qüvvədə olan 1892-ci il şəhər əsasnaməsinin qeyri-mükəmməlliyini, Dumanın yaratdığı yuxarıda adı çəkilən komissiyanın bu məsələ ilə məşğul olmasının zəruriliyini, bu qanun layihəsini dəyişdirmək lazım gəldiyini qeyd etdi. Qarsda 1892-ci il əsasnaməsi üzrə şəhər özünüidarəsinin tətbiqi isə "şəhər özünüidarəsində rus əhalisinin təmsil olunmasını təmin etmək istəyini"[690] sübut edirdi. X.Xasməmmədov hesab edirdi ki, seçki qanununu genişləndirmək, Qarsda yaşayan 200 türk əhalisinin və yunanların təmsil olunması barədə düşünmək lazımdır. "Əgər komissiya Qafqazdakı indiki vəziyyətdə yalnız bir millətin proporsional nümayəndəliyi mövqeyində dayanıbsa, Dövlət Duması bu mövqeni qəbul etməklə müxtəlif millətlərdə şovinizm yaradır, çünki biz bilirik ki, hər bir belə təşəbbüs nifaq və narazılıq yaradır, bu isə ali dövlət idarəsi tərəfindən təşviq edilə bilməz və edilməməlidir. Biz kurial seçki sistemini müvəqqəti tətbiq etsək də hər şeyi etməliyik ki, millətlər arasında qırğına yol verməyək və əsəbilik yaratmayaq"[691]. Qanun layihəsi mübahisə doğurmuş və redaksiya komissiyasına göndərilmişdi[692].

1909-cu ilin noyabrında X.Xasməmmədov 46 quberniyada tətbiq edilən yerli məhkəmə islahatı layihəsinin müzakirəsində iştirak etdi. Bu cür məhdudiyyət dövlətin başqa hissələrində zemstvo idarələrinin olmaması ilə izah edilirdi. Layihə üzrə yerli hakimləri seçmək isə məhz zemstvo idarələrinə həvalə olunmuşdu. X.Xasməmmədov öz çıxışında qanun layihəsindəki "bir yeniliyə", yəni $11^1$-ci maddəyə[693] toxundu. Bu maddə "ilk dəfə olaraq ümumi qayda kimi müəyyən edirdi ki, məhkəmə idarələrində məhkəmə icraatı rus dilində aparılır"[694]. Xasməmmədov qeyd edirdi ki, bu islahat ucqarlara aid olmasa da o, əhalinin anladığı dildə məhkəmənin tətbiqinə tərəfdardır. O, "özgə millətlərin yaşadıqları yerlərin barışdırıcı məhkəmələrində yerli dilin tətbiqinə yol verilməsinə"[695] tərəfdar çıxırdı. X.Xasməmmədov $11^1$-ci maddəyə düzəliş olunmasını təklif edirdi, yəni - məhkəmə iclasında tərəflərin mübahisəsi üstünlük təşkil edən "özgə xalqın əhalisinin" dilində, məhkəmə icraatı isə dövlət dilində, yəni rus dilində aparılsın. Bu düzəliş xalq azadlığı partiyasının təklifi ilə üst-üstə düşürdü. Lakin yerli əhalinin dili haqqında təklif kimi bu düzəliş də rədd edildi[696].

Qanun layihəsinə edilmiş əlavə yol verirdi ki, "əhalinin əksər hissəsinin rus dilini başa düşmədiyi" yerlərdə şifahi xahişlər və şikayətlər yerli dildə qəbul edilsin

---

690 Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, IV.
691 Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, IV hissə, sütun 1650.
692 Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, IV hissə, sütun 1651.
693 Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, I hissə, SPb., 1910, sütun 259.
694 Yenə orada, sütun 1448.
695 Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, I hissə, SPb., 1910, sütun 1450.
696 Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, I hissə, SPb., 1910, sütun 1826.

və bu zaman barışdırıcı hakimlər tərcüməçi vasitəsi ilə danışsınlar, yerli dildə yazılı ərizələr isə işə əlavə edilsin. Beləliklə, məhkəmə yerli əhali üçün anlaşılmaz şəkildə qalmaqda davam etdi.

Bir qədər sonra, 1910-cu il martın 26-da X.Xasməmmədov Dumanın diqqətini ona cəlb etdi ki, $11^1$-ci maddəyə onların düzəlişi "heç bir siyasi məqsəd daşımır", yalnız "ədalət mühakiməsini lazımi səviyyəyə qaldırmağa"[697] yönəlmişdir. O, öz düzəlişinə bir daha qayıdaraq tərcüməçilər təsisatına qarşı çıxır və bunu ədalət mühakiməsində bəla hesab edirdi. X.Xasməmmədov 1864-cü il qanunvericiliyini müzakirə edilən qanun layihəsinə qarşı qoyaraq onu müdrik qanunvericilik kimi səciyyələndirirdi. Çünki bu qanunvericilik məhkəmə iclasında tərəflərin mübahisəsinin yerli əhalinin dilində aparılmasına yol verirdi, bir şərtlə ki, məhkəmə müstəntiqi bu dili bilsin[698].

X.Xasməmmədov 1911-ci il noyabrın 30-da hərbi mükəlləfiyyət barədə qanun layihəsi üzrə çıxış edərkən hələ əvvəllər III Dövlət Dumasının sessiyasında 1908-ci il çağırışında yeni əsgərlərin kontingenti haqqında qanun layihəsinin müzakirəsində müsəlman fraksiyasının söylədiyi fikri təkrarladı. Bu fikir ondan ibarət idi ki, 1908-ci ildə də, 1911-ci ildə də müsəlman fraksiyası hərbi mükəlləfiyyətlərin müsəlmanlara şamil edilməsi lehinə və hərbi mükəlləfiyyət çəkmək əvəzinə təsis edilmiş təxminən 500 min rubl məbləğində xüsusi pul vergisinin əleyhinə çıxmışdı[699]. "Kaspi" qəzeti Dumada bu məsələnin qoyuluşu ilə oxucuları tanış edərək yazırdı ki, "bütün vətəndaşlar vətənin müdafiəsinin əziyyətini çəkməlidirlər,... vətənin bütün ərazisi boyunca bütün vətəndaşlar eyni hüquqlardan istifadə etməlidirlər". Qəzet yazırdı: "Əgər ölkə altı ildən bəri gözlədiyi və ona söz azadlığı, din azadlığı, əqidə azadlığı və hüquq bərabərliyi verməli olan qanunları alsaydı, bu "xüsusi" məsələ də həll olunardı"[700].

Qəzet dumanın fəaliyyətini maraqla müşahidə edərək və orada müzakirə edilən qanun layihələrinə öz münasibətini bildirərək yazırdı: "İş hədsiz dərəcədə çoxdur. Burada bir-birindən irəli gələn, ayrılıqda həll olunması mümkün olmayan və birgə baxılmağa imkan verməyən aqrar məsələsi də var, ölkənin yeni idarəetmə qaydasına keçməsi barədə təcili məsələ də və bununla sıx əlaqədar olan şəxsiyyətin toxunulmazlığı məsələsi də var, burada büdcə-maliyyə və sənaye-iqtisadi məsələlər və başqa məsələlər də var... və hər yerdə biz görürük ki, vəziyyət dəyişənədək məsələni təxirə salmaq meyli var, özü də heç kim kifayət qədər aydın təsəvvür etmir ki, vəziyyət məhz necə dəyişməlidir və bu dəyişiklikləri məhz hansı səbəblər doğura bilər. Yalnız bir şey aydındır: üçüncü Duma artıq özünün son sözünü deyə

---

[697] Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, I hissə, SPb., 1910, sütun 259.
[698] Dövlət Duması. Stenoqrafik hesabatlar. III sessiya, II hissə, sütun 1796.
[699] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, I hissə, sütun 2933.
[700] "Каспий" qəzeti, 30 oktyabr 1911-ci il.

bilmişdir və o, dövlət orqanizminə yeni həyat verən yaradıcı qüvvə olmayacaqdır"[701].

1911-ci ilin martında "Kaspi"nin baş məqaləsinin müəllifi M.V.Rodzyankonun Dumanın sədri vəzifəsinə seçilməsinə öz münasibətini bildirərək və bu faktı konstitusiya quruluşuna zərbə kimi qiymətləndirən peterburqlu həmkarları ilə razılaşmayaraq izah edirdi: "Axı konstitusiyalı quruluş partiyanın və ya qrupun ixtirası deyil. Bu kağız deyil ki, onun üstündə bu və ya başqa konstitusiya yazılıb. Bu, bəşər cəmiyyətinin inkişafında və yüksəlişində təbii və zəruri mərhələdir. Bu labüd prosesə zidd çıxan bütün hallar təbii ölümə məhkumdur"[702]. Qəzet öz oxucularını ümidvar edərək yazırdı ki, əgər "Rodzyanko cənabları "konstitusiyalı" sözünü öz lüğətlərindən çıxarıb atsalar da, "rus vətəndaşlarının" şüurundan çıxarıb ata bilməyəcəklər, çünki onlarda bu ideya gündən-günə artır və möhkəmlənir"[703].

1909-cu il martın 16-da Dumada neft sənayesinin vəziyyəti məsələsi müzakirə edilmişdi. Qeyd olunmuşdu ki, neft çıxan torpaqların kəşfiyyata və icarəyə verilməsindəki pozuntu faktları neft sənayesinin inkişafına mane olur. Oktyabristlər fraksiyasının belə bir arzusu bəyənilmişdi ki, "hökumət neft çıxan xəzinə torpaqlarının dövlət kəndlilərinin və başqa kəndlilərin istifadəsindən götürülməsi və onlara alınan torpaqlarının əvəzinin ödənilməsi üsulu haqqında Dövlət Dumasına qanun layihəsi təqdim etsin"[704]. Əslində isə bu, Abşeron kəndlilərinin yurd-yuvalarından qovulması demək idi. Azərbaycandan olan nümayəndə bu məsələyə, eləcə də Bakı quberniyasında neft çıxan sahələrin qeyri-qanuni alınması barədə Dumaya təqdim olunmuş sorğuya heç bir maraq göstərmədi[705]. Bu məsələnin müzakirəsində Bibi-Heybət və Sabunçu sahələrindəki neft çıxan torpaqların hələ 1900-cü ildə ləğv edilmiş "Qafqaz" şirkətinə, 1906-cı ildə vəfat etmiş Bastamova və 1908-ci ildə vəfat etmiş Şxiyantsa verilməsində saxtakarlıq faktları aşkara çıxdı[706]. Aşkar edilmiş faktlar ticarət və sənaye naziri V.İ.Timiryazevin istefasına səbəb oldu.

X.Xasməmmədov fəhlə qanunvericiliyinə aid qanun layihələrinin, fəhlə məsələsi üzrə komissiyanın məruzələrinin müzakirəsində iştirak etmədi. O, mövcud qanunların pozulması hallarına, məsələn, "fabrik inspektorunun verdiyi məlumata görə, Bakı fəhlələrinə əmək haqqının qeyri-rəsmi gecikdirilməsi"[707] barədə Peterburq quberniyasından deputat Poletayevin bəyanatına qətiyyən diqqət

---

701 "Каспий" qəzeti, 5 fevral 1910-cu il.
702 "Каспий" qəzeti, 25 mart 1911-ci il.
703 Yenə orada.
704 "Каспий" qəzeti, 22 mart 1909-cu il.
705 Монополистический капитал в нефтяной промышленности России. 1883-1914. Документы и материалы. M.-L., 1961, 200-cü sənəd, səh. 460-461.
706 Dövlət Duması. Stenoqrafik hesabatlar, III sessiya, I hissə, SPb., 1910, sütun 2164-2178.
707 Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, V hissə, sütun 1910.

yetirmədi. O, Bakı şəhər rəisliyinin qüvvədə olma müddətinin uzadılması barədə canişinliyin nümayəndəsi tərəfindən təqdim olunmuş qanun layihəsinin müzakirəsinə də laqeydlik göstərdi. Qafqaz canişini isə Bakı şəhərinə yeni polis ştatının ayrılması, Bakıda baş vermiş, şəhərin sənayesinə və ticarətinə təsir göstərərək dövlətə xeyli maddi ziyan vurmuş "iğtişaşlar" ilə əlaqədar Bakı neft sənayesi rayonunun Bakı quberniyasından inzibati cəhətdən ayrılması və xüsusi şəhər rəisliyinin təşkili barədə Duma qarşısında məsələ qoymuşdu[708].

Neft sənayesi fəhlələrinin inqilabi çıxışları hakimiyyət orqanlarını çox narahat edirdi. Bu və ya digər məsələlərin həllində hökumət ilə fikir ayrılıqlarına baxmayaraq iş fəhlə hərəkatına çatanda Dövlət Duması çar mütləqiyyətinin mənafeləri keşiyində dururdu. Duma Bakıda neft mədənlərinin və zavodların mühafizəsinə aid məsələlərə çox ehtiyatla yanaşır və hesab edirdi ki, Bakı neft sənayesi rayonunda təhlükəsizliyin gözlənilməsi, fəhlələrin təminatı, icbari qərarların layihələrinin tərtibi və s. kimi "ciddi məsələlər" ictimai nümayəndələrin iştirakı ilə divanxananın müzakirəsinə verilə bilməz. Dumada qeyd olunmuşdu ki, bu ümumiyyətlə rus qanunvericiliyində yeni prinsip idi, buna görə də divanxananın bu məsələlər barədə qəti qərar çıxarmaq hüququnun olub-olmamasında son dərəcə ehtiyatlı olmaq lazımdır[709].

X.Xasməmmədov bədbəxt hadisələrdən fəhlələrin sığortalanması barədə qanun layihəsinin müzakirəsində iştirak etməyərək hətta dəmir yollarında bədbəxt hadisələrdən zərər çəkmiş qulluqçulara, ustalara, fəhlələrə və onların ailə üzvlərinə ödəniş haqqında Əsasnamə layihəsinə baxılmasındakı tələsikliyə qarşı çıxmışdı[710].

Dumada müzakirə edilən fəhlə məsələsinə dair qanun layihələrinə Bakının neft sənayeçiləri də tam biganəlik göstərdilər. Sənaye və ticarət nümayəndələri qurultayının Şurası hələ 1907-ci ilin iyununda neft sənayeçiləri qurultayının Şurasına və Birja komitəsinə müraciət edərək qanun layihələrini ləngimədən öyrənməyi və rəylər göndərməyi xahiş etmişdi. Ticarət və Sənaye Nazirliyi bu qanun layihələri ilə əlaqədar fəhlə qanunvericiliyi barədə məktub tərtib edib Dumaya təqdim etməli idi. Sentyabrda bu məsələ bir daha Bakı sahibkarlarının yuxarıda adları çəkilən orqanlarına xatırladıldı. Lakin "Baku" qəzetinin öz oxucularına xəbər verdiyi kimi, "qurultayın şurası da, birja komitəsi də göstərilən qanun layihələrini öz tərəflərindən nə müzakirə etdilər, nə də müzakirə etmək niyyətində idilər"[711].

"Bakının müsəlman ziyalılarının" bir qrupu müsəlman fraksiyasının üzvlərinə müraciət edərək "heç bir ittiham irəli sürülmədən 6 aydan bəri Metex qəsrində saxlanan bakılı doktor N.Nərimanovun" azadlığa buraxılmasına kömək

---

[708] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, II hissə, sütun 842.
[709] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, II hissə, sütun 844.
[710] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, III hissə, sütun 1931.
[711] "Баку" qəzeti, 23 sentyabr 1908-ci il.

göstərməyi xahiş etmişdi. Lakin müsəlman fraksiyasının üzvləri bu barədə bir kəlmə də danışmadılar. Bakı qəzetləri bu barədə oxuculara məlumat verərək izah edirdi ki, "kamal attestatı imtahanını" vermiş və "universitetin tibb fakültəsi kursunu" bitirmiş N.Nərimanov başqaları ilə bərabər Tiflisə iş yeri axtarmağa getmiş, lakin ora gəlişinin dördüncü günü həbs olunmuşdur. "Həbs olunanların hamısı artıq azad edilmişdir, bircə o, həbsxana divarları arasında zülm çəkməkdə davam edir"[712].

1912-ci il iyunun 9-da çarın senata verdiyi fərmana görə III Dumanın iclasları dayandırıldı.

Yeni IV Dövlət Duması 1912-ci il noyabrın 15-dən çağırılırdı. Bu Dumaya seçkilər 1912-ci il sentyabrın 10-dan başlamalı idi.

Yeni Duma necə olacaqdı? Dumaya seçkilərdə taktika necə olmalı idi?

"Kaspi" qəzeti III Dumanın müsəlman fraksiyasının fəal üzvlərindən biri, Dərbənddən deputat İ.B.Heydərova bu suallar ilə müraciət etmişdi. "Üçüncü Dumanın mövcud olduğu dövrdə siyasi təcrübənin göstərdiyi kimi, müsəlmanların dar mənada partiyası yoxdur, yalnız bir mütərəqqi siyasi cərəyanı var", buna görə də "şübhəsiz ki, mütərəqqi meylli, ümumkonstitusiya mənafelərinin mətanətli müdafiəçisi olan və artıq özünün ictimai və siyasi fəaliyyəti ilə tanınan şəxsləri irəli sürmək və Dövlət Dumasına üzv seçmək"[713] lazımdır. Qəzet ümid etdiyini bildirirdi ki, "dördüncü Dövlət Dumasına gələcək seçkilərə müsəlmanlar onların ehtiyaclarına daha həssaslıqla yanaşacaqlarını vəd edənlər və onların milli-mədəni hüquq bərabərliyi uğrunda mübarizəsində öz köməyinə təminat verənlər ilə əl-ələ gedəcəklər"[714].

Lakin üç çağırış Dövlət Dumasının təcrübəsi göstərirdi ki, Rusiya imperiyası ucqarlarının nümayəndələrinin vaxtı çatmış milli problemlərin həllinə son dərəcə məhdud şansları var idi və bu, yeni Duma seçicilərinə verilmiş məsləhətlərdə də özünü göstərmişdi.

1912-ci il yanvarın 1-də "Kaspi" qəzeti yeni ildə başlıca hadisənin Dumaya seçkilər olacağını hesab edərək yazırdı: "Lakin vəziyyət elədir ki, buna çox da ümid bağlamaq lazım deyil. Burada yalnız arzulardan danışa bilərik"[715]. Arzu isə "bütün mütərəqqi ünsürlərin birləşməsindən, partiya çəkişmələrindən və mübahisələrindən əl çəkilməsindən və yeni Rusiyanın tərəqqisini istəyənlərin hamısı üçün ümumi olan bir neçə əsas müddəalarda seçki kampaniyası üçün saziş əldə olunmasından"[716] ibarət idi.

Seçkilərə hazırlığın gedişində qəzetlərdə dərc olunan məqalələrdə istər əvvəlki Dumanın Rusiyanın müsəlman ucqarlarına nə verdiyi təhlil olunur, istərsə

---

[712] "Баку" qəzeti, 30 sentyabr 1909-cu il, "Каспий" qəzeti, 1 sentyabr 1909-cu il.
[713] "Каспий" qəzeti, 8 iyun 1912-ci il.
[714] "Каспий" qəzeti, 11 iyul 1912-ci il.
[715] "Каспий" qəzeti, 1 yanvar 1912-ci il.
[716] "Каспий" qəzeti, 11 iyul 1912-ci il.

də IV Dumada həllini gözləyən problemlərə və məsələlərə baxılırdı. Əhməd bəy Ağayev Peterburqda çıxan "Utro Rossii" ("Rusiyanın səhəri") qəzetində dərc olunmuş korrespondensiyasında qeyd edirdi ki, müsəlmanların heç bir ehtiyacı, heç bir tələbi yerinə yetirilməmişdir, heç bir islahat nəinki keçirilməyib, heç vəd də olunmayıb. "Kiçicik sevincimiz" ondan ibarətdir ki, mollalar hərbi mükəlləfiyyətdən azad edilib - bütün əsr boyu loyallığımızın mükafatı, ictimai iğtişaşlar və qarışıqlıq zamanı göstərdiyimiz sakitliyin və səbrin mükafatı budur"[717]. Məqalədə gələcək deputatların proqramı da müəyyən olunmuşdu - həm rus dilinin, həm də ana dilinin öyrənilməsini əhatə edən ümumi ibtidai təhsil uğrunda mübarizə. Müsəlman ucqarlarında ibtidai məktəb "əhalinin dini, etnoqrafik və məişət xüsusiyyətlərinə ciddi uyğun şəkildə" təşkil olunmalıdır. Əks təqdirdə müsəlman əhalisi uşaqlara ana dilinin öyrədilməsinə kifayət qədər diqqət və vəsait verilməyən, əhaliyə hər cəhətdən yad olan şəxslərin müəllimlik etdiyi ibtidai məktəblərdən qorxacaq"[718]. İqtisadi və hüquqi sahələrdə geniş iştiraka imkan verən, habelə dünya mədəniyyətinə qovuşmaq vasitəsi olan rus dilinin öyrənilməsinin müsəlmanlar üçün vacibliyini qeyd edərək Əhməd bəy Ağayev göstərirdi ki, ana dilinin də əhəmiyyətini azaltmaq olmaz. "Rəngarəng məzmunlu onlarca qəzet, yüzlərcə kitab, hətta danışıq dilindəki tərəqqi - bütün bunlar müsəlmanları öz dillərinə bağlayır. Yalnız ana dilində məktəb əhalinin rəğbətini doğura bilər". Müəllif müsəlmanlar üçün maraq doğuran, Dumanın laqeydliklə yan keçdiyi bir sıra başqa qanun layihələri üzərində də dayanmışdı. Bunların arasında müsəlman dinində müqəddəs sayılan günlərin qeyd olunması hüququ haqqında qanun layihəsi, müsəlmanların şəhər və zemstvo özünüidarəetmə orqanlarında iştirakı işindəki məhdudiyyətlər, onların dini-mədəni ehtiyaclarının ödənilməsi, hərbi mükəlləfiyyəti və orduda vəziyyəti məsələləri var idi.

Hələ III Dövlət Dumasının fəaliyyət göstərdiyi dövrdə Peterburqda müsəlman fraksiyasının bir neçə iclası keçirilmişdi. Bu iclaslar qarşıdakı seçkilərə və seçkilərdə platformanın aydınlaşdırılmasına həsr olunmuşdu. Fraksiya Rusiya vətəndaşları olan bütün müsəlmanları öz seçki hüquqlarından istifadə etməyə, 1905-ci il 17 aprel və 17 oktyabr manifestini və bütün xalqların hüquq bərabərliyini tanıyan, müsəlmanların tələblərinə və ehtiyaclarına "həssaslıqla yanaşmağa", onların milli-mədəni hüquq bərabərliyi uğrunda mübarizəsində onlara kömək edəcəyinə təminat verməyə hazır olan bütün təşkilatlar, partiyalar və qruplar ilə sazişə girməyə çağırırdı[719]. Fraksiyanın üzvü İ.B.Heydərov qeyd edirdi ki, Duma müsəlmanların mənafelərini hər vasitə ilə tapdalayırdı. Məsələn, mülkiyyət hüququnu müqəddəs hüquq elan edərək Duma köçürmə məsələsi barədə qərarları ilə Qırğızıstan, Türküstan və Qafqaz müsəlmanlarını torpaq üzərində hər

[717] "Каспий" qəzeti, 11 iyul 1912-ci il.
[718] "Каспий" qəzeti, 11 iyul 1912-ci il.
[719] "Баку" qəzeti, 27 may 1913-cü il; "Каспий" qəzeti, 27 may, 11 iyul 1912-ci il.

cür hüquqlardan məhrum edir, torpağı "çox həvəslə köçkünlərə" verirdi[720]. İ.B.Heydərov bütövlükdə müsəlmanlara, onların ehtiyaclarına münasibət üzərində dayanaraq bildirirdi: Dumada elə deputatlar var idi ki, onlar qırğız ilə tatar arasında, tatar ilə azərbaycanlı arasında və ya ləzgi ilə kumık arasında heç bir ümumi cəhət görmürdülər, Piruşkeviçin simasında sağların fraksiyası isə ibtidai təhsil haqqında qanun layihəsinə belə bir düzəliş təklif etmişdi ki, "müsəlmanların dilini qabaqcadan onlarca ləhcəyə bölməklə, hətta sünniləri şiələrdən ayırmaqla məktəblərdə müsəlmanların ana dili keçməsinə icazə verilsin"[721].

IV Dövlət dumasına seçkilər Azərbaycanda 1912-ci ilin sentyabr-oktyabrında keçirildi. Kuriyalar üzrə seçilmiş nümayəndələr Yelisavetpol şəhərinə gələrək buradakı yığıncaqda öz aralarından hər iki quberniyanın müsəlman və erməni əhalisindən iki deputat seçməli idilər. Zaqafqaziyanın rus əhalisindən deputat Tiflisdə seçilirdi. 1912-ci il oktyabrın 20-də[722] M.Y.Cəfərov və M.İ.Papacanov IV Dövlət Dumasına deputat seçildilər. Rus əhalisindən deputat seçilmiş M.M.Skobelev kimi onlar da Bakı şəhərində yaşayırdılar.

Məmmədyusif Hacıbaba oğlu Cəfərov 27 yaşlı, Bakı Aleksandrovsk gimnaziyasının və Moskva universitetinin hüquq fakultəsinin məzunu, andlı müvəkkil köməkçisi, Dumanın müsəlman fraksiyasının, V şöbəsinin, büdcə, köçürmə komissiyalarının üzvü idi.

IV Dövlət Duması 1912-ci il noyabrın 15-də açıldı. M.V.Rodzyanko Dumanın sədri seçildi. O, oktyabrist-kadet çoxluğunu təmsil edirdi və dərhal özünü "konstitusiya quruluşunun qəti tərəfdarı"[723] elan etdi.

Dumanın müsəlman fraksiyasına III Dövlət Dumasındakı 9 deputat əvəzinə 7 deputat: Ufa quberniyasından üç deputat, Orenburq quberniyasından bir, Bakı, Yelisavetpol və İrəvan quberniyalarından bir, Dağıstandan bir və Samaradan bir deputat daxil idi. "Kaspi" qəzeti onların partiya mənsubiyyətini səciyyələndirərək qeyd edirdi ki, ilk beş deputat mütərəqqi əqidəyə malik idilər və proqressistlər partiyasına[724] qoşuldular, Samaranın nümayəndəsi sağ təmayüllü, Dağıstanın nümayəndəsi isə oktyabrist idi. Əvvəllərdə olduğu kimi, fraksiya öz fəaliyyətində bu və ya digər fraksiya və qrupla birləşməyə məcbur idi. Buna fraksiya üzvlərini sövq edən kifayət qədər antidemokratik qayda - sorğular haqqında əsasnamə idi. Sorğular və qanunvericilik təklifləri vermək üçün azı 30 deputatın imzası tələb olunurdu. Sayca az olan müsəlman fraksiyası isə 66-dan az üzvü olan komissiyaların tərkibinə seçilə bilməzdi.

---

720 "Каспий" qəzeti, 8 iyun 1912-ci il.
721 "Каспий" qəzeti, 8 iyun 1912-ci il.
722 "Каспий" qəzeti, 21 oktyabr 1912-ci il.
723 Dövlət Duması, Stenoqrafik hesabatlar. V sessiya, SPb., 1916, sütun 730; "Каспий" qəzeti, 8 noyabr 1912-ci il.
724 Аврех А.Я. Царизм и IV Дума. 1912-1914 гг. Л., 1981, səh. 30.

IV Dumada müsəlman fraksiyası yaradıldıqdan dərhal sonra belə bir məsələ ortaya çıxdı: "istər kadet, istər əməkçi və ya başqa" fraksiya olmasından asılı olmayaraq müsəlman deputatlar hər hansı ümumdövlət siyasi qrupuna qoşulub bununla da "öz əl-qollarını onların proqramlarının bütün bəndləri" ilə bağlasınlar, yoxsa öz "milli qrupunu" yaratsınlar. Həmin dövrdə Peterburqda olan Ceyhun bəy Hacıbəyov Dumanın iclaslarına gedərək oradakı ayrı-ayrı qrupların, fraksiyaların və partiyaların fəaliyyətini diqqətlə izləyir və hesab edirdi ki, "bizim deputatlarımız milli qrup yaratmalıdırlar, çünki ümumvətəndaş hüquqlarındakı mövcud məhdudiyyətlər onların təmsil etdikləri xalqın milli ehtiyacları qətiyyən nəzərə alınmadan, ya da inkar edilərək artıq özü-özlüyündə onlara ümumrus ehtiyaclarının və ya öz seçki dairələrinin ehtiyaclarının ifadəçiləri sırasına büsbütün daxil olmağa imkan vermir"[725]. Lakin fraksiyanın üzvləri bu məsələni başqa cür həll etdilər və həmişə olduğu kimi heç olmasa kömək edəcəyini vəd edərək ümidləndirən və Dumada çoxluğa malik olan partiyaya qoşuldular. IV Dumada belə partiya proqressistlər partiyası idi.

Müsəlman fraksiyası Dumanın 11 komissiyasında nümayəndəlik qazandı[726] və öz nümayəndəsini Dumanın rəyasət heyətinə keçirdi - Q.X.Yenikeyev (Orenburq quberniyasından deputat) Duma katibinin kiçik köməkçilərindən biri seçildi[727]. Fraksiya parlamentlərarası ittifaqın rus qrupunda iştirak etməyi mümkün saydı. Elə həmin ilin martında qrupun yığıncağında K.M.Tevkelev və M.Y.Cəfərov da onun tərkibinə daxil edildilər. M.Y.Cəfərov qrup katibinin müavini seçildi[728]. Hüquq təhsili almış və buna görə də peşəkarlıq cəhətdən gözəl hazırlığı olan M.Axtyamov və M.Y.Cəfərov haqlı olaraq fraksiyanın özəyini təşkil edirdilər.

1912-ci il dekabrın 9-da müsəlman fraksiyası özünün rəsmi təsis yığıncağını keçirdi. K.M.Tevkelov fraksiyanın sədri, İ.Axtyamov katibi seçildi[729]. Fraksiya öz seçiciləri ilə fasiləsiz əlaqə saxlamaq və onların müraciət və arzularından xəbərdar olmaq məqsədilə öz dəftərxanası üçün xüsusi otaq icarəyə götürdü və bu barədə seçicilərə xəbər verərək onlardan məktublar gözlədiyini bildirdi[730].

Fraksiya həm maddi, həm də mənəvi cəhətdən ağır vəziyyətdə idi. M.Y.Cəfərov bu barədə seçicilərlə görüşündə olduğu kimi danışmışdı. M.Y.Cəfərov seçicilərin laqeydliyini göstərərək demişdi ki, onlar yalnız özlərinə aid məsələlərdə öz deputatlarına müraciət edərək fəallıq göstərirlər. Onlar ümumi mənafelərə toxunan bu və ya digər qanun layihələrinin müzakirəsi ilə bağlı lazımi materialların deputata çatdırılmasında qətiyyən iştirak etmirlər. M.Y.Cəfərovu fraksiya üzvlərinin siyasi pərakəndəliyi və onun say tərkibinin son dərəcə azlığı da

[725] "Каспий" qəzeti, 8 yanvar 1913-cü il.
[726] Yenə orada, 23 mart 1913-cü il.
[727] "Каспий" qəzeti, 3 oktyabr 1913-cü il.
[728] "Каспий" qəzeti, 3 oktyabr 1913-cü il.
[729] "Каспий" qəzeti, 9 dekabr 1912-ci il.
[730] "Каспий" qəzeti, 16 yanvar 1913-cü il.

narahat edirdi. Məhz bu səbəbdən fraksiya din, sorğu, şəhər işləri kimi mühüm komissiyalara daxil ola bilmədi, çünki onların üzvlərinin sayı 66 nəfərdən az idi. Duma deputatlarının əksəriyyətinin, xüsusən də sağ qüvvələrin fraksiyaya münasibəti çox saymazyana idi, onun səsinə heç kim qulaq asmırdı, müsəlmanlara hüquqlar verilməsinin zəruriliyi barədə məsələ qaldıran kimi çıxış edənə hər cür maneçilik törədirdilər. Müsəlman deputatlar bu cür münasibətlə qarşılaşırdılar və "özlərinin şəxsiyyət toxunulmazlığı üçün qorxaraq" çox vaxt susmalı olurdular. Lakin buna baxmayaraq hər bir imkandan istifadə edən M.Y.Cəfərov öz deputat planlarından danışmağa çalışırdı. O, məsələn, vəkillər heyətinə qəbul qaydalarında qeyri-xristian dininə mənsub şəxslər üçün məhdudiyyətlərin, şəhər əsasnaməsinin 44-cü maddəsinin ləğvi barədə bəyanatlar hazırlaması üzərində xüsusi dayandı və bununla əlaqədar Bakı şəhər dumasının rəhbərliyinə müraciət edərək bu məsələ barədə əsaslandırılmış məruzə göndərməsini xahiş etdi[731].

Fraksiyanın iclaslarında Dumada bu və ya digər qanun layihələrinin müzakirəsində fraksiyanın mövqeyi ilə bağlı məsələlər qoyulur və müzakirə edilirdi. Fərdi xarakter daşıyan bəzi məsələlər "nəzərə alınır", müzakirə edilən qanun layihələri və ya büdcə məsələsi kimi məsələlər ilə əlaqədar fraksiyanın konkret üzvlərinə tapşırıqlar verilirdi. Məsələn, 1913-cü ilin fevralında keçirilmiş iclasda katib Axtyamova tapşırılmışdı ki, ayrı-ayrı idarələr tərəfindən və ya Dumanın təşəbbüs qaydasında irəli sürülmüş qanun layihələrindən fraksiyanın arzusuna uyğun olanların siyahısını tərtib etsin və iş planını müəyyən etmək üçün onları fraksiyanın müzakirəsinə versin. Elə həmin iclasda Dumada büdcənin qarşıdakı müzakirəsinə fraksiyanın münasibəti müəyyənləşdirilmişdi. Fraksiya daxili işlər, xalq maarifi və əkinçilik nazirliklərinin, köçürmə idarəsinin smetaları barədə çıxış etməyi zəruri saymışdı[732].

Hansı qanun layihələrinin təxirəsalınmaz olduğu barədə Dövlət Duması sədrinin təklifini öz iclasında müzakirə edən fraksiya cavab verərək bildirdi ki, "əgər Dövlət Duması hökumətin qanunvericilik dəftərxanasına çevrilmək istəmirsə, əhalinin sorğularına uyğun olaraq hökumətin təşəbbüsü ilə irəli sürülən qanun layihələri ilə hesablaşmalıdır". Fraksiya bu mülahizələri rəhbər tutaraq təxirəsalınmaz qanun layihələri siyahısına hər şeydən əvvəl imperiyanın müsəlman ucqarlarının marağı olan layihələri daxil etdi. Bu qanun layihələri iki qrupa bölünmüşdü. Birinci qrupa aşağıdakı qanun layihələri daxil edilmişdi: Dumada müsəlmanların nümayəndəliyini kəskin surətdə məhdudlaşdırmış seçki qanununa dəyişikliklər haqqında, 1905-ci il 17 oktyabr manifestində elan olunmuş azadlıqların - vicdan, ittifaqlar, yığıncaqlar, mətbuat azadlıqlarının, şəxsiyyətin toxunulmazlığının həyata keçirilməsi haqqında, Dövlət Şurasında islahatlar haqqında. İkinci qrupa müsəlmanların ruhani idarələri sahəsində tam bir sıra islahatlar, müsəlman ruhani məktəbləri haqqında, zemstvo və şəhər

[731] "Каспий" qəzeti, 5 fevral 1913-cü il.
[732] "Каспий" qəzeti, 17 fevral 1913-cü il.

özünüidarəetməsi, xalq təhsili, ucqarlara, xüsusən də qırğız torpaqlarına köçürmənin nizama salınması barədə qanunlar daxil idi[733]. Yuxarıda sadalanan məsələlərin müzakirəsinə fraksiyanın nə dərəcədə nail olduğunu bu cəhət sübut edir ki, o, dəfələrlə fraksiyanın iclaslarında bunlara qayıtmalı, həmin məsələlərin hər biri barədə fraksiya üzvlərinin məruzələrini dinləməli olurdu.

Əvvəlkilərdən fərqli olaraq IV Dumada fraksiyanın fəaliyyəti mətbuat orqanlarının səhifələrində ətraflı işıqlandırılırdı. Paytaxt agentliklərindən və qəzetlərindən götürülmüş rəsmi məlumatlardan savayı xüsusi məqalələr və korrespondensiyalar dərc olunurdu. "Kaspi" qəzetində "Peterburq məktubları", "Müsəlman fraksiyasında", "Müsəlmanın qeydləri" başlığı altında dərc olunmuş məqalələr silsiləsi bunların arasında xüsusi yer tutur. Həmin məqalələrin müəllifi həmin dövrdə Peterburqda yaşayan Ceyhun bəy Hacıbəyov idi. O özünün Dağıstandan olan əcdadlarının şərəfinə həmin məqalələri "Dağıstani" ləqəbi ilə imzalayırdı[734]. C.Hacıbəyov oxucuları Tavriçeski sarayda hökm sürən atmosfer ilə tanış edir, müsəlman fraksiyası üzvlərinə kifayət qədər sərrast xarakteristika verir, onun uğurlarını və uğursuzluqlarını ətraflı təhlil edirdi.

C.Hacıbəyov Dumada fraksiya məsələsinə toxunaraq hesab edirdi ki, ümumdövlət parlamentində milli əlamətə görə birləşmək zərurəti sübut edir ki, dövlətdə "milli məsələ mübahisə və qeyri-müəyyənlik mərhələsindədir, bəlkə də kəskinləşmə mərhələsindədir"[735]. Bu isə ümumsiyasi problemlərin, ümumi mənafelərin zərərinə xüsusi mənafeləri irəli sürməyə vadar edir. C.Hacıbəyov yazırdı ki, hüquqi vəziyyətin qeyri-bərabərliyi, dövlətin vətəndaşlarına hökumətin eyni münasibət bəsləməyərək ögey-doğmalıq salması Rusiyanın xalq nümayəndəliyi orqanının yarandığı gündən bu orqanda milli-müxalifət partiyalarının yaranmasının səbəbi idi. I və II Dövlət Dumasında fraksiyanın fəaliyyətinin müqayisəli təhlilini verən, fraksiyanın dəqiq proqramının olmaması və başlanan irtica ilə əlaqədar qanunvericilik müəssisəsinin özünün qeyri-sabit vəziyyəti üzündən fraksiyanın fəaliyyətinin nəticəsizliyini qeyd edən müəllif bununla yanaşı əvvəlki Dumalardakından onu həm kəmiyyət, həm də keyfiyyət cəhətdən daha üstün, daha nüfuzlu hesab edirdi[736]. 1907-ci il 3 iyun seçki qanunu müsəlmanların nümayəndəliyini 9 və hətta 7 nəfərlə məhdudlaşdırdı[737]. O qeyd edirdi ki, ədalət naminə etiraf etməmək olmaz ki, sayca son dərəcə az olduqlarına baxmayaraq fraksiya üzvlərindən bəziləri, o cümlədən də Azərbaycanı təmsil edənlər seçicilər tərəfindən onların qarşılarında qoyulmuş vəzifələrə tam cavab verirdilər və çox böyük qüvvə, səy, dərin bilik və peşəkarlıq sayəsində bu vəzifələrin öhdəsindən gəlməyə çalışırdılar.

---

733 "Каспий" qəzeti, 28 mart 1913-cü il.
734 "Вышка" qəzeti, 18 oktyabr 1989-cu il.
735 "Каспий" qəzeti, 8 aprel 1916-cı il.
736 "Каспий" qəzeti, 8 may 1906-cı il.
737 "Каспий" qəzeti, 8 aprel 1916-cı il.

C.Hacıbəyov fraksiyanın vəziyyətini, fəaliyyət şəraitini qeyri-ixtiyari olaraq başqa partiyalar və fraksiyalar ilə müqayisə edərək qeyd edirdi ki, öz seçicilərinin daim qayğı və rəğbət göstərdiyi başqa partiya və fraksiyalardan fərqli olaraq, fraksiyaya "mənəvi cəhətdən,... lap əvvəldən isə maddi cəhətdən kömək göstərməkdən tamamilə imtina etmiş cəmiyyət tərəfindən" heç bir diqqət və kömək göstərilmir və "XX əsrin əsas hərəkətverici qüvvəsi - pul olmadan onlar çox az iş görə bilərlər"[738].

Buna baxmayaraq fraksiyanın mövcudluğu müsəlmanlarda müəyyən siyasi hüquqlar qazanacaqlarına ümid yaradırdı. Fraksiyanın ünvanına petisiyalar və xahişlər daxil olurdu. Qırğızıstan müsəlmanları hər şeydən əvvəl onları Dövlət Dumasına seçki hüququndan məhrum etmiş 1907-ci il 3 iyun qanununun ləğvini xahiş etmişdilər. III Dövlət Dumasında onların mənafelərini başqa müsəlman ucqarlarının deputatları təmsil etməli idilər. Vəziyyətin çətinliyi ondan ibarət idi ki, başqa müsəlman ucqarlarının deputatları qırğızların ehtiyacları ilə tanış deyildilər. IV Dumada qırğızların mənafelərini təmsil etmək, onların ən yaxşı torpaqlarının köçkünlər tərəfindən tutulmasından narazılıqlarını Duma deputatlarına çatdırmaq, maarif sahəsində ehtiyaclarını bəyan etmək missiyasını M.Y.Cəfərov öz üzərinə götürdü. Məsələn, o, Baş Əkinçilik və Yer Quruluşu İdarəsinin smetasına baxılarkən köçürmə məsələsi üzrə çıxışı üçün materialları diqqətlə öyrənməli oldu[739].

1913-cü ilin mayında Şamaxı şəhərinin sakinləri kollektiv məktub ilə M.Y.Cəfərova müraciət edərək 1911-ci ilin oktyabrında xalq maarifi nazirinə verdikləri ərizənin taleyini aydınlaşdırmağı xahiş etmişdilər. Ərizədə xahiş olunurdu ki, realnı məktəbinin saxlanması xərclərini xəzinə öz üzərinə götürsün. M.Y.Cəfərov nazirlikdə, orta məktəblər departamenti direktorunun yanında olaraq aydınlaşdırdı ki, ərizə canişinə verilmişdir və onun müsbət həll olunacağına ümid yoxdur[740].

Maykop şəhər duması M.Y.Cəfərova müraciət edərək xahiş etmişdi ki, dairə məhkəməsinin açılması barədə vəsatətlərini müdafiə etsin. Lakin Dumanın məhkəmə islahatı komissiyasında müzakirə zamanı onların vəsatəti rədd edilmişdi. Səbəb də bu idi ki, Şimali Qafqazda bir dairə məhkəməsinin açılması, özü də Pyatiqorsk şəhərində açılması qərara alınmışdı[741].

Çıxışlara hazırlaşarkən M.Y.Cəfərov Azərbaycanın şəhər və kəndlərini yorulmadan gəzirdi. 1913-cü ilin aprelində o, Bakıda oldu, şəhər ictimaiyyətini fraksiyanın fəaliyyəti ilə tanış etdi. Neft çıxan torpaqların özgəninkiləşdirilməsi məsələsi ilə əlaqədar Suraxanıya gedərək kəndlilərin vəziyyətini və ehtiyaclarını,

---

738 "Каспий" qəzeti, 18 oktyabr 1913-cü il.
739 "Каспий" qəzeti, 6 mart 1913-cü il.
740 "Каспий" qəzeti, 8 may 1913-cü il.
741 "Каспий" qəzeti, 21 aprel 1913-cü il.

onlara torpaq verilib-verilmədiyini və neft çıxan torpaqların əllərindən alınmasının onların iqtisadi vəziyyətlərinə necə təsir göstərəcəyini aydınlaşdırdı[742]. O, özgəninkiləşdirilmiş və əllərindən alınmış torpaqların əvəzinin lazımi qədər ödənilməsi xahişi ilə müraciət etmiş Xırdalan sakinlərinə 1913-cü ilin noyabrında vəd etmişdi ki, onların vəziyyətinin yaxşılaşdırılması qayğısına qalacaqdır.

M.Y.Cəfərov Qubaya gedərək köçürmə məsələsi üzrə çıxış üçün material toplamışdı[743]. Muğan zonasında səfərdə olarkən o, suvarma və torpaqdan istifadə sisteminin vəziyyəti ilə tanış olmuşdu. O, Salyana səfərindən Dumanın birinci sessiyası dövründə fraksiyanın fəaliyyəti ilə əhalini tanış etmək üçün istifadə etmişdi[744].

1913-cü ilin martında müsəlman fraksiyasına M.A.Şahtaxtinski müraciət etdi. O həmin dövrdə hökumətin rəsmi "Rossiya" qəzetində müsəlman mətbuatının icmalçısı idi. M.A.Şahtaxtinski fraksiyaya təklif etdi ki, hər cür səy göstərib müsəlmanların mənafelərini əks etdirmək üçün Peterburqda rus dilində qəzet nəşrinə nail olsunlar. Onun təklifini İ.Axtyamov və M.Y.Cəfərov müdafiə etdilər. Fraksiya "nəzərdə tutacağını"[745] vəd etdi.

Fraksiya bu vədini həyata keçirməyə müvəffəq oldu. Artıq 1914-cü ilin aprelində o özünün mətbu orqanının - "Millət" qəzetinin nəşrinə nail oldu[746]. Qəzeti S.Q.Cantürin nəşr edirdi[747]. Lakin qəzet Qafqaz müsəlmanları arasında populyar deyildi. Onun 300 abunəçisindən yalnız 14-ü Qafqazdan idi. Bu informasiyanı dərc edən "Kaspi" qəzeti bunu belə izah edirdi ki, qəzet Kazan tatarlarının ləhcəsində çıxırdı. Qəzetin dilinin "Tərcüman"ın dili kimi türk dilinə yaxın olması barədə qafqazlıların arzusu isə nəzərə alınmadı[748].

Fraksiya üzvlərinin dumadankənar fəaliyyəti müxtəlif idi. Onlar Romanovlar sülaləsinin şahlığının 300 illiyinin bayram edilməsində iştirak etmişdilər. M.Y.Cəfərov Peterburqda inşa edilən məscid üçün 20.000 rubl pul ianə etmək arzusunda olduğunu Buxara əmirinə xəbər vermiş və buna görə əmirin mükafatına - 1-ci dərəcəli ulduz ordeninə layiq görülmüşdü[749]. Fraksiyanın üzvləri IV Duma dövründə müsalmanların Peterburqda keçirilmiş qurultaylarında iştirak etmiş, orada təhsil alan tələbələrlə görüşmüşdülər. Həmin görüşlərə görkəmli ictimai xadimlər İ.Qasprinski, Ə.M.Topçubaşov, A.İsxakov, F.Kərimov dəvət olunmuşdular[750].

---

742 "Каспий" qəzeti, 5 noyabr 1913-cü il.
743 Yenə orada, 10 iyun 1913-cü il.
744 "Каспий" qəzeti, 5 və 12 sentyabr 1913-cü il, 6 iyul 1914-cü il.
745 "Каспий" qəzeti, 12 mart 1913-cü il.
746 "Каспий" qəzeti, 18 aprel 1913-cü il.
747 "Каспий" qəzeti, 30 aprel 1913-cü il.
748 "Каспий" qəzeti, 18 aprel 1913-cü il.
749 "Каспий" qəzeti, 6 mart 1913-cü il.
750 Yenə orada, 9 yanvar, 15 fevral, 22 iyun 1914-cü il.

Dumanın iclaslarında qaldırılan məsələlərin öyrənilməsi fraksiya üzvlərindən yüksək peşə hazırlığı tələb edirdi. Dumanın fəaliyyətinin lap əvvəlindən aydın oldu ki, onun yanında bu və ya başqa qanun layihələrinin, sorğuların hazırlanmasına, lazımi materialların, arayışların və s. yazılmasına və tərtibinə kömək edə bilən hüquqşünaslardan ibarət xüsusi komissiyanın yaradılması zəruridir.

Lakin fraksiyanın bürosunu yalnız 1916-cı ilin fevralında fraksiya üzvlərinin ictimaiyyət nümayəndələri ilə müşavirəsində yaratmaq mümkün oldu. Müşavirəni M.Y.Cəfərov və Q.X.Yenikeyev aparırdı. Müsəlman dünyasında məşhur olan siyasi xadimlərin, publisistlərin, qəzet redaktorlarının və başqalarının iştirak etdiyi bu müşavirə bir neçə gün davam etdi. Fraksiyanın mövqeyi, Dumanın başqa deputat qrupları ilə onun qarşılıqlı münasibətləri ətrafında müzakirələr aparıldı. Müşavirənin qərarı ilə büronun tərkibinə siyasət sahəsində səriştəsi olan 4 nəfər, katib, onun üç köməkçisi və bir qulluqçu daxil oldu. Büronun üzvləri deputatlar ilə birlikdə məsələlərin müzakirəsində iştirak etməli, onların növbəliliyini müəyyən etməli, seçicilər ilə əlaqə saxlamalı idilər və s.[751]. Onlar Dumanın deputatları kimi ayda 350 rubl alırdılar[752]. Büronun və fraksiyanın saxlanması üçün əvvəlcədən 27.000 rubl məbləğində xərc nəzərdə tutulmuşdu. Müşavirə iştirakçıları bu pulu Rusiya müsəlmanlarından "xahiş edib almaq" ümidində idilər[753]. Lakin bu çox çətin iş oldu. Müsəlman seçiciləri öz deputatlarına çox könülsüz kömək edirdilər. Rusiya müsəlmanlarının demək olar bütün mətbuat orqanlarının səhifələrində bu barədə həyəcanla danışılırdı. "Mir İslama" jurnalında dərc olunmuş informasiyada fraksiya ilə əlaqələr barədə ona məlumat göndərilməsinin zəruriliyi qeyd olunurdu[754]. "Açıq söz" qəzeti öz oxucularına təəccüblə bildirirdi ki, yuxarıda göstərilən müşavirəyə Bakıdan və Yelisavetpoldan dəvət olunmuş şəxslər orada iştirak etməyə imkan tapmadılar. Qəzet kədər hissi ilə yazırdı: Bizsiz də təsis müşavirəsi keçirildi... Büro da yaradıldı. Bakısız da, onun milyonları olmadan da keçinərlər[755]. Doğrudan da keçindilər, hərçənd bu, heyrət doğurmaya bilməzdi və bunu izah etmək çətin idi.

Bir qədər sonra "Açıq söz" qəzeti IV Dövlət Dumasında və onun bürosunda müsəlman fraksiyasına kömək göstərilməsi işində Bakının rolu və yeri haqqında öz fikrini bildirdi. Qəzetin naşiri M.Ə.Rəsulzadə öz oxucularına təəccüblə bildirdi ki, "tariximizin ən məsul anında, Rusiya tarixinin ən ciddi anında, həyatın ən təhlükəli məqamında.... bütün şimali Rusiya fraksiyaya kömək etməyə tələsirdi"[756]. "Yalnız Bakı, bu neft xəzinəsi, varlı diyar kənarda qaldı"[757].

---

751 "Açıq söz" qəzeti, 7 mart 1916-cı il.
752 "Каспий" qəzeti, 21 aprel 1916-cı il.
753 "Каспий" qəzeti, 24 aprel 1916-cı il.
754 "Мир Ислама" jurnalı, 1912, 2-cı buraxılış, səh. 101.
755 "Açıq söz" qəzeti, 17 mart 1916-cı il.
756 "Açıq söz" qəzeti, 13 aprel 1916-cı il.
757 "Açıq söz" qəzeti, 23 may 1916-cı il.

Hələ 1913-cü ilin fevralında C.Hacıbəyov ilə söhbətində M.Y.Cəfərov diqqəti ona cəlb etmişdi ki, fraksiya bəyanatlar və sorğular tərtib etmək üçün müxtəlif qurumlar, idarələr, seçicilər tərəfindən informasiya materiallarının göndərilməsinə ehtiyac duyur. "Hazırda mən vəkillər heyətinə qəbul qaydalarında qeyri-xristian dininə mənsub şəxslər üçün məhdudiyyətlərin ləğvi barədə bəyanat hazırlamaqla məşğulam. Bu məsələ ilə əlaqədar mən materiallar toplayıram. Sonra mən şəhər əsasnaməsinin məlum 44-cü maddəsinin ləğvi barədə bəyanat hazırlayıram. Həmin əsasnamayə görə əhalisi qarışıq olan şəhərlərdə qeyri-xristian qlasnıların sayı bütün qlasnıların sayının yarısından çox ola bilməz. Buna görə də mən Nəcəf bəy Vəzirova yazıb xahiş etmişəm ki, bu məsələ barədə Bakı şəhər dumasının əsaslandırılmış məruzəsini göndərsin"[758].

Müsəlman fraksiyası hökumət bəyannaməsinin müzakirəsində iştirak etdi. Nazirlər Şurasının sədri V.N.Kokovtsovun verdiyi bəyanatda qeyd olunurdu ki, hökumət bu Dumanın fəaliyyətini "əlahəzrətin 17 oktyabr manifestində müəyyən edilmiş hüquqi əsaslara ciddi surətdə əməl olunmaqla Rusiyanın dövlət və ictimai məişətini hərtərəfli təkmilləşdirmək üçün yeni yollar axtarılmasına"[759] yönəltmək niyyətindədir. Hökumət bəyannaməsi ətrafında müsəlman fraksiyası adından çıxış edənlər diqqəti ona cəlb etmişdilər ki, bəyannamədə müsəlmanları maraqlandıran islahatlar, o cümlədən maarif, köçürmə siyasəti, 1910 və 1911-ci illər yer quruluşu qanunlarının ucqarlara aid edilməsi barədə heç nə deyilməmişdir. Fraksiyanın üzvləri müsəlmanların "müasir dövlətin vətəndaşları üçün" çox zəruri olan özünəməxsus mədəniyyətinin inkişafını kəskin surətdə ləngidən 1907-ci il 3 iyun tarixli seçki qanunu islahatı barədə danışdılar. Ufa quberniyasından deputat İ.Axtyamov müsəlman fraksiyasının üzvləri adından Dövlət Dumasının üzvlərinə müraciət edərək demişdi: "...bizi ikinci dərəcəli vətəndaş vəziyyətindən çıxarın, bizi öz səviyyənizə çatdırın, Nazirlər Şurasının cənab sədrinin sözləri ilə desək, biz müsəlmanlara milliyyət verin, elə bir milliyyət ki, Rusiyanı öz vətəni hesab edir, onun çiçəklənməsi və möhkəmlənməsi üçün dinc əməyə hazırdır və öz xoşbəxtliyini və hətta varlığını böyük rus xalqı ilə birlikdə görür. Bizə ikibaşlı rus qartalının kölgəsi altında mədəni inkişaf etməyə və bütün rus vətəndaşları ilə bərabər cəmiyyətin xeyrinə işləməyə imkan verin"[760].

Nazirlər Şurasının sədri öz bəyannaməsinin deputatlara izahında müsəlman fraksiyası nümayəndəsinin bu müddəaları üzərində dayanmağa məcbur oldu və yaranmış şübhələri dağıtmağa çalışaraq bildirdi ki, qanunun bərabər xeyirxah münasibətindən danışarkən hökumət bunu "müsəlman xalqına" aid etmir. V.N.Kokovtsov təəccübünü bildirərək dedi: "Məgər bu xalq rus səltənətinə tabe olan torpaqlarında uzun əsrlər boyu özünün bütün xüsusiyyətlərinə qayğıkeş münasibəti, məhrəm etiqadına və xüsusiyyətlərinə qətiyyən toxunmayan ən

---

[758] "Каспий" qəzeti 5 fevral 1913-cü il.
[759] Dövlət Duması. IV çağırış. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 370-375.
[760] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 375.

nəzakətli münasibəti hiss etməmişdirmi?"[761]. Bu riyakarlıq kadetlərin lideri P.N.Milyukovu hiddətləndirdi. O bildirdi ki, "milli məsələ barəsində baş nazirin işlətdiyi ifadələr... açıq-aşkar təhqir və zorakılıq xarakteri daşıyır... Qanun nə xeyirxah, nə də bədxah ola bilər. Bu, mənəvi keyfiyyətdir və qanuna yad olmalıdır. Qanun hamıya münasibətdə sadəcə olaraq bərabər, bitərəf və ədalətli olmalıdır"[762].

1912-ci il dekabrın 10-da M.Y.Cəfərov V.N.Kokovtsovun bəyannaməsinə cavab verərək çıxış etdi. O, müsəlman fraksiyasının arzularını bildirəcəyini elan etdi. Natiq bu arzuları Qafqaz müsəlmanlarını maraqlandıran məsələlər üzərində konkretləşdirdi. O hər şeydən əvvəl zemstvo özünüidarəetməsi üzərində dayandı. Bəyannamədə zemstvo özünüidarəetməsinin Qafqazda tətbiqindən söz getməmişdi. Hərçənd zemstvo və şəhər özünüidarəetməsi haqqında əsasnamələrin dəyişdirilib tətbiq ediləcəyi Rusiya vilayətləri göstərilmişdi. Həmin əsasnamələri "hökumət vətənimizin iqtisadi və mədəni yüksəlişinin ən yaxşı təminatı hesab edirdi"[763]. O, əvvəlki Dumaların deputatlarının bununla əlaqədar dəfələrlə bəyanat verdiklərinə diqqəti cəlb etdi. Bu məsələni dəfələrlə öz "acizanə məruzələrində" qaldırmış və Qafqazda zemstvonun tətbiqinin vaxtı gəlib çatdığını göstərmiş ali yerli administrasiyanı da Qafqazın primitiv vasitələrlə idarə olunması narahat edirdi. O, maarif məsələləri üzərində də dayandı: "Biz bu müqəddəs işə - xalqın maariflənməsinə hökumətin qərəzli münasibətini kədər hissi ilə qeyd edirik. Bu işin, adama elə gəlir ki, siyasətə dəxli yoxdur. İndiyədək hökumət müsəlmanların maarifləndirilməsi pərdəsi altında onların ruslaşdırılmasına yönəldilmiş tədbirlər həyata keçirməyə çalışır"[764]. M.Y.Cəfərov xeyriyyə və maarif müəssisələrinin, onların nəzdindəki məktəblərin bağlanması, ziyalılar arasında axtarışlar və həbslər aparılması faktlarını qeyd edərək bunu «rus həyatına, rus mədəniyyətinə qovuşmaq» meylinin hökumət tərəfindən təqib olunması, "sayca İmperiyada ikinci yer tutan" xalqa etimadsızlıq təzahürü kimi qiymətləndirdi.

Köçürmə siyasətinə öz mənfi münasibətini bildirən M.Y.Cəfərov bunun məqsədini "yerli ünsürü sıxışdırmaq yolu ilə ucqarlarda rus ünsürünü gücləndirməkdə" görürdü. O, "ucqarların nümayəndəsi kimi" hökuməti "dövlətin mənafeyi naminə ... rus ünsürünə, rus adına məhəbbəti, rəğbəti, etimadı gücləndirməyə çalışmağa"[765] çağırırdı.

M.Y.Cəfərov 1905-ci il 17 oktyabr manifestinə böyük əhəmiyyət verir, onu "böyük azadlıqlar xartiyası kimi" qiymətləndirir və "nümayəndəli quruluşa" keçidin başlanğıcı hesab edirdi. Lakin deputat qeyd edirdi ki, müsəlmanlar hüquq məhdudiyyətlərinin aradan qaldırılması ilə əlaqədar ümidlərini bu manifestlə bağlasalar da, həmin məhdudiyyətlərin əhatə dairəsi hətta genişlənmişdir, məsələn,

[761] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 603.
[762] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 602.
[763] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 518.
[764] Yenə orada.
[765] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 519.

onların məhkəmə fəaliyyətində maneələr yaranmışdır. Bu isə ixtisasca hüquqşünas olan M.Y.Cəfərovun mənafelərinə xüsusilə toxunurdu. Bəyannamədə hökumətin hüquq normalar birliyini yaratmaq arzusunun əks etdirilməsi də onu heç cür qane etmirdi. Hökumət bunda "Rusiya imperiyasının müxtəlif hissələrinin birləşməsinin", həmin normaların Polşa, Pribaltika və Bessarabiya quberniyalarının çarlıqlarına şamil edilməsinin "stimulunu" görür, həm də bu zaman qətiyyən nəzərə almırdı ki, elə ucqarlar var ki, "orada xüsusi hərbi qanunlar qüvvədədir", onlar "ümumimperiya qanunları ilə deyil, hərbi qanunlarla, məsələn, səhra əsasnaməsi ilə idarə olunurlar"[766]. 1913-cü il fevralın 27-də, Tiflis şəhər polisinin müvəqqəti ştatının müəyyən edilməsi barədə 1909-cu il 17 iyun qanununun qüvvədə olma müddətinin uzadılmasına dair Qafqaz canişininin irəli sürdüyü qanun layihəsi müzakirə edilərkən də o, islahatların keçirilməsi zəruriliyindən danışmışdı[767]. Lakin o, 1907-ci il 3 iyun tarixli seçki qanununda dəyişikliklər edilməsi barədə kadet fraksiyası adından P.N.Milyukovun irəli sürdüyü qanunvericilik layihəsi ətrafında çıxış etmiş sosial-demokrat Skobelev ilə həmrəylik göstərmədi[768].

Slavyan qoşunlarının Türkiyə üzərində qələbəsi ilə əlaqədar 1913-cü il martın 17-də və 18-də Peterburqda keçirilmiş manifestasiya iştirakçılarına polis tərəfindən divan tutulması ilə əlaqədar Dövlət Duması üzvlərinin daxili işlər nazirinə sorğusu müzakirə edilərkən M.Y.Cəfərov müsəlman fraksiyası adından bildirdi ki, manifestasiya dinc şəraitdə keçmişdi və nümayişçilər barəsində inzibati tədbirlər görülməsinə heç bir ehtiyac yox idi. Eyni zamanda o, manifestasiyanın "slavyanların islama qarşı mübarizəsi" ilə əlaqədar təşkil edildiyi üçün sorğunun qəbul olunmasına səs verən Volınsk quberniyasından deputat Melnikova etirazını bildirdi. "Əgər bu bircə hadisə olsaydı, mən buna diqqət yetirməzdim, lakin rus mətbuatının məlum hissəsi də bu məsələni qoyur", - deyən M.Y.Cəfərov vurğuladı ki, məsələnin bu cür qoyuluşu "bizim həmvətənlərimiz olan müsəlmanlarla xristianlar arasında antaqonizm" yarada bilər. "Məsələni bu cür qoymaq olmaz... mübarizə Türkiyə hökumətinə qarşı... gedir, islama qarşı getmir"[769].

1913-cü ilin iyununda M.Y.Cəfərov Baş Əkinçilik İdarəsinin ona təqdim etdiyi materiallardan istifadə edərək[770] 1913-cü il üçün Köçürmə İdarəsinin smetası barədə çıxış etdi. "Hər bir dövlət məsələsi kimi köçürmə işinə də iki tərəfdən baxılmalıdır: köçürmə işinin məqsəd və vəzifələrindən ibarət məcburi tərəfdən və bu işin təşkili və aparılmasını əhatə edən texniki cəhətdən"[771]. Buna görə də o hesab edirdi ki, köçürmə siyasətinin xüsusiyyəti bununla izah olunur ki, hökumət mərkəzi quberniyalarda əhalinin həddən çox sıxlığını aradan qaldırmağa çalışaraq

---

[766] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 519.
[767] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 519, 1753-1756.
[768] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, I hissə, sütun 2209.
[769] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, 1913, sütun 18.
[770] "Каспий" qəzeti, 7 aprel 1913-cü il.
[771] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, sütun 1719.

köçürmə zonalarında artıq torpaqların olub-olmaması barədə məlumatları nəzərə almamışdır. Hökumət Səhra və Türküstan vilayətlərinin, Zaqafqaziyanın yerli əhalisinin hüquqlarını və mənafelərini nəzərə almağa borcludur. Deputat Türküstan diyarında köçürmə işinin vəziyyəti haqqında senator Palenin məlumatına, habelə Bakı şəhərinin və Bakı quberniyasının təftişi materiallarına əsaslanaraq qətiyyən heç bir səmərəli sistemin və planauyğunluğun olmadığını göstərdi - "yerlərdə torpaq ayrılmasına rəhbərlik edənlərin özbaşınalığı üçün meydan açan tam xaos hökm sürür. Bizim köçürmə həqiqətlərimizin tam dəhşətini təsəvvür edəndə qeyri-ixtiyari olaraq belə bir sual çıxır ki, doğrudanmı mədəni, hüquqi dövlətdə köçürmənin aparılmasının bu cür vəhşi üsullarına yol verilmişdir"[772]. M.Y.Cəfərov Zaqafqaziyadakı vəziyyət üzərində dayanaraq qeyd etdi ki, bu diyarda, xüsusən onun dağlıq hissəsində əhalinin özünün torpağa kəskin ehtiyacı var, belə ki, adambaşına Tiflis quberniyasında təxminən 1,9 desyatin, İrəvan quberniyasında təxminən 1,6 desyatin, Kutaisi quberniyasında 0,5 desyatin, Yelisavetpol quberniyasının dörd qəzasında – Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzalarında 0,6 desyatinə qədər, Bakı quberniyasının qəzalarında – Lənkəran qəzasında 0,5 desyatinə, Quba qəzasında 0,9 desyatinə qədər torpaq düşür[773]. Köçürmə nəticəsində Kür və Araz çaylarının vadilərində ən yaxşı torpaqlar yerli əhalidən alınıb köçkünlərə verilmişdir. Muğan düzünün suvarılması və məskunlaşdırılması barədə III Dumada qəbul edilmiş qanun orada yerli əhalinin yaşaması üçün bütün imkanları onların əlindən almışdır. Köçürmə işinin bu cür təşkilini M.Y.Cəfərov tamamilə haqlı olaraq "dövlət işi yox", yerli əhaliyə qarşı yönəldilmiş "dövlət bəlası" hesab edirdi. Zənnimizcə, o, tam əsasla köçürməni "əhalinin ayrı-ayrı hissələri arasında torpaqların tənzimlənməsi və ədalətlə bölünməsi" sahəsində dövlət tədbiri kimi qiymətləndirir və hesab edirdi ki, ucqarların əhalisi üçün artıq torpaqlar yalnız diqqətlə yoxlandıqdan, onların kəmiyyəti və keyfiyyəti müəyyən edildikdən sonra köçkünlərə verilə bilər. O, qarşıdakı köçürmə işləri ilə əlaqədar "yerli əhalinin torpaqla təminatı haqqında" çoxdan vəd edilən qanun layihəsini Dövlət Dumasının müzakirəsinə verməyi hökumətə təklif etdi. "Bütün bunlar yerli əhalidən daha çox dövlətin mənafeyinə xidmət edir, çünki hazırkı köçürmə siyasəti əhalinin müxtəlif hissələrinin mənafelərinin toqquşmasına, onların bir-birinin üstünə salışdırılmasına yönəlmişdir". Bu cür siyasət "xalq nümayəndələrinin ən yaxşı hissəsi" tərəfindən sərt şəkildə pislənməlidir[774]. Nitqinin sonunda o, müsəlman fraksiyası adından bildirdi ki, hökumətin köçürmə siyasətinə etiraz əlaməti olaraq Köçürmə İdarəsinin mərkəzi təşkilatlarının saxlanmasına təxsisatlar ayrılması əleyhinə səs verəcəkdir.

[772] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, sütun 1723.
[773] Dövlət Duması. Stenoqrafik hesabatlar. I sessiya, II hissə, sütun 1727.
[774] Dövlət Duması. Stenoqrafik hesabatlar. I hissə, sütun 1729-1730.

Kutaisi, Batumi vilayətlərindən, Suxumi dairəsindən deputat Çxenkeli öz bəyanatında M.Y.Cəfərovu müdafiə etdi: "Rusiyanın Avropa hissəsində bir kvadratverstə 22,2 sakin, Zaqafqaziyada isə 26,4 sakin düşür"[775].

Bu dəfə Zaqafqaziya deputatları Dumanı inandıra bildilər və Duma qərara aldı ki, köçürmə zamanı yerli əhalinin qanuni həyat mənafeləri pozulmasın və "cəmiyyətlərə və kəndlərə ayrılan torpaq payları qəti təsdiq edilmədən artıq sahələr deyilən yerlər hesabına yaradılmış köçürmə sahələrində"[776] yeni sakinlər yerləşdirilməsin.

M.Y.Cəfərov Zaqafqaziyanın bəzi yerlərində məhsul qıtlığından əziyyət çəkən əhaliyə kömək barədə Qafqazdakı ali çar administrasiyası nümayəndəsinin məsələ qoymasından istifadə edərək zərərçəkənlərə kömək göstərilməsi ilə əlaqədar öz nöqteyi-nəzərini bildirdi. O, belə hallarda əhaliyə vaxtında yardım göstərə bilən zemstvonun Qafqazda təxirə salınmadan tətbiqinin zəruri olduğunu göstərdi. O, xatırlatdı ki, zemstvonun Qafqazda tətbiqi zəruriliyini II Dumada əksəriyyət müdafiə etmişdi. Duma əksəriyyətlə M.Y.Cəfərovun təklifinə səs verdi və belə bir qərar qəbul etdi: hesab edilsin ki, "adı çəkilən idarəetmənin Qafqazda tezliklə tətbiqi son dərəcə zəruridir"[777]. Zaqafqaziya deputatlarının diyarda zemstvonun tətbiqi tələbi Dumanın bir sıra deputatları tərəfindən müdafiə olundu. Kadetlərin liderlərindən biri knyaz D.İ.Şaxovski bu tələbi öz proqramına daxil etdi.

M.Y.Cəfərov Zaqafqaziyada zemstvonun tətbiqinin məqsədəuyğunluğu, bütövlükdə diyarın təsərrüfatının inkişafı üçün zerastvo idarələrinin zəruriliyi məsələsini dəfələrlə qoymuşdu. O, çıxış etmək üçün hər bir imkandan istifadə edirdi: 1914-cü ilin aprelində - əkinləri don vurması nəticəsində İrəvan quberniyasının bəzi yerlərində zərər çəkmiş kənd əhalisinə yardım tədbirləri müzakirə olunarkən, 1914-cü ilin mayında kənd iqtisadiyyatı və kənd təsərrüfatı statistikası şöbəsinin smetası üzrə çıxış edərkən öz prinsipinə - materialları yalnız diqqətlə öyrəndikdən və dərk etdikdən sonra məsələlərin müzakirəsində iştirak etmək prinsipinə sadiq qalaraq torpaqyaxşılaşdırma şöbələrinin fəaliyyətinin mahiyyətini açıb göstərdi və iki istiqaməti müəyyən etdi: I - Rusiyanın mərkəzi quberniyalarında, II - Rusiyanın ucqarlarında. O, diqqəti buna cəlb etdi ki, bataqlıqların qurudulması, torpaqların suvarılması və su ilə təmin olunması yolu ilə imperiyanın kənd təsərrüfatı fondunu artırmaq vəzifəsi daşıyan bu şöbə yerli əhalinin ehtiyaclarına məhəl qoymayaraq köçürmə və məskunlaşdırma məqsədilə yalnız ucqarlardakı dövlət torpaqlarının suvarılması üzərində diqqətini cəmləşdirmişdir[778]. M.Y.Cəfərov həmçinin qeyd etdi ki, 1914-cü il üçün kredit

---

[775] Dövlət Duması. Stenoqrafik hesabatlar. I hissə.
[776] Dövlət Duması. Stenoqrafik hesabatlar. II hissə, sütun 1763.
[777] Dövlət Duması. Stenoqrafik hesabatlar. II hissə, sütun 2026; «Баку» qəzeti, 23 yanvar 1914-cü il.
[778] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, V hissə, sütun 84; «Каспий» qəzeti, 1 iyun 1914-cü il.

təyinatlarının öyrənilməsi nəticəsində aydın olmuşdur ki, bu kreditin böyük əksəriyyəti köçürmə işi və köçürmə üzrə torpaqyaxşılaşdırma ehtiyacları üçün nəzərdə tutulmuşdur. Daha sonra o, yerli əhalinin ehtiyaclarının sıxışdırılması hallarına dair çoxlu misal gətirərək dedi: "Əziyyət çəkən yerli əhali və onların ehtiyacları şöbənin heç yadına da düşmür"[779]. Onlar suvarma imkanı alanda da, bu bəzən çox gec olur. Halbuki məsələn, Muğanda bütün suvarma kanalları və suvarma qurğuları təkcə dövlət xəzinəsinin vəsaiti hesabına deyil, yerli əhalinin zemstvo vəsaiti və natural mükəlləfiyyəti hesabına inşa olunmuşdur. Yerli əhali, necə deyərlər, şəxsi suvarma kanallarının köməyindən istifadə etməyə məcbur olur ki, buna görə də öz məhsulunun üçdə bir hissəsini ödəyir. M.Y.Cəfərov şöbənin fəaliyyətini hərtərəfli təhlil etdikdən sonra nöqsanların aradan qaldırılması, milliyyətinə və dininə fərq qoymadan əhalinin bütün qruplarına xidmət göstərilməsi zəruriliyini qeyd etdi[780].

1916-cı ilin fevralında Dumanın deputatları Bakı şəhərində baş vermiş hadisələrlə əlaqədar verilmiş icbari qərarların izah olunması barədə sorğu-ərizə ilə Qafqaz canişininə və daxili işlər nazirinə müraciət etdilər. Bakıdan olan deputatlar Cəfərov, Skobelev və Papacanov çıxış edərək bildirdilər ki, Bakıda baş vermiş iğtişaşlar bahalıq ilə əlaqədar olmuşdur. Əsasən qadınlardan ibarət olan çoxsaylı kütlə mağazalara və anbarlara hücum çəkərək malları daşıyıb aparmışdır. Natiqlər Bakının xüsusi yer tutduğunu, xüsusən bütün ölkənin neft və neft məhsulları ilə təchizatında onun müdafiə müəssisələrinin rolunu qeyd edərək ərzaq böhranının kəskinləşməsinin qarşısını almağı xahiş etdilər. Sorğu qəbul olundu[781].

Müsəlman fraksiyasının nümayəndəsi 1916-cı ilin martında Maarif Nazirliyinin smetasının müzakirəsindən istifadə edərək Dumanın iclasında fraksiyanın proqramını bəyan etdi. Bu sənəddə maarif sahəsində müsəlmanların hüquqlarını məhdudlaşdıran qanunvericilik və inzibati normaların ləğvi, ibtidai məktəb proqramında rus dilinin öyrənilməsinə müəyyən yer ayrılmaqla şagirdlərin ana dilində tədrisin tətbiqi, ayrı-ayrı adamlara və cəmiyyətlərə ana dilində məktəblər açmaq hüququnun verilməsi barədə arzular ifadə olunmuşdu. Proqram həmçinin yuxarıda göstərilən məktəblər üçün müvafiq pedaqoji heyətin hazırlanması məqsədilə zəruri tədbirləri də nəzərdə tutur, müsəlmanlar üçün həyati əhəmiyyəti olan bu işə xəzinədən lazımi təxsisatlar ayrılmasını müəyyən edirdi. Duma bu məsələnin iclasda həllinin çətin olduğunu bildirərək fraksiyanın razılığı ilə onu xalq təhsili komissiyasına verməyi qərara aldı[782].

M.Y.Cəfərov 1916-cı ilin martında yerli özünüidarəetmə komissiyasının məruzəsi ətrafında çıxış edərək Zaqafqaziya zemstvo idarələrinin tətbiqi

---

[779] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, V hissə, sütun 84.
[780] Dövlət Duması. Stenoqrafik hesabatlar. II sessiya, V hissə, sütun 87.
[781] "Каспий" qəzeti, 27 fevral 1916-cı il.
[782] "Каспий" qəzeti, 17 mart 1916-cı il.

məsələsinin üstündə dayandı. Bu məsələnin Zaqafqaziyada çoxdan arzu olunduğunu və yarıməsrlik tarixə malik olduğunu bildirən M.Y.Cəfərov Papacanovun və Skobelevin fikirləri ilə həmrəyliyini bildirdi. Natiq onların dediklərinə əlavə olaraq xatırlatdı ki, zemstvo özünüidarəsinin tətbiqi məsələsi meydana çıxanda əvvəllər mərkəzi hakimiyyət cavab verirdi ki, yerli əhali bu idarəetmə formasına hazır deyildir. İndi isə, yəni 1916-cı ildə müharibə dövrünün olduğu göstərilir və vədlər verilir ki, zemstvo özunüidarəsi müharibədən sonra tətbiq ediləcəkdir. O, zemstvo islahatının vaxtı çatmış zəruriliyinin mahiyyətini açaraq yolların, əhaliyə aqronom və tibbi yardımın, kənd əhalisi arasında maarifin və s. olmamasını göstərdi. O, Dövlət Dumasına ümid bəsləyərək inanırdı ki, Duma hökuməti bu məsələni həll etməyə və yerli xüsusiyyətləri nəzərə almaqla Zaqafqaziyada heç olmasa 1890-cı il əsasnaməsini tətbiq etməyə məcbur edəcək[783].

Zaqafqaziya deputatlarının diyarda zemstvonu tətbiq etmək tələbi Dumanın bir sıra deputatları tərəfindən müdafiə olundu. Kadetlər partiyası sol cərəyanının liderlərindən biri olan D.İ.Şaxovski bu tələbi partiyanın ən yaxın tələbləri kimi öz proqramına daxil etdi[784].

1916-cı il noyabrın 3-də Dumanın iclasında bir sıra deputatlar hökumətə etimadsızlıq bildirdilər. Belə ki, proqressistlər fraksiyasını təmsil edən Don qoşunları vilayətindən deputat Yefremov bildirdi ki, hazırkı dövrdə əsas vəzifə xarici düşmən üzərində qələbəni təmin etməkdir. "Lakin bu hökumət bizi qələbəyə gətirmək iqtidarında deyildir; onu böyük Rusiyaya layiq başqa hökumət əvəz etməlidir"[785]. Terek vilayətindən deputat Karaulov onu müdafiə edərək dedi: "İndiki hökumət öz məsuliyyətsizliyi ilə nəinki heç vaxt böyük Rusiya yaratmayacaq, mövcud olanı da məhv edəcəkdir."[786].

"Müxalifətin" hökumətə verdiyi qiymətə M.Y.Cəfərov da müsəlman fraksiyasının üzvləri adından qoşuldu. Deputat müharibənin xarakteri üzərində dayanaraq və hökumətin öz sözləri ilə bunu "azadlıq müharibəsi" adlandıraraq qeyd etdi ki, bir halda ki, "rus ordusu xarici xalqlara azadlıq aparır, onda elə həmin azadlıq Rusiya imperiyasının tərkibinə daxil olan çoxsaylı xalqlara da elan olunmalıdır"[787]. Lakin hökumət "kiçik" xalqlara münasibətini daha da kəskinləşdirdi. Heç vaxt "milli əsarət zülməti indiki azadlıq müharibəsi dövründəki səviyyəyə gəlib çatmamışdır. Heç vaxt mərkəzləşdirilmiş rəhmsiz bürokrat mexanizmi Rusiyanın özgə xalqlarının milli hisslərini bu qədər təhqir etməmiş və indiki qədər onların məişət və mənəvi xüsusiyyətlərini eybəcərləşdirməmişdir"[788].

---

[783] Dövlət Duması. Stenoqrafik hesabatlar. IV sessiya, sütun 3690; "Каспий" qəzeti, 19 mart 1916-cı il.

[784] Думова Н.Г. Кадетская партия в период первой мировой войны и Февральской революции. Л., 1988, səh. 68.

[785] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, sütun 75.

[786] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, sütun 75.

[787] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, sütun 75; "Баку" qəzeti, 5 noyabr 1916-cı il.

[788] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, sütun 84.

O, sözünə misal olaraq Türküstan və Səhra vilayətlərinin 19 yaşından 43 yaşınadək sakinlərinin hamılıqla orduya çağırışını göstərdi. Əvvəllər hərbi mükəlləfiyyətdən azad edilmiş çağırışçılar inzibati şəxslərdən və idarələrdən lazımi izahat almayaraq və müxtəlif şayiələr yayaraq çaxnaşmaya düşmüş və bu da üsyan kimi qələmə verilmişdir. Buna görə onlara divan tutulmuşdur. Qan tökülmüş, faciə baş vermiş, evlər yandırılıb viranə qalmışdır. Digər tərəfdən də rüşvətxorluq, ağır vergilər, zorakılıq görünməmiş miqyas almışdır. M.Y.Cəfərov bütün bunların səbəbini "məsuliyyətsiz bürokratiyada" görərək hesab edirdi ki, o öz yerini xalq nümayəndələri qarşısında məsuliyyət daşıyan hökumətə verməlidir. Deputat təklif edirdi ki, dərhal "Rusiyanın bütün xalqlarına onların gələcək milli dirçəlişinin parlaq dövrünün başlandığı elan olunsun". Onun fikrincə bu, "rus əhalisinin özgə xalqlarla daha möhkəm və qırılmaz qardaşlıq telləri ilə" yaxınlaşmasına kömək edəcək, "qanlı savaşlarda mübarizlərin sinəsinə yeni güc verəcək, ... inam yaradacaq ki, vətən yolunda özgə xalqların verdikləri saysız-hesabsız qurbanlar bərabərhüquqlu ümumsiyasi həyatın qapılarını onların üzünə taybatay açacaqdır"[789].

M.Y.Cəfərovun nitqi Bakı ictimaiyyətinin marağına səbəb oldu. Bu çıxışın təhlilinə "Açıq söz" və "Baku" qəzetlərində məqalələr həsr olundu. Bir qədər narahatlıq doğuran o idi ki, senzura çıxışın mətninin tam şəkildə dərcinə imkan vermədi. Buna görə də "Açıq söz"dəki məqalənin müəllifi müsəlman fraksiyasına, onun üzvlərinə xəbərdarlıq edirdi ki, "ölkədəki mövcud qarmaqarışıqlıq dövründə hər bir sözü ölçüb-biçmək lazımdır"[790], həm də ona görə ki, "Rusiyada parlamentarizm hələ möhkəmlənməmişdir və kök salmamışdır"[791].

Fraksiyanın sədri K.M.Tevkelev və M.Y.Cəfərov Nazirlər Şurasının sədrinə məktub yazaraq ondan xahiş etdilər ki, qeyri-rus xalqlarının orduya çağırışını nizama salsın. Onlar Daxili İşlər Nazirliyinə getmiş və müsəlmanların müdafiə işlərinə cəlb olunması barədə informasiya almışdılar[792]. Bununla yanaşı onlar tarla işlərinin qızğın çağında əhalinin məşğulluğunun nəzərə alınmasını xahiş edərək bildirmişdilər ki, tarla işlərində çalışan əhalinin ailələrinə orduya çağırılanların ailələri kimi eyni əsaslarla dövlət ərzaq payı verilməli, tibbi və yaş müayinəsi diqqətlə keçirilməli, işçi drujinalar üzərində rəislər təyin edilərkən onların rəhbərlik edəcəkləri adamların dillərini bilməsi nəzərə alınmalıdır və s.[793] Fraksiyanın və onun bürosunun səyləri ilə başqa xalqların orduya çağırışı sentyabrın 15-dək təxirə salındı[794]. "Açıq söz" qəzeti bunu müsəlman fraksiyasının

[789] Dövlət Duması. Stenoqrafik hesabatlar. V sessiya, sütun 84.
[790] "Açıq söz", 9 noyabr 1916-cı il.
[791] "Açıq söz", 1 dekabr 1916-cı il.
[792] Yenə orada, 24 iyul 1916-cı il; «Баку» qəzeti, 25 iyul 1916-cı il.
[793] «Баку» qəzeti, 25 iyul 1916-cı il.
[794] Yenə orada, 20 avqust 1916-cı il.

xidmətləri kimi qeyd edərək yazırdı ki, "Qafqaz müsəlmanları fraksiyanın və büronun faydasını hiss etdilər, halbuki bizdən onlara heç bir xeyir yoxdur"[795].

Onların Nazirlər Şurasına müraciət etməsinə səbəb 1914-cü ilin mayında Bakıdan "Qafqaz müsəlmanlarının" imzası ilə K.M.Tevkelevə göndərilmiş məktub oldu. Məktubda xahiş olunurdu ki, müsəlmanların ehtiyacları haqqında Nazirlər Şurasının sədrinə məlumat verilərək rus ordusu sıralarında hərbi mükəlləfiyyət çəkməyin zəruriliyi məsələsi xüsusi qoyulsun, bunun tezliklə Qafqaz müsəlmanları arasında tətbiqinə kömək göstərilsin. Məktub müəllifləri buna "müsəlman xalqının mənəvi mənlik şüurunun yüksəldilməsi" vasitələrindən biri kimi baxaraq XIX əsrin 80-ci illərində ümumi hərbi mükəlləfiyyətə müsəlmanların mənfi münasibətini inkar etmədən bunu belə izah edirdilər ki, o zaman əhalidə "əsgərin həqiqi vəziyyəti haqqında aydın təsəvvür" yox idi. Lakin indi əhali görəndə ki, "qonşusu, fəhlə və ya çoban olan xristian həmyerlisi üçillik xidmət çəkib evə qayıdanda yarımsavadlı olsa da, rus dilində təmiz danışır, məgər o hərbi mükəlləfiyyətin bütün faydasını dərk etməyəcəkdirmi?"[796]. Əgər yüz evi olan kənd hər il 10-15 nəfəri əsgərliyə göndərsə, 10 əsgər rusca savad alıb, rus dilini, müxtəlif peşələri öyrənib öz diyarına qayıdar və öz həmkəndliləri arasında xüsusi nüfuz qazanaraq onların məişətinə təsir göstərə bilər, bir-birinin evini yandırmaq, soyğunçuluq etmək kimi halların qarşısını ala bilər. Buna görə də onlar hərbi mükəlləfiyyətə mədəniyyət ocağı kimi baxırdılar[797].

IV Dövlət Dumasının fəaliyyəti dövründə ölkədə ümumilli böhran artırdı. Dumada təmsil olunmuş bütün siyasi qüvvələr də öz narazılığını gizlətmirdilər. Çarizmə olan bütün ümidlər özünü doğrultmamış, vəd olunan islahatlar kağız üzərində qalmışdı. Getdikcə vəziyyət aydınlaşırdı - islahatlar olmayacaq. Ümid məyusluqla əvəz olunurdu və bu məyusluq demək olar bütün Dumanı əhatə edən narazılığa gətirib çıxarmışdı.

1915-ci ilin avqustunda Dumanın bir sıra fraksiyaları -proqressistlər, kadetlər, "17 oktyabr ittifaqı", zemstvoçu oktyabristlər, millətçi mərkəz fraksiyaları "mütərəqqi blokda" birləşdilər[798]. 422 deputatdan 236-sı bu bloka daxil oldu[799]. Birinci dünya müharibəsi dövründə kadetlər partiyasının fəaliyyətini tədqiq etmiş N.Q.Dumova Duma fraksiyalarının birləşməsi ideyasının həyata keçirilməsində kadetlərin fəal mövqeyini qeyd edərək sağların təşəbbüsünün də mühüm yer tutduğunu etiraf etmişdir. Blokun proqramının layihəsi P.N.Milyukov tərəfindən tərtib edilmişdi. Bu layihəyə baxılması üzrə komissiyaya da o özü başçılıq etdi[800]. Mütərəqqi blokun proqramının əsas tələbi "ölkənin etimadını qazanmış və yaxın

795 "Açıq söz" qəzeti, 15 avqust 1916-cı il.
796 "Каспий" qəzeti 30 may 1914-cü il.
797 Yenə orada.
798 Черменский Е.Д. Государственная дума и свержение царизма в России. Л., 1976, səh. 97.
799 Думова Н.Г. Göstərilən əsər, səh. 52.
800 Думова Н.Г. Göstərilən əsər, səh. 57.

müddətdə müəyyən proqramın yerinə yetirilməsi barədə qanunvericilik idarələri ilə razılığa gəlmiş şəxslərdən ibarət birləşmiş hökumət yaradılması" idi. Bu tələbin əsasını İctimai Etimad Nazirliyi şüarı təşkil edirdi[801]. Fraksiyalar Duma daxilində kompromis əsaslarla birləşməyi qərara alaraq milli proqramda özlərinin hətta ən adi arzularından yan qaçmağa çalışırdılar. Belə ki, kadetlər yəhudilərin hüquq bərabərliyi tələbinin əvəzinə yayğın, heç bir şeyə təminat verməyən başqa ideya təklif etmişdilər - "yəhudilər üçün məhdudlaşdırıcı qanunların ləğvi yoluna qədəm qoymaq". "Polşada torpaq sahibliyihaqqında qanunlara yenidən baxılmasına başlamaq"[802] müddəası da eyni ilə bu cür səslənirdi.

Müsəlmanlara gəldikdə isə, onların problemləri proqrama daxil edilmədi. Müsəlman fraksiyasının mütərəqqi bloka daxil olmamasının səbəbi də bu idi. Halbuki blokun yaradılması dövründə M.Y.Cəfərov fraksiyanı həm Dumanın ağsaqqallar şurasında, həm də fraksiyalararası müşavirələrin işində təmsil edirdi. O özünün "Mütərəqqi blok və müsəlman fraksiyası" məqaləsində[803] bu barədə çox ətraflı yazmışdı. M.Y.Cəfərov fraksiyaların vahid blokda birləşməsi səbəbləri üzərində dayanaraq qeyd edirdi ki, "blok Dövlət Dumasının iş proqramı məsələsindən yarandı". Blokun vəzifəsi "ölkəni razı salmağa, düşmən üzərində qəti qələbə üçün əlverişli şərait yaratmağa" qadir olan qanun layihələrini və məsələləri proqrama daxil etməkdən və "bununla da proqramın qəbul olunması üçün Dumada çoxluğu öz ətrafında toplamaqdan" ibarət idi[804]. Fraksiyalarda blokun proqramının ilkin müzakirəsindən sonra avqustun 9-da müşavirə çağırıldı. Həmin müşavirədə proqram qəbul edilməli idi. Fraksiya adından M.Y.Cəfərov təklif etdi ki, proqrama müsəlmanlar barəsində mövcud qanunvericilikdəki hüquq məhdudiyyətlərinin, inzibati sıxışdırmaların ləğvi, o cümlədən Dumada müsəlmanların nümayəndəliyini kəskin surətdə məhdudlaşdırmış 3 iyun seçki aktının dəyişdirilməsi də daxil edilsin. Onun təklifləri qəbul olunmadı. Bundan sonra blok ilə bağlı müşavirələrə müsəlman fraksiyasının nümayəndələri dəvət edilmədi. Fraksiya blokun yaradılmasından və onun proqramının hazırlanmasından yalnız avqustun 26-da qəzetlərdən xəbər tutdu. "Kaspi" qəzetində dərc olunmuş məqalədə M.Y.Cəfərov blokun proqramında özgə xalqların məsələsinin qoyuluşuna qiymət vermiş, proqramın müvafiq bəndlərini misal çəkərək belə bir faktı bildirmişdi ki, ayrı-ayrı millətlərin deputatlarının köməyi ilə Dumanın sol qruplarının avqustun axırlarında irəli sürdükləri dini və milli hüquq məhdudiyyətlərinin ləğvi barədə qanunvericilik layihələri kadetlər və proqressistlərin əksəriyyəti tərəfindən rədd edilmişdi. M.Y.Cəfərov yazırdı: "Açıq-aşkar görünürdü ki, göstərilən məhdudiyyətlərin ləğvinə həmişə tərəfdar çıxmış müxalif (kadetlər və proqressistlər) fraksiyalar hazırkı dövrün və ya hansısa başqa səbəblərin təsiri altında opportunist yolunu

[801] Думова Н.Г. Göstərilən əsər, səh. 58.
[802] Думова Н.Г. Göstərilən əsər, səh. 59.
[803] "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.
[804] "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.

tutdular, oktyabristləri və onlardan daha sağtəmayüllü qrupu bloka cəlb etmək üçün özgə xalqlar barəsində məhdudiyyətlərin ləğvinin blokun proqramına daxil edilməməsinə razılıq verdilər. Yeri gəlmişkən, iyulun 20-də Dumanın iclasında oktyabristlər və onlardan daha sağda dayanan blokçular həmin məhdudiyyətlərin əleyhinə səs vermişdilər"[805].

Fraksiyanın Mütərəqqi bloka münasibəti Rusiya ictimaiyyətinin böyük marağına səbəb oldu. Qəzetlərdə bir-birinə kifayət qədər zidd olan rəylər dərc olunurdu. Məsələn, II və III Dumanın üzvü, məşhur publisist, andlı müvəkkil köməkçisi, Kazanda çıxan "Yulduz" qəzetinin redaktoru Sədri Əfəndi Maqsudov "Yulduz" və "Vakt" qəzetlərində "Mütərəqqi blok və fraksiyamız" adlı məqalə dərc etdirmişdi. O, fraksiyanın blokdan kənarda qalmasını partiyaların birləşdiyi bu qədər mühüm tarixi məqamda çox böyük siyasi səhv hesab edirdi. O, "Hüquqlarından narazı olan millət həmişə və hər yerdə öz ehtiyacları barədə danışmalı və haray salmalıdır" şüarını irəli sürərək yazırdı ki, əgər blokun üzvləri "müsəlmanların heç olmasa minimum tələblərini yerinə yetirəcəklərini vəd edərlərsə", fraksiya bloka daxil olmalıdır[806]. M.Y.Cəfərov onunla polemikaya girərək yazırdı: "Mən Sədri Əfəndi Maqsudovu əmin edə bilərəm ki, blokun proqramında nəinki göstərilən bənd (özgə xalqlar barəsində məhdudiyyətlərin ləğvinə dair bəndin təkcə özü, onun fikrincə, fraksiyanı bloka daxil olmağa sövq etməli idi) olsaydı, hətta bloka girərək müsəlmanların ağrılı məsələlərindən hər hansı birinin onun proqramına daxil edilməsinə səy göstərmək imkanı da olsaydı, biz bunu edərdik və Sədri Əfəndinin zənn etdiyi kimi, bizim qürurumuz belə bir şəraitdə müraciət etməyimizə, xahiş etməyimizə heç də mane olmazdı"[807].

Bununla yanaşı M.Y.Cəfərov gələcəkdə fraksiyanın bloka daxil olması imkanını da istisna etməyərək bunu blokun özünün aktuallığı və müsəlmanlara münasibətdə mövqeyi ilə əlaqələndirirdi. O, fraksiyanın bloka münasibətinə iki tərəfdən yanaşırdı. Müsəlmanları təmsil edən fraksiyanın marağı var idi ki, blok müsəlmanlara bilavasitə aid olan məsələlərə diqqət göstərsin. Eyni zamanda, o yazırdı: "biz rus vətəndaşları kimi, bloku və onun proqramını müdafiə edə bilərik, çünki xüsusən yaşadığımız indiki şəraitdə ölkənin vəziyyətini xeyli dərəcədə yaxşılaşdırmağa qadir olan proqramın həyata keçirilməsi müsəlmanların mənafelərinə uyğun olmaya bilməz. Lakin bu hər halda bloka müsəlman deputatlar kimi münasibətimizi istisna edə bilməz"[808].

S.Maqsudovdan fərqli olaraq "Kaspi"də və "Açıq söz"də dərc olunan yazıların müəllifləri müsəlman fraksiyasının üzvləri ilə həmrəy idilər. C.Hacıbəyov "Müsəlmanın qeydləri. Blok və biz" məqaləsində yazırdı ki, "Dumada fraksiyamız öz tərkibinə görə nə qədər zəif olsa da, onun sağlam düşüncəyə malik olmadığını

---

805 "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.
806 "Каспий" qəzeti, 14 noyabr 1915-ci il.
807 "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.
808 "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.

və təmsil etdiyi ünsürün şübhəsiz xeyrini arzulamadığını söyləmək çox böyük ədalətsizlik olardı"[809]. Müsəlmanların siyasi təşkilatının və Rusiyanın ictimai-siyasi həyatında onları təmsil edə biləcək adamların olmadığını[810] iddia edən M.Y.Cəfərovdan fərqli olaraq "Açıq söz" qəzetindəki "Dövlət Dumasında" adlı bir sıra yazıların müəllifi isə fraksiyanın diqqətini kifayət qədər qəti şəkildə Ümumrusiya müsəlmanları qurultaylarının göstərişlərinə cəlb etmişdi. O qeyd edirdi ki, fraksiyanın proqramı "İttifaqi-müslimin"in proqramıdır, fraksiyanın çantasında olan qanun layihələrindəki müddəalar bu proqramdan götürülmüşdür. O, fraksiyanı proqrama sadiq qalaraq yalnız çeviklik göstərməyə və taktiki üsulları təzələməyə çağırırdı. "Fraksiya müstəqil işləməli, heç kimə qoşulmamalıdır". Müəllif bloku müvəqqəti və qeyri-sabit bir şey hesab edərək fraksiyaları "hər cür siyasi cərəyanlara və əhval-ruhiyyəyə"[811] uymamağa çağırırdı.

Duma komissiyalarının üzvü olan M.Y.Cəfərov ən müxtəlif məsələlərin müzakirəsində iştirak etmişdi. O, vəkillər heyətinə qəbul olunarkən qeyri-xristian dinindən olan şəxslər barədə məhdudiyyətlərin ləğvi məsələsinə dair, habelə baş vergisi verən silklərə məxsus şəxslərin hüquqlarının bərabərləşdirilməsi haqqında hökumətin qanun layihəsinə baxan komissiya üçün materiallar hazırlamışdı. Kadetlar, oktyabristlər və proqressistlər bu təklifi müdafiə edəcəklərini vəd etmişdilər. Belə ki, büdcə komissiyasının iclaslarında[812] M.Y.Cəfərov aydınlaşdırmışdı ki, neft çıxan torpaqlar sifariş təqdim olunmadan xüsusi şəxslərə verilə bilərmi, Qazax qəzasının heyvandar əhalisinin əlindən torpaqları almaq üçün qanuni əsas varmı, köçürmə siyasəti prosesində Qırğızıstanın yerli əhalisinin mənafelərinin sıxışdırılması hüquqa uyğundurmu. O, Varşava qaz zavodunun fəhlələrinə qarşı zorakılıq, kənd təsərrüfatı maşınları və alətləri istehsal edən bir neçə zavodun sindikatının zərəri, seldən zərər çəkmiş Volqaboyuna kömək barədə sorğular imzalamışdı. M.Y.Cəfərov sadə kəndlilərin və əvvəllər baş vergisi vermiş silklərə məxsus şəxslərin hüquqlarındakı bəzi məhdudiyyətlərin ləğvinə, şəxsi mülkiyyət hüququ ilə torpağı olan bütün kəndlilərə seçki hüquqlarının verilməsinə və s. tərəfdar çıxmışdı.

Birinci dünya müharibəsi dövründə Dövlət Dumasının üzvləri adına lazaretin müvəkkili təyin edilmiş M.Y.Cəfərov parlament fəaliyyəti ilə yanaşı Qafqazda hərbi əməliyyatlar rayonuna da baş çəkməli olurdu[813]. Eyni zamanda müharibədən zərərçəkənlərə yardım üzrə Xüsusi müşavirədə, qaçqınlara yardım üzrə Qafqaz komitəsində Bakı müsəlman xeyriyyə cəmiyyətinin nümayəndəsi olan M.Y.Cəfərov çox böyük mərhəmət göstərərək qaçqınlar və onların uşaqları üçün

---

809 "Каспий" qəzeti, 14 noyabr 1915-ci il.
810 "Каспий" qəzeti, 9 dekabr 1915-ci il.
811 "Açıq söz" qəzeti, 1 dekabr 1916-cı il.
812 1914-cü il üçün mədaxil və məxaricin dövlət cədvəli layihəsinə baxılması barədə büdcə komissiyasının məruzələri. Dövlət Dumasının stenoqrafik hesabatlarına əlavələr. Dördüncü çağırış. İkinci sessiya, 1913-1914. II buraxılış, SPb., 1914.
813 "Каспий" qəzeti, 19 və 21 fevral 1915-ci il.

sığınacaq yaradılmasına, bu adamlara hər cür kömək göstərilməsinə, əhaliyə aşağı qiymətlərlə ərzaq satışı üçün ərzaq dükanlarının təşkilinə vəsait buraxılmasını hökumətdən tələb etmişdi[814].

Beləliklə, dörd çağırış Dövlət Dumasında Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin nümayəndələrinin fəaliyyəti, Dumanın çoxsaylı əsas və yardımçı komissiyalarında iştirakı, habelə Azərbaycan sahibkarlarının ideoloqlarının yerli və paytaxt mətbuat orqanlarının səhifələrində çıxışları sübut edir ki, onlar XX əsrin əvvəllərində petisiyalarda və müraciətlərdə irəli sürdükləri tələblərin yerinə yetirilməsinə can ataraq hər cür hüquq məhdudiyyətlərinin ləğvi uğrunda mübarizə aparır, ana dilində təhsil hüququna, məhkəmə icraatında ana dilinin tətbiqinə və s. nail olmağa çalışırdılar. Onlar geniş kütlələri siyasi hüquqlar uğrunda mübarizəyə cəlb etmək istəyirdilər. Onlar Rusiyadakı mövcud konstitusiya quruluşu çərçivəsində islahatlara böyük ümidlər bəsləyərək bildirirdilər ki, bu, "partiyanın və ya qrupun ixtirası" deyildir, "insan birgəyaşayışının inkişafında və yüksəlişində təbii və zəruri mərhələdir" və "bu labüd prosesə zidd çıxan bütün təzahürlər təbii ölümə məhkumdur"[815]. Nərimanov isə hər cür milli və sosial məhdudiyyətlərin ləğvi uğrunda mübarizənin perspektivlərini başqa cür təsəvvür edirdi. O, 1907-ci ilin avqustunda Bakıda müəllimlər qurultayındakı çıxışında tam qətiyyətlə bildirmişdi: "Qarşılaşdığımız, daim, hər yerdə üzləşdiyimiz mütləqiyyət siyasətidir. İndiki rejimdə nə milli müqəddəratı təyinetmədən, nə də dillərin hüquq bərabərliyindən söhbət gedə bilməz. Bunlar qeyri təbiidir"[816].

Tarix göstərdi ki, N.Nərimanov uzaqgörənliklə dediyi bu fikirlərdə tamamilə haqlı idi. Rusiya imperiyası çərçivəsində hüquq məhdudiyyətlərinin ləğvinə nail olmaq üçün Azərbaycanın sosial cəhətdən yuxarı təbəqələrinin bütün səyləri boşa çıxdı. Yalnız hər cür zülmün və qeyri-bərabərliyin ləğvi vəzifəsini qarşısına qoyan, 1917-ci ilin fevralında Rusiyada baş vermiş inqilab əsl tərəqqiyə və yeniləşməyə meydan aça bildi. İnqilabın real alternativi yox idi.

1917-ci il martın 1-də ali senata Əlahəzrətin fərmanları bəyan olundu: "Əsas dövlət qanunlarının 99-cu maddəsi əsasında əmr edirik ki, Dövlət Dumasının iclasları bu il fevralın 26-dan dayandırılsın və fövqəladə hadisələrdən asılı olaraq onların bərpası müddəti uzaqbaşı 1917-ci ilin aprelinə təyin edilsin... Nikolay, Çar qərargahı. 25 fevral 1917-ci il"[817]. Lakin nə hökumət fərmanı, nə də çarın 1917-ci ilin aprelində Dumanı yenidən çağırmaq ümidləri həyata keçmədi. Fevralın 26-da Dövlət Dumasının Ağsaqqallar Şurası Dumanın buraxılması haqqında fərmanla

---

814 "Баку" qəzeti, 27 iyul, 21 sentyabr 1916; "Каспий" qəzeti, 13 oktyabr 1915; 19 fevral, 24 aprel, 24 iyul 1916-cı il.

815 "Каспий" qəzeti, 25 mart 1917-ci il.

816 Нариманов Н.Н. Избранные произведения, т. I, Bakı, 1988, səh. 157.

817 "Каспий" qəzeti, 1 mart 1917-ci il.

tanış olaraq qərara aldı: "Dövlət Duması dağılışmasın, bütün deputatlar öz yerlərində qalsınlar".

Monarxiya süqut etdi. XX əsrin əvvəllərində Rusiyanın ictimai inkişafının bütün gedişinin qanunauyğun nəticəsi belə oldu. İki əsrin qovuşuğunda baş vermiş sosial toqquşmalar, 1905-1907-ci illərin inqilabi çaxnaşmaları, imperialist müharibəsi bütün sahələrdə ölkəni böhrana gətirib çıxardı.

Fevralın 27-də Dövlət Dumasının İcraiyyə Komitəsi təşkil edildi. Komitəyə Rodzyanko, Kerenski, Çxeidze, Şulgin, Milyukov, Karaulov, Konovalov, Dmitryukov, Rjevski, Şidlovski, Nekrasov, Lvov daxil oldular[818]. Qəzetlər xəbər verirdilər ki, İcraiyyə Komitəsi Dövlət Dumasının bütün partiyalara mənsub üzvlərindən yaradılır[819]. Duma hökuməti yaratdı. Knyaz Q.Y.Lvov Nazirlər Şurasının sədri və daxili işlər naziri elan olundu[820]. Bakı şəhər rəisi L.L.Bıç martın 3-də Bakı şəhər duması adından vurduğu teleqramda yeni hökuməti salamladı və bildirdi ki, Bakıda bu münasibətlə birgünlük təbrik tətili keçirilmişdir[821]. Ceyhun bəy Hacıbəyov öz sevincini gizlədə bilmirdi: "Daha rüsvayçı "özgə xalq" damğası yoxdur. Hamı üçün yalnız bir şərəfli titul var: vətəndaş". M.Ə.Rəsulzadə "böyük çevrilişi" salamladı, bütün xalqların azadlıqlarına təminat veriləcəyini bildirdi, müsəlmanları azadlıq naminə birləşməyə və Rusiyanın bütün vətəndaşları ilə birlikdə addımlamağa çağırdı. O, Dumanın müsəlman fraksiyasına böyük ümidlər bəsləyərək bildirirdi: "Ondan başqa bizim heç bir siyasi təşkilatımız yox idi... Rusiyanın bütün müsəlmanları ətaləti ətəklərindən töküb öz həmvətənləri ilə birgə hərəkət etməlidirlər, onlar hər yerdə deməlidirlər ki, bu azadlıq üçün hər şeydən keçməyə hazırdırlar, buna görə də hər yerdə öz səslərini çıxarmalı, özlərini tanıtdırmalıdırlar". M.Ə.Rəsulzadə əmin olduğunu bildirirdi ki, Müəssislər məclisi azad Rusiyada yaşayan bütün xalqlar üçün şərait yaradacaq. O, hökuməti müdafiə etməyi, azad partiyalarla birləşməyi hər bir xalqın bərabər hüquqlar alması üçün vasitə hesab edirdi[822].

Dövlət Duması İcraiyyə Komitəsinin sədri M.Rodzyankoya və müsəlman fraksiyasının sədrinə Bakı şəhərinin otuz müsəlman ictimai təşkilatından teleqram göndərilmişdi. Novruz bayramı günü Bakı müsəlman xeyriyyə cəmiyyəti tərəfindən təşkil olunmuş ziyafətdə F.Xoyski bu teleqramı oxumuşdu. Ziyafətdə Bakıda yaşayan bütün millətlərin nümayəndələri iştirak etmişdilər. Qonaqları cəmiyyətin rəyasət heyətinin üzvləri H.Z.Tağıyev, İ.Səfərəliyev və M.Əsədullayev qəbul etmişdilər. Teleqramda yeni dövlət quruluşu alqışlanır və göstərilirdi ki, müsəlmanlar Rusiyanın bütün vətəndaşları üçün elan olunmuş mülki, siyasi və milli-dini azadlıqlara və bərabərliyə böyük ümidlər bəsləyirlər. Ziyafətdə

---

818 "Каспий" qəzeti, 3 mart 1917-ci il.
819 "Каспий" qəzeti, 3 mart 1917-ci il.
820 "Каспий" qəzeti, 4 mart 1917-ci il.
821 "Каспий" qəzeti, 5 mart 1917-ci il.
822 "Каспий" qəzeti, 8 mart 1917-ci il.

ziyalıların və fəhlələrin nümayəndələri çıxış etdilər[823]. Martın 11-də müsəlman qadınlarının ziyafəti keçirildi. Bu ziyafətin də iştirakçıları M.Rodzyankoya və müsəlman fraksiyasına təbrik teleqramları göndərdilər[824].

Müvəqqəti hökumətin dərc olunmuş fəaliyyət proqramı ilə əlaqədar 1917-ci il martın 8-də müsəlman fraksiyası Nazirlər Şurasına bəyanat təqdim etdi. Bəyanatda bütövlükdə proqramdan razılıq hissi ifadə olunmuşdu. Fraksiyanı yalnız bir məsələ narahat edirdi ki, Rusiyanın ictimai-siyasi xadimlərinin ucqarların və Volqaboyunun müsəlman əhalisinin məişət xüsusiyyətlərindən nabələdliyi proqramın həyata keçirilməsinə mənfi təsir göstərə bilər. Bu nabələdlik özünü aydın şəkildə bunda göstərirdi ki, onilliklər ərzində qanunvericilik idarələri müsəlmanların ən cüzi ehtiyaclarını ödəməyə qadir olmamışlar. Fraksiya narahat idi ki, müsəlmanların dilini, məişətini, dünyagörüşünü bilməmək onlarda yeni dövlət quruluşundan narazılıq doğura bilər. Buna görə də müsəlman fraksiyası "Müvəqqəti hökumətin nəzərinə çatdırmağı" zəruri bilirdi ki, "dövlət hakimiyyəti aparatını təşkil edərkən" daxili işlər, ədliyyə, maarif nazirliklərinə, hərbi, dəniz və əkinçilik idarələrinə diqqət yetirsin. Çünki bu orqanların fəaliyyəti müsəlman əhalisi ilə və müsəlmanların əksəriyyət təşkil etdikləri Qafqaz, Türküstan, Səhra vilayətləri, Həştərxan, Vyatka, Kazan, Orenburq, Ufa, Tavriçesk və s. quberniyalarla əlaqədardır. Təyinatlar zamanı Müvəqqəti hökumət əvvəlki rejimin səhvlərini təkrar etməməlidir və vəzifələrə təyin edilən şəxslərin təkcə partiya yaxınlığı prinsipini yox, həm də bu şəxslərin müsəlman əhalisinin məişətinə, dilinə və xüsusiyyətlərinə nə dərəcədə bələd olması prinsipini rəhbər tutmalıdır. Özünü müsəlmanların yeganə siyasi təşkilatı elan edən müsəlman fraksiyası bildirirdi ki, müsəlmanların mənafeləri naminə öz vəzifələrini icra etməyə qadir olan şəxslərin adlarını çəkə bilər[825].

1917-ci il martın 9-da Müvəqqəti hökumət Dövlət Dumasının üzvləri V.A.Xarlamovdan (sədr), M.Y.Cəfərovdan, M.İ.Papacanovdan, P.A.Pereverzyevdən ibarət "Zaqafqaziya diyarının təşkil edilməsi üzrə xüsusi komitə" yaradılması barədə qərar qəbul edərək onlara hökumətin səlahiyyətini və Müvəqqəti hökumətin hüquqlarını verdi. Bu komitə "Müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 6-da bütün xalqa elan olunmuş prinsiplər əsasında Zaqafqaziya diyarında möhkəm qayda yaratmalı və diyarı təşkil etməli idi". Komitə Qafqaz cəbhəsində müharibənin əhatə etdiyi vilayətlərdə mülki idarəetmənin təşkili üçün tədbirlər görülməsi məqsədini də daşıyırdı[826].

Xüsusi Zaqafqaziya Komitəsinin Tiflis şəhərində yerləşdirilməsi müəyyən olunmuşdu. Deputatlar martın 15-də yolüstü Bakıda dayanaraq icraiyyə komitəsinin üzvləri və onun sədri L.L.Bıç ilə, dumanın qlasnıları ilə görüşüb

---

823 "Каспий" qəzeti, 10 mart 1917-ci il.
824 Yenə orada, 12 mart 1917-ci il.
825 "Каспий" qəzeti, 15 mart 1917-ci il.
826 "Каспий" qəzeti, 18 mart 1917-ci il.

əhalinin müxtəlif təbəqələri ilə söhbətlər apardılar[827]. Martın 16-da M.Y.Cəfərov mitinqdə çıxış etdi. O öz nitqində "azad Rusiyanın azad vətəndaşlarını" salamladı. M.Y.Cəfərov öz səlahiyyətləri barədə danışaraq qeyd etdi ki, "Müəssislər məclisi toplaşıb əsas qanunları hazırlayanadək Qafqazın müvəqqəti təşkili kimi çətin vəzifə onlara həvalə olunmuşdur"[828]. O, Fevral inqilabını salamlayıb "böyük iş" kimi qiymətləndirərək bildirdi: "Rusiya despotik idarə üsulundan azad oldu. Artıq çar yoxdur, artıq qüdrətli ölkəni məhvə gətirib çıxarmış çürük hökumət yoxdur"[829]. Daha sonra o, əldə olunmuş bu azadlığı müdafiə etmək, qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağıraraq dedi: "Bu azadlığı əlinizdən verməyin, onu özünüzdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq"[830]. Tiflisdə diyar icraiyyə komitələrinin diyar qurultayı dövründə, 1917-ci il martın 24-də keçirilmiş mitinqdə çıxış edən M.Y.Cəfərov hazırkı məqamın milli şüarlar irəli sürmək vaxtı olmadığına diqqəti cəlb edərək bütün milli tələblərin Müəssislər məclisi tərəfindən yerinə yetiriləcəyini qeyd etdi və Qafqazın bütün xalqlarını birliyə çağırdı.

Dörd çağırış Dövlət Dumasında Azərbaycan deputatlarının fəaliyyəti XX əsrin əvvəllərində Azərbaycan xalqının malik olduğu intellektual potensialın bariz təzahürü idi. Milli-azadlıq hərəkatının böyük yüksəlişi dövrü xalqın mənafelərini qorumağa çalışan parlaq şəxsiyyətlərin bütöv bir nəslini aşkara çıxartdı. Sərt siyasi hüquqsuzluq şəraitində ilk dəfə olaraq öz mənafelərini və ehtiyaclarını ifadə etmək hüququ qazanmış Azərbaycan ictimaiyyəti, onun ideoloqları XX əsrin əvvəlindən başlayaraq hər cür ərizələr və petisiyalar tərtib edərək çar hökumətinə göndərmişdilər. Həmin sənədlərdə ifadə olunmuş bütün tələb və arzular sonralar istər dövri mətbuat səhifələrində, istər Dövlət Dumasının iclaslarında, istərsə də onun əsas və yardımçı komissiyalarında məsələlərin müzakirəsində konkret şəkildə səslənmişdi. Dumada bu məsələlərin qoyuluşunun tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, əgər I Dövlət Dumasında Azərbaycandan olan deputatlar yalnız məsələləri irəli sürməyə cəsarət edirdilərsə, onların II Dumadakı çıxışlarında bunlar ətraflı əsaslandırılır, III Dumada zəngin faktik material ilə möhkəmləndirilirdi. Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş IV Duma isə elə imkan yaratmışdı ki, M.Y.Cəfərov bütün xalqının arzusunu ifadə edərək öz səsini müxalifətin səsinə qoşaraq "mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hisslərini" təhqir etməsini tam açıqlığı ilə bəyan etmişdi.

Beləliklə də Azərbaycanın görkəmli ictimai xadimləri Rusiya imperiyasının mövcud quruluşunun devrilməsinə bütün səy və bacarıqlarını əsirgəməmiş, bu böyük tarixi əhəmiyyətli hadisənin baş verməsində yaxından iştirak etmişdilər.

---

827 "Каспий" qəzeti, 17 mart 1917-ci il.
828 "Каспий" qəzeti, 18 mart 1917-ci il.
829 Yenə orada.
830 "Каспий" qəzeti, 19 mart 1917-ci il.

## Son söz

XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində, onun milli mənlik şüurunun inkişafında, azadlıq mübarizəsinin genişlənməsində, iqtisadi və intellektual potensialının artmasında xüsusi yer tutur.

Milli zülm şəraitində və Rusiya imperiyasının qanunvericilik aktlarının sərt məhdudiyyətlər məngənəsində yaşayan milli sahibkarların nümayəndələri iqtisadiyyatın tam bir sıra sahələrində öz mövqelərini möhkəmləndirir, milli kapitalı artırır, bu kapitalın bir hissəsini səxavətlə Azərbaycan cəmiyyətinin mədəni-maarif həyatının inkişafına, onun intellektual təbəqəsinin yaradılmasına yönəldirdilər. İqtisadi sahədə mövqelərin möhkəmləndirilməsi sahibkarların siyasi mövqelərində böyük dəyişikliklərə gətirib çıxardı. Bu dəyişikliklər onların cəmiyyətdəki nüfuzunun tədricən artmasına, ümummilli azadlıq mübarizəsi məcrasına cəlb olunmalarına xidmət etdi.

Azərbaycan sahibkarlarının vəsaiti hesabına çıxan dövri mətbuat səhifələrində dərc olunmuş məqalə və yazılarda ümummilli əhəmiyyətə malik ideyalar söylənir, "həyatın canlanmasına", maarifçiliyin yayılmasına, xeyriyyə və mədəni-maarif təsisatlarının yaradılmasına çağırışlar ifadə olunurdu. Avropanın və Rusiyanın ali məktəblərində təhsil almış, peşə hazırlığı keçmiş ziyalıların parlaq, istedadlı, yüksək təhsilli nümayəndələri bu dövrdə ictimai-siyasi fəaliyyətə qədəm qoyurlar. Azərbaycanın xeyriyyəçi sahibkarlarının köməyi ilə başqa ölkələrdə təhsil alıb vətənə qayıtdıqdan sonra onlar öz xalqının siyasi səviyyəsini qaldırmaq, milli mənlik şüurunu inkişaf etdirmək üçün əllərindən gələni edirdilər.

Xalqın azadlıq mübarizəsinin çox böyük yüksəlişinə səbəb olmuş 1905-ci il cəmiyyətin bütün təbəqələrinin siyasi cəhətdən fəallaşması, ümummilli tələblərin hazırlanıb təqdim edilməsi, xalqın ehtiyac və ümidlərinin ifadə edilməsi üçün obyektiv şərait yaratdı.

Mövcud quruluşun "yeniləşməsini" elan etmiş bir sıra çar fərmanları və reskriptləri, hökumət sərəncamları Azərbaycan sahibkarlarının nümayəndələrinə imkan verdi ki, dinc, leqal metodlardan istifadə edərək petisiyalar, ərizələr təqdim etsinlər, yüksək mənsəbli çar məmurlarının qəbuluna getsinlər, bütün millətin arzu və tələblərini yüksək instansiyalara çatdırsınlar.

Bu dövrdə Azərbaycan sahibkarları tərəfindən bir sıra petisiyalar və ərizələr tərtib olunmuş və çar hökumətinə təqdim edilmişdir.

1905-ci il martın 15-də H.Z.Tağıyevin sarayında Azərbaycan sahibkarları və ziyalıları nümayəndələrinin müşavirəsi keçirildi. Həmin müşavirədə qərara alındı ki, hökumətə petisiya verilsin və onun təqdim olunması üçün Peterburqa "bütün Qafqaz müsəlmanlarından"[831] deputat heyəti göndərilsin. Bu məqsədlə diyarın əsas məntəqələrinə teleqram göndərilərək nümayəndələrin deputat heyətinə

[831] "Каспий" qəzeti, 17 mart 1905-ci il.

tövsiyə edilməsi təklif olunurdu. Bununla da istər milli qüvvələrin, istərsə də Qafqazın bütün müsəlmanlarının sıx birləşməsinə imkan yaradılırdı.

Bu petisiya Azərbaycandan çar hakimiyyəti orqanlarına təqdim olunmuş ilk rəsmi sənəd idi. Sənəddə bir sıra demokratik tələblər - müsəlmanlara yığıncaq və birləşmək azadlığının şamil edilməsi, şəxsiyyətin və mənzilin toxunulmazlığı, tədrisi ana dilində aparmaqla ümumi icbari və pulsuz ibtidai təhsilin tətbiqi, diyarda zerastvo təsisatının, andlı məhkəmənin tətbiqi, müsəlmanlara qarşı hər cür hüquq məhdudiyyətlərinin ləğvi və s. barədə tələblər qoyulmuşdu[832]. Bu tələblərin petisiyaya daxil edilməsi böyük əhəmiyyət kəsb edirdi, çünki sənədin məzmununa ümumdemokratik xarakter verirdi, onun milli zülmə qarşı yönəlməsini sübut edirdi. Əhalinin bütün təbəqələrinin mənafelərini əks etdirən bəndlər isə petisiyaya ümummilli proqram əhəmiyyəti verirdi. Məhz bunun sayəsində sonralar bu petisiya çar hökumətinin bu və ya digər instansiyalarına müraciətlərin, ərizələrin bir növ platforması, əsası oldu. Sonrakı müraciət və ərizələrdə onun ayrı-ayrı müddəalarının məzmunu daha da konkretləşdirilərək geniş kütlələrin diqqətini özünə cəlb etdi.

XX əsrin əvvəlində Azərbaycan sahibkarlarının müxalifət əhval-ruhiyyəsi təkamül yolu keçir, mövcud rejimə qarşı çıxışlar müxtəlif formalar alır, mübarizənin strategiyası və taktikası dəqiqləşdirilirdi. Cəmiyyətdə siyasi qütbləşmə prosesi gedirdi.

1905-ci il 17 oktyabr tarixli çar manifestinin Azərbaycan cəmiyyətinin siyasi cəhətdən fəallaşması üçün böyük əhəmiyyəti oldu. O dövrün siyasi publisistikası göstərir ki, demokratik azadlıqlar, o cümlədən təşkilatlar yaratmaq azadlığı vəd edən bu manifest Azərbaycan sahibkarları nümayəndələrinin, onların mənafelərini ifadə edənlərin sevincinə səbəb olmuşdu. Bu da bir daha sübut edirdi ki, onlar konstitusiyalı monarxiya çərçivəsində öz tələblərinin yerinə yetiriləcəyinə ümid edirdilər. Manifestdən və orada azadlıqların elan olunmasından sonra müəyyən qətiyyət, tələbkarlıq və müxalifətçilik müşahidə olunurdu. 1905-ci ilin noyabr-dekabr aylarında keçirilmiş siyasi mitinqlərdə səslənən çıxışlarda həm çar tərəfindən demokratik azadlıqların elan olunması faktının bəyənildiyi bildirilir, həm də bunların həyata keçirilməsinin ləngidiyindən narazılıq hissi ifadə olunur, bu azadlıqların dərhal icra olunması tələbləri irəli sürülürdü.

XX əsrin əvvəllərində Azərbaycanda yaranmış vəziyyət müxtəlif siyasi və ideoloji platformaların təşəkkül tapması, partiya və təşkilatların formalaşması üçün obyektiv şərait yaratdı. Sosial cəhətdən kifayət qədər rəngarəng olan, əhalinin demək olar bütün təbəqələrinin milli zülmə qarşı mübarizə aparmağa hazır olan nümayəndələrini öz sıralarına çəkən bu təşkilatlar milli xarakter kəsb edir və öz proqram sənədlərində bütün xalqın mənafelərini əks etdirməyə çalışırdılar. 1905-ci ildə "Milli müdafiə cəmiyyəti və müsəlman zadəganlarının, ziyalılarının və yuxarı

[832] RFDTA, fond 1276, siyahı 1, iş 107, vərəqlər 65 arxada - 69; "Право" qəzeti, 8 may 1905-ci il.

təbəqələrinin ittifaqı" yarandı. Təşkilatın adından göründüyü kimi, o, geniş sosial bazaya malik idi və sosial cəhətdən yuxarı təbəqələrin mənafelərini əks etdirirdi. Təşkilatın əlimizdə olan yeganə nəşri "Bakı şəhərinin zadəganlarına və nüfuzlu şəxslərinə müraciət"[833] adlanır. Lakin təkcə bu sənəd də deməyə əsas verir ki, Azərbaycan cəmiyyətinin tarixi perspektivə böyük ümidlər bəsləyən yuxarı eşelonu XX əsrin əvvəllərində Rusiyada genişlənmiş azadlıq hərəkatına fəal qoşulmuşdu.

Bir qədər sonra, 1905-ci ilin dekabrında - 1906-cı ilin yanvarında Azərbaycan sahibkarlarının və ziyalılarının tam bir sıra nümayəndələri konstitusiyalı demokratiya partiyasının Bakı şöbəsinin, onun bürosunun tərkibinə daxil oldular. Rusiya Dövlət Dumasına seçkilər və Dumanın fəaliyyəti zamanı bu partiyaya və onun proqramına rəğbət nəzərəçarpacaq dərəcədə artdı. 1912-ci ilin yanvarında isə Yelisavetpol qubernatoru Polis Departamentinə məlumat vermişdi ki, "ziyalılar büsbütün kadetçilərdir, ayrı-ayrı, müstəsna hallarda öz daxili əqidələrinə görə ciddi kadetçilərdir, əksəriyyət isə nədənsə belə hesab edir ki, kadet platforması hər bir ziyalı üçün vacibdir. Bu cəhət siyasi partiyaları, mətbuatı və yerli əhalinin mədəni-maarif fəaliyyətinin bütün başqa növlərini də hərtərəfli səciyyələndirir"[834].

1905-ci ildə kəskinləşmiş erməni-azərbaycanlı münasibətləri milli qüvvələrin sıx birləşməsini tələb edirdi. Qafqaz canişini tərəfindən çağırılmış və 1906-cı ilin fevral-mart aylarında Tiflisdə keçirilmiş "barışdırıcı" qurultayın azərbaycanlı nümayəndələrinin çıxışlarında ərazi bütövlüyü üçün yaranmış təhlükə qarşısında bütün qüvvələrin birləşməsində, bütün millətin mənafelərinin müdafiə olunmasında təşkilatların, o cümlədən siyasi təşkilatların rolu xüsusi qeyd olundu. Qurultayda coşğun diskussiyalar nəticəsində "Daşnaksütyun"a və onun silahlı qüvvələrinə qarşı müsəlmanların öz siyasi partiyasının və silahlı dəstələrinin yaradılması zəruri sayıldı. Bu partiya Ə.Ağayevin 1906-cı ilin avqust-sentyabr aylarında yaratdığı "Difai" partiyası oldu. Partiya öz məqsədlərini həm xalqın müdafiə olunmasında, həm də maarifləndirilməsində görürdü. Difaiçilər təbliğ etdikləri siyasi məqsədlərin və vəzifələrin qavranılması üçün kütlələrdə müvafiq şüur və mütəşəkkillik səviyyəsinin olmasının zəruriliyini başa düşərək əhali arasında geniş maarifçilik işi aparır, bu zaman Bakı və Yelisavetpol quberniyalarında artıq yaradılmış olan xeyriyyə cəmiyyətlərinin potensialından istifadə edirdilər.

"Difai"nin bölmələrinin coğrafiyası geniş idi. Onların arasında ən böyüyü "Qarabağ Birlik Məclisi" idi. Məclisin baş komitəsi Şuşada yerləşirdi. Onun kifayət qədər geniş proqramında "müsəlmanlar arasında milli birliyin inkişafı"[835]

---

[833] "Həyat" qəzeti, 30 noyabr 1905-ci il.
[834] RFDA, fond 102 PDXŞ, 1909, iş 309, vərəq 34; Документы по русской политике в Закавказье, вып. I. Bakı, 1920, səh. 24.
[835] RFDA, fond 102, 4-cü kargüzarlıq, 1908, iş 19, hissə 9, vərəq 7 arxada.

vəzifəsi qoyulmuş, birliyə çağırış ifadə olunmuşdu. Məclis belə hesab edirdi ki, məhz birləşmək onların əmlakının toxunulmazlığının, maddi rifahının, mədəni inkişafının və milli özgünlüyünün qorunub saxlanmasının əsasıdır. Proqramda cəmiyyətin iqtisadi, siyasi və mənəvi həyatı ilə bağlı məsələlərin həllinin partiyanın əlində cəmlənməsi nəzərdə tutulmuşdu. Bu sənəd cəmiyyətin hüquq qaydası və qanunçuluq prinsipləri üzərində yenidən qurulmasının bir növ proqramı oldu və kütlələrin siyasi cəhətdən oyanmasına kömək etdi.

Görkəmli ictimai xadim İ.Ziyadxanov tərəfindən 1907-ci ilin martında yaradılmış "Müdafiə" təşkilatının üzvləri də cəmiyyətdə hüquq qaydasına, xalqın maariflənməsinə və rifahına səy göstərirdilər. Bu təşkilatın möhüründə, buraxdığı çağırış vərəqələrində onun məqsəd və vəzifələri açılıb göstərilirdi - ədalət və biliklər uğrunda mübarizə, əkinçinin mənafelərinin qorunması, habelə çarizmin yerlərdəki administrasiyasının, məmur aparatının həmlələrindən əhalinin müdafiə edilməsi və s.

1911-ci ildə yaranmış "Müsavat" müsəlman demokratik partiyası Azərbaycan xalqının siyasi potensialının sıx birləşməsində mühüm rol oynadı. Partiyaya artıq xalqın mənafeləri uğrunda mübarizə təcrübəsi olan, istər yaxın illərdə, istərsə də perspektiv üçün milli azadlıq hərəkatının məqsədlərini və vəzifələrini müəyyən etməyə qadir olan Azərbaycanın bir sıra fəal ictimai xadimləri başçılıq edirdilər. Nəzərdən keçirdiyimiz dövrdə "Müsavat" yalnız təşəkkül prosesi keçmişdir. Buna baxmayaraq həmin dövrdə də "Müsavat", onun lideri M.Ə.Rəsulzadə Azərbaycanın siyasi həyatında mühüm rol oynamışlar. Bu partiyanın yaranması Azərbaycanda azadlıq hərəkatı üçün mənəvi əhəmiyyət daşıyırdı. Bu xüsusən cəmiyyətin siyasi cəhətdən sıx birləşməsində varisliyin ifadəsi kimi özünü göstərdi, çünki partiyanın üzvlərinin xatırladıqlarına görə, "Difai" partiyası dağıldıqdan sonra onun üzvləri bu partiyaya daxil oldular. Bütün bu siyasi partiyaları vahid məqsəd birləşdirirdi - bütün millətin mənafelərini müdafiə etmək, bərabərliyə, hüquq qaydasına və qanunçuluğa nail olmaq. Partiyalar çar hökuməti tərəfindən təqib olunurdu. Onların üzvləri həbslərə və sürgünlərə məruz qalırdı.

Azərbaycan sahibkarlarının və onların ideoloqlarının mənafelərinin ifadəçiləri öz siyasi təşkilatlarını yaratmaqla yanaşı Rusiyanın bütün müsəlmanlarının siyasi təşkilatı sayılan "İttifaqi-müslimin"in də fəaliyyətində, onun nizamnaməsinin və proqramının tərtib edilməsində çox yaxından iştirak etmişdilər. Təkcə bunu demək kifayətdir ki, İttifaqın proqramını və nizamnaməsini Ə.M.Topçubaşov yazmışdı. Azərbaycanın nümayəndələri Rusiya müsəlmanlarının siyasi qüvvələrinin milli zülmə və hüquqsuzluğa qarşı mübarizədə sıx birləşməsində böyük rol oynamış bu təşkilatın qurultaylarında, müxtəlif komissiyalarının fəaliyyətində yaxından iştirak etmişdilər. Tərkibinə Ə.M.Topçubaşovun da daxil olduğu Müsəlman İttifaqının Mərkəzi Komitəsi Rusiyanın Dövlət Dumasında müsəlman parlament fraksiyasının fəaliyyətinə də

rəhbərlik edirdi. Onun üzvləri Dumaya deputat seçilir, qanun layihələrinin müzakirəsində, proqramın hazırlanmasında iştirak edirdilər. Bu zaman onlar Ümumrusiya müsəlman qurultaylarının qərarlarını rəhbər tuturdular. Bu qərarlardan biri də Dumaya seçkilərdə kadetlərlə birləşmək barədə idi. Onları bu partiyaya cəlb edən ruslaşdırmanın kobud zorakılıq metodlarından və milli zülmdən imtina edilməsi və qeyri-rus xalqlarına məktəbdə, məhkəmədə və zemstvo özünüidarəsində ana dilindən istifadə hüququnun verilməsi barədə kadetlərin irəli sürdükləri şüarlar idi. Kadetlərin proqramı kimi İttifaqın da proqramında konstitusiyalı monarxiya ideyası müdafiə edilmiş[836], dövlət tərəfindən mülkədarlara "ədalətli qiymətlə"[837] haqqı mütləq ödənilmək şərti ilə xüsusi sahibkar torpaqlarının özgəninkiləşdirilməsi barədə kadetlərin tələbi verilmişdi və s.

Kadetlərlə blok belə yaranmış və Rusiyanın Dövlət Dumasında Azərbaycan nümayəndələrinin də üzv olduqları müsəlman parlament fraksiyasının fəaliyyətində özünün kifayət qədər bariz ifadəsini tapmışdı. Təsadüfi deyildir ki, Dumaya gələn kimi Azərbaycan nümayəndələrinə verilən sorğu vərəqində özlərini hansı partiyaya aid etdikləri barədə suala onlar yekdilliklə belə cavab vermişdilər: xalq azadlığı partiyasına, yəni kadetlərə.

XX əsrin əvvəllərinin siyasi tarixinə müraciət mütləqiyyətin böhranının artmasını, köhnəlmiş siyasi sistemin dəyişmiş ictimai-iqtisadi münasibətlərə uyğunsuzluğunu açıb göstərir. Bu dövrdə cəmiyyətin bütün təbəqələrinin mövcud rejimə qarşı müxalifətçilik əhval-ruhiyyəsi artırdı. Hökmranlıq edən hakimiyyət ilə "yuxarı dairələr" arasındakı münaqişələr nəinki Rusiya gerçəkliyinin əsas ziddiyyətlərini əks etdirirdi, həm də hadisələrin inkişafına kifayət qədər əhəmiyyətli dərəcədə təsir göstərirdi. Dövlət Dumasında bu özünü daha aydın büruzə verirdi. İmperiyanın başqa ucqarlarının deputatları kimi Dumanın azərbaycanlı deputatları da bütün xalqın nümayəndələri və onun mənafelərinin əsl ifadəçiləri olduqlarına əmin olaraq ictimai-siyasi münasibətlər sahəsində əsaslı islahatların keçirilməsinə tərəfdar çıxırdılar.

Azərbaycan deputatları milli hüquq bərabərliyi, təhsil, aqrar məsələləri və s. sahələrdə əsaslı dəyişikliklər aparılması tələbini irəli sürürdülər. Çarizm bir daha özünün böyükdövlətçilik, müstəmləkəçilik mahiyyətini nümayiş etdirərək ucqarların xalqlarının ehtiyaclarına məhəl qoymayaraq bu və ya digər islahatların həyata keçirilməsini hər cür ləngidir, bununla da ölkənin sosial-iqtisadi və ictimai inkişafı ilə ömrünü başa vurmuş siyasi quruluşu arasındakı fərqi daha da artırırdı. Digər tərəfdən özünün dəyişməz xəttini - özgə xalqlara heç bir imtiyazlar, heç bir hüquqlar verməmək xəttini həyata keçirməkdə bu cür inadkarlıq göstərilməsi müxalifətçilik əhval-ruhiyyəsinin artmasına kömək edirdi. 1916-cı ildə müsəlman parlament fraksiyası adından çıxışında M.Y.Cəfərov öz səsini hökumətə qarşı

[836] RFDTA, fond 821, siyahı 150, iş 419, vərəqlər 11, 12 arxada.
[837] Yenə orada, vərəq 17.

müxalifətin səsinə qoşaraq tam qətiyyətlə bildirmişdi: "Heç vaxt milli əsarət zülməti indiki azadlıq müharibəsi dövründəki səviyyəyə gəlib çatmamışdır. Heç vaxt mərkəzləşdirilmiş rəhmsiz bürokrat mexanizmi Rusiyanın özgə xalqlarının milli hisslərini bu qədər təhqir etməmiş və indiki qədər onların məişət və mənəvi xüsusiyyətlərini eybəcərləşdirməmişdir"[838].

Rusiyada mütləqiyyət özünün qeyri-məhdud hakimiyyətindən parlament təsisatlarının xeyrinə imtina etməyə məcbur oldu. 1917-ci ilin fevralında çarizmin bütün səlahiyyətləri inqilab tufanının dalğaları ilə süpürülüb atıldı. Azərbaycan xalqının, eləcə də Rusiyanın başqa xalqlarının qarşısında sosial-iqtisadi, siyasi və milli inkişaf üçün geniş perspektivlər açıldı.

Azərbaycanın nümayəndələri Rusiya parlamentarizminin təşəkkülündə və inkişafında iştirak edərək parlament fəaliyyətində qiymətli təcrübə qazandılar. Bu təcrübə onlara səylərini birləşdirərək qısa müddətdə Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa imkan verdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması böyük tarixi əhəmiyyətə malikdir və XX əsrin əvvəllərində Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin qanunauyğun yekunu kimi qiymətləndirilməlidir. Milli azadlıq hərəkatının liderləri müstəqil dövlətçiliyi yaradaraq, onun rəhbər orqanlarına başçılıq edərək dövlət hakimiyyətinin ilk addımlarından uğrunda ardıcıl və inadlı mübarizə apardıqları vəzifələri həyata keçirməyə başladılar. Onlar ilk növbədə vətəndaşlıq haqqında qanun qəbul etdilər, ana dilinin öyrənilməsini tətbiq etdilər və xalq təsərrüfatının bütün sahələri üçün milli kadrların hazırlanmasına başladılar.

[838] Dövlət Duması. IV çağırış: Stenoqrafik hesabatlar. V sessiya: SPb., 1916, sütun 84.

# Mənbələr və ədəbiyyat

## I. Mənbələr


Бакинский настольный календарь на 1907 г. Баку, 1906.

Бакинская современная печать после 17 октября 1905 г. В кн.: Баку, 1907.

Промышленность и торговля г. Баку и его района. Ежегодник.

Баку по переписи 22 октября 1903 года. Баку, 1905.

Баку. Промышленность и торговля города Баку и его района. Ежегодник с адрес-календарем. Баку, 1907.

Всеподданнейший отчет о произведенной в 1905 г., по высочайшему повелению, сенатором Кузьминским ревизии города Баку и Бакинской губернии. Баку, 1905.

Докладная записка выборных бакинских рабочих по вопросу об урегулировании рабочего движения. СПб., 1905.

Документы по русской политике в Закавказье. Вып. I, Баку, 1920.

Кавказский календарь за разные годы. Тифлис, за разные годы.

К 50-летию первой русской революции (Публикация документов). Труды Института истории и философии АН Азерб., т. IX. Баку, 1956.

Листовки бакинских большевиков 1905-1907 гт. Баку, 1955.

Листовки Кавказского Союза РСДРП. 1903-1905 гг. М., 1955.

Материалы по вопросам о введении земских учреждений в Бакинской губернии. Баку., 1909.

Материалы по вопросам о введении земских учреждений в Закавказье, тт. IV, VII. Тифлис. 1910.

Материалы по истории профдвижения бакинских нефтепромышленных рабочих. Вып. I. Баку. 1925.

Монополистический капитал в нефтяной промышленности России 1888-1914 гт. М. -Л., 1961.

Обзор бакинской нефтяной промышленности за 1904 год, тт. I, II. Баку, 1905.

Обзор Бакинской нефтяной промышленности за 1905 год, тт. I, II. Баку, 1905.

Обзор деятельности съезда Бакинских нефтепромышленников по народному образованию за время с 1897 по 1912 гг. Баку, 1913.

Письма И.И.Воронцова-Дашкова Николаю Романову (1905-1915 гг.). В журнале "Красный архив", 1928, т. 1.

Протоколы совещания Бакинских нефтепромышленников, состоявшихся в октябре месяце в 1905 г. в С.-Пет. СПб., 1905.

Рабочее движение в Баку в годы первой русской революции. Документы и материалы. Баку, 1956.

Революция 1905-1907 годов в России. Сборник документов и материалов. В 16-ти томах. М., 1955-1965 гг.

Революционное движение в Дагестане в 1905-1907 гг. Махачкала, 1956 г.
Революция 1905 года в Закавказье. Тифлис, 1926 г.
Революция 1905 года и самодержавие. Сборник документов. М.-Л., 1928.
Социал-демократия Польши и Литвы в революции 1905 г. Сборник документов. М., 1956.
Справочный ежегодник на 1906 год. Вся промышленность Баку и Бакинской губернии на 1906 год. Баку 1906.
Труды XIII очередного съезда нефтепромышленников. Баку, 1899.
Труды XX очередного съезда нефтепромышленников. Баку, 1906.

## II. Dövri mətbuat

"Azərbaycan", qəzet, 1997-1998
"Açıq söz", qəzet, 1915-1917
Бакинские известия", qəzet, 1905-1907
"Бакинский пролетарий", qəzet, 1907-1909
"Бакинский рабочий", qəzet, 1906, 1908
"Баку", qəzet, 1905-1917
"Вперед", qəzet, 1905
"Возрождение", qəzet, 1905-1906
"Девет-коч", qəzet, 1906
"İrşad", qəzet, 1906-1908
"Кавказский рабочий листок", qəzet, 1905
"Каспий", qəzet, 1905-1917
"Красный архив", jurnal, 1933
"Наша жизнь", qəzet, 1904-1906, 1914
"Нефтяное дело", jurnal, 1905-1917
"Новая жизнь", qəzet, 1905
"Новое обозрение", qəzet, 1905
"Образование", jurnal, 1906
"Право", qəzet, 1905
"Прогресс", qəzet, 1907
"Пролетарий", qəzet, 1905
"С.-Петербургские ведомости", qəzet, 1905
"Сын Отечества", qəzet, 1905
"Tərcüman", qəzet, 1905
"Həyat", qəzet, 1905
"Şərqi-rus", qəzet, 1904-1905.

## III. Arxiv sənədləri

### Azərbaycan Dövlət Tarix Arxivi (ADTA)

fond 1, siyahı 1, iş 1507,1509; siyahı 7, vərəq 1.
fond 44, siyahı 1, iş 738; siyahı 2, vərəq 722, 1032.
fond 45, siyahı 1, iş 81; siyahı 2, iş 362.
fond 46, siyahı 1, iş 2, 215, 216, 217, 218, 219, 221, 458; siyahı 2, iş 13,19, 43, 47, 50, 61, 71, 78, 80, 86, 89, 94,104, 120, 157, 215, 249, 292, 400, 402, 440, 456, 467, 480, 522, 600; siyahı 3, iş 11, 272; siyahı 4, iş 65, 66, 82, 84, 91, 169, 182, 233, 253; siyahı 5, iş 40, 501, 504, 506, 511, 513, 514, 516, 558; siyahı 6, iş 447, 681.
fond 50, siyahı 1, iş 157, 165, 167, 170, 173, 174, 179, 190, 192, 194, 201, 259, 260, 276.
fond 62, siyahı 1, iş 47, 59.
fond 132, siyahı 1, vərəq 9.
fond 43, siyahı 29, vərəq 583; siyahı 43-2, iş 784, 785, 797, 807, 809, 810.
fond 169, siyahı 4, hissə 1, iş 139; siyahı 3, iş 69.
fond 185, siyahı 1, iş 57; siyahı 9, iş 170; siyahı 11, iş 73, 75, 77; siyahı 34, iş 48, 1050.
fond 387, siyahı 1, iş 24.
fond 389, siyahı 1, iş 8.
fond 419, siyahı 1, iş 6.
fond 480, siyahı 1, iş 2121.
fond 484, siyahı 1, iş 1, 3, 4, 10 (cild 1), 11 (cild II), 27, 28, 30, 41, 43, 47, 48, 54, 55, 57, 64, 65, 71, 62, 63, 65, 72; siyahı 2, iş 8, 9.
fond 486, siyahı 1, iş 3, 4, cild 1, 4
fond 498, siyahı 1, iş 31, 101, 89.
fond 509, siyahı 1, iş 126, 159, 147, 152, 60, 148, 146; siyahı 2, iş 1, 601, 579, 129, 126, 18, 142, 55, 27.
fond 532, siyahı 1, iş 9, 24, 180.
fond 528, siyahı 1, iş 174.
fond 798, siyahı 1, iş 29, 41, 249, 254, 260, 267, 462, 525, 528, 558, 580, 621, 647, 683, 691, 717, 727, 730, 736, 746, 775, 777, 793, 802, 807, 842, 899, 902, 943; siyahı 4, iş 4.
fond 990, siyahı 1, iş 1, 2; siyahı 3, iş 1; siyahı 4, iş 1, 2.

## Rusiya Federasiyası Dövlət Tarix Arxivi
## (RFDTA)

fond 32, siyahı 1, iş 90; siyahı 2, iş 97, 99, 100, 101, 109.
fond 37, siyahı 58, iş 344; siyahı 66, iş 691, 711, 2360, 729, 645, 721, 583.
fond 40, siyahı 1, iş 59.
fond 150, siyahı 1, iş 266.
fond 560, siyahı 26, iş 467, 497, 31.
fond 776, siyahı 15, 1906, iş 104, 107; siyahı 30, 1907, iş 30; siyahı 22, 1908, iş 22; siyahı 26,1909, iş 85.
fond 821, siyahı 150, iş 419; siyahı 133, iş 419, 461, 469, 525, 540; siyahı 139, iş 34, 103.
fond 857, siyahı 1, iş 116, 117, 220, 261, 1476, 1477, 1478.
fond 919, siyahı 2, iş 861, 874, 875.
fond 1276, siyahı 4, iş 148, 147, 168; siyahı 19, iş 24, 70, 15, 26, 220, 261, 36, 131, 265; siyahı 1, iş 3, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15: 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26: 31, 32, 37, 42, 107, 162, 171, 172; siyahı 2, iş 8, 9a; siyahı 17, iş 335, 636.
fond 1278, siyahı 1, 1906, iş 41, 54, 190, 202, 223-225, 306, 341, 343, 452, 715; 1907, iş 788,1221, 1333.
fond 1282, siyahı 3, iş 663.
fond 1284, siyahı 187, iş 19,125, 234, 83, 16; siyahı 188, iş 40,163, 86; siyahı 194, iş 91, 61, 84, 79, 109, 20, 66,105, 44.
fond 1326, siyahı 6, iş 4, hissə 1.
fond 1358, siyahı 1, iş 153.
fond 1405, siyahı 107, iş 11390, 11789, 11391, 6349, 3461, 11389; siyahı 539, iş 465, 370; siyahı 110, iş 3633.
fond 1410, siyahı 2, iş 453, 482.
fond 1278, siyahı 1, iş 159, 272, 418, 466, 471, 490, 1264.
fond 1458, siyahı 1, iş 237.

## Rusiya Federasiyası Dövlət Arxivi
## (RFDA)

fond 102, PDXŞ, 1905, iş 2540, 2465, 90, 1350, hissə 72, iş 11, hissə iş 80, hissə 38, 999, hissə 1, iş 999, hissə 43, cild 3, iş 1000, hissə iş 1000, hissə 17, iş 1255, hissə 27, iş 1708, iş 1709, iş 1877, hissə 9, iş 1878; iş 13, hissə 3, 1906, iş 9, hissə 70, iş 9, hissə 82, iş 11, hissə 1, 609, 832, 190; II bölmə. iş 716, hissə 11; 1907, iş 9, hissə 3, iş 10, hissə 3, iş 110, iş 588, iş 171, iş 180, iş 171, iş 388, iş 709; 1908, iş 246, 289, 296, 264, 1909, iş 1909, iş 14, 309, 771, 204, 291, 399.

fond 102, 4-cü kargüzarlıq, 1907, iş 19, hissə 3, iş 108, hissə 65, iş 5, hissə 2, cild 2, fond 124, siyahı 43, iş 563, 1117, 1387, 1392, 1396, 2748, 3124, 3260, 3385, 3388, 3389, 3390, 3543, 3551, 3556, 3568, 3582; siyahı; 44, hissə 1, iş 375, 376, 602, 603, 933, 934; siyahı 44, hissə 11, iş 2892, 3044, 3624, 3861, 3872, 3900, 3906; siyahı 45, iş 398 II, 399 II, 400 II, 402 II, 407 II, 408 II, 409 II, ??902II, 1660 II, 621 II, 625, 627, 629, 2089.
fond 523, siyahı 1, iş 22, 1, 423.

## Gürcüstan Dövlət Tarix Arxivi (Gürcüstan DTA)

fond 13, siyahı 27, kitab 1, iş 8, 22, 29, 30, 58, 69, 70, 182, 224, 255, 270, 280, 286, 384, 435, 547, 779, 1048, 1794, 1837, 1841, 2805; siyahı 27, kitab. 3, iş 5104, 5110, 5137, 5146, 5262, 5362, 5364, 5379, 5384, 5395; siyahı 29, iş 1, 8,10,15, 13, 32, 53, 177, 201, 236; fond 83, siyahı 1, iş 1, 4, 5, 20, 32, 33, 37: 62: 64, 65, 73, 79, 81, 92, 93, 97, 194, 195, 196, 198, 201, 207, 225, 229, 232, 245, 253, 296, 303, 357, 385, 394, 400, 401; fond 480, siyahı 1, iş 2102, 2108, 2121, 1906; siyahı 2, iş 14, 111[a], 182, 239, 413, 431, 617, 263, 275.
fond 12, siyahı 2, iş 1038, 1040; siyahı 6, iş 579; siyahı 7, kitab 11, iş 3320, 3325; siyahı 8, iş 1458, 1644, 1755, 1938, 2598, 3046, 3068, 3073; siyahı 9, iş 1558; siyahı 11, iş 54, 256, 308; siyahı 13, iş 250.
fond 14, siyahı 1, iş 2, 6, 12, 13, 23, 24.
fond 17, siyahı 1, kitab 1, iş 5182, 5386; siyahı 2, iş 549.
fond 12, siyahı 13, iş 257, 700.
fond 20, siyahı 1, iş 51, 65, 301.
fond 94, siyahı 1, iş 6, 62, 68, 81, 131, 138, 157, 222, 380, 434, 818, 821, 823, 842.
fond 114, siyahı 4, iş 149, 150, 275, 625, 738, 743; siyahı 2, iş 133, 168, 178,179, 502, 1337, 1904, 2059.
fond 116, siyahı 1, iş 231, 2534, 3423.
fond 115, siyahı 1, iş 526; siyahı 2, iş 201, 417, 422.
fond 113, siyahı 1, iş 2858.
fond 153, siyahı 1, iş 1101, 3213, 3222, 3227, 3341, 3378.
fond 7, siyahı 1, iş 620.
fond 1276, siyahı 1, iş 162.
fond 117, siyahı 2, iş 549.

## Azərbaycan EA Tarix İnstitutunun Elmi Arxivi (TIEA)

fond 1, siyahı 14, iş 5868, iş 940, iş 4047.

## IV. Ədəbiyyat


Авалов З.Д. Национальный вопрос на Кавказе. В журн. "Русская мысль", 1911, № 12.

Аврех А.Я. Столыпин и третья Дума. М., 1968.

Аврех А.Я. Царизм и IV Дума. 1912-1914 гг. М., 1981.

Аврех А.Я. Царизм накануне свержения. М., 1989.

Агамиров М. Из истории борьбы за марксистско-ленинское учение в Азербайджане /1905-1907 гг./. Баку, 1971 г.

Ağamirov M. Birinci rus inqilabı illərində Azərbaycanın ictimai fikrində milli məsələyə dair. Bakı, 1963-cü il.

Азербайджан в годы первой русской революции. Сборник статей. Баку,1966г.

Алексеев А.С. Манифест 17 октября 1905 г. и политическое движение, его вызвавшее. М., 1915 г.

Алексеев С.А. Самодержавие и либералы в революции 1905-1907 гг. М.-Л., 1925 г.

Алибеков И. Елизаветпольские кровавые дни перед судом общества. Тифлис, 1906 г.

Алиев Г.З. Турция в период правления младотурок. М., 1972 г.

Алиева Л.М. Положение рабочих-текстильщиков Баку и их участие в революционном движении накануне и в годы первой русской революции. В кн.: "Азербайджан в годы первой русской революции". Баку, 1966 г.

Алиева Л.М. Рабочие-текстильщики Баку в начале XX в. Баку, 1969 г.

Алисова В. Мусульманский вопрос в России. В журн. "Русская мысль", 1909, № 34.

Анфимов А.М., Волобуев П.В., Гиндин И.Ф. Социально-экономическое развитие России в начале XX в. Глава в кн.: История СССР. Первая серия, т. VI, М., 1968 г.

Араратский В. Подвиги царизма, кровавые дни в Баку, Женева, 1905 г.

Аршаруни А., Габидуллин Х. Очерки панисламизма и пантюркизма в России. Рязань, 1931.

Багирова И.С. Гуммет. Панорама Азербайджана, 1991, № 19, май-ийунь.

Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века 1900-1917. Баку, "Елм", 1997, № 19, май-ийунь.

Бобыкин В.И. Революция 1905-1907 гг. М., 1965 г.

Боровой С.Я. Об экономических связях буржуазной верхушки и царизма в период империализма. Б журн.: "История СССР", 1970, № 2.

Бурабаев М. Распространение идей марксизма-ленинизма в до октябрьском Казахстане. Алма-Ата, 1965 г.

Бурмистрова П.Ю. Национальная политика партии большевиков в первой русской революции 1905-1907 гг. Л., 1962.

Валуев П.Н. Большевики Азербайджана в первой русской революции. Баку, 1963.
Вамбери Г. Культурное движение среди русских татар. СПб., 1912 г.
Вардин И. Политические партии и русская революция. М., 1922.
Vəkilov M. Birinci rus inqilabı və Azərbaycanda mədəni oyanış. "Azərbaycan" jurnalı, № 3, Bakı, 1956.
Vəliyev T.T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. Bakı, 1987.
Выборгский процесс. СПб., 1908.
Hacıyev D.1905-ci il inqilabı və Azərbaycan mədəniyyəti. "S.L.Kirov adına ADU-nun elmi əsərləri" jurnalı, 1955, №10.
Гаджинский Д.Д. В огне революционной борьбы. Баку, 1965 г.
Гасанов И.М. Из истории крестьянского движения в Азербайджане. (О выступлении крестьян сел. Алар Ленкоранского уезда в 1905 году). В журн.: "Вестник архивов Азербайджанской ССР", № 1, Баку, 1963 г.
Галузо П.Г. Аграрные отношения на юге Казахстана в 1867-1914 гг. Алма-Ата, 1965 г.
Генезис капитализма в Закавказье. (Тезисы докладов и научных сообщений). Баку, 1969.
Гиндин И.Ф. Русская буржуазия в период капитализма, ее развитие и особенности. В журн.: "История СССР", 1963: № 2-3.
Горький М. О кавказских событиях. Тифлис, 1936.
Горький А.М. Письмо к Е.П.Пешковой.А кн.: Архив А.М.Горького. М., 1955, т.5.
Горький М. Собрание сочинений в 30-ти томах. М., 1958, т. 23.
Гулиев А.Н., Стригунов И.В. К вопросу о генезисе и развитии капитализма в Азербайджане. В кн.: Генезис капитализма в Закавказье (Тезисы докладов и научных сообщений). Баку, 1969 г.
Гулиев Дж.Б. Борьба Коммунистической партии за осуществление ленинской национальной политики в Азербайджане. Баку, 1970.
Hüseynov İ. İmperializm dövrünün ilk xalq inqilabı. "S.M.Kirov adına ADU-nun elmi əsərləri" jurnalı, 1955, № 10.
Гусейнов М.Д. Тюркская демократическая партия федералистов. "Мусават" в прошлом и настоящем. Тифлис, 1927.
Гусейнов Р. Очерки революционного движения в Азербайджане. Вып. I. Революция 1905-1907 гг. Баку, 1926.
Гусейнова Д.С. Рабочие-моряки (90-е годы XIX в. - 1907 г.). Баку, 1981 г.
Деренковский Г.М., Симонова М.С., Черменский Е.Д. Революция 1905-1907 гг. Глава в кн.: История СССР. Первая серия, т. VI, М., 1968 г.
Думова Н.Г. Кадетская партия в период первой мировой войны и Февральской революции. М., 1988 г.

Дякин В.С. Русская буржуазия и царизм в годы первой мировой войны. 1914-1917 гг. Л., 1967 г.
Ерман Л.К. Интеллигенция в первой русской революции. М., 1966.
Ерманский А. Крупная буржуазия в 1905-1907 гг. В кн.: "Общественное движение в России в начале XX в.", т.II. СПб., 1910.
Ерофеев Н.Д. Народные социалисты в первой русской революции. М., 1979 г.
Əliyev H.Ə. Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz və sarsılmazdır. «Azərbaycan» qəzeti, 8 mart 1998-ci il.
Əliyev H.Ə. Xarici siyasətimizin uğurları böyükdür, ölkəmizin beynəlxalq aləmdə mövqelərini gücləndirməli və möhkəmləndirməliyik. "Azərbaycan" qəzeti, 8 mart 1998-ci il.
Жвания Г. Большевистская печать Закавказья накануне и в период первой русской революции. Тбилиси, 1958 г.
Залевский К. Национальные партии в России. В кн.:"Общественное движение в России в начале XX века", т.III, СПб., 1914 г.
Зейналова К.А. Литературно-публицистическая деятельность М.Шахтахтинского в русской периодической печати. Автореф. канд. дисс. Баку, 1984 г.
Ибрагимов Г. Татары в революции 1905 г. Казань, 1926 г.
Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984 г.
Ибрагимов М.Дж. Предпринимательская деятельность Г.З.Тагиева. Баку, 1990 г.
İbrahimov M.C. Azərbaycanda milli sahibkarlığın yaranması. "İqtisadçı" jurnalı, 1991, № 12.
Ибрагимов З.И. Азербайджан в годы первой русской революции. Глава в кн.: История Азербайджана, т.2, Баку, 1960 г.
Ибрагимов З.И. Революция 1905-1907 гг. в Азербайджане. Баку, 1955 г.
Ибрагимов З.И. Революция 1905-1907 гг. в Азербайджане. В сб.: Революция 1905-1907 гг. в национальных районах России, М., 1955 г.
Ибрагимов З.И. Революция 1905-1907 гг. в Азербайджане и ее особенности. В кн.: Азербайджан в годы первой русской революции. Баку, 1966 г.
Исмаилов М.А. Влияние экономики России на хозяйственное развитие Азербайджана в конце XIX - начале XX вв. Глава в кн.: Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры. Баку, 1955 г.
Исмайлов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX вв. Баку, 1964 г.
Исмайлов М.А. Промышленность Баку в начале XX века. Баку, 1976.
Исмайлов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку, 1982 г.
Исмаилзаде Д.И. Русское крестьянство в Закавказье. М., 1982 г.

Azərbaycan tarixi, 2-ci cild, Bakı, 1960-cı il.
Azərbaycan ədəbiyyatı tarixi, 2-ci cild, Bakı 1960-cı il.
История СССР. Первая серия. т.V. М., 1968; т.XI. М.. 1968 г.
Казиев М.А. Из истории революционной борьбы бакинского пролетариата (1905-1910 гг.). Баку, 1956 г.
Qasımov M.R. Birinci rus inqilabı və "Molla Nəsrəddin" jurnalında onun ideyalarının əksi. Bu kitabda: Azərbaycan EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri, XX cild, 1955-ci il.
Касумов М.Р. Плодотворное влияние первой русской революции на демокра-тиическую интеллигенцию Азербайджана. В журн.: ученые записки АГУ им.С.М.Кирова, № 10, 1955 г.
Коган И.И. Карательные экспедиции 1905-1906 гг. М., 1925 г.
Колесниченко Д.А. Трудовики в период первой российской революции. М., 1985 г.
Кричинский А. Очерки русской политики на окраинах. Баку, 1919 г.
Ларин Ю. Рабочие нефтяного дела. (Из быта и движения 1903-1908 гг.). М., 1909 г.
Ленский З.С. Национальное движение. В кн.: "Общественное движение в России в начале XX века", т. 1, СПб., 1909 г.
Лункевич В.В. Подвиги царизма. Кровавые февральские дни в Баку. Женева, 1905 г.
Львов В. 1905 год в Баку. В журн.: "Новый Восток": № 13-14, 1926 г.
Материалы по истории профдвижения бакинских нефтепромышленных рабочих. Вып 1, Баку, 1925 г.
Маевский В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис, 1915 г.
Мильман А. Как избирались органы самоуправления в дореволюционном Азербайджане. Баку, 1961 г.
Мильман А. Политический строй Азербайджана в XIX - начале XX в. Баку, 1966 г.
Мильман А.Ш. Царский государственный аппарат в борьбе с революционным движением в Азербайджане в годы первой русской революции. В кн.: Азербайджан в годы первой русской революции. Баку, 1966 г.
Мовлаева С.А. Пропаганда русской и азербайджанской культуры на страницах газеты "Каспи" (1881-1917 гг.). Баку, 1983 г.
Мусаев М.А. Некоторые особенности развития внутренной торговли гор. Баку в конце XIX в. В журн. Известия АН Азерб. ССР. Серия экономики. 1968, № 1.

Мусаев М.А. Развитие торговли гор. Баку в период капитализма (1860-1917 гг.). Автореф. диссертации на соискание ученой степени доктора экономических наук. Баку, 1970 г.
Мусаев М.А. Торговля города Баку в XIX в. Баку, 1966 г.
Musayev M.A. XIX əsrin axırlarında Bakı şəhərində ticarətin inkişafı (1883-1900-cü illər). Bakı, 1972-ci il.
Musayev M.A. XX əsrin əvvəllərində Bakı şəhərində ticarət. Bakı, 1975-ci il.
Нариманов Н.Н. Статьи и письма. С кратким биографическим очерком. М., 1925 г.
Nərimanov N.N. Məqalələr və nitqlər. I cild, Bakı, 1971-ci il.
Нариманов Н.Н. Избранные произведения, т. 1. 1890-1917 гг. Баку, 1988 г.
Нафигов Р.И. Формирование и развитие передовой татарской общественно-политической мысли. Казань 1964 г.
Невский В. Январские дни 1905 г. на Кавказе. В журн.: Пролетарская революция. 1924, № 4 (27).
Новиков А. Записки городского головы. СПб., 1905 г.
Нуриева З.А. Позиции национальной буржуазии и промышленности Азербайджана в конце XIX-XX в. Автореф.канд. дисс. Баку, 1987 г.
Общественное движение в России в начале XX века. т. 1, СПб., 1909; т.п, СПб., 1910; т.III, СПб., 1914.
Объединенная научная сессия, посвященная 50-летию I русской революции. Тбилиси, 1955 г.
Оруджев Г. Земская кампания в Азербайджане в 1905 г. В журн.: Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. 1966, № 1.
Очерки истории исторической науки в СССР. т.III. М., 1965, Т.IV, М., 1966.
Очерки истории коммунистических организаций Закавказья, ч. 1, Тбилиси, 1967 г.
Очерки истории Коммунистической партии Азербайджана. Баку, 1963 г.
Павлов М. Думская тактика большевиков в революции 1905-1907гг. Л.,1947г.
Периодическая печать в Азербайджане (1832-1920). Библиография. Составитель Назим Ахундов. Баку, 1987 г.
Политическая жизнь русских мусульман до Февральской революции. Оксфорд, 1987 г.
Пономарев К. Кавказский пролетариат и армяно-татарская война. В журн.: "Образование", СПб., 1906 г.
Пономарев К. Письма из Закавказья. В газ. "Сын Отечества", СПб., 1905 г.
Пясковский А.В. Революция 1905-1907 гг. в России. М., 1966 г.
Пясковский А.В. Революция 1905-1907 гг. в Туркестане. М., 1958.
Раевский А.М.Большевизм и меньшевизм в Баку в 1904-1905 гг. Баку, 1930 г.
Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990-cı il.

Революция 1905-1907 гг. в национальных районах Россини. Сборник статей. М., 1955 г.
Рин Л.А. О совещании с нефтопромышленниками. Баку, 1907 г.
Садыхзаде Р.М. Проникновение английского капитала в нефтяную промышленность Азербайджана (1896-1914 гг.). Автореф. дисс... канд. ист. наук. Баку, 1967 г.
Самедов В.Ю. Распространение марксизма-ленинизма в Азербайджане. ч.II, Баку, 1966 г.
Сидельников С.М. Образование и деятельность первой Государственной думы. М., 1962 г.
Сеидзаде Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978 г.
Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной думе России. Баку, 1991.
Сеф С.Е. Буржуазия в 1905 году. М.Л., 1926 г.
Старосельский В. Кавказская драма. СПб., 1906 г.
Старцев Г.К. Кровавые дни на Кавказе. СПб., 1907 г.
Старцев В.И. Русская буржуазия и самодержавие в 1905-1907 гг. Л., 1977 г.
Стельник Б.Я. Буржуазия Азербайджана и I Государственная дума. В кн.: Социально-экономические и политические предпосылки социалиистической революции в Азербайджане. Баку., 1983.
Стригунов И.В. Из истории формирования бакинского пролетариата (70-90-е годы XIX в.). Баку, 1960.
Стригунов И.В. Формирование бакинского пролетариата (70-90-е годы XIX в.). Диссертация док. ист.наук. Баку, 1965, НАИИ, ф. 1, оп. 4, д. 5886.
Сумбатзаде А.С. Промышленный капитал в Азербайджане. В кн.: Генезис капитализма в Закавказье (Тезисы докладов научных сообщений)". Баку, 1969.
Сумбатзаде А.С. Промышленность Азербайджана XIX в. Баку, 1964.
Сумбатзаде А.С. Социально-экономические предпосылки победы Советской власти в Азербайджане. М., 1972.
Таирзаде Н. К истории народного образования в промыслово-заводском районе Баку в конце XIX - начале XX века. Известия АН Азербайджана, серия истории, философии и права, 1988, № 1.
Туманов Г.М. Итоги недавнего Кавказского управления. СПб., 1905.
Туманов Г.М. К введению земского самоуправления. Тифлис, 1905.
Фролов В.И. Забастовки бакинских нефтепромышленных рабочих в 1907 г. Баку, 1908.
Фролов В.И. Очерк забастовочного движения рабочих бакинского нефтепромышленного района за 1903-1906 гг. Баку., 1907.
Хасанов Х.Х. Революция 1905-1907 гг. в Татарии. М., 1965.

Худиев Р.Н. Социальная сущность партии "Мусават". Журн. Азербайджан. Анкара, 1991.
Черменский Е.Д. Буржуазия и царизм в революции 1905-1907. М., 1939.
Черменский Е.Д. Буржуазия и царизм в первой русской революциии. М., 1970 г.
Черменский Е.Д. Земское либеральное движение накануне революции 1905-1907 гг. В журн. Вопросы истории, 1965, № 5.
Черменский Е.Д. Русская буржуазия осенью 1905 г. В журн. Вопросы истории, 1966, № 6.
Черменский Е.Д. IV Государственная дума и свержение царизма в России. М., 1976.
Шахдин И. Революция 1905 г. в Закавказье. Заккнига, 1930.
Шацилло К.Ф. Русский либерализм накануне революции 1905-1907 гг. М., 1985.
Шелохаев В.В. Кадеты - главная партия либеральной буржуазии в борьбе с революцией 1905-1907 гг. М., 1983.
Шелохаев В.В. Партия октябристов в период первой российской революции. М., 1987.
Шелохаев В.В. Идеология и политическая организация российской либеральной буржуазии. 1907-1914. М., 1991.
Эфендизаде Д.М. Формирование монополистического капитала в торговом судоходстве на Каспийском море. В кн.: Материалы по истории России в период капитализма. М., 1976.
Audrey L. Altstad. The Azerbaijani Turks. Power and identity under Russian Rule. California, 1992.
Baykara H. Azerbaycan Istiklal Mucadelesi tarihi. Istanbul, 1975.
Bennigsen A. Wimbush E. Moslem National Communism in Soviet Union: A revolutionary strategy for the Colonial World. Chicago, London, 1979.
Hajebeily, Jeyhonn Bey. The origins of the national press in Azerbaijan. II. Period of stabilisation, 1905-1910. The Atatic Review vol. XXVII, n. 90; april, 1931.
Hotler, Charle Warren. Turkism and Soviet. London, 1957.
Henry, Jame Dodd. An eventful history. London, 1905.
Mehmetzade M.A. Milli Azerbaycan harekety. Ankara, 1991.
Swietochowsky T. Russian Azerbaijan, 1905-1920; The hping of National Identity in Moslem Community. Cambridge, 1985.
Zenkovsky A. Pan-Turkism and Islam in Russia. Cambridge. 1960.

## MÜNDƏRİCAT

**Giriş** ........................................ 3
**I fəsil. Azərbaycan XIX - XX əsrlərin qovuşuğunda** ........................................ 5
§1. Çarizm siyasəti və Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi vəziyyət ...... 5
§ 2. Azərbaycan iqtisadiyyatında milli kapitalın mövqeyi ........................................ 16
**II fəsil. XX əsrin əvvəllərində Azərbaycanda milli-azadlıq hərəkatı** ............... 33
§ 1. Milli hərəkatda oyanış ........................................ 33
§ 2. Siyasi həyatın mühüm məqamları ........................................ 45
§ 3. İctimai-siyasi təşkilatlar ........................................ 73
**III fəsil. Rusiya Dövlət Duması və Azərbaycan** ........................................ 98
§ 1. Azərbaycan deputatları I və II Dövlət Dumalarında ........................................ 98
§ 2. III və IV Dövlət Dumaları və Azərbaycan ........................................ 124
**Son söz** ........................................ 168
**Mənbələr və ədəbiyyat** ........................................ 174

Общество «Книга»
Азербайджанской Республики

Диляра Сеидзаде

Азербайджан в начале XX века:
путь к независимости»
(на азербайджанском языке)

Баку – 1998

Yığıma verilib 08.05.98.
Çapa imzalanıb 24.09.98.
Format 215x140.
Sifariş 32. Tiraj 500.

**ULDUZ**
POLIGRAPHY SERVICE

Экспериментально-производственное предприятие
Tel: 91-00-23, 91-08-73